AZƏRBAYCAN DİLİ

TƏDRİS DİLİ

8

METODİK VƏSAİT

YEGANƏ HÜSEYNOVA
SAMİRƏ BEKTAŞİ

Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün

AZƏRBAYCAN DİLİ

(tədris dili) fənni üzrə dərsliyin

METODİK VƏSAİTİ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

MÜNDƏRİCAT

Giriş.....3
Azərbaycan dili fənni üzrə məzmun standartları 5
Təlim formaları 7
Azərbaycan dili dərslərində istifadə olunan metod və üsullar 8
Azərbaycan dili fənni üzrə illik planlaşdırma 9
Şagird fəaliyyəti və nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr.....15
Cari planlaşdırma nümunələri.....20
Kiçik summativ qiymətləndirməyə nümunə (KSQ №1) 46
Kiçik summativ qiymətləndirməyə nümunə (KSQ №2) 68
Kiçik summativ qiymətləndirməyə nümunə (KSQ №3) 104
Kiçik summativ qiymətləndirməyə nümunə (KSQ №4) 106
Kiçik summativ qiymətləndirməyə nümunə (KSQ №5) 128
Kiçik summativ qiymətləndirməyə nümunə (KSQ №6) 140
Kiçik summativ qiymətləndirməyə nümunə (KSQ №7) 152
Ümumiləşdirici təkrarlara nümunələr 154
İstifadə olunmuş və müəllimin istifadə edə biləcəyi mənbələr.....160

GİRİŞ

Əziz və hörmətli müəllimlər!

İstifadənizə təqdim edilən dərslik komplekti dərslik və metodik vəsaitdən ibarətdir.

8-ci sinifdə Azərbaycan dili fənninin tədrisi həftədə 3 saat olmaqla 34 həftə üçün nəzərdə tutulmuşdur.

Hər bölmənin sonunda Kiçik Summativ Qiymətləndirmə (KSQ), yarımilin sonunda isə Böyük Summativ Qiymətləndirmə (BSQ) keçirilir.

Dialoqlara və bəzi mətnlərə ad verilməmişdir. Məqsəd odur ki, şagird oxuduğu və öyrəndikləri əsasında özü adlandırmağı bacarsın. Bu, 1.1.2. və 1.2.4. alt standartlarının reallaşmasına xidmət edir.

Bölmələrdə dil qaydalarının tədrisi aşağıdakı ardıcıllığa əsasən müəyyənləşdirilmişdir:

I bölmədə – söz birləşmələri, onların quruluşuna görə növləri, tərəflərin ifadə vasitələrinə görə növləri, ismi və feili birləşmələr; mürəkkəb adlar və onların yazılış qaydaları (Qeyd edək ki, mürəkkəb adların yazılış qaydalarının müxtəlif bölmələrdə kontekstdən çıxış edərək öyrədilməsi nəzərdə tutulmuşdur);

II bölmədə – sintaktik əlaqələr və onların növləri;

III bölmədə – cümlə üzvləri, onların ifadə vasitələri, söz sırası;

IV bölmədə – həmcins üzvlər və əlavələr, onlarda durğu işarələrinin işlənməsi;

V bölmədə – ara sözlər və xitablar, onlarda durğu işarələrinin işlənməsi;

VI bölmədə – söz-cümlələr, cümlənin məqsəd və intonasiyaya, şəxsə görə növləri.

Dərslikdə şagirdlərin şifahi və yazılı nitqin formalaşması, dünyagörüşünün zənginləşdirilməsi məqsədilə verilmiş mətnlər məzmun baxımından altı bölmədə qruplaşdırılmışdır. Mətnlər nitq bacarığını (dinləmə, oxu, danışma, yazı) inkişaf etdirməyə xidmət edir. Linqvistik qaydalar, söz ehtiyatlarının zənginləşdirilməsi də mətnlərlə əlaqədar kompleks şəkildə fəaliyyətə yönəldilir.

Müxtəlif üslubi imkanları nəzərə alaraq hər bölmədə məişət, bədii, elmi və kütləvi mətnlər təqdim olunmuşdur. Mətnlərlə iş elə qurulmuşdur ki, şagirdlər özləri həmin mətnləri müxtəlif formada işləyə bilsinlər. Sadədən mürəkkəbə istiqamətlənən bu tapşırıqlar şagirdlərdə cəmiyyətin müxtəlif sahələrində dil vasitələrindən istifadə vərdişləri formalaşdırır. Dialoqdan faktları seçib elmi-kütləvi mətnin yazılması, mətnin dialoqa çevrilməsi, fakt və ayrı-ayrı materiallardan istifadə edərək mətn, ssenari tərtib olunması, hekayə, inşa, esse yazılması bu qəbildən olan tapşırıqlardır. Dialoqlar (dialoq qurmaq) şagirdlərdə ünsiyyət qurmaq, informasiyanı başqaları ilə bölüşmək vərdişi, dialoqu mətnə çevirmək, alınan informasiyanı yazılı nitqə çevirmək bacarığı formalaşdırır.

Müəllimlər bu tapşırıqlardan yaradıcı şəkildə, sinfin səviyyəsini nəzərə almaqla istifadə edə bilərlər. Həmçinin mətn üzərində iş üçün təqdim olunan "əsas faktları seç", "giriş, əsas hissə, nəticəni müəyyənləşdir", "hər bir abzası bir cümlə ilə ifadə et", "genişləndir", "qısa şərh et", "ideyanı müəyyənləşdir", "mətndən əsas faktları seçmək üçün suallar ver" və s. bu kimi tapşırıqlar da şagirdlərin mətnlə işləmək bacarığını inkişaf etdirməyə və formalaşdırmağa yönəlmişdir.

Bütün dərslər bu istiqamətlərdə qurulur: oxuyub və ya dinləyib-anlama, danışma; söz ehtiyatının zənginləşdirilməsi (lüğətlərlə iş), linqvistik qaydaların yazılı və şifahi nitqə istiqamətləndirilməsi və yazı vərdişlərinin formalaşdırılması.

Daimi debatlar, mühakimələr, müzakirələr faktların düzgün qavranılması, təhlili kimi bacarıqları formalaşdırır. Yəni bacarıqların formalaşdırılması dərs şəraitində sistemli şəkildə inkişaf etdirilməlidir.

Dərslikdə verilmiş tapşırıqlar müxtəlifdir, lakin onların hamısı bir istiqamətə yönəlir.

Şagirdin Azərbaycan ədəbi dilini mükəmməl şəkildə öyrənməsində və bu istiqamətdə özündə lazımi bacarıqları inkişaf etdirərək formalaşdırmasında müəllimin rolu danılmazdır. Müəllim öz üzərinə düşən vəzifə borcunu sinfin, şagirdin səviyyəsini nəzərə almaqla yerinə yetirməlidir.

Azərbaycan ədəbi dilinin öyrənilməsində leksik müzakirələrin aparılması, orfoepik və orfoqrafik qaydalar üzərində ardıcıl iş müstəsna rol oynayır. Ona görə də çalışmışıq ki, dərslikdə və MV-də bu istiqamətdə lazımi səviyyədə iş aparılsın.

Metodik vəsaitdə aşağıdakı materiallar öz əksini tapmışdır:

1) 8-ci sinif Azərbaycan dili fənni üzrə məzmun standartları;
2) Təlim formaları;
3) Azərbaycan dili dərsinin təşkilində istifadə olunan metod və üsullar;
4) Azərbaycan dili fənni üzrə illik planlaşdırma cədvəli;
5) Şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr;
6) KSQ nümunələri;
7) Şagirdlərin öyrənmə tərzi;
8) Cari planlaşdırma nümunələri;
9) İstifadə olunmuş və müəllimin istifadə edə biləcəyi mənbələr.

AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

8-ci sinif

8-ci sinfin sonunda şagird:

- dinlədiyi fikrin məntiqiliyini əsaslandırır;
- müxtəlif mövqeli fikirləri ümumiləşdirir;
- mətndəki tanış olmayan söz və ifadələrin mənasını şərh edir;
- hissələri arasında əlaqələri gözləməklə mətni oxuyur;
- mətndəki fakt və hadisələri real həyatla müqayisə edir və əlaqələndirir;
- müxtəlif tipli (nəqli, təsviri, mühakimə) yazılar yazır;
- müxtəlif əməli yazılar (arayış, protokol) yazır;
- sözün sintaktik vəzifəsini və sadə cümlənin növünü müəyyənləşdirir;
- cümlədə durğu işarəsi və orfoqrafiya qaydalarına əməl edir.

Məzmun xətləri üzrə əsas və alt standartlar

1. Dinləyib-anlama və danışma
Şagird:

1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.

1.1.1. Suallar verməklə dinlədiyi fakt və hadisələr barədə özünün fikir və mülahizələrini dəqiqləşdirir.

1.1.2. Dinlədiyi fikrin məntiqiliyini əsaslandırır.

1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.

1.2.1. Auditoriyanın səviyyəsinə uyğun ifadə forması seçir.

1.2.2. Əlavə materiallardan istifadə etməklə nitqini zənginləşdirir.

1.2.3. Nitq etiketlərindən məqamında istifadə edir.

1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif mövqeli fikirləri ümumiləşdirir.

2. Oxu
Şagird:

2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.

2.1.1. Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir.

2.1.2. Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını nümunələrlə şərh edir.

2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.

2.2.1. Söz sırasını, cümlələr və abzaslar arasında əlaqəni gözləməklə mətni oxuyur.

2.2.2. Mətnin hissələri arasında əlaqəni şərh edir.

2.2.3. Mətndəki fakt və hadisələri real həyatla müqayisə edir və əlaqələndirir.

3. Yazı

Şagird:

3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.

3.1.1. Mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır.

3.1.2. Sitatlardan istifadə etməklə fikir və mülahizələrini qüvvətləndirir.

3.1.3. Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazıya düzəlişlər edir.

3.1.4. Müxtəlif əməli yazılar (arayış, protokol) yazır.

4. Dil qaydaları

Şagird:

4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.

4.1.1. Sadə cümlənin növlərini fərqləndirir.

4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.

4.1.3. Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələrindən istifadə edir.

4.1.4. Həmcins üzvlərdə şəkilçilərin yazılış qaydalarına əməl edir.

TƏLİM FORMALARI

Yəqin ki, məktəb təcrübəsindən də bilirsiniz ki, şagirdlər, xüsusən də yeniyetmələr yalnız kitab və müəllimin şərhi ilə kifayətlənmir, özü düşünməyə, axtarmağa, tədqiqatçılığa meyil göstərirlər. Elə bu baxımdan artıq ənənəvi üsullarla keçilən dərs yeniyetmə şagirdlər üçün maraq doğurmur. Bu cür dərslərdə onlar müəllimi dinləməkdənsə, özləri tədqiqat aparmağa üstünlük verirlər. Yaradıcı müəllimlər bunu nəzərə alaraq müəyyən strategiya müəyyənləşdirir, şagirdləri üçün elə bir mühit yaratmağa çalışırlar ki, onlar axtarış apararaq öyrənsinlər.

Bu axtarışı onlar kollektiv, qruplarla, cütlərlə və fərdi qaydada apara bilərlər. Bu təlim formaları müəllim tərəfindən dərsin məqsədinə uyğun olaraq müəyyənləşdirilir və şagirdlərin fəaliyyətləri bu forma üzərində qurulur.

Kollektivlə iş zamanı kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsi qoyulur.

Qruplarla iş müəyyən problemi həll etmək üçün daha əlverişlidir. Bu zaman şagirdlərdə müzakirə etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək və əməkdaşlıq etmək bacarıqları inkişaf etdirilir.

Cütlərlə iş – şagirdlərə daha yaxından əməkdaşlıq etməyə və ünsiyyət qurmağa, məsuliyyəti bölüşməyə imkan yaradır. Lakin bu əməkdaşlığın əhatə dairəsi çox azdır. Bu formadan daha çox bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsində və lüğət üzərində iş apararkən istifadə etmək məqsədəuyğundur.

Fərdi iş zamanı şagirdin sərbəst düşünməsi üçün real imkanlar yaranır. Müəllim şagirdin fəaliyyətini tam obyektiv qiymətləndirə bilir.

Nəzərə almaq lazımdır ki, təlim formalarından istifadə edərkən dərsin məqsədləri nəzərə alınmalıdır.

Müəllim uyğun bildiyi və burada öz əksini tapmayan, eləcə də şəxsi təcrübə və peşəkarlığından irəli gələn üsul və metodlardan istifadə edə bilər. Yeri gəlmişkən, metod və üsullar seçilərkən müəllim sinfin, şagirdin yaş, bilik və bacarıq səviyyəsini nəzərə almalıdır. Eyni zamanda diqqət yetirilməlidir ki, seçilən metod və üsullar standartın reallaşmasına tam xidmət etsin. Bunun üçün də müəllim dərsini düzgün planlaşdırmağı bacarmalıdır.

AZƏRBAYCAN DİLİ DƏRSİNİN TƏŞKİLİNDƏ İSTİFADƏ OLUNAN METOD VƏ ÜSULLAR

İnteqrativ təlim mühüm pedaqoji problem kimi müasir dünyagörüşlü, fəal, yaradıcı, problemlərin həlli və müstəqil qərarlar qəbul etmək üçün zəruri təhsil səviyyəsinə və bacarıqlara malik şəxsiyyət formalaşdırılması vəzifəsinin ön plana çıxdığı hazırkı dövrdə xüsusi aktuallıq kəsb edir. Bu problemin tədqiqi və həlli təkcə Azərbaycan dili tədrisinin elmi, nəzəri əsaslarının inkişafı üçün deyil, müəllimlərin praktik fəaliyyəti üçün də böyük əhəmiyyətə malikdir.

İnteraktiv metodlar biliyin şagirdə hazır formada verilməsini nəzərdə tutmur. Bu metod biliyin şagirdin özünün fərdi və ya qrup şəklində axtarıb-tapma bacarığının formalaşmasında əsas rol oynayır. Müəllim təlim prosesində daha çox təşkiledici, əlaqələndirici, istiqamətverici, şagirdlər isə təcrübəçi, tədqiqatçı, yaradıcı kimi fəaliyyət göstərirlər.

Azərbaycan dili dərslərində qaldırılan problemlərin həlli yolları üzərində düşünən şagirdə *Əqli hücum, Söz assosiasiyaları, Müzakirə, Debatlar, Sual-cavab, Layihələr, BİBÖ, Venn diaqramı, Şaxələndirmə, Auksion, Fasilələrlə oxu, Proqnozlaşdırılmış oxu, İstiqamətləndirilmiş oxu, Ziqzaq üsulu ilə oxu, Qərarlar ağacı* və s. interaktiv metod və priyomlardan istifadə etməyi təklif etmək daha məqsədəuyğundur. Bu üsulların çoxu ilə müəllim və şagird artıq aşağı siniflərdən işləməyi öyrənmişdir.

Layihələr

Bu dərs ilində şagirdlərə iki layihə təqdim olunur:

1) Qəzet hazırlamaq;

2) Kompleks lüğət hazırlamaq.

Şagirdlərin arzu və istəklərinə, xüsusən də bacarıqlarına əsasən sinfi qruplara bölüb, hər qrupa bir layihəni tapşırmaq daha məqsədəuyğundur.

Hər bölmədə təqdim edilən sözlər onların leksik və qrammatik mənalarının, vurğularının düzgün tələffüzünün müəyyənləşdirilməsi son səhifədə nümunə kimi təqdim olunan kompleks lüğətin yaranmasına səbəb olacaq.

İl ərzində yazılan məqalələr, şərhlər, müsahibələr və s. şagirdlər tərəfindən qəzetin müvafiq səhifəsində yerləşdirilir.

Layihələrin hazırlanmasında məqsəd şagirdlərin məlumat toplamaq, sistemləşdirmək, təqdim etmək bacarığını formalaşdırmaq, məntiqi, tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirməkdir.

AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ İLLİK PLANLAŞDIRMA

I BÖLMƏ. Bilik xəzinədir (söz birləşmələri)

Sıra №	Mövzular	Saat	Tarix	Məzmun standartları	Resurslar
1.	Dialoq	1		1.2.1., 1.2.3., 2.1.1., 3.1.1.	dərslik, lüğət
2.	Dialoq	1		1.2.4., 3.1.1., 4.1.2.	dərslik, lüğət
3.	Qori seminariyasında Azərbaycan şöbəsi necə açıldı	1		1.1.1., 1.1.2., 2.1.1., 2.1.2., 2.2.3., 3.1.3.	dərslik, lüğət
4.	Qori seminariyasında Azərbaycan şöbəsi necə açıldı	1		3.1.1., 4.1.2.	dərslik, lüğət
5.	Yaxşılıq itmir	1		1.1.2., 1.2.1., 1.2.4., 2.1.1., 3.1.1.	dərslik, lüğət
6.	Yaxşılıq itmir	1		1.1.1., 4.1.2.	dərslik, lüğət
7.	Ana dili	1		1.1.2., 1.2.2., 2.1.2., 3.1.1.	dərslik, lüğət
8.	Ana dili	1		1.1.2., 2.2.1.	dərslik, lüğət
9.	Mədinə xanım Qiyasbəyli	1		1.1.1., 2.1.1., 2.2.1., 2.2.3., 3.1.1., 3.1.3.	dərslik, lüğət
10.	Mədinə xanım Qiyasbəyli	1		1.1.1., 1.2.2., 3.1.1.	dərslik, lüğət
11.	Mücrü	1		1.1.2., 1.2.4., 3.1.3.	dərslik, lüğət
12.	Mücrü	1		1.1.1., 3.1.1.	dərslik, lüğət
13.	Bəxt, ağıl və zəhmət	1		1.1.1., 1.2.1., 1.2.4., 2.1.1., 3.1.3.	dərslik, lüğət
14.	Bəxt, ağıl və zəhmət	1		1.1.2., 3.1.1., 4.1.2.	dərslik, lüğət
15.	KSQ	1			

II BÖLMƏ. Tarixin daş yaddaşı (sintaktik əlaqələr)

Sıra №	Mövzular	Saat	Tarix	Məzmun standartları	Resurslar
1.	Dialoq	1		1.1.2., 1.2.1., 1.2.3., 2.1.1., 2.1.2., 2.2.3.	dərslik, lüğət
2.	Dialoq	1		1.1.2., 3.1.3., 4.1.2.	dərslik, lüğət
3.	Dialoq	1		1.1.2., 2.2.2., 3.1.1.	dərslik, lüğət
4.	Niyazi	1		1.1.2., 1.2.2., 2.1.1., 3.1.3.	dərslik, lüğət
5.	Niyazi	1		1.2.4., 3.1.4., 4.1.2.	dərslik, lüğət
6.	Muğan	1		1.2.4., 2.1.1., 2.1.2., 2.2.1., 2.2.2., 3.1.1.	dərslik, lüğət
7.	Muğan	1		1.2.4., 3.1.2., 4.1.2.	dərslik, lüğət
8.	Gülüstan	1		1.1.2., 1.2.1., 1.2.4., 2.1.2., 3.1.1.	dərslik, lüğət
9.	Gülüstan	1		1.1.2., 1.2.1., 2.1.2., 2.2.1., 4.1.2.	dərslik, lüğət
10.	Zivər bəy Əhmədbəyov	1		1.1.1., 1.2.1., 2.1.1., 2.2.2., 3.1.1.	dərslik, lüğət
11.	Protokol	1		3.1.4.	dərslik, lüğət
12.	Layihələr üzrə iş	1			
13.	Ümumiləşdirici təkrar	1			
14.	KSQ	1			

III BÖLMƏ. Milli-mənəvi dəyərlərimiz (cümlə üzvləri)

Sıra №	Mövzular	Saat	Tarix	Məzmun standartları	Resurslar
1.	Dialoq	1		1.1.2., 1.2.1., 1.2.4., 2.1.1.	dərslik, lüğət
2.	Dialoq	1		1.1.2., 1.2.1., 1.2.3., 1.2.4., 2.2.3., 3.1.3.	dərslik, lüğət
3.	Dialoq	1		1.1.2., 1.2.4., 3.1.2., 4.1.2.	dərslik, lüğət
4.	Duyğular adası	1		1.1.2., 1.2.4., 2.1.1., 2.2.1., 2.2.3., 3.1.1.	dərslik, lüğət
5.	Duyğular adası	1		1.1.2., 3.1.1., 3.1.2., 4.1.2.	dərslik, lüğət
6.	Səhəng içində nə varsa, onu sızdırar	1		1.1.2., 1.2.1., 1.2.4., 3.1.1.	dərslik, lüğət

7.	Səhəng içində nə varsa, onu sızdırar	1		1.1.2., 4.1.2.	dərslik, lüğət
8.	Mətn	1		1.1.1., 1.1.2., 2.1.1., 2.1.2., 2.2.2., 2.2.3.	dərslik, lüğət
9.	Mətn	1		1.1.2., 3.1.1., 4.1.2.	dərslik, lüğət
10.	Zəhər	1		1.1.1., 1.2.4., 2.1.1., 2.2.1., 2.2.3., 3.1.2.	dərslik, lüğət
11.	Zəhər	1		1.1.2., 3.1.2., 4.1.2.	dərslik, lüğət
12.	Qaranquşların ömrü 6 aydır	1		1.1.2., 1.2.1., 1.2.2., 1.2.4., 2.1.1., 3.1.2.	dərslik, lüğət
13.	Qaranquşların ömrü 6 aydır	1		1.1.2., 3.1.1., 4.1.2.	dərslik, lüğət
14.	Həmrəyliyimiz əbədidir	1		1.1.1., 1.2.1., 2.1.1., 2.2.3., 3.1.2., 3.1.3.	dərslik, lüğət
15.	İnanılmaz tarixi fakt	1		1.1.2., 1.2.4., 2.2.1., 2.2.2., 3.1.2.	dərslik, lüğət
16.	İnanılmaz tarixi fakt	1		1.1.2., 3.1.1., 4.1.2.	dərslik, lüğət
17.	Sədaqət	1		1.1.2., 1.2.1., 1.2.3., 1.2.4., 2.1.1., 3.1.3.	dərslik, lüğət
18.	Sədaqət	1		1.1.2., 3.1.1., 4.1.2.	dərslik, lüğət
19.	Hekayət	1		1.1.1., 1.1.2., 1.2.2., 2.1.2., 2.2.1., 3.1.1.	dərslik, lüğət
20.	Hekayət	2		1.1.2., 1.2.3., 4.1.2.	dərslik, lüğət
21.	Tariximizin şanlı səhifəsi	1		1.2.1., 1.2.2., 3.1.1.	dərslik, lüğət
22.	KSQ	1			
23.	BSQ	1			
24.	Qırxıncı fəndi bu günə saxlamışdım	1		1.1.1., 1.1.2., 2.1.1., 2.2.1., 3.1.1.	dərslik, lüğət
25.	Qırxıncı fəndi bu günə saxlamışdım	1		1.1.2., 4.1.2.	dərslik, lüğət
26.	Qədim türklərdə tərbiyə	1		1.1.2., 1.2.3., 2.1.1., 2.2.1., 3.1.1.	dərslik, lüğət
27-28.	Qədim türklərdə tərbiyə	2		1.1.2., 4.1.2.	dərslik, lüğət
29.	Yolun sonu	1		1.1.2., 1.2.1., 1.2.4., 2.1.1.	dərslik, lüğət
30.	Yolun sonu	1		3.1.1., 4.1.2.	dərslik, lüğət
31.	Nar dənəsi	1		1.1.2., 1.2.1., 1.2.2., 3.1.1.	dərslik, lüğət
32.	Ümumiləşdirici təkrar	1			
33.	KSQ	1			

IV BÖLMƏ. Şəxsiyyətlər (əlavə, həmcins üzvlər)

Sıra №	Mövzular	Saat	Tarix	Məzmun standartları	Resurslar
1.	Dialoq	1		1.1.1., 1.1.2., 2.1.1., 2.2.1., 3.1.1.	dərslik, lüğət
2.	Dialoq	1		1.2.1., 1.2.4., 3.1.3., 4.1.3.	dərslik, lüğət
3.	Hüseynqulu Sarabskinin xatirələri	1		1.1.1., 1.1.2., 1.2.3., 1.2.4., 2.1.1., 2.2.1., 3.1.1.	dərslik, lüğət
4.	Hüseynqulu Sarabskinin xatirələri	1		1.2.2., 2.2.3., 4.1.3.	dərslik, lüğət
5.	Vaqif obrazından başlanan səhnə uğuru	1		1.1.1., 1.2.1., 2.1.1., 2.2.2., 3.1.1., 3.1.3.	dərslik, lüğət
6.	Vaqif obrazından başlanan səhnə uğuru	1		1.2.4., 3.1.1., 4.1.3.	dərslik, lüğət
7.	Vaqif obrazından başlanan səhnə uğuru	1		1.2.4., 3.1.1., 4.1.3.	dərslik, lüğət
8.	İlk aktrisamız kimdir?	1		1.1.2., 1.2.1., 1.2.2., 1.2.3., 2.1.1., 2.2.3.	dərslik, lüğət
9.	İlk aktrisamız kimdir?	1		1.2.4., 4.1.3.	dərslik, lüğət
10.	“Evrika”	1		1.2.2., 2.1.1., 2.1.2.	dərslik, lüğət
11.	“Evrika”	1		1.2.4., 4.1.4.	dərslik, lüğət
12.	Oqtay Eloğlu	1		1.1.2., 1.2.4., 2.2.1., 2.2.3.	dərslik, lüğət
13.	Oqtay Eloğlu	1		4.1.4.	dərslik, lüğət
14.	Novruz bayramı	1		1.1.1., 1.1.2., 1.2.2., 3.1.1.	dərslik, lüğət
15.	Ümumiləşdirici təkrar	1			
16.	KSQ	1			

V BÖLMƏ. Mətbuat: dünən və bu gün (xitab və ara sözlər)

Sıra №	Mövzular	Saat	Tarix	Məzmun standartları	Resurslar
1.	Dialoq	1		1.1.1., 1.1.2., 1.2.4., 2.1.1.	dərslik, lüğət
2.	Dialoq	1		1.2.4., 3.1.2., 4.1.2.	dərslik, lüğət
3.	Əhvalpürsanlıq	1		1.1.1., 1.2.1., 1.2.4., 2.1.1., 4.1.3.	dərslik, lüğət
4.	Nitq mədəniyyəti (praktik iş)	1		1.2.1., 1.2.2., 3.1.2.	dərslik, lüğət
5.	Nitq mədəniyyəti (praktik iş)	1		1.2.1., 1.2.2., 3.1.2.	dərslik, lüğət
6.	“Molla Nəsrəddin”ə gedən yol	1		1.1.1., 2.1.1., 2.2.2., 3.1.1.	dərslik, lüğət
7.	“Molla Nəsrəddin”ə gedən yol	1		4.1.2., 4.1.3.	dərslik, lüğət
8.	Yalançı “Xortdan”	1		1.1.2., 1.2.1., 2.1.1., 2.2.3., 3.1.1., 4.1.3.	dərslik, lüğət
9.	İlk redaktor. O kim imiş?	1		1.1.1., 1.1.2., 1.2.4., 2.1.2., 4.1.3.	dərslik, lüğət
10.	KSQ	1			

VI BÖLMƏ. Sənət dünyasına səyahət (cümlənin şəxsə görə növləri)

Sıra №	Mövzular	Saat	Tarix	Məzmun standartları	Resurslar
1.	Dialoq	1		1.1.2., 1.2.1., 1.2.3., 1.2.4., 2.1.2., 3.1.1.	dərslik, lüğət
2.	Dialoq	1		1.1.2., 3.1.4., 4.1.1., 4.1.3.	dərslik, lüğət
3.	Hacı Zeynalabdin Şirvani	1		1.1.2., 2.1.2., 2.2.2., 3.1.1., 3.1.3.	dərslik, lüğət
4.	Hacı Zeynalabdin Şirvani	1		4.1.1., 4.1.2.	dərslik, lüğət
5.	Mahmud Kaşğari	1		1.1.2., 1.2.1., 1.2.4., 2.1.1., 2.2.1.	dərslik, lüğət
6.	Mahmud Kaşğari	1		1.1.2., 4.1.1., 4.1.2.	dərslik, lüğət
7.	Qurban Səidin gizli qalmış ömrü	1		1.1.2., 1.2.1., 2.1.2., 2.2.1., 2.2.2., 3.1.1.	dərslik, lüğət
8.	Qurban Səidin gizli qalmış ömrü	1		4.1.1., 4.1.2.	dərslik, lüğət
9.	Fərhəng Hüseynov	1		1.1.2., 1.2.1., 2.1.2., 2.2.2., 3.1.1., 3.1.3.	dərslik, lüğət
10.	Fərhəng Hüseynov	1		4.1.1., 4.1.2.	dərslik, lüğət
11.	İnşa	1		3.1.2., 3.1.3.	
12.	Ümumiləşdirici təkrar (5-6-cı bölmələrə dair)	1			
13.	KSQ	1			
14.	BSQ	1			

ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR TÖVSİYƏLƏR

Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn və onu idarə edən vacib amildir.

Məktəbdaxili qiymətləndirmə diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi), formativ (fəaliyyətin qiymətləndirilməsi), summativ (kiçik, böyük və yekun olaraq nailiyyətin qiymətləndirilməsi) qiymətləndirmələrdən ibarətdir.

Diaqnostik qiymətləndirmə sizin öz təlim strategiyanızı müəyyənləşdirmənizə xidmət edir. Bir qayda olaraq, təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqları, eyni zamanda şagird bir ümumi təhsil müəssisəsindən digərinə gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır.

Diaqnostik qiymətləndirmənin aparılması üçün aşağıdakı üsul və vasitələrdən istifadə edə bilərsiniz:

Üsullar	Vasitələr
Tapşırıqvermə	Çalışmalar
Müsahibə (şifahi yoxlama)	Müəllimin qeydiyyat vərəqi (şagirdlə, müvafiq hallarda qrup, yaxud siniflə aparılan şifahi yoxlama zamanı müəllimin öyrənmək (diaqnoz qoymaq) istədiyi məsələnin yazıldığı vərəq)
Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq	Söhbət və müəllimin sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq)
Söhbət	Şifahi söhbət
Müşahidə	Gündəlik müşahidə

Bu qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, yazılı qeydlər sinif və şagird portfoliosunda saxlanılır, nəticələr barədə valideynlər, sinif rəhbəri və digər fənn müəllimləri məlumatlandırılır.

Formativ qiymətləndirmə qəbul edilmiş standartların reallaşmasına istiqamətlənən irəliləyişlərin monitorinqi sinifdə hər bir şagirdin inkişafının hərəkətverici amilinə, təlimin həlledici komponentinə çevrilir. Müəllim belə monitorinq vasitəsilə tədris prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək onlara əlavə köməklik göstərir. Bu qiymətləndirmə fənni tədris edən müəllim tərəfindən məzmun standart-

larından irəli gələn təlim məqsədləri əsasında hazırlanmış meyarlar üzrə dərs ili ərzində müntəzəm olaraq aparılır.

Bir məzmun standartı dərslikdəki bir neçə mövzuda reallaşdığına görə həmin standartlardan çıxan qiymətləndirmə meyarları növbəti müvafiq dərslərdə də istifadə edilir. Qiymətləndirmə meyarları əsasında şagirdlərin müşahidə oluna biləcək fəaliyyəti 4 səviyyə olmaqla qruplaşdırılır.

Məsələn:

Standart: 1.2.3. Nitq etiketlərindən məqamında istifadə edir.

Qiymətləndirmə meyarı:

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Nitq etiketlərindən istifadə etməyi bacarmır.	Nitq etiketlərindən çətinliklə istifadə edir.	Nitq etiketlərindən istifadə edir.	Nitq etiketlərindən məqamına uyğun istifadə edir.

Formativ qiymətləndirmənin aparılması üçün aşağıdakı üsul və vasitələrdən istifadə edə bilərsiniz (vəsaitin əvvəlki bölmələrində formativ qiymətləndirmə rubrikləri verildiyi üçün son bölmələrdə onların təkrar verilməsi məqsədəuyğun hesab edilmişdir):

Üsullar	Vasitələr
Tapşırıqvermə	Çalışmalar
Müşahidə	Müşahidə vərəqləri
Şifahi sual-cavab	Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi
Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq	Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq)
Layihə	Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli
Rubrik	Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası
Şifahi və yazılı təqdimat	Meyar cədvəli
Test	Test tapşırıqları
Özünüqiymətləndirmə	Özünüqiymətləndirmə vərəqləri

ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ

Bu qiymətləndirmə fərdi qiymətləndirmədir. Dərsin sonunda hər bir şagird öz fəaliyyətini bu cədvələ əsasən qiymətləndirə bilər.

Tapşırığı tam və düzgün yerinə yetirdim	Dərsdə diqqətli idim	Məntiqli yanaşmam var idi	Sual-cavabda aktiv idim	Əməkdaşlıq etdim	Etiket qaydalarına riayət etdim

CÜTLƏRLƏ İŞ ZAMANI QİYMƏTLƏNDİRMƏ

Bu qiymətləndirmədən cütlərlə iş zamanı istifadə etmək olar. Dərsin sonunda cütlərə aşağıda göstərilən cədvəl paylanılır. Bu cədvəldən istifadə etməklə hər bir şagird həm özünün, həm də yoldaşının fəaliyyətini qiymətləndirə bilər.

Cütlərdə işləyən şagirdlərin adı	Fəallıq səviyyəsi (zəif, orta, yüksək)	Əməkdaşlıq-etmə	Qaydalara əməl olunması	Tapşırığın icrası zamanı müzakirə-etmə	Ümumi rəyə gəlmə
Nərmin					
Uğur					

QRUP İŞLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Qruplarla işin qiymətləndirilməsi üçün meyar cədvəli hazırlanır. Qrupların fəaliyyətini aşağıdakı meyarlara əsasən qiymətləndirmək olar.

Meyarlar	I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Tapşırığın düzgün yerinə yetirilməsi				
Tərtibat				
Təqdimetmə				
Əməkdaşlıq				

Yekun (summativ) qiymətləndirmə standartların mənimsənilməsi istiqamətində şagirdlərin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə il ərzində bəhs və ya bölmələrin, həm də tədris ilinin sonunda qiymətləndirmə standartlarına əsasən həyata keçirilir. Summativ qiymətləndirmənin nəticələri rəsmidir və keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Summativ qiymətləndirmənin aparılması üçün yalnız test üsuluna üstünlük verməməli, aşağıdakı üsul və vasitələrdən də istifadə olunmalıdır:

Üsullar	Vasitələr
Yoxlama yazı işləri	Yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi
Layihə	Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli
Şifahi sorğu	Şifahi sorğu üzrə qeydiyyat vərəqi
Test	Test tapşırıqları
Tapşırıqvermə	Tapşırıq, çalışma və laboratoriya işləri
Yaradıcılıq və əl işləri	Fənlərə müvafiq olaraq rəsmlər, hazırlanan məmulatlar və digər əl işləri

Kiçik summativ qiymətləndirmənin keçirildiyi gün dərsdə iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısındakı xananı diaqonalla 2 yerə ayırmalı və onun surətində "q" (qaib) yazıb, məxrəci isə boş saxlamalısınız. Növbəti 2 həftə ərzində kiçik summativ qiymətləndirmə aparıb, nəticəsi məxrəcdə qeyd edilməlidir.

Şagirdin yarımillik qiyməti kiçik summativ (yarımillik ərzində keçirilən) qiymətləndirmənin nəticələri 40%, böyük summativ (yarımillik sonunda keçirilən) qiymətləndirmənin nəticələri 60% hesab olunmaqla aşağıdakı düstur əsasında çıxarılır:

$$Y = \frac{ksq_1 + ksq_2 + \ldots + ksq_n}{n} \cdot \frac{40}{100} + BSQ \cdot \frac{60}{100}$$

Burada Y – şagirdin I və ya II yarımil üzrə qiymətini, ksq_1, ksq_2, ..., ksq_n – şagirdin müvafiq yarımil ərzində kiçik summativ qiymətləndirmələrinin nəticələrini, n – müvafiq yarımildə keçirilən kiçik summativ qiymətləndirmələrin sayını, BSQ isə I və II yarımildə keçirilən böyük summativ qiymətləndirmənin nəticəsini bildirir.

ŞAGİRDLƏRİN ÖYRƏNMƏ TƏRZİ

Qeyd etdiyimiz kimi, illik planlaşdırma aparılarkən məktəbin imkanları ilə yanaşı, şagirdlərin yaş xüsusiyyətlərinin, öyrənmə tərzlərinin də nəzərə alınması vacibdir. Bir sinifdə müxtəlif yollarla öyrənə bilən şagirdlər vardır. Müasir dərsdə müxtəlif təlim üsul və formalarından istifadə etmək vacibdir. Lakin bəzən öz öyrənmə tərzinizə üstünlük verməniz sinfinizdəki digər yollarla öyrənən şagirdləriniz üçün məqsədəuyğun olmaya bilər. Bunun üçün sizə ən çox üstünlük verilən öyrənmə tərzləri ilə bağlı qısaca məlumat vermək istərdik:

Əyani öyrənmə tərzinə malik olanlar şəkillər, diaqramlar, nümayişlər, paylama materialları, filmlər, flipçartlar və s. daxil olmaqla görünən və ya müşahidə olunan vasitələrlə daha rahat öyrənirlər. Hər hansı bir tapşırığı yerinə yetirmək üçün ya təlimatı özü oxumalı, ya da yoldaşlarından birinin həmin təlimatı icra etməsini izləməsi vacibdir. Yalnız bundan sonra o, tapşırığı yerinə yetirə bilər.

Eşidərək öyrənmə tərzinə malik olanlar məlumatın dinləmə yolu ilə ötürülməsinə üstünlük verir. İstənilən tapşırığı icra etmələri üçün müəllimin təlimatına qulaq asmaları vacibdir.

Kinestetik (edərək) öyrənmə tərzinə malik olanlar təcrübəyə üstünlük verir – toxunmaq, hiss etmək, təcrübədən keçirmək və s. Kinestetik öyrənənlər tapşırığı sınaqdan keçirərək və bunu edərək öyrənə bilirlər.

CARİ PLANLAŞDIRMA NÜMUNƏLƏRİ

Mövzu 1

Dialoq

Məzmun standartları:

1.2.1., 1.2.3., 2.1.1., 3.1.1.

Təlim nəticəsi:

- Fikirlərini təklif şəklində çatdırır.
- Nitq etiketlərindən istifadə edir.
- Tanış olmadığı sözlərin mənasını aydınlaşdırır.
- Dialoqu III şəxsin dilindən yazır.

İş formaları:

kollektiv, fərdi, qrup

İş üsulları:

oxu, müzakirə, sual-cavab, beyin həmləsi

Resurslar:

dərslik, diaqnostik qiymətləndirmə vərəqi

I 1 BİLİK XƏZİNƏDİR

1. Bölmənin adı ilə razısınızmı? Niyə? Başlığa əsasən dərsliyin bu bölməsində hansı mövzuda söhbət gedəcəyini müəyyənləşdirin.

✓ *Dialoqu düzgün tələffüzlə oxuyun.*

– Xoş gördük, əziz dost! Səni yeni tədris ilinin başlanması münasibəti?ilə təbrik edirəm.
– Çox sağ ol, mən də səni təbrik edirəm.
– Necəsən? Çoxdandır, görüşmürük.
– Mən Bakıya dünən gəlmişəm.
– Mən isə srağagün gəlmişəm.
– Yəqin, yaxşı istirahət etmisən.
– Elədir. Babamla rayonlarımızı gəzdik. Şəki?də, Qax?da, Balakən?də olduq.
– Mən?də Qubaya getmişdim. Oradan maraqlı məlumatlar toplamışam.
– Mənim də tətil günlərim maraqlı keçdi. Babamla elə söhbətlərimiz olub ki! Sənə babamın tarixçi olduğunu demişdim.
– Bilirsən, mən Qubada olanda Amsar kəndində Abbasqulu ağa Bakıxanovun ev-muzeyinə getdim. Sən demə, o, Xəzər dənizinin ilk azərbaycanlı araşdırıcısı olub.
– Çox maraqlıdır. Şərqşünas Qustav Edmund Qrünebaum yazır ki, Şərq mədəniyyəti Qərbə güclü təsir göstərmişdir. Elm, memarlıq, tıkinti, gəmiçilik və s. sahələrdə Avropa Şərqə borcludur. Babam deyir ki, İslam mədəniyyətinin "dörd dirək" ideyası orta əsrlərdə Avropa universitetlərinin qapısı üstündə vurulmuş lövhədə belə yazılıbmış: "Dünya 4 dirək üzərində durur: alimlərin hikməti, böyüklərin ədaləti, dindarların ibadəti və qəhrəmanların şücaəti".
– Bunu yoldaşlarımızla da müzakirə edərik.
– Mütləq. Bizə gələrsən, babamla da bu barədə fikirlərimizi bölüşərik. Hələ onun Sədi, Bəhmənyar, Nizami, Tusi, Füzuli haqqında dediklərini danışsam...

ORFOQRAFİYA

Bitişik, yoxsa ayrı?

- münasibəti?ilə
- Şəki?də, Qax?da, Balakən?də
- mən?də

Dialoqun ilk cümləsində çərçivəyə alınmış ifadəni görüşmə etiketi adlandırmaq olarmı?

Dünyanın "dörd dirək üzərində dayanması" fikrinə münasibət bildirin.

DƏRSİN GEDİŞİ

Müəllim dərsə şagirdlərin bilik və bacarıq səviyyələrini yoxlamaq məqsədilə **diaqnostik qiymətləndirmə** aparmaqla başlaya bilər. Qiymətləndirmə müxtəlif məzmun xətti və standartlar əsasında aparıldığından müəllim təlim nəticələrini özü müəyyən etməlidir. Xatırladaq ki, diaqnostik qiymətləndirmə 20-25 dəqiqə ərzində müxtəlif üsullarla aparılmalıdır. Sonra dərslikdəki mətn üzərində iş aparılır.

Motivasiya. Müəllim "İnsan həyatda necə uğur qazana bilər?" sualı ilə sinfə müraciət edə bilər. Deyilən fikirlər lövhədə qeyd olunur, müzakirə aparılır. Müzakirələr əsasında tədqiqat sualı çıxarıla bilər.

Tədqiqat sualı formalaşdırılır:

Nə üçün xalqın tarixini bilmək vacibdir? Bu biliklər bizə nə üçün lazımdır?

Tədqiqat müxtəlif yollarla aparıla bilər. İlk növbədə, dərslikdəki 1-ci tapşırıq yerinə yetirilir. Sonra dialoq oxunur. Oxu zamanı düzgün tələffüz diqqətdə saxlanılmalıdır. Orfoqrafiya tapşırığını həm oxudan əvvəl, həm də oxudan sonra icra etmək olar. Mətn ya rollar üzrə, ya da hissələrə bölünüb oxunmaq üçün qruplara verilə bilər. Mətn oxunan zaman nitq etiketlərindən istifadə edilməsi üzərində iş aparılır, yeri gəldikcə bu etiketlərə müraciət edilməsi məsləhət görülür. (*Şagirdlər bu etiketlərlə artıq aşağı siniflərdən tanışdırlar.*) Sonra deyilən fikirlər dinlənilir. Səh. 7 və 8-də olan 2–5-ci suallar qrup tapşırığı kimi verilir. 6-cı tapşırığın yerinə yetirilməsi kollektiv şəkildə müzakirə üçün nəzərdə tutulmuşdur. Şagirdlərin söz ehtiyatının zənginləşməsi və formalaşması üçün lüğət üzərində iş aparmaq mütləqdir (7–10-cu tapşırıqlar). Şagirdlər sözlərin qarşılığını, sinonimini, antonimini və s. tapmağa sövq edilməli, söz və ifadələri mənalarına uyğun müxtəlif məqamlarda işlətmək bacarığına yiyələnməlidirlər. Bu onlarda nitqin zənginləşməsinə xidmət edir. Müəllim sinfin səviyyəsi imkan verərsə, daha mürəkkəb tapşırıqlar hazırlaya bilər.

Müzakirə zamanı şagirdlərin verdikləri cavablar təhlil edilir, münasibət bildirilir. Bu zaman fikirləri əsaslandırmaq məqsədilə müxtəlif suallardan istifadə edilməsi labüddür.

Ümumiləşdirmə və nəticə çıxarılır. Ümumi nəticəyə gəlmək üçün müəllim mütləq şagirdlərin gəldikləri doğru fikirlərə əsaslanmalıdır. Bu mərhələdə 3-cü tapşırıq yerinə yetirilir.

Yaradıcı tətbiqetmə kimi dialoqdakı hadisələrin III şəxsin dilindən yazılması (15-ci tapşırıq, səh. 9) verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə əsasən aparıla bilər.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Fikirlərini təklif kimi çatdırmaqda çətinlik çəkir.	Fikirlərini təklif kimi müəllimin köməyi ilə çatdırır.	Fikirlərini təklif kimi çatdırdıqda səhvə yol verir.	Fikirlərini təklif kimi çatdıra bilir.
Nitq etiketlərindən çətinliklə istifadə edir.	Nitq etiketlərindən istifadə edir.	Nitq etiketlərindən məqamına uyğun istifadə edir.	Nitq etiketlərinin alternativlərindən istifadə edir.
Sözlərin mənalarını izah etməkdə çətinlik çəkir.	Sözlərin mənalarını lüğətin köməyi ilə izah edir.	Sözlərin mənalarını müstəqil izah edir.	Sözlərin mənalarını alternativ sözlərlə izah edir.
Dialoqu 3-cü şəxsin dilindən yazmağa çətinlik çəkir.	Dialoqu 3-cü şəxsin dilindən yazmaq üçün müəllimin köməyindən istifadə edir.	Dialoqu 3-cü şəxsin dilindən yazır.	Özünün əlavələrini etməklə dialoqu 3-cü şəxsin dilindən yazır.

Mövzu 2

Dialoq

Məzmun standartları:

1.2.4., 3.1.1., 4.1.2.

Təlim nəticəsi:

- Deyilən fikirləri ümumiləşdirir.
- Nəqli xarakterli yazılı təqdimat hazırlayır.
- Cümlə və söz birləşməsinin fərqini izah edir.

İş formaları:

kollektiv, fərdi, cütlərlə

İş üsulları:

müzakirə, Venn diaqramı, söz assosiasiyası

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim lövhəyə leksik mənası olan və olmayan sözlər yazıb onları əlaqələndirmək üçün şagirdlərə müraciət edir. Bunun üçün söz assosiasiyası üsulundan istifadə edilir.



Xatırladaq ki, şagirdlərin ibtidai sinifdən söz birləşməsi haqqında, az da olsa, məlumatları vardır. Ona görə də bu tapşırıq şagird üçün elə də çətinlik törətməyəcək.

Alınan cavablar müzakirə edilir.

Tədqiqat sualı formalaşdırılır:

Hansı sözlər birləşmə yarada bilər?

Tədqiqatın aparılması: Tədqiqat aparmaq məqsədilə dərslikdə tapşırıqlardan istifadə olunur. Müəllim özü də müxtəlif tapşırıqlar hazırlaya bilər. 11, 12-ci tapşırıqlar (səh. 8) cütlər vasitəsilə yerinə yetirilə bilər. Müzakirələr zamanı formalaşan fikirlər əsasında söz birləşmələri, onların formalaşması, tərəflər ifadə vasitəsində iştirak edən sözlər və s. haqqında məlumat verilir. 13, 14, 16-cı tapşırıqlar (səh. 9) yerinə yetirilir.

13-cü tapşırığın yerinə yetirilməsində məqsəd şagirdlərdə söz birləşmələrini söz və cümlələrdən fərqləndirmək bacarığını formalaşdırmaqdır. Bu zaman Venn diaqramından



istifadə etmək məqsədəuyğundur. Müəllim nümunə kimi verilən tapşırıqdan istifadə etməklə şagirdlərin biliklərini dərinləşdirə bilər. Bu tipli tapşırıqlar söz birləşmələrinin digər birləşmələrdən fərqləndirilməsi üçün də əlverişlidir. Bu tapşırıqlar şagirdin söz, söz birləşməsi və cümləni fərqləndirə bilməsi üçündür.

Müəllim çalışmalıdır ki, şagird cümlənin söz və söz birləşməsinə nisbətən daha geniş anlamı olduğunu, bitkin fikir ifadə etdiyini müəyyənləşdirə bilsin.

Müəllimin əlavə olaraq bu istiqamətdə hazırladığı tapşırıqlar da kollektiv şəkildə yerinə yetirilir, şagird fikirləri ümumiləşdirilir, nəticə çıxarılır ki, söz birləşmələrinin tərəfləri müstəqil sözlərdən ibarətdir, nitqdə hər hansı bir fikrin daha dolğun verilməsinə xidmət edir.

Müəllim şagirdləri nəzərdə tutulmuş layihə haqqında məlumatlandırır və dərslikdəki nümunə əsasında kompleks lüğət hazırlamaq işinə cəlb edir.

Ev tapşırığı kimi müstəqil iş verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun olaraq aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Deyilən fikirləri ümumiləşdirəndə çətinlik çəkir.	Deyilən fikirləri müəllimin köməyi ilə ümumiləşdirir.	Deyilən fikirləri heç bir kömək olmadan müstəqil ümumiləşdirir.	Deyilən fikirləri əsaslandıraraq ümumiləşdirir.
Yazılı təqdimat hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə təqdimat hazırlayır.	Müstəqil şəkildə təqdimat hazırlayır.	Hazırladığı təqdimatı topladığı əlavə məlumatlarla zənginləşdirir.
Cümlə və söz birləşməsinin fərqini izah edərkən çətinlik çəkir.	Cümlə və söz birləşməsinin fərqini müəllimin köməyi ilə izah edir.	Cümlə və söz birləşmələrini müstəqil fərqləndirir.	Cümlə və söz birləşmələrinin fərqi haqqında fikrini əsaslandırır.

Mövzu 3

Qori seminariyasında Azərbaycan şöbəsi necə açıldı

Məzmun standartları:

1.1.1., 1.1.2., 2.1.1., 2.1.2., 2.2.3., 3.1.3.

Təlim nəticəsi:

- Deyilən faktları dəqiqləşdirmək üçün suallar tərtib edir.
- Mətni məntiqə əsaslanaraq abzaslara bölür.
- Yeni sözlərin mənasını tapır.
- Frazeoloji birləşmələrin mənasını şərh edir.
- Mətndəki faktı müasir dövrlə müqayisə edir.
- Mətndəki cümlələr arasında əlaqəni gözləməklə yazı yazır.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

beyin həmləsi, klaster, sual-cavab

Resurslar:

dərslik, lüğət, Qori seminariyası haqqında şəkillər, plakatlar

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim Ulu öndər H.Əliyevin "Təhsil millətin gələcəyidir" kəlamından istifadə edir. Şagirdlərin fikirləri dinlənilir, müzakirə edilir.

Tədqiqat sualı formalaşdırılır:

Təhsil millətə nə üçün lazımdır?

Tədqiqat klaster üsulu ilə aparılır.



Şagirdlərin fikirləri əsasında suala cavablar tapılır. Sonra mətn oxunur. Dərslikdəki mətndə adı çəkilən Mirzə Kazım bəy haqqında məlumat vermək üçün dinləmə mətnindən istifadə olunur:

Rusiyanın, Böyük Britaniyanın, ABŞ-ın, Almaniyanın, Fransanın, Hollandiyanın elm cəmiyyətlərinin adlı-sanlı üzvü olmuş Mirzə Məhəmmədəli Kazım bəy Azərbaycan xalqının dünya elminə bəxş etdiyi böyük zəkalardan biridir. Onun siyasi, hüquqi, fəlsəfi və tarixi əsərləri Şərq və Qərb elm aləminin Qızıl Fonduna daxil edilmişdir. Dünya elmi onu Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatını tədqiq edən, islamın və müsəlman hüquq elminin böyük bilicisi kimi tanımışdır.

Kim idi Mirzə Kazım bəy? Atası Hacı Məhəmməd Qasım Kazım bəy qubalı Fətəli xanın hakimiyyətində maliyyə naziri olmuş, 1807–1820-ci illər arasında isə Dərbəndin şeyxülislamı kimi fəaliyyət göstərmişdir. Atasının işi ilə əlaqədar Məhəmmədəli Kazım 9 yaşında ikən anası ilə Dərbəndə gəlir. Bu mühit onun dünyagörüşünün açılmasına, elm, təhsil, bilik əxz etməsinə böyük təsir edir. Ana dili ilə yanaşı, ərəb, fars, türk, rus dillərini də mükəmməl öyrənir. 17 yaşında ikən "Ərəb dilinin qrammatikası təcrübəsi" adlı ilk əsərini yazır.

Azərbaycan dilinin qrammatikasını elmi şəkildə ilk dəfə Mirzə Kazım bəy əsaslandırmışdır. 1824-cü ildə Kazım bəyi İngiltərəyə dəvət etdilər. Lakin çar hökuməti bunun qarşısını aldı, düşündü ki, ingilislər onu öz məqsədləri üçün Rusiyaya qarşı istifadə edə bilərlər. Qafqazın baş komandanı Yermolov 1824-cü il oktyabrın 28-də Rusiyanın Xarici İşlər naziri Nesselroda məlumatında göstərirdi ki, Mirzə Kazım bəyin bundan sonra Həştərxanda qalması Rusiyanın ümumi siyasəti və təhlükəsizliyi üçün zərərlidir. Buna görə də onu İngiltərəyə getmək üçün hər hansı imkandan məhrum etmək və sürgünə göndərmək lazımdır. Çar generalının tələbi yerinə yetirilir, Mirzə Kazım bəy kadet korpusuna tatar dili müəllimi adı altında Sibirin Omsk vilayətinə sürgün edilir. Lakin 1826-cı ilin əvvəlində Omska gedərkən yolda xəstələnir və Kazanda dayanır. Kazan Universitetinin rektoru K.F.Fuks Mirzə Kazım bəyin şəhərdə olduğunu eşidir və əziz qonaq kimi evinə dəvət edir. Az vaxtda Kazanın elm adamları azərbaycanlı ziyalının elminə, dünyagörüşünə, istedadına heyran olurlar. Odur ki 1826-cı ilin oktyabr ayında Kazan alimlərinin xahişi ilə Mirzə Kazım bəy universitetin ərəb-fars dilləri üzrə baş müəllimi təyin olunur.

Müəllim Tiflis şəhəri haqqında qısa məlumat verə bilər, yaxud bu şəhər haqqında şagirdlərin bildiklərini soruşa bilər. Mətn oxunduqdan sonra mətndaxili sual və 1-ci tapşırıq yerinə yetirilir.

Tədqiqatın aparılması mərhələsində 2, 3–9-cu tapşırıqlar üzərində iş kollektiv, yaxud fərdi qaydada yerinə yetirilə bilər. Müzakirələr zamanı 3-cü tapşırıqdan istifadə olunur. Dərslikdə nümunə verilmişdir (səh. 11).

Ümumiləşdirmə və nəticə şagirdlərin fikirləri, mətnin ideyası əsasında aparılır, müasir dövrlə əlaqələndirilir. Müasir dövrdə təhsilə göstərilən dövlət qayğısı ön plana çəkilir və qeyd edilir ki, təhsil millətin inkişafında böyük rol oynayır. Hər bir millətin elmi və mədəni səviyyəsi onun inkişafında müstəsna qüvvəyə malikdir.

Yaradıcı tətbiqetmə mərhələsində 14-cü tapşırıq (səh. 13) evə verilə bilər. Dialoqun hazırlanması eyni fikirlərin müxtəlif formada ifadə edilə bilməsi məqsədilə yerinə yetirilir. Bu tipli tapşırıqlar növbəti illərdə şagirdlərdə üslubları fərqləndirmək bacarığı formalaşdırır.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 4

Qori seminariyasında Azərbaycan şöbəsi necə açıldı

Məzmun standartları:

3.1.1., 4.1.2.

Təlim nəticəsi:

- Əldə etdiyi faktlar əsasında mətn yazır.
- Söz birləşmələrini, mürəkkəb adları müəyyən edir.

İş formaları:

kollektiv, qruplarla, cütlərlə

İş üsulları:

müzakirə, beyin həmləsi

Resurslar:

dərslik, lüğət, sxemlər

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə cütlər vasitəsilə 10-cu tapşırığın (səh. 12) yerinə yetirilməsi ilə başlaya bilər. Cütlər tapşırığı yerinə yetirdikdən sonra müzakirə aparılır.

Tədqiqat sualı formalaşdırılır:

Mürəkkəb adlar nə üçün söz birləşməsi kimi qəbul edilir? Onlar cümlədə hansı sintaktik vəzifə daşıyır?

Tədqiqatın aparılması prosesində müəllim dərsi izah edir. 11 və 12-ci tapşırıq cütlər vasitəsilə yerinə yetirilə bilər. Tapşırıq yerinə yetirilərkən çalışmaq lazımdır ki, şagirdlər fikirlərini əsaslandıra bilsinlər. 11-ci tapşırığın yerinə yetirilməsi söz birləşmələrinin tərəflərinin ifadə vasitələri haqqında şagirdlərdə biliklərin dərinləşməsinə xidmət edir. 13-cü tapşırıq qruplarda yerinə yetirilir. 12 və 13-cü tapşırıqlar mürəkkəb adların düzgün yazılışını müəyyənləşdirmək üçündür.

Müəllim üçün qeyd. Bu vaxta qədər dərsliklərdə mürəkkəb adlar yanlış olaraq mürəkkəb isimlərdən sonra tədris olunmuşdur. Mürəkkəb isimlər morfoloji vahiddir. Mürəkkəb adlar isə söz birləşməsi şəklində olduğu üçün onların sintaksis bölməsində tədrisi daha düzgündür. Ona görə də mürəkkəb adların yazılışı qaydasını söz birləşmələri içərisində verilməsini daha məqsədəuyğun bildik.

13-cü tapşırıq mürəkkəb adların düzgün yazılış qaydalarını şagirdlərə mənimsətmək üçün nəzərdə tutulub.

Müəllim üçün qeyd. Müəllim fərdi şəkildə ev tapşırığı verərkən çalışmalıdır ki, tədris ili ərzində sinifdəki şagirdlərin hər birinə tapşırıq versin. Bu, şagirdlərin stimullaşdırılmasına və dərsə marağının artmasına səbəb olar.

Ümumiləşdirmə mərhələsində bu tipli tapşırıqlardan istifadə oluna bilər:

Doğru və yanlış olanları müəyyənləşdirin.

Azərbaycan Dövlət Akademik Opera və Balet teatrı; Bakı Apelyasiya məhkəməsi	**doğru**
Azərbaycan Diplomatik Akademiyası; Azərbaycan Milli İncəsənət muzeyi	**yanlış**
Azərbaycan Respublikası Auditorlar Palatası; Azərbaycan Respublikası Maliyyə Nazirliyi	

A) B) C)

D) E)



Testin cavabı D variantıdır. Müəllim özü də istənilən formada test tərtib edib şagird biliklərini ümumiləşdirə bilər. Müəllim çalışmalıdır ki, şagirdlər test tapşırıqlarını yerinə yetirərkən cavablarını əsaslandıra bilsinlər. 15-ci tapşırığın (qəzet materialı hazırlamaq) yerinə yetirilməsi nəzərdə tutulan layihənin növbəti addımıdır. Müsahibə götürmək üçün dərslikdəki yaddaşdan istifadə etmək məqsədəuyğundur. Müsahibə mövzuya uyğun olsa (təhsilə), daha məqsədəuyğundur. Növbəti dərsdə müəllim müsahibə əsasında yazılmış mətnlərdən seçmə yolu ilə motivasiya kimi istifadə edə bilər.

Yaradıcı tətbiqetmə kimi 15-ci tapşırıq nəzərdə tutulub.

Qiymətləndirmə müvafiq meyarlar əsasında aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Söz birləşməsini sözlərdən fərqləndirərkən çətinlik çəkir.	Söz birləşməsini müəyyənləşdirərkən müəllimin köməyindən istifadə edir.	Söz birləşmələrini fərqləndirərkən cüzi səhvlərə yol verir.	Söz birləşməsini müstəqil olaraq fərqləndirir.
Mürəkkəb adları mürəkkəb sözlərdən fərqləndirə bilmir.	Mürəkkəb adları müəllimin köməyi ilə fərqləndirir.	Lüğətin köməyi ilə mürəkkəb adların yazılış qaydalarını müəyyənləşdirir.	Mürəkkəb adların yazılış qaydalarını bilir.
Mətn yazarkən çətinlik çəkir.	Əlavə köməkdən istifadə edərək mətn yazır.	Mətn yazarkən bəzi səhvlərə yol verir.	Müstəqil olaraq mətn yazır.

Mövzu 5

Yaxşılıq itmir

Məzmun standartları:

1.1.2., 1.2.1., 1.2.4., 2.1.1., 3.1.1.

Təlim nəticələri:

- Əsas faktları tapmaqla fikrin məntiqiliyini əsaslandırır.
- Mətndəki əsas fikri yoldaşlarının anlaya biləcəyi şəkildə çatdırır.
- Söylənilən fikirləri ümumiləşdirir.
- Yeni sözlərin mənasını araşdırır.
- Təhsillə bağlı söylənilmiş fikirlər əsasında inşa yazır.

İş formaları:

kollektiv, fərdi, cütlərlə

İş üsulları:

sual-cavab, proqnozlaşdırılmış oxu

Resurslar:

dərslik, lüğət, Şəmistan Nəzirlinin "Qoridən gələn qatar" sənədli romanı

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim son dövrlərdə respublikamızda istifadəyə verilən müasir məktəb binaları mövzusunda dinləmə mətnindən istifadə edə bilər və ya hansısa bir süjet nümayiş etdirilə bilər. Yeni məktəb binalarının tikilməsi, bəzilərinin təmir və rekonstruksiya edilməsi, şagirdlərin öz məktəb binaları haqqında fikirləri dinlənilir, müzakirə edilir.

Tədqiqat sualı formalaşdırılır:

Tədris şəraiti təhsilə necə təsir göstərə bilər?

Tədqiqatın aparılması prosesində "Yaxşılıq itmir" mətni oxunur. Dərslikdəki əsas mətnin oxusu proqnozlaşdırılmış oxu üsulu ilə həyata keçirilsin. Bunun üçün müəllim birinci abzasın sonunda "*Sizcə, mülkü kim alacaq?*", ikinci abzasda "*İsrafil ağanın hadisəyə münasibəti necə olacaq?*" suallarından istifadə edə bilər. Növbəti suallardan – "*Məşədi İbrahim aldığı mülkdən necə istifadə edəcək?*", "*Müseyib seminariyanı necə başa vuracaq?*" istifadə etmək olar.

Mətn üçün müəyyən edilən açar sözlərə də şagirdin diqqətini yönəltmək məqsədəuyğun olar. 1.1.2., 1.2.1. standartlarını reallaşdırmaq məqsədilə dinləmə mətnindən istifadə edilə bilər.

Firidun bəy seminariyanın Azərbaycana köçürülməsini çoxdan planlaşdırırdı. Bu mühüm işə Azərbaycan maarifçiləri hələ 1884-cü ildə təşəbbüs göstərmişdilər. Seminariyanın müəllimi Səfərəli bəy Vəlibəyov həmin il aprelin 24-də çağırılmış pedaqoji şurada Azərbaycan şöbəsinin vəziyyəti haqqında fikrini yazılı surətdə bildirmişdi. O tələb edirdi ki, Azərbaycan şöbəsi müstəqil olsun və Azərbaycanın hər hansı bir rayonuna köçürülsün. Lakin nə rus çarı, nə də gürcü knyazları seminariyanın Azərbaycan şöbəsini köçürməyə icazə verirdilər.

...Firidun bəy icazəsiz Azərbaycan şöbəsinə məxsus bütün əmlakı: mebel, kitabxana və başqa tədris ləvazimatını, müxtəlif avadanlığı vaqona doldurtdurub öz xərci ilə Ağdama aparırdı. "Ağdam, – deyirdi, – hər halda, Azərbaycanın rayonlarına Qoridən qat-qat yaxındır. Bir də ki bu bizim müsəlmanların "xristian içinə uşaq vermirəm" bəhanəsini də kəsərdi".

Lakin Azərbaycan sərhədini keçib Qazaxa yaxınlaşanda Gürcüstan hökuməti bundan xəbər tutub əmlakı geri qaytarmaq istəyir. Vaxtilə qubernator olan ağsaqqal Mənsur ağanın işə qarışması nəticəsində gürcü zabitləri fikirlərindən dönürlər. Firidun bəy irəli yeriyib:

– Ağalar, bəylər, – dedi, – qəhərdən boğazı qurumuşdu, bir neçə dəfə öskürüb: – siz ki mənə bu təmənnasız yaxşılığı etdiniz, mən də əvəzində sizə hörmət əlaməti olaraq onu edə bilərəm ki, Qori seminariyasının Azərbaycan şöbəsini Qazaxda açım. Görünür, qismət belə imiş... – əlavə etdi.

(*Şəmistan Nəzirli*)

Mətndəki əsas fikir müəyyən edilir, dərslikdəki məzmun sualları üzərində iş aparılır.

1–9-cu tapşırıqlar yerinə yetirilir: 2, 6, 8-ci tapşırıqlar cütlər vasitəsilə, 1, 3, 5-ci tapşırıqlar kollektivlə yerinə yetirilir. Mətnlər üzərində iş apararkən müəllim mövzulararası əlaqəyə xüsusi diqqət yetirməli və şagirdlərin diqqətini buna cəlb etməlidir. Çünki həm "Yaxşılıq itmir", həm də "Qoridə Azərbaycan şöbəsi necə açıldı" mətnlərinin hər ikisində söhbət Qori müəllimlər seminariyasından, seminariyanın inkişafına yardım edən maarifçilərdən gedir. Bu vaxta qədər düşmən hesab edilən, hətta bədii ədəbiyyatımızda mənfi obraz kimi təqdim edilən İsrafil ağa Kərbəlayevin, əslində, böyük xeyriyyəçi olması şagirdlərin diqqətinə çatdırılmalıdır. Şagirdlərin fikirləri müzakirə olunmalı və özləri tərəfindən əsaslandırılmalıdır.

Ümumiləşdirmə mərhələsində 4-cü tapşırığın yerinə yetirilməsi məqsədəuyğundur. Bu, nəticənin çıxarılması üçün də faydalı ola bilər.

Yaradıcı tətbiqetmə kimi 15-ci tapşırıq yerinə yetirilir.

Qiymətləndirmə meyarlar əsasında aparılır.

Mövzu 6

Yaxşılıq itmir

Məzmun standartları:

1.1.1., 4.1.2.

Təlim nəticəsi:

- Fikirlərini dəqiqləşdirmək üçün suallar tərtib edir.
- Söz birləşməsinin əsas və asılı tərəflərini müəyyənləşdirir.

İş formaları:

kollektiv, cütlərlə

İş üsulları:

sual-cavab, müzakirə, BİBÖ

Resurslar:

dərslik, lüğət, frontal sorğu üçün suallar, müşahidə vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim şagirdlərin söz birləşməsi ilə bağlı aşağı siniflərdə əldə etdikləri bilik və bacarıqlara əsaslanaraq hazırladığı suallarla frontal sorğu keçirə bilər. Bu zaman BİBÖ üsulundan istifadə edilir.

Tədqiqatın aparılması mərhələsi ilə söz birləşmələrinin tərəfləri haqqında məlumat verilir. Tərəflərin ifadə vasitələrinin müəyyənləşdirilməsi üçün müəllim şagirdlərə əsas nitq hissələri barədə suallar verə bilər. Bu zaman sual-cavab üsulundan istifadə edilir.

Əldə edilən biliyin möhkəmləndirilməsi məqsədilə 12-ci tapşırıq yerinə yetirilir. Bu tapşırıqdan istifadə etməklə şagirdlər müəllimin istiqaməti ilə tərəflərinin ifadə vasitələrinə görə söz birləşmələrinin növünü müəyyənləşdirir. Cavablar dinlənilib müzakirə edildikdən sonra 13-cü tapşırıq yerinə yetirilir. 14-cü tapşırıq həm də ikinci sözü kiçik hərflə yazılan mürəkkəb adlar üçün motivasiya xarakteri daşıyır. Bu tapşırıqda verilən mətnin məzmunu 13-cü səhifədəki mətnlə əlaqələndirilə bilər. Çünki hər iki mətndə adı çəkilən İsrafil ağa eyni şəxsdir.

Şagirdlərə əsas və asılı tərəflərə sual verməklə onların hansı nitq hissəsi ilə ifadə edildiyini aydınlaşdırmaq tapşırıla bilər. Bu tapşırıq cütlər vasitəsilə yerinə yetirilsə, daha məqsədəuyğun hesab edilər. Söz birləşməsinin tərəfləri və söz birləşmələrinin növləri haqqında ümumiləşdirmə aparılır.

Ümumiləşdirmə mərhələsində söz birləşmələri və onun tərəfləri haqqında fikirlər ümumiləşdirilir.

Yaradıcı tətbiqetmə kimi şagirdlərə müstəqil olaraq oxuduqları bədii ədəbiyyatdan müvafiq nümunələr seçib yazmaq tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 7

Ana dili (B.Vahabzadə)

Məzmun standartları:

1.1.2., 1.2.2., 2.1.2., 3.1.1.

Təlim nəticəsi:

- Dil haqqında fikirlərini əsaslandırır.
- Nitqində müvafiq məzmunlu şeirlərdən nümunə kimi istifadə edir.
- Həqiqi və məcazi mənalı sözlərin mənasını aydınlaşdırır.
- Mövzuya uyğun mühakimə xarakterli inşa yazır.

İş formaları:

qruplarla, cütlərlə, fərdi

İş üsulları:

anlayışın çıxarılması, sual-cavab, oxu

Resurslar:

dərslik, lüğət, sxemlər

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində anlayışın çıxarılması üsulundan istifadə etmək olar.



Yönəldici suallar vasitəsilə şagirdlərdən "dil" sözü alınır. İctimai hadisə olan dil haqqında qısa müzakirələr aparılır.

Tədqiqat sualı formalaşdırılır:

Dil nə üçün lazımdır?

Tədqiqatın aparılması mərhələsində şagirdlər müzakirələrə cəlb olunur. Şagirdlərdən ana dili mövzusunda bildikləri şeirlər soruşula bilər. Atalar sözlərindən istifadə oluna bilər. Sonra şeir oxunulur. Bu zaman 1-ci tapşırığın şərti yerinə yetirilməlidir. Şeirin oxusundan sonra diqqət dərslikdəki şəklə cəlb edilir. Şəkil üzərində iş aparılır. Şeirlə şəkil arasındakı əlaqə müəyyən edilir.

Müəllim çalışmalıdır ki, şagird fikrini aydın və əsaslandırılmış şəkildə ifadə etsin. Daha sonra 6, 7-ci tapşırıqlar yerinə yetirilir.

Qrup işi kimi dərslikdəki 2–5-ci tapşırıqlar verilə bilər. 8–9-cu tapşırıqlar cütlər vasitəsilə yerinə yetirilir. 10-cu tapşırıq yerinə yetirilərkən sözlərin çoxmənalılığına *diqqət cəlb* edilməlidir. Bu tapşırıqlar şagirdlərdə fikirlərini düzgün ifadə etmək bacarığı formalaşdırır. Eləcə də sxem əsasında fikir irəli sürmək onlarda nitqin inkişafına kömək edir.

Ümumiləşdirmə mərhələsində müəllim lövhəyə "Dilimiz ona görə lazımdır ki..." cümləsini yazıb şagirdlərə onu tamamlamağı tapşırır.

Yaradıcı tətbiqetmə kimi "Dilim varsa, yaşayıram" adlı mühakimə xarakterli inşa yazmaq tapşırıla bilər. Yaxud müəllim 17-ci səhifədəki şəkil üzrə təsviri xarakterli inşa yazmağı tapşıra bilər. İnşa yazı verilərkən müəllim şagirdlərin səviyyəsini nəzərə almalıdır.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Nümunə:

Dilimiz ona görə lazımdır ki,
- ünsiyyət yarada bilək.
- dilimizin tarixini, ədəbiyyatımızı öyrənə bilək.
- .....
- .....

Mövzu 8

Ana dili

Məzmun standartları:

1.1.2., 2.2.1.

Təlim nəticəsi:

- Fikrini məntiqi cəhətdən əsaslandırır.
- Söz və ifadələrin məna çalarını izah edir.

İş formaları:

kollektiv, cütlərlə

İş üsulları:

müzakirə, beyin həmləsi, Venn diaqramı

Resurslar:

dərslik, lüğət, "Aforizmlər kitabı"

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim mövzuya uyğun frontal sorğu keçirir. Sorğuda nəzm və nəsr əsərlərinin dilinin oxşar və fərqli xüsusiyyətləri müəyyənləşdirilir. Bu zaman Venn diaqramından istifadə edilməklə 10-cu tapşırıq yerinə yetirilir.

Tədqiqat sualı formalaşdırılır:

Fikir nə zaman daha təsirli ola bilər?

Sözlərin yerində deyilməsi, fikrin dəqiq və təsirli olması üçün obrazlı ifadələrdən istifadə diqqətə çatdırılır. Bu mərhələdə dərslikdəki 11, 12 və 13-cü tapşırıqlar yerinə yetirilir.

Dərsin ümumiləşdirmə mərhələsində müəllimin özünün əvvəldən hazırladığı cümlələr və ya mətn şagirdlərə təqdim edilir. Həmin mətn və cümlələrdə olan fikirlərin bəzilərini müəllim şeirlərdə verə bilər. Bu mətnlərin fərqinin izahı aparılır, fikrin nə zaman təsirli olmasının səbəbi aydınlaşdırılır.

Yaradıcı tətbiqetmədə 14-cü tapşırıq verilir.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 9

Mədinə xanım Qiyasbəyli

Məzmun standartları:

1.1.1., 2.1.1., 2.2.1., 2.2.3., 3.1.1., 3.1.3.

Təlim nəticəsi:

- Mətndəki faktları dəqiqləşdirmək üçün suallar verir.
- Tanış olmayan sözlərin mənasını müəyyənləşdirir.
- Abzaslar arasında əlaqəni gözləməklə mətnin məzmununu danışır.
- Mətndəki əsas fikri müasir həyatla əlaqələndirir.
- Abzasları müəyyənləşdirir və yazılı düzəlişlər edir.
- Mövzuya uyğun nəqli xarakterli mətn yazır.

İş formaları:

kollektiv, qruplarla

İş üsulları:

sürətli oxu, müzakirə

Resurslar:

dərslik, lüğət

DƏRSİN GEDİŞİ

Müəllim dərsə mətnin oxusu ilə başlaya bilər. Sürətli oxu üsulu ilə həyata keçirilən oxu mərhələsində mətn müəyyən edilmiş vaxt ərzində oxunur. Oxudan sonra 3-cü tapşırığın yerinə yetirilməsi vacibdir. 3-cü tapşırığı yerinə yetirmək üçün aşağıdakı ardıcıllığı izləmək lazımdır (abzasların ardıcıllığı: 2.3.1.). Bu, qrup işi kimi verilsə, daha məqsədəuyğun olar.

5-ci tapşırıq şagirdlərin fikirlərini yığcam və konkret ifadə etmələri baxımından əhəmiyyətlidir. Bu tapşırıq da qrup işi kimi verilir. 2.2.1. standartını reallaşdırmaq məqsədilə səh. 21-dəki 1, 2 və 4-cü tapşırıqlar qruplarda yerinə yetirilir.

Müəllimin tədris prosesində bu tapşırıq (5-ci tapşırıq) növündən mütəmadi istifadə etməsi məqsədəuyğundur. Bu tip tapşırıqlar şagirdlərdə dinlənilən fikri yığcam ifadə etmək bacarığı formalaşdırır.

Mətn oxunandan sonra şagirdlərə faktoloji və məntiqi suallar tərtib etmək də tapşırıla bilər. Bu tapşırığın da qruplarda həyata keçirilməsi nəzərdə tutulur. 5 və 6-cı tapşırıqlardan məlumatın müzakirəsi zamanı istifadə edilməsi mümkündür.

Müzakirələrdən sonra dərslikdəki 7, 8 və 9-cu tapşırıqlar yerinə yetirilir. Bu tipli tapşırıqlar lüğət ehtiyatının zənginləşdirilməsinə xidmət edir.

Yaradıcı tətbiqetmə zamanı 12-ci tapşırıq yerinə yetirilir. 12-ci tapşırığın verilməsində məqsəd şagirddə topladığı materialı sistemləşdirmək bacarığını formalaşdırmaqdır. Belə mətnlərin hazırlanması şagirddə müxtəlif üslubda yazıların yazılmasını formalaşdırır.

Qeyd. Müəllim Badisəba xanım Köçərli, Hənifə Zərdabi kimi maarifçi qadınlar haqqında hər hansı bir dinləmə mətnindən istifadə edə bilər:

Müqəddəs ənənələrdən söz düşəndə, ilk öncə, göz önünə, sözsüz ki, xeyriyyəçilik gəlir. Ötən əsrin əvvəllərində bu müqəddəs işlə bağlı ölkəmizdə onlarca xeyriyyə cəmiyyəti yaranır. Cəmiyyətlərin maliyyə dəstəyi ilə Bakıda maarif-mədəniyyət ocaqları təşəkkül tapır. "Qafqaz Müsəlman Qadınları Xeyriyyə Cəmiyyəti"nin yaranmasında böyük maarifçi, alim, milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin xanımı Hənifə Məlikova-Abayevanın böyük xidmətləri olub.

Hənifə Məlikova 1856-cı il mayın 5-də Şimali Qafqazda, Nalçikdə doğulmuşdur. Azərbaycan xalqının ilk maarifçi qadınlarından olan Hənifə xanım Tiflisdə "Müqəddəs Nina" Qız məktəbində təhsil almışdır. Əlbəttə ki, o zaman müsəlman qızların xristian ölkəsində təhsil alması çox nadir hadisə idi.

Bu gözəl, ziyalı, sədaqətli və dəyanətli xanım millətimizin və ailəsinin yolunda fədakarlıq göstərmiş, Həsən bəy Zərdabiyə tək həyat yoldaşı yox, ümumiyyətlə, həm də mübarizə yoldaşı olmuşdur. O, 16 il əri ilə birlikdə Zərdab kəndində polis nəzarəti altında yaşadı. Bütün çətinliklərə baxmayaraq, milli mətbuatımızın əsasını qoymaqda H.Zərdabiyə dəstək olan Hənifə xanım, nəhayət, özü də hiss etmədən öz adını Azərbaycan xalqının tarixinə yazdı.

Hənifə xanım 1875–1877-ci illərdə Həsən bəylə birlikdə "Əkinçi" qəzetinin nəşrində böyük əmək sərf etmişdir. Bu ziyalı xanım Həsən bəylə Zərdabda yaşadıqları dövrdə, öz evlərində, mənzillərində pulsuz məktəb açmış, təqib və təzyiqlərə baxmayaraq, heç bir təmənna ummadan insanlara elm, savad öyrətmişdilər.

Hənifə xanımın Azərbaycan qadınlarının taleyində də oynadığı rol, sözsüz ki, danılmazdır. Bakıda ilk Qız məktəbinin yaradıcısı kimi tarixə düşmüş Hənifə xanım 1901–1905-ci illərdə ilk Müsəlman Qız məktəbinin müdiri işləmişdir. 1909-cu ildən 1919-cu ilədək, düz 10 il Bakıda rus-Azərbaycan Qız məktəbində müdir vəzifəsində çalışmışdır.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 10

Mədinə xanım Qiyasbəyli

Məzmun standartları:

1.1.1., 1.2.2., 3.1.1.

Təlim nəticəsi:

- Dinlədiyi fikirlər barədə mülahizələrini dəqiqləşdirir.
- Mətndəki mürəkkəb adları müəyyənləşdirir və nitqində istifadə edir.
- Mövzu ilə bağlı esse yazır.

İş formaları:

kollektiv, fərdi

İş üsulları:

müzakirə, sual-cavab, klaster

Resurslar:

dərslik, lüğət, bədii mətnlər, şifahi nitqi müşahidə cədvəli

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim mürəkkəb adların yazılışına aid kiçik bir mətn təqdim edə bilər. Bu mətnin tərkibində şəhər, kənd və s. coğrafi adlar ola bilər. Bu tip mürəkkəb adların yazılışı şagirdlərə izah edilir. Sonra yönəldici suallarla şagirdi istiqamətləndirir.

Dərs prosesində müəllim dərslikdəki mətndə verilmiş mürəkkəb adları müəyyənləşdirməyi şagirdlərə tapşıra bilər. Həmin ifadələrdən şifahi şəkildə cümlə və ya kiçik mətn qurarkən istifadə edilə bilər. Bu məqsədlə dərslikdə 10 və 11-ci tapşırıqlar yerinə yetirilir. 10-cu tapşırığın fərdi qaydada icrası nəzərdə tutulur. 10-cu tapşırıq həm orfoqrafik və orfoepik qaydaların tətbiqi baxımından əhəmiyyətlidir.

Müəllim nəticələri ümumiləşdirmək üçün bir neçə vasitədən istifadə edə bilər.

Klaster üsulundan istifadə etməklə mürəkkəb adların yazılış qaydalarını ümumiləşdirə bilər. Bu, şagirdlər tərəfindən icra edilməlidir.

Müəllim belə bir üsuldan da istifadə edə bilər. Lövhəyə üstünə "Mürəkkəb adlar" sözü yazılmış ağac şəkli asa bilər.

Yaradıcı tətbiqetmə kimi bədii ədəbiyyatdan müvafiq nümunələr seçib yazmaq tapşırıla bilər. Şagirdlərin fərdi bacarığı nəzərə alınmaqla "Maarifçi qadınlarımız" mövzusunda esse yazmaq tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Deyilən faktları dəqiqləşdirməkdə çətinlik çəkir.	Deyilən faktları dəqiqləşdirmək üçün müəllimin köməyindən istifadə edir.	Deyilən faktları dəqiqləşdirir.	Deyilən faktlar barədə mülahizələrini dəqiqləşdirir.
Mürəkkəb adları müəyyənləşdirməkdə çətinlik çəkir.	Mürəkkəb adları müəyyənləşdirir, amma nitqində istifadə edə bilmir.	Mürəkkəb adları müəyyənləşdirir və müəllimin köməyi ilə nitqində istifadə edir.	Mürəkkəb adları müəyyənləşdirir və nitqində istifadə edir.
Esseni müstəqil yazmada çətinlik çəkir.	Esseni yazarkən bəzi səhvlər edir.	Esseni yazarkən fikirlərini ətraflı ifadə etmir.	Mühakimə xarakterli esse yazır.

Mövzu 11

Mücrü

Məzmun standartları:

1.1.2., 1.2.4., 3.1.3.

Təlim nəticəsi:

- Fikrin məntiqli olduğunu əsaslandırır.
- Söylənilən müxtəlif fikirləri ümumiləşdirir.
- Mətnin abzaslarını müəyyənləşdirir.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

müzakirə, sual-cavab, oxu

Resurslar:

dərslik, lüğət, “Mücrü” filmi



MÜCRÜ
(*ixtisarla*) 6

1. Mətni düzgün intonasiya ilə oxuyun.

Nümunə:

Mücrünü öz yerinə qoyanda || anaya || o, || indi ağır, || əvvəlkindən qat-qat ağır gəldi.

✓ *Mətndən bir neçə cümlə seçib səs tonunun qalxma və enməsini şərti işarələrlə göstərin.*
✓ *Sonra mətni uyğun intonasiya ilə oxuyun.*

İntonasiya şifahi nitqdə cümlələri müxtəlif vasitələrlə əlaqələndirən vasitədir.
Mətndə hər bir cümlə, adətən, yüksələn tonla başlayır, tədricən azalır və fasilə verilir.
Fasilə yazıda nöqtə, sual işarəsi, nida işarəsi və s. ilə qeyd olunur.

O, gəlin köçəndə anası mücrü də qoydu cehizinin üstünə. “Gəlin mücrüsüz olmaz!”, – dedi.

Nənə yadigarı idi bu balaca, naxışları solğun mücrü. İndi də onun qisməti oldu.

Ananın fikrinə münasibət bildirin. Sizcə, bu fikirdə hansı hikmət vardır?

O, üzük, *qızıl saat* və sırğalarını qoyardı mücrüyə. Mücrü paltar dolabında ən yuxarı gözə qalxmışdı. Əzizlənirdi mücrü, sevilirdi mücrü...

Bir gün gəlin ana oldu. Əri hədiyyə ilə evə gəldi. Açıldı mücrü, *cavan ana qızıl boyunbağını* qoydu, örtüldü mücrü.

Və beləcə doldu mücrü.

Atanı müharibə apardı. Ehtiyacla əlbəyaxa oldu ana. Gecəsi gündüzə, gündüzü gecəyə qarışdı ananın. Ancaq itirmədi özünü, itirə bilməzdi ana!

Bir dəqiqə də işsiz durmadı, bir dəqiqə də. Lakin çatışmırdı qazancı. *Beş uşağa* çatışmırdı qazancı ananın!

Açıldı mücrü, örtüldü mücrü. Nişan şeyləri, ər hədiyyələri bazara ayaq açdı... Kədərlə açıldı mücrü, kədərlə örtüldü mücrü... Boşaldı mücrü...

Bir gün ananın ilki sevincək evə gəldi. Diplomla gəldi. İlk diplom idi ki, onların evinə qədəm qoyurdu. Ali məktəb diplomu.

Ana doluxsuna-doluxsuna diplomu dodaqlarına apardı, bağrına basdı, gözlərində yaş görünəndə yadına çoxdan unudulmuş mücrü düşdü...

Ananın əlləri, mehriban əlləri mücrüyə toxunanda mücrü sanki cana gəldi, fərəhlə açıldı mücrü, diplomu ağuşuna aldı, gülümsədi, sevincək örtüldü mücrü. Evə ikinci diplom gəldi. Açıldı mücrü, örtüldü mücrü. Üçüncü... dördüncü... beşinci... Tamam doldu mücrü.

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim “Bilik tükənməz xəzinədir” kəlamından istifadə etməklə şagirdləri müzakirəyə cəlb edir, biliyin niyə xəzinə hesab edildiyi soruşulur. Yönəldici suallar vasitəsilə şagirdlərin fikirləri öyrənilir, ümumiləşdirmə aparılıb tədqiqat sualı formalaşdırılır.

Tədqiqat sualı formalaşdırılır:

Mənəvi sərvətlərin üstünlüyü nədədir?

Tədqiqatın aparılması mərhələsində mətn düzgün oxunur. Ümumi təsəvvür formalaşdırmaq üçün “Mücrü” filminin nümayişi də məqsədəuyğundur.

Mətndəki əsas fikir müəyyənləşdirilir. Söylənilən fikirlər nəzərə alınaraq ümumiləşdirmə aparılır. Ağlın, biliyin sərvət olması fikri ön plana çəkilir. Məzmun sualları üzə-

rində iş aparılır. Oxudan və filmin nümayişindən sonra mətndaxili, eyni zamanda 1 və 2-ci suallar üzərində iş aparılır. 3–5-ci tapşırıqlar qrup işi kimi verilə bilər.

Müzakirələrdə 4-cü tapşırıq üzərində iş apararkən müəllim çalışmalıdır ki, şagird bu mətni üslubuna görə digərlərindən fərqləndirə bilsin. Şagirdin diqqəti mətndəki məcazi mənalı söz və ifadələrin çoxluğuna yönəldilməlidir.

5-ci tapşırığın düzgün yerinə yetirilməsi üçün müəllim şagirdlərin diqqətini hekayənin məzmununa cəlb edir.

Mətnin birinci bitkin hissəsi ananın gəlin köçmə və mücrüsünün bəzək əşyaları ilə dolmasıdır.

İkinci bitkin hissə müharibənin başlanması və mücrünün tamamilə boşalması, üçüncü bitkin hissə mücrünün övladlarının diplomları ilə zənginləşməsidir.

Müəllimin nəzərinə: Məzmun sualları üzərində iş aparan zaman 6-cı tapşırıq yerinə yetirilərkən səh. 7-də Bəhmənyarın ağıl haqqında verilmiş fikirlərindən sitat kimi istifadə etməklə mülahizələrini şərh edir.

Ümumiləşdirmə mərhələsində 8–10-cu tapşırıqlar orfoqrafik qaydaların öyrənilməsi üçün nəzərdə tutulub və ev tapşırığı kimi verilə bilər.

Müəllim **yaradıcı tətbiqetmə** kimi "Hekayədən aldığım təəssürat" adlı esse yazmağı tapşıra bilər.

Bu yazıların növbəti dərsdə müzakirəsi təşkil edilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparıla bilər.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Fikrin məntiqli olduğunu əsaslandırmaqda çətinlik çəkir.	Fikrin məntiqli olduğunu müəllimin köməyi ilə əsaslandırır.	Fikrin məntiqli olduğunu əsaslandırır.	Əlavə faktlar göstərməklə fikrin məntiqli olduğunu əsaslandırır.
Söylənilən fikirləri ümumiləşdirə bilmir.	Söylənilən fikirləri müəllimin köməyi ilə ümumiləşdirir.	Söylənilən fikirləri ümumiləşdirə bilir.	Söylənilən müxtəlif fikirləri ümumiləşdirə bilir.
Mətnin abzaslarını müəyyənləşdirməkdə çətinlik çəkir.	Mətnin abzaslarını müəllimin köməyi ilə müəyyənləşdirir.	Mətnin abzaslarını müəyyənləşdirdikdə bəzi səhvlər edir.	Mətnin abzaslarını müstəqil müəyyənləşdirir.

Mövzu 12

Mücrü

Məzmun standartları:

1.1.1., 3.1.1.

Təlim nəticəsi:

- Dinlədiyi fikirlər barədə mülahizələrini dəqiqləşdirir.
- Mövzuya uyğun mühakimə xarakterli mətn yazır.

İş formaları:

qrup, cütlərlə, fərdi

İş üsulları:

cəld yazı, sual-cavab

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, Venn diaqramı

DƏRSİN GEDİŞİ

Bu dərs şagirdlərdə yazı bacarığını inkişaf etdirmək üçün nəzərdə tutulub. Şagirdlər bu vaxta qədər nəqli və təsviri xarakterli inşa yazmağı öyrəniblər. Bu dərsdə məqsəd şagirdlərdə mühakimə xarakterli inşa yazmaq bacarığını formalaşdırmaqdır. Dərsdə müəllim mühakimə xarakterli inşanın (essenin) yazılma qaydalarını şagirdlərə izah etməlidir. Bu zaman dərslikdə verilmiş (səh. 25) göstəriş və tövsiyədən istifadə edə bilər.

Mühakimə xarakterli inşa və esse yazmaq üçün təqdim olunan ardıcıllığı gözləmək lazımdır.

1. Təqdim olunan yazının adı haqqında düşünün.
2. Haqqında mühakimə yürüdəcəyiniz obyekti seçin.
3. Seçdiyiniz obyekt əşya, hadisə və ya insan ola bilər.
4. Həmin obyektin sizin qəlbinizdə yaratdığı duyğuları müəyyənləşdirin. Bu, sevinc, fərəh, qəzəb, nifrət və s. ola bilər.
5. Bu hislərin nə üçün yarandığını müəyyənləşdirməyə çalışın. Ona münasibətinizi bildirin.

Müəllim şagirdlərə mühakimə xarakterli inşa və ya essenin necə yazılması haqqında məlumat verdikdən sonra bu tip inşaların təsviri və nəqli xarakterli yazılardan fərqini izah edir. Şagirdlərə yazacaqları yazıda ön fikir verir və mülahizələrinin əsas olduğunu başa salır. Lui Pasterin "Elm və sülh cəhalət və müharibəni məğlub edəcək" fikri əsasında yazılacaq inşanın əvvəlcə planı tutulur, müzakirə edilir. İfadəyə aid irəli sürülən fikirlər dinlənilir.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Deyilən fikirləri dəqiqləşdirərkən çətinlik çəkir.	Deyilən fikirləri müəllimin köməyi ilə dəqiqləşdirir.	Deyilən fikirləri dəqiqləşdirərkən cüzi səhvə yol verir.	Deyilən fikirləri müstəqil dəqiqləşdirir.
Mühakimə xarakterli inşa yazmaqda çətinlik çəkir.	Mühakimə xarakterli inşa yazır.	Fikirlərini mühakimə xarakterli inşada ifadə edir.	Mühakimə xarakterli ətraflı inşa yazır.

Mövzu 13

Bəxt, ağıl və zəhmət (Mirzə İbrahimovun "Pərvizin həyatı" povestindən)

Məzmun standartları:

1.1.1., 1.2.1., 1.2.4., 2.1.1., 3.1.3.

Təlim nəticəsi:

- Mətndəki fikri dəqiqləşdirmək üçün suallar tərtib edir.
- Fikrini sadə şəkildə izah edir.
- Deyilən fikirləri ümumiləşdirir.
- Sözlərin mənasını dəqiqləşdirir.
- Əlaqəni gözləməklə mətnə yazılı əlavə edir.

İş formaları:

kollektiv, fərdi

İş üsulları:

beyin həmləsi, müzakirə, səssiz oxu

Resurslar:

dərslik, lüğət, Mirzə İbrahimovun əsərləri

DƏRSİN GEDİŞİ

Qeyd. Bu mətnə dərslikdə bilərəkdən ad qoyulmamışdır. MV-də müəlliflər tərəfindən verilən addan əlavə, yaxşı olardı ki, müəllim şagirdlərə əsərin adını atalar sözü ilə adlandırmağı təklif etsin. Bu tapşırıq mətnin oxusu və müzakirələrdən sonra yerinə yetirilə bilər.

Motivasiya mərhələsində müəllim dərsə dinləmə mətninin oxusu ilə başlaya bilər.

Müəllim üçün qeyd. Müəllim bu dərsdə "Bəxtəvər olmaq üçün insan hansı mənəvi keyfiyyətlərə sahib olmalıdır?" sualından da istifadə edə bilər.

Dinləmə mətni: Ağıl olmasa, bəxt neyləsin?

Rəvayətə görə, bir gün ağıl ilə bəxt gəzməyə çıxırlar. Cavan cütçünü yer becərən görərək bəxt ağıla müraciətlə onu kamal və dövlətə çatdırmaq üçün bu gəncin bədəninə daxil olmağı təklif edir. Ağıl bu adamdan bir şey çıxmayacağını söyləyib razı olmur, bəxt isə gəlib oğlanın bədəninə girir.

Cütçü qazılıb çevrilmiş torpağı bel ilə əzib yumşaldarkən onun içərisindən par-par parıldayan böyük bir daş tapır. Onu əlinə götürüb bir qədər baxır, ağlı olmadığı üçün adi daş zənn edib kənara tullayır.

Bu vaxt təsadüfən onun yanından bir atlı keçirmiş. O, hələ uzaqdan daşın parıltısını görüb atından yerə enir, yaxın gəlib daşı yerdən qaldırır, onun misilsiz qiymətə malik olduğunu yəqin etdikdən sonra cütçüyə mü-

raciətlə daşı ona satmasını istəyir. Cütçü cavabında deyir:

– Xoşun gəlirsə, götür, o daş mənim nəyimə gərəkdir?

Atlı iri ləl parçasını götürüb gedir. Bir padşahın xəzinəsində onu dəyişib əvəzində çoxlu qızıl alır və cah-calal içərisində yaşamağa başlayır. Bir gün bu var-dövləti ona bağışlamış kəndlinin yaxşılığından çıxmaq fikrinə düşür. İkimərtəbəli gözəl ev tikdirir, içərisini lazım olan bütün avadanlıqla doldurur, cütçünü tapıb oraya dəvət edir və qızını da ona verməyə razı olduğunu söyləyir. Oğlan gəlib evə baxır, girib bir-bir otaqları gəzir. Mətbəxdən keçərkən bir parça çörəklə bir tikə pendir götürüb çuxasının altında gizlədir, xəlvət yerdə yemək məqsədilə həyətə çıxır.

Qızın atası onu axtarmağa başlayır. Oğlan elə bilir ki, pendir-çörək oğurladığını başa düşərək onu tapmaq istəyirlər. Buna görə də qaçır və qorxusundan hətta öz kəndlərinə deyil, başqa bir kəndə gedir.

Oğlanın bu axmaq hərəkətlərindən təngə gəlmiş bəxt öz-özünə:

– Düzdür, deyirlər adamın gərək bəxti olsun, amma mən nə qədər çalışsam da, ağlın köməyi olmadan bir iş görə bilmədim, – deyir. – Beləliklə, bəxt də onu tərk edib gedir.

Sonra dərslikdəki mətn fərdi qaydada səssiz oxu üsulu ilə oxunur. Oxu başa çatdıqdan sonra müəllim əvvəldən hazırladığı suallarla şagirdlərə müraciət etməlidir. Xatırladaq ki, bu suallar mətnin məzmununa, obrazların danışıq və fikirlərinə aid olmalıdır. Şagirdlər suallara cavab verirlər. Sonra müəllim şagirdlərə əsas fikrin müəyyən edilməsi məqsədilə suallar tərtib etməyi tapşıra da bilər. Hər iki mətnin məzmunu üzərində iş aparılır, mətndəki fikirlər əlaqələndirilir.

Müzakirə təşkil edilir, şagirdlərin fikirlərini müvafiq formada ifadə etmələri üçün şərait yaradılır. Mətndaxili 1-ci tapşırığın yerinə yetirilməsi üçün sözlərə qrammatik şəkilçilər artırılaraq əlaqələndirilməsi tövsiyə edilir. Nöqtələrin yerində aşağıdakı cümlə olmalıdır: "*Ay bədbəxt, bəxtin yatmayıb, özün yatmısan*". Tapşırıq kollektiv və ya cütlər vasitəsilə yerinə yetirilə bilər.

Mətnin sonunda Səfanın verəcəyi cavabın müəyyənləşdirilməsi cütlər vasitəsilə həyata keçirilə bilər. Cavabın tez tapılması üçün müəllim diqqəti sözün böyük hərflə yazıldığı 6-cı çərçivəyə cəlb etməlidir.

Cavab: 6, 2, 4, 1, 3, 7, 5.

1-ci tapşırıq şagirdin ümumiləşdirmək bacarığının formalaşdırılması üçündür.

Dərslikdə məzmun və söz ehtiyatının artırılması ilə bağlı 4–7-ci tapşırıqlar yerinə yetirilir.

2-ci tapşırıq **məlumatın mübadiləsi** mərhələsində aparılır.

3-cü tapşırıq **ümumiləşdirmə** mərhələsində yerinə yetirilir.

Ümumiləşdirmə aparılaraq nəticə əldə edilir. Mətndaxili 2-ci sualın nəticə çıxarmaq üçün yerinə yetirilməsi məqsədəuyğundur.

Yaradıcı tətbiqetmə kimi mətnə yazılı əlavələr edilməsi tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 14

Bəxt, ağıl və zəhmət (Mirzə İbrahimovun "Pərvizin həyatı" povestindən)

Məzmun standartları:

1.1.2., 3.1.1., 4.1.2.

Təlim nəticəsi:

- Mövzu ilə bağlı fikirlərini əsaslandırır.
- Mövzuya uyğun dialoq yazır.
- Söz birləşməsinin növünü müəyyən edir.

İş formaları:

cütlərlə, kollektiv, fərdi

İş üsulları:

sual-cavab, müzakirə, Venn diaqramı

Resurslar:

dərslik, lüğət

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə ismi birləşmələr haqqında suallar verməklə başlaya bilər və yaxud lövhəyə iki birləşmə yazıb (məs.: *oxumağın faydası, maraqlı hekayə oxumaq*) fərqlərini soruşa bilər. Yönəldici suallar verilir:

Sizcə, bu birləşmələrin əsas xüsusiyyəti nədir?

Cavablar alındıqdan sonra müəllim əvvəldən hazırladığı feili birləşmələrə aid nümunələri şagirdlərə təqdim edir və ismi birləşmələrlə müqayisələr aparılır. Oxşar və fərqli cəhətlər Venn diaqramı əsasında müəyyənləşdirilir.

Tədqiqat sualı formalaşdırılır:

Mürəkkəb adlar söz birləşməsi ola bilərmi?

Tədqiqatın aparılmasının davamı kimi feili birləşmələrin öyrədilməsi üçün motivasiya xarakterli 8-ci tapşırıq cütlər vasitəsilə yerinə yetirilir.

Əldə edilən nəticə müəllim tərəfindən ümumiləşdirilir və feili birləşmələr haqqında məlumat verilir. Müzakirə aparılır, dərs-

likdəki 10, 11, 12-ci tapşırıqlar yerinə yetirilir.

Yaradıcı tətbiqetmə kimi şagirdlərə 13-cü tapşırıq verilir. Müəllim çalışmalıdır ki, şagird bölmədəki hər mətndən öyrəndiyi vacib insani keyfiyyətləri seçib ümumiləşdirə bilsin.

Ev tapşırığı 14-cü tapşırıq ola bilər.

Qiymətləndirmə təlim nəticəsinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Fikrini əsaslandıra bilmir.	Fikrini əsaslandırarkən faktlara müraciət etmir.	Fikrini əsaslandıran zaman auditoriyadan kömək alır.	Fikrini faktlarla müstəqil əsaslandırır.
Dialoq yazmaqda çətinlik çəkir.	Dialoqu müəllimin köməyi ilə yazır.	Dialoq yazarkən müəyyən səhvlərə yol verir.	Əlavə materiallardan istifadə etməklə dialoq yazır.
Söz birləşmələrinin növünü müəyyənləşdirə bilmir.	Söz birləşmələrinin növünü müəyyənləşdirməkdə çətinlik çəkir.	Söz birləşmələrinin növünü müəllimin köməyi ilə müəyyənləşdirə bilir.	Söz birləşmələrinin növünü müəyyənləşdirə bilir.

KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏYƏ NÜMUNƏ

KSQ №1

ŞAH VƏ XİDMƏTÇİ

Keçmiş zamanlarda bir şah varmış. Bu şah həmişə bir neçə qüvvətli köpək saxlarmış. 1 Şahın bir nəfərə acığı tutanda onu itlərə atarmış. 2 İtlər də o saat onu parçalar, dağıdıb yeyərmiş.

Şahın cavan bir xidmətçisi də vardı. Cavan fikirləşirdi ki, cəllad şah bir gün qəzəblənib onu da itlərə atdıracaq. Buna görə də o, itlərə baxan xidmətçi ilə dostlaşdı. 3 İtlər cavanı gördükdə onu mehribanlıqla qarşılayardılar.

Günlərin birində zülmkar şahın cavan xidmətçiyə acığı tutur. 4 Əmr edir ki, onu itlərə atsınlar. Cəllad gəncin əl-qolunu bağlayıb onu itlərə atır. Lakin itlər oğlanı dərhal tanıyır, quyruqlarını bulayırlar.

5 Sonra itlərin hamısı cavanı dövrəyə alır, sanki onu şahın bəlasından qorumaq istəyirdilər (Nizami Gəncəvidən).

1. "Cavan hər dəfə itlərin yanına gələndə özü ilə bir parça ət gətirər və köpəklərə atardı" cümləsini hara əlavə etmək olar?

A. 2 **B.** 5 **C.** 3 **D.** 4 **E.** 1

2. Mətnə uyğun atalar sözü yazın:

_____

_____

3. Fikrin davamına hansı cümlə daha çox uyğundur?

Xidmətçi itlərə baxan xidmətçi ilə ona görə dostlaşır ki, ...

A. İtləri oğurlamaq istəyirdi.
B. Şah tapşırmışdı.
C. Xidmətçini öldürmək istəyirdi.
D. İtləri zəhərləmək istəyirdi.

4. Bu mətndə ifadə olunan əsas ideya nədir?

_____

5. Şah nə üçün köpək saxlayırdı?

A. Heyvanları sevirdi.
B. Onların sayını artırmaq istəyirdi.
C. Onlara yazığı gəlirdi.
D. Acığı tutanda insanları itə atırdı.
E. Təhlükə zamanı itləri düşmən üzərinə buraxırdı.

6. Birinci cümlədə işlənən söz birləşmələrini seçib yazın.

_____

_____

_____

_____

7. Birinci abzasdakı feili birləşməni müəyyənləşdirin:

A) Şahın bir nəfərə acığı tutanda
B) Acığı tutanda
C) Onu parçalar
D) Qüvvətli bir köpək saxlarmış
E) Onu itlərə atarmış

8. İkinci abzasdakı söz birləşməsi ilə bağlı səhv cavabı müəyyənləşdirin.

A) Şahın cavan bir xidmətçisi – ismi birləşmədir.
B) İtlərə baxan – ikinci tərəf təsriflənməyən feillə ifadə olunub.
C) Cavanı gördükdə – tərəflərdən biri feili bağlamadır.
D) Cəllad şah – sifət + isim sxeminə uyğundur.
E) Mehribanlıqla qarşıladılar – feili birləşmədir.

9. "İtlərin hamısı" birləşməsi ilə bağlı doğru fikri müəyyənləşdirin.

A) Tərəfləri isimlə ifadə olunub.
B) Bu, söz birləşməsi deyil.
C) İkinci tərəf II şəxsin təkinin mənsubiyyət şəkilçisini qəbul edib.
D) Əsas tərəf yiyəlik hal şəkilçisi qəbul edib.
E) Əsas tərəf isimdir, mənsubiyyət şəkilçisi qəbul edib.

10. "Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərindən götürülmüş "Şah və xidmətçi" hekayəsi nəsrə çevrilmişdir" cümləsindəki mürəkkəb adları seçin.

1. Nizami Gəncəvi
2. "Leyli və Məcnun" əsəri
3. Nəsrə çevrilmişdir.
4. "Şah və xidmətçi"
5. "Şah və xidmətçi" əsərindən götürülmüşdür.

A) 1, 2, 4 B) 3, 4, 5 C) 1, 3, 5 D) 1, 2, 5 E) 2, 3, 5

Qeyd. Müəllim dərslikdə verilmiş tapşırıq və test nümunələrindən də istifadə etməklə KSQ hazırlaya bilər.

Mövzu 1

Dialoq

Məzmun standartları:

1.1.2., 1.2.1., 1.2.3., 2.1.1., 2.1.2., 2.2.3.

Təlim nəticələri:

- Dialoqdakı fikrin məntiqiliyini əsaslandırır.
- Mətni şagirdlərin başa düşəcəyi şəkildə nəql edir.
- Müvafiq nitq etiketlərindən istifadə edir.
- Sözlərin mənasını araşdırır.
- Sözlərin həqiqi və məcazi mənasını aydınlaşdırır.
- Dialoqdakı faktları müasir dövrlə müqayisə edir və əlaqələndirir.

İş formaları:

kollektiv, cütlərlə, fərdi

İş üsulları:

oxu, sual-cavab, müzakirə

Resurslar:

dərslik, lüğət



II

1 TARİXİN DAŞ YADDAŞI

1. Bölmənin adına munasibət bildirin. Sizcə, burada nədən söhbət gedəcək?
2. Dialoqda abzasların ardıcıllığını müəyyənləşdirin. Sizcə, əsas nəyə diqqət yetirməlisiniz?
3. Tələffüz qaydalarını gözləməklə dialoqu oxuyun.

1 – İstanbulda 2 qitəni birləşdirən körpüyə, Peterburqun bəyaz gecələrində gəmi karvanlarını okeana yola salan asma körpülərə baxanda az qalıram ki, mən də körpü salam.
– Hansını deyəsən? Kərpic memarlığının incisi sayılan Naxçıvan-Bərdə abidələri, Bakı-Şirvan memarlıq kompleksləri, Şəki-Şirvan sarayları, adicə çay daşından ucaldılmış Gəncə-Ordubad imarətləri, karvansaralar, ovdanlar...
– Hələ müasir tikililər. Onlar nə qədər gözəldir! Bu gün Bakıya gələn turistlər bu şəhərin qeyri-adi gözəlliyindən heyranlıqla danışırlar.

2 – Görürsən, Bakımız gündən-günə necə gözəlləşir?
– Hə, elədir. Müasir tikililər şəhərə xüsusi gözəllik verir.
– Tarixin şahidi olan memarlıq abidələri müasir tikililərlə bir *harmoniya* yaradır, tarixlə müasirliyi əlaqələndirir.
– Mənca, sabahın şəhərlərini yaradan memarların yalnız bir *fəlsəfəsi* var: təki insanlar rahat yaşasınlar, təki insanlar gözəllikdən zövq alsınlar.
– Hər daşında bir hikmət gizlənən, hər daşında tarixlərin nişanını yaşadan Azərbaycan memarlıq nümunələri xalqımızın nəyə qadir olduğuna əyani sübutdur.

İlk cümləyə hansı müraciət etiketini artırmaq olar?

"Sabahın şəhərləri" ifadəsinə münasibət bildirin.

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim bu bayatıdan istifadə edə bilər:

Əzizim, bizim qala
Həmişə bizim qala
Tikmədim özüm qalam
Tikdim ki, izim qala.

Yönəldici suallar vasitəsilə bayatıda ifadə edilən fikir ətrafında müzakirə aparılır, ümumi rəyə gəlinir.

Tədqiqat sualı formalaşdırılır:

Xalqın sərvəti dedikdə nə başa düşülür?

Tədqiqatın aparılması dialoqun oxusu ilə başlanır. 3-cü tapşırığa əsasən oxu zamanı 1-ci tapşırıq da yerinə yetirilir. Oxu müxtəlif üsullarla həyata keçirilə bilər. Oxu zamanı və ya oxudan sonra mətndaxili suallar üzərində iş aparılır. I bölmədə şagird artıq görüşmə etiketləri ilə tanış olmuşdur. Bu bölmədə şagird müraciət etiketləri haqqında məlumat alır. Müəllim həmin etiket növlərindən məqamına uyğun olaraq istifadə etməyi şagirdlərə öyrət-

məlidir. Bunun üçün müəllim müxtəlif istiqamətlərdə iş apara bilər. Oxu başa çatdıqdan sonra müəllim faktoloji suallarla sinfə müraciət edə bilər. Eyni zamanda müəllim çalışmalıdır ki, şagirdlər özləri də mətn üzərində iş apararkən sualla biri digərinə müraciət etsin. Dərslikdəki 2 və 4-cü tapşırıqlar qrup şəklində yerinə yetirilsə, məqsədəuyğun olar. Mətnin oxusundan sonra 7 və 10-cu tapşırıqlar həm cütlərlə iş formasından istifadə etməklə, həm də kollektiv müzakirələr şəklində aparıla bilər. Bu, müəllimin dərsini qabaqcadan planlaşdırmasından asılıdır. Rayon və kənd məktəblərində dərs deyən müəllimlər 8-ci tapşırığın yerinə yetirilməsi zamanı paytaxtımızdakı müvafiq tikililərin şəkil və video görüntülərini şagirdlərə təqdim edə bilər, yaxud da öz yaşayış ərazilərində diqqəti çəkən hər hansı bir müasir tikilinin görüntülərindən istifadə etməsi məsləhətdir.

Cütlərlə iş yerinə yetirildikdən sonra müzakirə aparılır. Şagird fikirləri müzakirə edilir. Bu zaman 9, 11, 12 və 13-cü tapşırıqlar da yerinə yetirilir.

Ümumiləşdirmə və nəticə kimi 5-ci tapşırıqdan istifadə edilə bilər. Şagirdlər sonda bu nəticəyə gəlməlidirlər ki, vətənə məxsus hər bir şey, keçmişdən bu günə qalan daş parçası da, əslində, onun sərvətidir. Bugünkü memarlığımız dünənimizə söykənir.

Yaradıcı tətbiqetmə zamanı müəllim müasir inşaat işləri ilə bağlı hər hansı bir təqdimatın hazırlanmasını tapşıra bilər. Müəllim ev tapşırığı verərkən şagirdin səviyyəsini nəzərə almalıdır.

Ev tapşırığı olaraq 6-cı tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Dialoqdakı fikri müəyyənləşdirməyə çətinlik çəkir.	Dialoqdakı fikri müəllimin köməyi ilə müəyyənləşdirir.	Dialoqdakı fikri müəyyənləşdirir.	Dialoqdakı fikri müəyyənləşdirir, faktlarla fikrinin məntiqiliyini əsaslandırır.
Dialoqu nəql etməyə çətinlik çəkir.	Dialoqu müəllimin köməyi ilə nəql edir.	Dialoqu sadə dildə nəql edir.	Dialoqu sadə dildə əlavələr etməklə nəql edir.
Nitq etiketlərindən çətinliklə istifadə edir.	Nitq etiketlərindən istifadə edir.	Nitq etiketlərindən məqamına uyğun istifadə edir.	Nitq etiketlərinin alternativlərindən istifadə edir.
Sözlərin mənasını aydınlaşdırmağa çətinlik çəkir.	Sözlərin mənasını müəlliminin köməyi ilə aydınlaşdırır.	Sözlərin mənasını aydınlaşdırır.	Sözlərin mənasını aydınlaşdırır və cümlədə işlədir.
Sözlərin həqiqi və məcazi mənasını aydınlaşdırmağa çətinlik çəkir.	Sözlərin həqiqi və məcazi mənasını müəllimin köməyi ilə aydınlaşdırır.	Sözlərin həqiqi və məcazi mənasını aydınlaşdırır.	Sözlərin həqiqi və məcazi mənasını cümlələrdə işlətməklə aydınlaşdırır.
Dialoqdakı faktları seçməyə və müasir dövrlə əlaqələndirməyə çətinlik çəkir.	Dialoqdakı faktları müəllimin köməyi ilə müasir dövrlərlə müqayisə edir və əlaqələndirir.	Dialoqdakı faktları müasir dövrlə müqayisə edir və əlaqələndirir.	Dialoqdakı faktları müasir dövrlə müqayisə edir və nümunələr gətirməklə əlaqələndirir.

Mövzu 2

Dialoq

Məzmun standartları:

1.1.2., 3.1.3., 4.1.2.

Təlim nəticələri:

- Fikrin məntiqiliyini nümunələrlə əsaslandırır.
- Cümlələr arasında əlaqəni gözləməklə yazıya düzəlişlər edir.
- Söz və söz birləşmələri arasındakı əlaqələri müəyyən edir.

İş formaları:

kollektiv, fərdi, qruplarla

İş üsulları:

sual-cavab, müzakirə, cəld yazı

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

3 – Türk şairi Nazim Hikmət Azərbaycanda olarkən demişdir: "Bu xalqın nəyə qadir olduğunu bilmək üçün baş sındırmayın, təkcə memarlıq abidələrinə baxsanız, bəs edər".

Əmir Teymurun saray *salnaməçisi* Şərafiddin ə Yəzidi "Zəfərnamə" əsərində Səmərqənd saraylarını ucaldan azərbaycanlı ustaların yüksək sənətkarlığından ürək dolusu danışır və bu ustaların zorla Səmərqəndə aparıldığını qeyd edir.

– Orta əsr coğrafiyaşünası Əbdürrəşid Bakuvi Azərbaycana gələrkən iti axarlı Arazın üstündəki Diya-əl-Mülk körpüsünün möhtəşəmliyinə heyran qalmış, bu yüksək sənət əsərini "dünyanın yeddi möcüzəsindən biri" adlandırmışdır.

Sizcə, nə üçün N.Hikmət memarlıq abidələrini xalqın qüdrətini ifadə etdiyini düşünür?

Həqiqətənmi, memarlıq abidələri xalqın qüdrətini nümayiş etdirir?

4. Ölkəmizdəki müasir tikililər haqqında bildiyiniz məlumatlardan istifadə edərək dostların söhbətini davam etdirməyə çalışın.

5. Dialoqdan hansı nəticəni çıxardınız? Nəticəyə əsasən dialoqu adlandırın.

6. Hadisələri III şəxsin dilindən danışın. Bunun üçün səhifə 9-da verilmiş nümunədən istifadə edin.

7. Azərbaycanda dünyanın möcüzəsi sayıla bilən hansı abidələr var?

8. "Memarlığımız dünən və bu gün" mövzusunda fikir mübadiləsi aparın.

9. Mətndə göy rəngdə verilmiş cümlələrdə adı çəkilən abidələr haqqında hansı məlumata maliksiniz? Həmin abidələr haqqında məlumat toplayıb kiçik mətnlər tərtib edin. Bu mətnləri hansı tipdə (nəqli, təsviri, yaxud mühakimə xarakterli) yazacağınızı özünüz müəyyənləşdirin.

10. Dialoqda fərqləndirilmiş sözlərin leksik mənalarını izah edin.

11. *Memarlıq, memar, memarlıq abidələri* dialoq üçün açar söz hesab edilə bilərmi? Fikrinizi əsaslandırın.

12. *Müasir* sözünün sinonimini tapın və istifadə dairəsini izah edin.

13. Mətndən məcazi mənalı sözləri tapın, onların müvafiq əsas sözlə əlaqəsini göstərin.

DƏRSİN GEDİŞİ

Dərsin 2-ci saatında **motivasiya** mərhələsində müəllim lövhəyə bir neçə söz (kitab, yaşıl, cild, qələm, sonra və s.) yazır və "Bu sözləri necə əlaqələndirmək olar?" sualı ilə sinfə müraciət edir. Müəllim çalışmalıdır ki, uşaqlar həmin sözləri məna və qrammatik cəhətdən əlaqələndirə bilsinlər (kitab cildi, yaşıl qələm). Səh. 32-dəki 14, 15, 16-cı tapşırıqlar qruplarda yerinə yetirilir. Sonra qrupların cavabları dinlənilir, müzakirə edilir. Müəllimin köməyi ilə şagird sintaktik əlaqələr haqqında məlumatı öyrənir.

Şagirdlərdə aşağı siniflərdən kiçik məqalə yazmaq vərdişləri formalaşdığı üçün

dərsin növbəti mərhələsində həmin prosesin davamı kimi müəllim 17-ci tapşırıq üzərində iş aparır. Şagirdlər tabesizlik əlaqəsi ilə bağlanan sözləri tapır. Onlar arasında olan sadalama intonasiyasını tabesizlik bağlayıcıları ilə əvəz edilə biləcəyini də aydınlaşdırırlar. Ümumiləşdirmə mərhələsində 18-ci tapşırıq yerinə yetirilir.

Yaradıcı tətbiqetmə kimi evə həmin məzmunda tapşırıq verilə bilər. Şagirdlərə sərbəstlik verilməlidir.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılmalıdır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Fikrini məntiqi cəhətdən əsaslandırmağa çətinlik çəkir.	Fikrini məntiqi cəhətdən müəllimin köməyi ilə əsaslandırır.	Fikrini məntiqi cəhətdən əsaslandırır.	Əlavə faktlar göstərməklə fikrini əsaslandırır.
Cümlələr arasındakı əlaqəni müəyyənləşdirməkdə çətinlik çəkir.	Cümlələr arasındakı əlaqəni müəllimin köməyi ilə əlaqələndirir.	Cümlələr arasındakı əlaqəni müəyyənləşdirir.	Cümlələr arasındakı əlaqəni fikrini əsaslandıraraq müəyyənləşdirir.
Söz və söz birləşmələri arasındakı sintaktik əlaqəni müəyyən edə bilmir.	Söz və söz birləşmələri arasındakı sintaktik əlaqəni çətinliklə müəyyən edir.	Söz və söz birləşmələri arasındakı sintaktik əlaqəni müəllimin köməyi ilə müəyyən edir.	Söz və söz birləşmələri arasındakı sintaktik əlaqəni müstəqil müəyyən edir.

Mövzu 3

Dialoq (şəkil üzərində iş)

Məzmun standartları:

1.1.2., 2.2.2., 3.1.1.

Təlim nəticələri:

- Fikrin məntiqiliyini nümunələrlə əsaslandırır.
- Mətnin hissələri arasındakı əlaqəni şərh edir.
- Bayraq mövzusunda təsviri xarakterli esse yazır.

İş formaları:

kollektiv, fərdi, qruplarla

İş üsulları:

sual-cavab, müzakirə, cəld yazı

Resurslar:

dərslik, lüğət, Bayraq Meydanı haqqında videosüjet, şəkillər

Bayrağımız dövlətçiliyimizin və müstəqilliyimizin rəmzidir.

Ümummilli lider Heydər Əliyev

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2007-ci il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" sərəncam imzalamışdır. Bu sərəncama əsasən, hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

...Mənim öz ulduzumu bağrına basmış hilalım,
Dedi öndər: "Yönü bayraqdakı üç rəngdən alım".
Sən bu gül bayrağın altında məramınca yaşa,
Qoyma düşmən nəfəsindən ona çirkab bulaşa.
Sənin öz bayrağının kölgəsi cənnətdi sənə,
Güneş hər gün doğur ancaq içimizdən Vətənə.

Bəxtiyar Vahabzadə

19. Verilən materiallardan istifadə etməklə əlavə məlumatlar toplayıb "Bayrağım kimliyimdir" adlı təsviri (nəqli) xarakterli esse yazın.

Tərkibində *gün* sözü olan və təqvimə düşən əlamətdar günlərin adlarında bütün sözlər böyük hərflə yazılır:

Beynəlxalq Qadınlar Günü, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və s.

Məşhur tarixi gün və bayramların adlarında sözlərin ancaq əvvəlincisi böyük hərflə yazılır:

İyirmi yanvar (20 Yanvar), Qurban bayramı, Novruz bayramı və s.

33

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə mövzu ilə bağlı frontal sorğu ilə başlaya bilər. Sonra səh. 33-dəki şəklə diqqət yetirilir.

Diqqət Heydər Əliyevin aforizminə cəlb edilir. Bu, **tədqiqat sualı** da ola bilər.

Şagirdlərin fikirləri dinlənilir. Çalışmaq lazımdır ki, şagirdlər *dövlətçilik* və *müstəqillik* sözlərinin mənasını tam qavraya bilsinlər. Bunun üçün şagirdlərə adi həyati misallardan, insan hüquqlarından misal çəkmək olar. Məsələn, şagirdlər bərabərhüquqludurlar, onların oxumaq, istirahət etmək, əylənmək və s. kimi hüquqları vardır.

Müəllim iş vərəqlərində şagirdlərə kiçikhəcmli mətnlər paylamaqla tabelilik və ta-

besizlik əlaqələrində olan sözləri müəyyənləşdirmək üçün tapşırıqlar verə bilər. Eyni zamanda mürəkkəb adların yazılışı ilə bağlı qayda (səh. 33) izah edilir.

Bu tapşırığın yerinə yetirilməsi 9 Noyabr – Bayraq Günü ərəfəsinə təsadüf etdiyi üçün bu əlamətdar hadisə ilə bağlı hər hansı bir yazının yazılması, təqdimatın hazırlanması, sinif daxilində həmin günlə bağlı hər hansı kiçik bir tədbirin keçirilməsi məqsədəuyğundur. Müəllim şagirdlərə şəkil üzrə inşa yazmağı da təklif edə bilər.

"Bayrağım kimliyimdir" adlı təsviri xarakterli essenin yazılmasında dərsliyin 33-cü səhifəsində verilən materiallardan, İnternetdən, ayrı-ayrı şairlərin müvafiq mövzuda yazdıqları bədii nümunələrdən istifadə edilməsi məqsədəuyğundur.

Təsviri xarakterli inşanın yazdırılması üçün müəllim aşağıdakı plan nümunəsini təqdim edə bilər.

1. Bayrağın yaradılması haqqında məlumat
2. Əlavə materialların toplanması
3. Toplanılan məlumatlardan əsas faktların seçilməsi
4. Məlumatların sistemləşdirilməsi və əlaqələndirilməsi
5. Yazıda məlumatların ardıcıllığını təmin etmək.
6. Əsas fikrin ifadə edilməsi
7. Nəticə

Belə tapşırıqların qruplar şəklində aparılması daha məqsədəuyğundur.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılmalıdır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Fikrin məntiqiliyini əsaslandırmağa çətinlik çəkir.	Fikrin məntiqiliyini müəllimin köməyi ilə əsaslandırır.	Fikrin məntiqiliyini əsaslandıranda bəzi səhvlərə yol verir.	Fikrin məntiqiliyini əsaslandırır.
Mətnin hissələrini əlaqələndirməkdə çətinlik çəkir.	Mətnin hissələrini müəllimin köməyi ilə əlaqələndirir.	Mətnin hissələrini əlaqələndirir.	Mətnin hissələrini fikrini əsaslandırmaqla düzgün əlaqələndirir.
Təsvir xarakterli inşa yazmaqda çətinlik çəkir.	Essenin xarakterini müəyyənləşdirməkdə çətinlik çəkir.	Təsvir xarakterli inşanı müəllimin köməyi ilə yazır.	Təsvir xarakterli inşanı sərbəst şəkildə yazır.

Mövzu 4

Niyazi

Məzmun standartları:

1.1.2., 1.2.2., 2.1.1., 3.1.3.

Təlim nəticələri:

- Fikrini məntiqi cəhətdən əsaslandırır.
- Nitqində əlavə faktlardan istifadə edir.
- Yeni sözlərin mənasını aydınlaşdırır.
- Hissələr arasında əlaqəni gözləməklə mətnə əlavə edərək yazır.

İş formaları:

kollektiv, cütlərlə, qruplarla

İş üsulları:

müzakirə, beyin həmləsi, klaster

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, Ömər Qoçulu "Daşa dönmüş musiqi" kitabı

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə *əsl sənətkar, sənət əsəri* ifadələrinin mənalarını soruşmaqla başlaya bilər. Şagirdlərin fikirləri dinlənilir, müzakirə edilir, vahid nəticəyə gəlinir.

Dərslikdəki mətn oxunur, mətndaxili suallar üzərində iş aparılır. Əsas diqqət mətndaxili birinci suala yönəldilir.

"*Müasirliyi necə başa düşürsünüz?*" sualı **tədqiqat sualı** ola bilər. Müəllim çalışmalıdır ki, şagird "müasirlik" sözünün mahiyyətini tam başa düşə bilsin. Bunun üçün müəllim **tədqiqatın aparılması** mərhələsində uşaqlara müxtəlif arqumentlər yazılmış iş vərəqləri təqdim edə bilər, yaxud klaster üsulundan istifadə edə bilər.

Bu, şagirdlərə əsas fikrin müəyyən edilməsinə yardımçı olar. Mətndəki əsas fikir şagirdlərin gəldikləri nəticə ilə əlaqələndirilir. Məzmun üzrə 1, 4, 6–8-ci tapşırıqlar (səh. 35) qruplarda yerinə yetirilir. 6-cı tapşırıq şagirdlərdə diqqətin formalaşmasına xidmət edir. 8-ci tapşırıq dil paralellərinin müəyyənləşdirilməsinə xidmət edir:

əfv edərsiniz – bağışlayın, üzrlü sayın; lütfən – zəhmət olmazsa; sinirli – qəzəbli, əsəbi; əcəba – yoxsa; yavrum – balam.

8-ci tapşırıq yerinə yetirilərkən müraciət etiketlərinin müəyyənləşdirilməsi üçün diqqət daha çox mətnin dialoq hissəsinə yönəldilməlidir. Çünki etiketlərdən məhz ünsiyyət prosesində istifadə olunur.

Bu tapşırıqlar dilin lüğət tərkibinin zənginləşdirilməsinə xidmət edir.

7-ci tapşırığı yerinə yetirərkən müəllim Niyazinin Üzeyir Hacıbəylilər nəslindən olduğunu şagirdlərə xatırlatmalıdır. İKT-dən istifadə imkanı olan məktəblərdə şagirdlər İnternet materiallarından yararlana bilərlər. Əgər texniki imkanlar yoxdursa, müəllim özü Niyazi haqqında qabaqcadan hazırlanmış materialı tezis şəklində şagirdlərə təqdim edə bilər.

Yaradıcı tətbiqetmə kimi 5-ci tapşırıq (səh. 35) yerinə yetirilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Fikrini əsaslandırmaqda çətinlik çəkir.	Fikrini əsaslandırarkən faktlara müraciət etmir.	Fikrini əsaslandıran zaman auditoriyadan kömək alır.	Fikrini faktlarla müstəqil əsaslandırır.
Mətnə əlavələr edə bilmir.	Mətnə çətinliklə əlavələr edir.	Müəllimin köməyi ilə mətnə əlavələr edə bilir.	Mətnə asanlıqla əlavələr edə bilir.
Qarşılaşdığı yeni sözləri izah etməkdə çətinlik çəkir.	Yeni sözləri müəllimin köməyi ilə izah edir.	Yeni sözün mənasını izah edir.	Yeni söz və söz birləşmələrinin mənasını izah edir.
Mətnin hissələrini əlaqələndirməkdə çətinlik çəkir.	Mətnin hissələrini müəllimin köməyi ilə əlaqələndirir.	Mətnin hissələrini əlaqələndirir.	Mətnin hissələrini fikrini əsaslandırmaqla düzgün əlaqələndirir.

Mövzu 5

Niyazi

Məzmun standartları:

1.2.4., 3.1.4., 4.1.2.

Təlim nəticələri:

- Söylənilən fikirləri ümumiləşdirir.
- Məqalə yazır.
- Söz və söz birləşmələri arasındakı sintaktik əlaqəni müəyyən edir.

İş formaları:

kollektiv, fərdi

İş üsulları:

sual-cavab, müzakirə

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

nə qədər də uyğun gəlir!.. Dönə-dönə əmin oldum ki, biz BU GÜNÜN memarlığını yaradarkən KEÇMİŞƏ kor-koranə yox, *novatorcasına*, yeni baxışla müraciət etməliyik. Ağ?saqqallara, müdriklərə müraciət edən kimi! Ehtiramla, hörmətlə, amma yeni baxışla...

Ömər Qoçulu
"Daşa dönmüş musiqi" kitabından

1. Mətni adlandırın və əsas fikri müəyyənləşdirin.
2. Dialoqda işlənən "müasirlik" sözünün ifadə etdiyi məna ilə (səh. 30) mətndə işlənən "müasirlik" sözünün mənasını qarşılaşdırın. Eynilik gördünüzmü? Niyə belə hesab edirsiniz?
3. Mətndə bu gün və keçmiş sözlərinin böyük hərflə verilməsinin səbəbini izah edin.
4. Mətndəki hansı fakt sizi daha çox təsirləndirdi? Niyə?
5. Müasirlik dedikdə nə başa düşürsünüz? Fikirləriniz maestronun fikirləri ilə üst-üstə düşürmü?
6. Suallardan hansına mətndə cavab tapmaq olmaz?
- Mətndə hansı Azərbaycan bəstəkarının adı çəkilir?
- Niyazi hansı baleti tamaşaya hazırlayırdı?
- Maestronun izahına görə, Şekspir niyə müasir hesab edilir?
- Sənətdə müasirlik nə deməkdir?
- Gənc memar nə üçün maestronun evinə dəvət olunur?

7. Maestro Niyazi haqqında məlumat toplayın. Ona "maestro" deyə müraciət edilməsinin səbəbini araşdırın. Onun haqqında kiçik mətn hazırlayıb mətnin uyğun bildiyiniz hissəsinə əlavə edin.

8. *Əfv edərsiniz, lütfən, yavrum, sinirli, əcəba* sözlərini qarşılığı ilə əvəz edib cümlədə işlədin. Sizcə, hansının işlənməsi daha məqsədəuyğundur?
9. Fərqləndirilmiş sözlərin sinonimlərini tapın. Onlar həmişə bir-birini əvəz edə bilirmi?
10. Mətndəki etiketləri seçib mənə növünü müəyyənləşdirin.

11. Mətndə tabesizlik əlaqəsində olan sözləri seçib yazın.
12. Mətndə altından xətt çəkilmiş cümlələri seçib yazın, asılı sözləri müəyyənləşdirib əsas sözlə necə əlaqələndiyinə diqqət yetirin.

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə frontal sorğu ilə başlaya bilər. Müəllim 6-cı sinifdə xəbərlə mübtədanın uzlaşmasına aid əldə edilmiş bilik və bacarıqları sual-cavab etməklə şagirdlərin yadına salır. Yaxud müəllim lövhəyə aşağıdakı cümlələri yazıb xəbərlərin şəxs sonluqlarını bərpa etməyi tapşıra bilər.

Biz evə qayıdır...?
Sən ağıllı qız...?
Yarpaqlar yaşıllaşır...?
Quşlar cəh-cəh vurur...?

Şagirdlər müəyyənləşdirirlər ki, birinci cümlədə *-ıq,* ikinci cümlədə *-san* şəxs sonluqlarından istifadə olunur. Üçüncü cümlədə mübtəda cansız varlıqla ifadə olunduğu

üçün *-lar* kəmiyyət şəkilçisindən istifadə olunmur. Dördüncü cümlədə *-lar* kəmiyyət şəkilçisindən istifadə oluna da bilər, istifadə olunmaya da bilər.

Tədqiqat sualı formalaşdırılır:

Tabelilik əlaqəsi nə zaman olur?

Qruplar tədqiqat aparır. Tabelilik əlaqəsinin mahiyyəti şagirdlərə izah edilir, nümunələrlə əsaslandırılır. 13-14-cü tapşırıqlar (səh. 36) yerinə yetirilir, müzakirələr aparılır. Səh. 36-da olan 15-ci tapşırıq əldə edilmiş bilikləri möhkəmləndirməklə yanaşı, yeni bacarıqlar formalaşdırmağa xidmət edir. Tapşırığın yerinə yetirilməsində əsas məqsəd mübtəda ilə xəbərin kəmiyyətə görə düzgün uzlaşdırılmasıdır. Bu istiqamətdə müəllim sinfin səviyyəsinə uyğun olaraq özü də müvafiq tapşırıqlar hazırlayıb şagirdlərə təqdim edə bilər. Mətnin altında verilmiş ikinci tapşırıq keçmiş biliklərin təkrarlanması məqsədilədir.

Müəllim söz birləşmələrinin tərəfləri arasında tabelilik əlaqəsinin olması istiqamətində iş aparmalıdır. Bu məqsədlə frontal sorğu vasitəsilə yiyəlik hal və mənsubiyyət şəkilçiləri haqqında biliklər yada salınır. Müəllim xatırladır ki, bu şəkilçilər söz birləşmələrinin yaranmasında birbaşa iştirak etməklə yanaşı, uzlaşma əlaqəsinin də göstəricisidir.

Yaradıcı tətbiqetmə kimi müstəqil olaraq 16-cı tapşırığı (səh. 37) yerinə yetirmək tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə əsasən aparılmalıdır.

Qeyd. Bütün dərslərin fəal təlimin mərhələlərinə uyğun aparılması vacib deyildir. Müəllim qeyri-standart dərs növlərinə də müraciət etməlidir.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Söylənilən fikirləri ümumiləşdirməkdə çətinlik çəkir.	Söylənilən fikirləri müəllimin köməyi ilə ümumiləşdirə bilir.	Söylənilən fikirləri ümumiləşdirə bilir.	Söylənilən müxtəlif fikirləri ümumiləşdirə bilir.
Məqalə yazarkən çətinlik çəkir.	Məqalə yazarkən hissələri düzgün müəyyənləşdirə bilmir.	Məqaləni müəllimin köməyi ilə yazır.	Məqaləni sərbəst şəkildə yazır.
Söz və söz birləşmələri arasındakı sintaktik əlaqəni müəyyən edə bilmir.	Söz və söz birləşmələri arasındakı sintaktik əlaqəni çətinliklə müəyyən edir.	Söz və söz birləşmələri arasındakı sintaktik əlaqəni müəllimin köməyi ilə müəyyən edir.	Söz və söz birləşmələri arasındakı sintaktik əlaqəni müəyyən edir.

Mövzu 6

Muğan (əfsanə)

Məzmun standartları:

1.2.4., 2.1.1., 2.1.2., 2.2.1., 2.2.2., 3.1.1.

Təlim nəticələri:

- Deyilən fikirləri ümumiləşdirir.
- Mətndəki yeni sözlərin mənasını izah edir.
- Mətndəki məcazi mənalı sözlərin mənasını izah edir.
- Mətnin abzasları arasındakı əlaqələri müəyyənləşdirir.
- Mətnin hissələrini düzgün əlaqələndirir.
- Mövzu ilə bağlı mətn yazır.

İş formaları:

kollektiv, cütlərlə, qruplarla

İş üsulları:

müzakirə, proqnozlaşdırılmış oxu, anlayışın çıxarılması, beyin həmləsi

Resurslar:

dərslik, lüğət,
“Əfsanələr” kitabı

3 MUĞAN

1. Mətndə altından xətt çəkilmiş yerlərdə abzasları əlaqələndirmək üçün müvafiq cümlələr əlavə edin.

Muğan enlikürəkli, sağlambədənli, ağıllı, mərd və qoçaq bir oğlan idi. Qəbilə qızlarının çoxu ona vurulmuşdu. Muğan isə Zivər adlı bir qızı sevirdi. Hər ikisi bir obada böyümüş, at çapmış, qılınc oynatmışdılar. Əvvəllər oyun və yarışlarda bir-birinə üstün gəlmək üçün səy göstərər, sonra isə oyunu heç-heçə qurtarardılar. Muğan Zivəri görərkən qızarar, danışmağa söz tapmaz, nitqi tutulardı.

Sizcə, mətndə xalq niyə oyunların heç-heçə qurtarmasını vurğulayır?

Atəşgahlarda dua mərasimi zamanı igidlərə xoşbəxtlik arzulanardı. Gündoğan ölkənin xalqı da bu igidlə öyünər, fəxr edərdi. El ağsaqqalları iftixarla deyərdilər:

– Bizim Muğanımızın canı nə qədər sağdır, adamlarımız azad gəzəcək, sürümüz arxayın otlayacaq, yamyaşıl meşələrimiz, durnagözlü bulaqlarımız, cüyürlü çöllərimiz yadellilərin tapdağını görməyəcəkdir.

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə anlayışın çıxarılması üsulu ilə başlaya bilər.



Şagirdlərdən “şəhər” sözü alınır. Şəhərlərə məxsus digər xüsusiyyətlər müzakirə edilir.

Tədqiqat sualı formalaşdırılır:

Şəhərlərin xalqların və dövlətlərin tarixində rolu nədən ibarətdir?

Tədqiqatın aparılması mərhələsində "Muğan" mətni oxunur. Bu zaman proqnozlaşdırılmış oxu üsulundan istifadə məqsədəuyğundur. Müəyyən hissənin oxusu bitdikdən sonra (*Odur ki bu işi el anası icra etməli idi* cümləsinə qədər) "Sizcə, bundan sonra hadisələr necə olacaq?", "Ananın şərti nə ola bilər?", "Muğan ananın təklifini qəbul edə biləcəkmi?" və s. bu kimi suallardan istifadə edilə bilər. Şagirdlərin söylədikləri fikirlər dinlənilir və yazılı qeyd edilir. Mətnin oxusu başa çatdıqdan sonra mətn şagirdlərin cavabları ilə müqayisə edilir. Mətndaxili sual üzərində iş apararkən müəllim çalışmalıdır ki, şagirdlərdə "Böyüyün sözünü eşidən böyüyər" fikri formalaşsın.

Səh. 40-dakı 8-ci tapşırıq şagirdlərin məntiqi inkişafı üçün nəzərdə tutulub. Tapşırıq qruplarda yerinə yetirilir.

Cavab: 3, 1, 6, 4, 5, 2.

Fikir mübadiləsi zamanı 1–4-cü, 9, 10, 11 və 12-ci tapşırıqlar (şagirdlərin söz ehtiyatının artırılmasına xidmət edir) yerinə yetirilir.

Xalqların inkişafında şəhərlərin, şəhərsalmanın rolu beyin həmləsi üsulu ilə aydınlaşdırılır, ümumi nəticə çıxarılır.

Ümumiləşdirmə və nəticə. Hər bir millətin mədəniyyəti tarixi, müasirliyi, milliliyi, şəhərləri və şəhərsalma mədəniyyəti ilə müəyyənləşdirilə bilər. 6-7-ci tapşırıqlar bu mərhələdə yerinə yetirilə bilər.

Yaradıcı tətbiqetmə kimi 17-ci tapşırıq (səh. 42) verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılmalıdır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Deyilən fikirləri müstəqil ümumiləşdirə bilmir.	Deyilən fikirləri əlavə suallar verməklə ümumiləşdirir.	Deyilən fikirləri ümumiləşdirir.	Deyilən fikirlərə öz münasibətini bildirməklə ümumiləşdirir.
Yeni və məcazi mənalı sözlərin mənasını aydınlaşdırarkən çətinlik çəkir.	Yeni və məcazi mənalı sözlərin mənasını müəllimin köməyi ilə aydınlaşdırır.	Yeni və məcazi mənalı sözlərin mənasını aydınlaşdırır.	Yeni və məcazi mənalı sözlərin mənasını müxtəlif yollarla izah edərək aydınlaşdırır.
Mətnin abzasları arasındakı əlaqəni müəyyənləşdirməkdə çətinlik çəkir.	Mətnin abzasları arasındakı əlaqəni müəllimin köməyi ilə əlaqələndirir.	Mətnin abzasları arasındakı əlaqəni müəyyənləşdirir.	Mətnin abzasları arasındakı əlaqəni fikrini əsaslandıraraq müəyyənləşdirir.
Mətnin hissələrini əlaqələndirməkdə çətinlik çəkir.	Mətnin hissələrini müəllimin köməyi ilə əlaqələndirir.	Mətnin hissələrini əlaqələndirir.	Mətnin hissələrini fikrini əsaslandırmaqla düzgün əlaqələndirir.

Mövzu 7

Muğan

Məzmun standartları:

1.2.4., 3.1.2., 4.1.2.

Təlim nəticələri:

- Dinlədiyi fikirləri ümumiləşdirir.
- Uyğun sitatlardan istifadə edərək təqdimat hazırlayır.
- Söz birləşmələri və sözlər arasındakı əlaqəni müəyyən edir.

İş formaları:

kollektiv, qruplarla, cütlərlə, fərdi

İş üsulları:

sual-cavab, müzakirə

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

8. Abzasları ardıcıl düzməklə Sumqayıt şəhərinin yaranması haqqında əfsanəni öyrənə bilərsiniz.

1

Tayfanın yaşadığı yerin kənarından böyük bir çay axırmış. Bu çayda nəhənk bir əjdaha peyda olubmuş. Camaat əjdahanın qorxusundan suya yaxın düşə bilmirmiş.

2

Dərdə dözməyən Ceyran çöllərə üz tutur və bir gölə düşüb boğulur. Onların ölümündən sonra tayfa yaşadıqları yeri Sumqayıt, Ceyranın batdığı yeri Ceyranbatan gölü adlandırır.

3

İndiki Sumqayıt şəhərinin yerində qədimdə azərbaycanlılardan ibarət bir tayfa yaşayırmış. Tayfa özünün igid oğlanları və gözəl qızları ilə məşhur imiş.

4

Bu qərarı eşidən Sum bir neçə igidlə başçının yanına gəlir. Gündə bir qurban verməklə tayfanın tədricən məhv olmasına etiraz edir. Tayfanın igitdərini əjdahanı öldürməyə çağırır. Tayfa başçıları buna etiraz edir və Sum təklənir.

5

Növbə sevdiyi Ceyranın ailəsinə çatanda qızın ölümünə razı olmayan Sum əjdahaynan vuruşmağa gedir. Bunu bilən Ceyran "Sum, qayıt, Sum, qayıt!" – deyə onu haraylayır. Qız çaya çatanda suların qırmızı rəngə boyandığını görür, başa düşür ki, əjdaha Sumu parçalayıbdır.

6

Çaya yaxın düşəni əjdaha o saat parçalıyıb yeyirmiş. Tayfa başçılarının yalvarışlarından "insaf"a gəlib "güzəşt"ə gedən əjdaha suyun müqabilində gündə onlardan bir adam istəyir. Əlaçsız qalan tayfa başçıları bununla razılaşırlar.



✓ *Fikirləri tamamlayın.*

✓ *Mətndə tələffüz formasında verilən sözləri müəyyənləşdirin və tələffüzdəki fərqlənmənin səbəbini izah edin.*

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə frontal sorğu vasitəsilə ismin hal şəkilçiləri ilə bağlı keçmiş bilikləri təkrarlamaqla başlaya bilər. Yaxud lövhəyə "*dəniz... baxmaq*", "*məktəb... qayıtmaq*" tipli birləşmə yazıb nöqtələrin yerinə hansı şəkilçinin yazılmasını soruşa bilər.

Tədqiqat sualı formalaşdırılır:

Tabelilik əlaqəsi hansı qrammatik şəkilçilər vasitəsilə yaranır?

Dərsə 13-cü (səh. 41) tapşırığın cütlər vasitəsilə yerinə yetirilməsi ilə başlanıla bilər. Şagirdlərin cavabları dinlənilir, müzakirə edilir.

Dərslikdəki 14-cü tapşırıq yazılı şəkildə fərdi qaydada yerinə yetirilir. Müəllim bu

tapşırığı qruplar vasitəsilə də apara bilər. Şagirdlərə "Muğan" mətninin bitkin hissələri yazılmış iş vərəqləri paylanır. Bu tapşırığın icrasına 10 dəq. vaxt ayırmaq kifayət edər. Hər qrupun seçimi dinlənilir, bunun davamı olaraq müəllim yeni dərsin izahını verir, idarə əlaqəsinin xüsusiyyətləri açıqlanır. Müəllim dərsi izah edən zaman şagirdləri "*Necə bilirsiniz?*", "*Necə düşünürsünüz?*" kimi suallar verməklə müzakirəyə cəlb etməlidir.

15-ci tapşırığın yerinə yetirilməsi tabelilik əlaqəsinin mənimsənilməsi üçündür. Tapşırıqlar müəllimin seçimindən asılı olaraq şifahi və ya yazılı şəkildə icra edilə bilər. 16-cı tapşırıq dərsin **ümumiləşdirmə** mərhələsində yerinə yetirilir. Tapşırıq həm də növbəti dərs üçün zəmin rolunu oynayır. Müəllim şagirdlərdən Gülüstan adlı məkanlar haqqında nə bildiklərini soruşur. Bu zaman Tarix fənninə inteqrasiya etmiş olur. Əgər şagirdlərin bu barədə məlumatı yoxdursa, müəllim özü şagirdlərdə müəyyən təsəvvür yaratmaq üçün məlumat verməlidir. Dərsin sonunda səh. 42-də verilən lüğət üzərində iş (layihənin növbəti addımı kimi) aparılır.

Yaradıcı tətbiqetmə kimi və növbəti dərsdə motivasiya yaratmaq üçün 18-ci tapşırıq (səh. 42) evə verilir. Şagirdlər mövzu seçimində sərbəstdirlər.

Qiymətləndirmə təlim nəticəsinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Deyilən fikirləri ümumiləşdirə bilmir.	Deyilən fikirləri əlavə suallar verməklə ümumiləşdirir.	Deyilən fikirləri ümumiləşdirir.	Deyilən fikirləri öz münasibətini bildirməklə ümumiləşdirir.
Yazılı təqdimat hazırlamaqda çətinlik çəkir.	Sadə şəkildə yazılı təqdimat hazırlayır.	Müəllimin köməyi ilə yazılı təqdimat hazırlayır.	Sərbəst şəkildə yazılı təqdimat hazırlayır.
Söz və söz birləşmələri arasındakı sintaktik əlaqəni müəyyən edə bilmir.	Söz və söz birləşmələri arasındakı sintaktik əlaqəni çətinliklə müəyyən edir.	Söz və söz birləşmələri arasındakı sintaktik əlaqəni müəllimin köməyi ilə müəyyən edir.	Söz və söz birləşmələri arasındakı sintaktik əlaqəni müəyyən edir.

Mövzu 8

Gülüstan

Məzmun standartları:

1.1.2., 1.2.1., 1.2.4., 2.1.2., 3.1.1.

Təlim nəticələri:

- Fikirlərin məntiqiliyini əsaslandırır.
- Fikrini anlaşıqlı formada ifadə edir.
- Nəticə çıxarmaq üçün fikirləri ümumiləşdirir.
- Şeirdəki omonim, sinonim, çoxmənalı və məcazi mənalı sözləri müəyyən edir.
- Nəqli xarakterli inşa yazır.

İş formaları:

kollektiv, fərdi, qruplarla

İş üsulları:

düzgün oxu, müzakirə

Resurslar:

dərslik, lüğət, Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması



GÜLÜSTAN
(ixtisarla)

4

1. Tələffüz qaydalarını və intonasiyanı gözləməklə şeiri oxuyun.

Atıb imzasını hər kəs varağa,
Əyləşir sakitcə keçib yerinə.
Eynəkli cənabla təbehli ağa
Qalxıb əl də verir biri-birinə.

Neçə vaxt səngərdə hey ulaşdılar,
Gülüstan kəndində sövdalaşdılar.
Bir ölkə ikiyə
Ayrılsın deyə!..
Tərəflər qol çəkdi müqaviləyə.

Gülüstan kəndinin gül-çiçəkləri
Bir günün içində soldu-saraldı.
"Gülüstan" bağlandı o gündən bəri,
Bu kəndin alnında bir ləkə qaldı.

Hökmü gör nə qədər böyükmüş anın,
Möhür də basdılar varağa təkrar.
Yox, varağın deyil, Azərbaycanın
Köksünə dağ boyda dağ basdı onlar.

Dolandı zəmanə, döndü qərinə,
Şairlər od tökdü yenə dilindən.
Vurğunun o həsrət nəğmələrinə
Şəhriyar səs verdi Təbriz elindən:

"Bir uçaydım bu çırpınan yelinən,
Qovuşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən.
Bir görəydim, ayrılığı kim saldı,
Ölkəmizdə kim qırıldı, kim qaldı".

Bəxtiyar Vahabzadə

1813-cü ilin 12 oktyabrında Gülüstan kəndində birinci Rusiya-İran müharibəsinin qurtarmasını bildirən müqavilə imzalandı. Bu müqavilə-tarixə imzalandığı yerin adı-ıla Gülüstan müqaviləsi kimi daxil oldu. Müqaviləni İran tərəfdən şahın vəkili Mirzə Əbdülhəsən xan; Rusiya tərəfdən isə Rətişev imzaladı. Bu sülh müqaviləsinin şərtlərinə əsasən Şimali Azərbaycan xanlıqlarından İrəvan və Naxçıvanı çıxmaq şərtilə yerdə qalan bütün xanlıqlar (Lənkəran, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ, Şəki) Rusiyaya verildi.

43

...Müyanadan ...üç verstlikdə, Təbriz yolunda böyük olmayan Türkmançay kəndi yerləşirdi. Paskeviç döyüründə İranın yaşayış məntəqələrinda yaşamakla tanınan bu kiçik kəndə öz adını tarixdə dəyməyə nəsib olmuşdu. Paskeviç Türkmançaya yaxınlıq qurmaq altında qaldı. Onu kəndin ətrafında ulanlar və piyadalar batalyonu qarşıladı. O,ordunu dolandı, əsgərlərə gülərüz salamladı, əsgərlərə dan olduğuna razı qaldı. ...Fevralın 9-da sonuncu konfrans keçirildi. Fevralın 10-na keçən gecə saat 24:00-da Abbas Mirzənin müəccimi tərəfindən müəyyən edilmiş vaxtda sülh müqaviləsi imzalandı.

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə Azərbaycanın ikiyə bölünməsi ilə bağlı videomaterialı nümayiş etdirməklə başlaya bilər. Bunun üçün http://www.youtube.com saytında olan hər hansı bir videosüjetdən istifadə edilə bilər. Eyni zamanda ötən dərsdə verilən ev tapşırığından da motivasiya məqsədilə istifadə edilə bilər. Sonra müzakirələr təşkil edilir. Bu zaman Azərbaycan tarixi fənnindən əldə edilən biliklər də yada salına bilər.

Tədqiqat sualı formalaşdırılır:

Yer adlarının tarixi hadisələrlə nə kimi əlaqəsi ola bilər?

Bunun üçün müəllim iş vərəqlərində şagirdlərə aşağıdakı məzmunda tapşırıq verə bilər:

Bəzz qalası tarixdə nə ilə yadda qalmışdır?

Digər tapşırıqlar da buna uyğun olmalıdır.

Tədqiqat qruplarda aparıla bilər. Şeir tələffüz qaydalarına uyğun olaraq ifadəli oxunur. Bu həm fərdi qaydada, həm də qruplar arasında paylanmaqla icra edilə bilər. Dərslikdə qoyulan mətndaxili və məzmun sualları (2–4-cü tapşırıqlar) üzərində iş aparılır. Müəllim özü də bu məzmunda suallar hazırlaya bilər. Lüğət üzərində (8–12-ci tapşırıqlar) iş oxu ilə paralel aparılmalıdır.

Qrup işlərinin təqdimatı zamanı müzakirələrdə yaranan məsələlərə müəllim müxtəlif suallarla müdaxilə edə bilər, Gülüstan kəndi haqqında qısaca məlumat verə bilər.

Müəllimin nəzərinə: Gülüstan kəndi haqqında məlumat 16-cı tapşırıqda (səh. 44) verilmişdir.

Ümumiləşdirmə və nəticə. Şagirdlər müzakirələr zamanı bu nəticəyə gəlirlər ki, tarixin əzəmətini, xalqın istedadını, memarlıq xüsusiyyətlərini özündə yaşadan qədim tikililərimiz bir çox qanlı hadisələrin məkanı və şahidi olmuşdur.

Yaradıcı tətbiqetmə kimi Qarabağda məhv edilmiş abidələr haqqında məlumat toplayıb təqdimat hazırlamaq tapşırıla bilər. Bu zaman müəllim dərsliyin 45-ci səhifəsində nümunə kimi verilmiş plan və materiallardan istifadə etməklə yanaşı, şagirdlərin əlavə mənbələrə də müraciət etməsini tövsiyə edir.

Qiymətləndirmə təlim nəticələrinə uyğun olaraq aparılmalıdır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Fikrini məntiqilik cəhətdən əsaslandırmağa çətinlik çəkir.	Fikrini məntiqilik cəhətdən müəllimin köməyi ilə əsaslandırır.	Fikrini məntiqilik cəhətdən əsaslandırır.	Əlavə faktlar göstərməklə fikrinin məntiqliyini əsaslandırır.
Fikirlərini ifadə etməkdə çətinlik çəkir.	Fikirlərini sadə şəkildə ifadə edir.	Fikirlərini müəllimin köməyi ilə anlaşıqlı ifadə edir.	Fikirlərini sərbəst şəkildə ifadə edə bilir.
Deyilən fikirləri müstəqil ümumiləşdirə bilmir.	Deyilən fikirləri əlavə suallar verməklə ümumiləşdirir.	Deyilən fikirləri ümumiləşdirir.	Deyilən fikirləri öz münasibətini bildirməklə ümumiləşdirir.
Sözlərin mənasını aydınlaşdırarkən çətinlik çəkir.	Sözlərin mənasını müəllimin köməyi ilə aydınlaşdırır.	Sözlərin mənasını aydınlaşdırır.	Sözlərin mənasını müxtəlif yollarla izah edərək aydınlaşdırır.
Mətn yazmaqda çətinlik çəkir.	Mətni yazarkən bəzi səhvlər edir.	Mətn yaza bilir.	Əlavə materiallardan istifadə etməklə mətn yazır.

Mövzu 9

Gülüstan

Məzmun standartları:

1.1.2., 1.2.1., 2.1.2., 2.2.1., 4.1.2.

Təlim nəticələri:

- Fikrinin məntiqli olduğunu əsaslandırır.
- Sinfin səviyyəsinə uyğun təqdimat edir.
- Sözlərin məcazi mənasını şərh edir.
- Cümlələr arasında əlaqəni tapmaqla mətni oxuyur.
- Sözlər arasında tabelilik əlaqəsini müəyyən edir.

İş formaları:

kollektiv, qruplarla, cütlərlə

İş üsulları:

beyin həmləsi, müzakirə, debat

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, müşahidə vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsinə müəllim əvvəlki dərsdə evə verilən təqdimatları dinləməklə başlaya bilər. Bu zaman o, cümlələr və abzaslar arasındakı əlaqələrin düzgün qurulmasına diqqət yetirməlidir. Müəllim təqdimatların müəyyən cümlələrindən istifadə etməklə əvvəlki bilikləri soruşa bilər. Əvvəlki mövzuların qısa təkrarı yeni biliklərin öyrədilməsi üçün əlverişlidir. Sonra dərslikdəki 13-14-cü çalışmalar (səh. 44) yerinə yetirilir. Tapşırıq cütlərlə yerinə yetirildikdən sonra müzakirə aparılır. Yanaşma əlaqəsi haqqında məlumat verilir. Bu zaman müəllim mövzuya uyğun olaraq əvvəldən özünün hazırladığı nümunələri qruplara təqdim edərək müvafiq tapşırıqlar da verə bilər. Ümumiləşdirmə aparılıb nəticə əldə etdikdən sonra dərslikdəki 15, 16-cı çalışmalar yerinə yetirilir. 14-cü çalışma (ardıcıllıq: 1, 7, 4, 3, 2, 6, 5) yerinə yetirilir.

Yaradıcı tətbiqetmə kimi şagirdlərə müstəqil iş kimi yanaşma əlaqəsinə aid bədii ədəbiyyatdan nümunələr seçib yazmaq tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 10

Zivər bəy Əhmədbəyov

Məzmun standartları:

1.1.1., 1.2.1., 2.1.1., 2.2.2., 3.1.1.

Təlim nəticələri:

- Mətnə aid suallar verir.
- Mətn əsasında dialoq tərtib edir.
- Sözlərin sinonimini müəyyən edib cümlələrdə işlədir.
- Abzaslar arasındakı əlaqəni müəyyənləşdirir.
- Təsvir xarakterli esse yazır.

İş formaları:

qruplarla, fərdi

İş üsulları:

sual-cavab, müzakirə

Resurslar:

dərslik, lüğət, Şamil Fətullayev-Fiqarov "XIX əsr Azərbaycan memarlığı" kitabı, Zivər bəy Əhmədbəyov haqqında videosüjet

Nabat Aşurbəyli Bakı şəhərində tikdirdiyi (1905–1914-cü illər) Təzə Pir məscidinin inşasında ilk diplomlu azərbaycanlı memar kimi Z.Əhmədbəyovun xidmətlərindən istifadə etmişdir. Nabat xanım Zivər bəyə xeyli vəsait verərək onu məşhur məscidlərin memarlığını öyrənmək üçün Şərq ölkələrinə *ezam etmişdir.* Səyahətdən sonra Zivər bəy bir sıra layihələrin: Şamaxıda Cümə məscidi, Bakıda Təzə Pir məscidi, Əmircanda Murtuza Muxtarovun tikdirdiyi məscidin və Bakıda neçə-neçə yaşayış evinin memarı olur.

1908–22-ci illərdə Əmircanda tikdiyi məscid Şərq memarlığının ən yaxşı incilərindən biri kimi UNESKO-nun tarixi abidələr siyahısına salınaraq qorunur.

Şamil Fətullayev-Fiqarov yazır ki, bir dəfə AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda Orta Asiyadan olan bir alimin *dissertasiyasının* müdafiəsi keçirilirdi. *Opponentlərdən* biri memarlıq tarixi üzrə professor T.P.Kapereva idi. O, otaqda Maştağa kəndinin məscidlərindən birinin şəklini gördü və coşqunluqla "Bu ki qotikadır", – deyə səsləndi. Mən sakitcə cavab verdim: "Tatyana Pavlovna, bu, Maştağa kəndinə məxsus Abşeronun əsl memarlıq nümunəsidir". Daha sonra mən həmin kənddə 23 monumental məscidin və 27 hamamın olduğunu bildirdim.



26 may 2011-ci ildə Bakıda "Nizami" metro stansiyası qarşısında Z.Əhmədbəyovun heykəlinin və onun adını daşıyan parkın açılışı oldu. Heykəlin məhz "Nizami" metro stansiyasının qarşısında ucaldılması təsadüfi deyil. Metronun sol tərəfində memarlıq üslubunda tikilən binanın müəllifi Z.Əhmədbəyovdur. Metronun qarşısından keçən küçə də memarın adını daşıyır.

2. Mətndəki faktları seçib "Maraqlı məlumatlar" başlıqlı yazı hazırlayın.

3. Mətn üzərində iş aparmaq üçün hansı sual və tapşırıqlardan istifadə edərdiniz? Onları tərtib edib yoldaşlarınızla müzakirə edin.

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə Azərbaycan memarlığı haqqında videomaterial göstərməklə başlaya bilər. Bu hər hansı bir qala, məqbərə, bina və s. tarixi abidə haqqında ola bilər. Z.Əhmədbəyovun Nizami metrosunun qarşısında ucaldılmış abidəsinin açılış mərasimindən videosüjetin təqdimi ilə də başlaya bilər.

Texniki avadanlıqdan istifadə imkanı yoxdursa, tarixi abidələrə dair şəkillərdən də istifadə etmək olar. Aşağı siniflərdən şagirdlərin tanıdıqları Memar Əcəmi haqqında biliklər də, onun memarı olduğu Möminə xatun türbəsi haqqında məlumatlar təkrar soruşula bilər. Aparılan müzakirələr ümumiləşdirilərək milliyyətcə azərbaycanlı memarların da gözəl və təkrarolunmaz sənət əsərlərinin müəllifləri olması fikri ön plana çəkilir.

Dərslikdəki mətn oxunur. Mətnin oxusundan sonra mətndaxili suallar üzərində iş aparılır. 1, 2 və 3-cü (səh. 46-47) tapşırıqlar qrup işi kimi verilir. 2-ci tapşırığın icrası üçün müəllim, ilk növbədə, şagirdlərə mətndən faktlar seçməyi, onlara sual hazırlamağı, sonra bədiiləşdirməyi tövsiyə edir. Şagirdlər 7-ci sinifdə artıq hekayə janrının yazılması yollarını bildikləri üçün çətinlik çəkməyəcəklər. Həm də hər bölmənin əvvəlindəki dialoq da şagirdlər üçün nümunə ola bilər. Tərtib edilən dialoqda cümlə və abzasların əlaqələndirilməsi diqqət mərkəzində saxlanmalıdır. Müəllim bu tapşırığı aşağıdakı qaydada da verə bilər:

I qrup əsas faktları seçir.

II qrup suallar hazırlayır.

III qrup mətnin leksikası üzərində (səh. 48-dəki 4 və 5-ci çalışmalar) iş aparır.

Sonra qrupların topladığı materiallar əsasında ümumi dialoq tərtib edilir. Şagirdlər içərisindən seçilmiş ekspert qrupuna təqdim edilir. Ekspert qrupu cümlələrin və abzasların əlaqələnməsinə, əsas faktların seçilməsinə və təqdiminə diqqət yetirməlidir. Bu proses şagirdlərdə təfəkkürün hər 3 formasını – yaradıcı, tənqidi və məntiqi təfəkkürün inkişafına şərait yaradır. Müəllim həm qrupları, həm də ekspert qrupunun fəaliyyətini qiymətləndirir.

Söz birləşmələri və sintaktik əlaqələr haqqında bilikləri ümumiləşdirmək məqsədilə dərslikdəki 6-8-ci tapşırıqlar yerinə yetirilir.

10-cu tapşırıq şagirdlərdə sözlərin və söz birləşmələrinin cümlə üzvü kimi çıxış etməsinin səbəbini izah etməyə xidmət edir.

Yaradıcı tətbiqetmə kimi 11-ci tapşırıqdan istifadə edilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Sadə suallar tərtib edir.	Mətnə suallar verə bilir.	Mətn əsasında sualları tərtib edir.	Mətn əsasında məntiqi sual tərtib edir.
Dialoq tərtib etməkdə çətinlik çəkir.	Dialoqu müəllimin köməyi ilə tərtib edir.	Dialoqu sadə dildə tərtib edir.	Dialoqu əlavələr etməklə tərtib edir.
Sözlərin sinonimini aydınlaşdırmaqda çətinlik çəkir.	Sözlərin sinonimini müəlliminin köməyi ilə aydınlaşdırır.	Sözlərin sinonimini aydınlaşdırır.	Sözlərin sinonimini aydınlaşdırır və cümlədə işlədir.
Abzaslar arasındakı əlaqəni çətinliklə müəyyənləşdirir.	Abzaslar arasındakı əlaqəni müəllimin köməyi ilə müəyyənləşdirir.	Abzaslar arasındakı əlaqəni müəyyənləşdirməkdə səhvə yol verir.	Abzaslar arasındakı əlaqəni müəyyənləşdirir.
Təsviri xarakterli inşa yazanda çətinlik çəkir.	Təsviri xarakterli inşa yazanda kömək-dən istifadə edir.	Təsviri xarakterli inşa yazanda bəzi səhvə yol verir.	Təsviri xarakterli inşa yazır.

Mövzu 11

Protokol hazırlamaq

Məzmun standartları:

3.1.4.

Təlim nəticələri:

- Sadə formada protokol yazır.

İş formaları:

kollektiv, qruplarla, cütlərlə

İş üsulları:

müzakirə, sual-cavab

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Dərslikdəki 12-ci tapşırıq yerinə yetirilərkən mürəkkəb adlar haqqında şagirdlərin bilikləri təkrarlanır. Diqqət *Şagird Özünüidarə Komitəsi* mürəkkəb adına cəlb edilir. Bu dərsdə əsas məqsəd şagirdə protokolun yazılma qaydasının öyrədilməsidir.

Müəllim şagirdlərə tədqiqat aparmaq üçün belə sualla müraciət edə bilər:

Hər hansı bir yığıncaqda gedən söhbətlərin xülasəsini orada iştirak edə bilməyən dostunuza yazılı şəkildə necə çatdırarsınız?

Müəllimin nəzərinə: müəllim şagirdi istiqamətləndirmək üçün xəbərdarlıq etməlidir ki, bu, rəsmi sənəd olmalıdır. Orada müzakirə olunan məsələlər, iştirakçıların sayı və s. haqqında verilən informasiya üçün məlumatı yazıb imza edən şəxs məsuliyyət daşıyır.

Müəllim qruplara aşağıdakı məzmunda iş vərəqləri paylaya bilər:

26 sentyabr 2014-cü ildə ... adına məktəbdə 8[a] sinfində 25 nəfərin iştirak etdiyi iclasda nizam-intizam məsələləri müzakirə olundu.

Qruplar üçün hazırlanan tapşırıqlar eyni məzmuna malik olmaqla fərqli məkanlar göstərilsə, daha məqsədəuyğun olar.

Müəllim protokolun quruluşunu da şagirdlərə təqdim etməlidir. Protokolun forması dərsliyin 51-ci səhifəsində verilmişdir.

Hazırlanan sənədlər oxunur, müzakirələr aparılır, sonda vahid sənəd formalaşdırılır.

Ümumiləşdirmə mərhələsində müəllimin köməyi ilə bu sənədin işlənmə əhatəsi haqqında fikir yürüdürlər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏYƏ NÜMUNƏ

KSQ №2

QARTAL QANADLI ÖLKƏ

Azərbaycanın xəritəsinə diqqətlə baxsanız, görərsiniz ki, o, qanadlarını yığıb şığıyan ☐ oxşayır. Onun başı Abşeron yarımadasıdır. Xəzər dənizi bu qartalın qarşısında ucsuz-bucaqsız səma kimi açılıblar. Abşeron yarımadasında, Xəzərin lap sahilində Bakı şəhəri yerləşir. Bura ○ səltənətidir. Qartalın bir qanadı Lənkəran, Astara şəhərinin yerləşdiyi limonlu, portağallı diyardır. Bu diyarda ucsuz-bucaqsız ✧ plantasiyaları uzanıb gedir. O biri qanad zəngin təbiətli Quba, Qusar rayonlarıdır. Burada meyvə bağları nəhəng qartalın yaşıl qanadı kimi uzanır. Quşun bədəni Δ tarlaları ilə şöhrət tapmış Muğan, Şirvan və Qarabağ torpağıdır. Bu günəşli ölkənin adamları işgüzar, torpağı bərəkətlidir.

1. Aşağıdakı sözlərdən hansı işarələrin yerinə yazıla bilər?

A) ☐ B) ○ C) ✧ D) Δ

çay ABCD
qartala ABCD
pambıq ABCD
neft ABCD

2. "Qartalın" qarşısında … ucsuz-bucaqsız səma kimi açılıb".

Nöqtələrin yerinə uyğun gələni yazın.

A) Lənkəran şəhəri B) Astara şəhəri
C) Xəzər dənizi D) Qarabağ torpağı

3. Quşun bədəni pambıq tarlaları ilə şöhrət tapmış … . Cümləni tamamlayın.

A) Bakı, Quba, Qusar torpağıdır.
B) Bakı, Astara, Lənkəran torpağıdır.
C) Quba, Lənkəran, Abşeron torpağıdır.
D) Muğan, Şirvan, Qarabağ torpağıdır.

4. Mətndən cədvələ uyğun söz birləşmələrini seçib yazın.

mənsubiyyət şəkilçili	hal və mənsubiyyət şəkilçisiz	hal şəkilçili

5. Verilən cümlədə altından xətt çəkilmiş sözləri hansı sözlərlə əvəz etmək olar?

"Bu günəşli ölkənin adamları işgüzar, torpağı bərəkətlidir".

6. Mətndən mürəkkəb adları seçib yazın.

_____

_____

7. Yiyəlik halda işlənən xüsusi isimləri aid olduğu sözlə birlikdə yazın və cümlədə işlədin.

_____

_____

8. Tabesizlik əlaqəsində olan sözlərin olduğu cümlələri seçib yazın.

_____

_____

9. Mətndəki hansı cümlədə uzlaşma əlaqəsi pozulub?

10. "Xəzər dənizi" mürəkkəb adındakı sözlərin ismin hansı halında olduğunu yazın.

Xəzər_____ dənizi _____

11. Hansı qrup mürəkkəb adlar şəkilçilərin iştirakı olmadan yaranır?

A) Bədii əsərlərin adlarını bildirənlər

B) Coğrafi adları bildirənlər

C) Ad və soyad (ad və təxəllüslər) bildirənlər

D) Təşkilat və müəssisə adlarını bildirənlər

12. Mətni davam etdirin.

_____

_____

_____

Mövzu 1

Dialoq

Məzmun standartları:

1.1.2., 1.2.1., 1.2.4., 2.1.1.

Təlim nəticələri:

- Fikrini məntiqi cəhətdən əsaslandırır.
- Fikrini qısa şəkildə bildirir.
- Rəylərə əsasən fikrini ümumiləşdirir.
- Sözlərin mənasını izah edir.

İş formaları:

kollektiv, qruplarla

İş üsulları:

beyin həmləsi, müzakirə

Resurslar:

dərslik, lüğət, "Atalar sözləri" kitabı

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim "Yalan söz üz qızardar" atalar sözünün müzakirəsini apara bilər. Şagirdlərin fikirləri öyrənilir, nəticə çıxarılır.

Tədqiqat sualı formalaşdırılır:

İnsan nə zaman yalan danışa bilər?

Müzakirə aparılır, fikirlər dinlənilir, qeyd olunur. Ancaq ümumiləşdirmə aparmazdan əvvəl dərslikdəki dialoq oxunur. Bu zaman 1-ci tapşırığın icrası yerinə yetirilir. Oxu zamanı mətndaxili suallar üzərində iş aparılır. Fikirlər dinlənilir.

Tədqiqatın aparılması qruplarda iş formasında davam etdirilir. 2, 3 və 4-cü suallar qrup tapşırığı kimi verilir.

Təqdimatlar edilir, ümumi fikir formalaşdırılır: yalan danışmaq əxlaqa ziddir. İnsanlar yalan danışmaqdansa, həqiqəti etiraf etməlidirlər.

Lüğət üzərində iş aparmaq üçün 7–9-cu tapşırıqlar yerinə yetirilir.

Yaradıcı tətbiqetmə kimi 6-cı tapşırığın 1-ci hissəsi verilə bilər. Dəyirmi masa paralel siniflər arasında keçirilsə, daha məqsədəuyğun olar.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılmalıdır.

Mövzu 2

Dialoq

Məzmun standartları:

1.1.2., 1.2.1., 1.2.3., 1.2.4., 2.2.3., 3.1.3.

Təlim nəticələri:

- Fikrin məntiqiliyini əsaslandırır.
- Fikrini sadə formada ifadə edir.
- Qarğışların nitq etiketi olduğunu bilir.
- Müxtəlif fikirləri ümumiləşdirir.
- Mətndəki faktları rastlaşdığı hadisələrlə müqayisə edir.
- Abzaslararası əlaqəni gözləməklə mətnə düzəliş edir.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

müzakirə, sual-cavab,
Venn diaqramı

Resurslar:

dərslik, lüğət, iş vərəqləri,
"İşıq saçan sözlər" kitabı

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsinə müəllim ötən dərs verilən tapşırığın yoxlanması ilə başlaya bilər. Daha çox diqqəti cəlb edən təklif lövhədə qeyd olunur və onlarda ifadə edilən fikirlərlə bağlı müzakirə təşkil edilir. Əldə edilən nəticə lövhədə qeyd edilir.

Tədqiqat sualı formalaşdırılır:

Əxlaqlı insan necə olmalıdır?

Müəllim A.Eynşteynin "Bütün insani dəyərlərin təməli əxlaqdır" fikrindən tədqiqatın aparılmasında yardımçı vasitə kimi istifadə edir.

Tədqiqat aparılarkən birinci növbədə sualla bağlı şagirdlərin fikirləri soruşulur, müzakirə edilir. Sonra "Buz" hekayəsi oxunur, məzmun sualları üzərində iş aparılır. Hekayə ilə bağlı 5 və 10-cu tapşırıqlar qrup işi kimi də verilə bilər. Müzakirələr təşkil edilir. Motivasiya mərhələsində əldə edilən nəticə ilə hekayədən formalaşan fikir əsasında ümumiləşdirmə aparılır. "Buz" hekayəsindəki əsas fikirlə Konfutsinin əxlaqi dəyərləri müqayisə edilir, nəticə çıxarılır. Əxlaqlı insan pis işlərdən uzaq olmalı, yalan danışmamalı, öz işində məsuliyyətli olmalı, ona tapşırılan işi yerinə yetirməli, hamının işinə yaramalıdır.

Qarğışın nitq etiketinin bir növü olduğu izah edilir. "Buz" hekayəsindəki ananın qarğışı ilə Qazan xanın qarğışı müqayisə edilir. Qarğışa münasibət bildirilir. Müəllim şagirdlərə qarğışın arzuolunmaz ifadələr olduğunu izah etməli və bu ifadələrdən istifadə etməməyi tövsiyə etməlidir.

Yaradıcı tətbiqetmə kimi səh. 55-dəki 10.5.-ci tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 3

Dialoq

Məzmun standartları:

1.1.2., 1.2.4., 3.1.2., 4.1.2.

Təlim nəticələri:

- Fikrini əsaslandırır.
- Sinif yoldaşlarının fikirlərini ümumiləşdirir.
- Fikir və mülahizələrini yazır.
- Cümlə üzvlərini müəyyənləşdirir.

İş formaları:

qruplarla, fərdi, kollektiv

İş üsulları:

müzakirə, sorğu, Venn diaqramı

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim cümlə üzvlərinə aid frontal sorğudan istifadə edə bilər. Qeyd edək ki, mövzu ilə bağlı şagirdlərin bilik və bacarıqları aşağı siniflərdən əldə edilərək formalaşmışdır.

Tədqiqat sualı formalaşdırılır:

Əxlaqlı insan yetişməsində müdriklərin rolu nədən ibarətdir?

Tədqiqat səh. 55-dəki 11-ci tapşırıq yerinə yetirilməklə aparıla bilər. Bu tapşırıq fərdi qaydada yerinə yetirilir. Şagirdlərin fikri öyrənildikdən sonra müəllim müdrik fikirlər və tərbiyə haqqında izahat verir. 12-ci tapşırıq məntiqi təfəkkürün inkişafına xidmət edir. Bu tapşırığın kollektiv şəkildə yerinə yetirilməsi məqsədəuyğundur. Ümumiləşdirmə aparmaq məqsədilə dərslikdəki əlavə tapşırıqlar da yerinə yetirilə bilər.

Əxlaq mövzusunda müzakirəni davam etdirərək 12-ci tapşırıq Venn diaqramı vasitəsilə yerinə yetirilə bilər.

Yaradıcı tətbiqetmə kimi şagirdlərin səviyyəsi nəzərə alınmaqla 13-cü tapşırıq (səh. 56) və ya bədii ədəbiyyatdan cümlələr yazmaq və cümlə üzvlərini tapmaq tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 4

Duyğular adası

Məzmun standartları:

1.1.2., 1.2.4., 2.1.1., 2.2.1., 2.2.3., 3.1.1.

Təlim nəticələri:

- Fikrini nümunələrlə əsaslandırır.
- Söylənilən fikirləri ümumiləşdirir.
- Sözlərin mənasını izah edir.
- Mətnlərdəki hissələrin bir-biri ilə əlaqəsini şərh edir.
- Mətndəki faktları rastlaşdığı hadisələrlə müqayisə edir.
- Nəqli mətn yazır.

İş formaları:

fərdi, qruplarla

İş üsulları:

oxu, müzakirə, söz mücrüsü

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DUYĞULAR ADASI 2

Bir zamanlar üzərində bütün duyğuların yaşadığı bir ada var idi. *Xoşbəxtlik, hüzn, bilgi, təəbbür, sevgi* və başqa duyğular bu adada birlikdə yaşayırdı. Bir gün adanın tezliklə batacağını bütün duyğulara xəbər verirlər. Bunu eşidən duyğular da bir-bir adanı tərk etməyə başlayır. Ən axıra isə Sevgi qalır. O, son anadək adanı tərk etməməyə çalışırdı. Ancaq artıq ada batmaq üzrə idi. Bunu görən Sevgi də digər duyğulardan yardım istəmək məcburiyyətində qalır.

Öncə böyük bir gəmi ilə adanı tərk etməyə çalışan *Zənginliyə* müraciət edir:

– Məni də özünlə apararsan?

Zənginlik cavabında:

– Xeyr, apara bilmərəm, gəmim qızıl-gümüşlə doludur, sənə yer qalmayıb, – deyir.

Sizcə, Sevgi niyə son ana qədər adanı tərk etmək istəmirdi?

Sevgi digər tərəfdəki gözəl, *yelkənli* qayığı ilə getməkdə olan Təkəbbürə üzünü tutub ondan yardım istəyir. Təkəbbür Sevgiyə bələ cavab verir:

– Bağışla, sənə yardım edə bilmərəm, üst-başın islanıb, qayığımı kirlədərsən.

Əlacsız qalan Sevgi yaxınlığında olan Hüznə üz tutur və ondan kömək istəyir:

– Hüzn, olarmı, məni də özünlə götürəsən?

Hüzn:

– Of, Sevgi! Bu gün o qədər kədərliyəm ki... Bir az tək qalmağa ehtiyacım var.

Bu arada Xoşbəxtlik Sevginin yanından keçirdi. Amma özünü o qədər xoşbəxt hiss edirdi ki, Sevginin səsini belə eşitmədi. Artıq bütün duyğulardan əlini üzən Sevgi birdən bir səs eşitdi: "Gəl, Sevgi, gəl, mənimlə gedək".

Bu sözləri deyən Sevgidən çox yaşlı görünən bir qoca idi. Sevgi özünü o qədər bəxtəvər, o qədər xoşbəxt hiss etdi ki, çaşqınlıqdan ona yardım edən bu qocanın adını belə soruşmağı unutdu. Qoca Sevgini sağ-salamat sahilə çatdırdı, özü isə yoluna davam etdi. Bir anlığa ona nə qədər borclu olduğunun fərqinə varan Sevgi yanındakı Bilgidən soruşdu:

– Məni xilas edən o qoca kimdir?

– O, Zamandır.

– Zamanmı? Bəs niyə o mənə yardım etdi? – deyə Sevgi heyrətlə soruşdu.

Bilgi gülümsəyərək:

– Çünki yalnız zaman sevginin nə qədər böyük olduğunu anlaya bilər.

"Füyuzat" jurnalından, 2012-ci il

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim "Duyğu nədir?" sualı ilə şagirdlərə müraciət edir. Cavablar müzakirə edilir. Dərslikdəki "Duyğular adası" mətni düzgün tələffüz qaydalarına uyğun olaraq oxunur. Məzmun sualları (1–3) üzərində iş aparılır, müvafiq sözlərin (4–6) mənası aydınlaşdırılır. Mətndəki əsas fikir müəyyən edilir, ümumiləşdirmə aparılır. Bu, 15-20 dəqiqə müddətində yerinə yetirilməlidir.

Tədqiqat sualı formalaşdırılır:

İnsan həyatına ən çox hakim olan hansı duyğudur?

Tədqiqatın aparılması üçün söz mücrüsü üsulundan istifadə edilməsi məqsədəuyğundur. Çünki bu üsul şagirdin yaradıcı, məntiqi və tənqidi təfəkkürünün inkişafı üçün zəmin yaradır, həm də söz ehtiyatını artırır.

Müəllim qruplara üzərində "Bu əhvalatdan bir xeyli vaxt keçəndən sonra", "xoş təsadüf nəticəsində", "xoşbəxtlik", "zənginlik", "bəxtəvər", "qısqanclıq", "həsəd", "utancaq", "xəcalət hissi", "eqoistlik" və s. bu kimi söz və ifadələr yazılmış vərəqlər paylayır. Qruplara bu söz və ifadələrdən istifadə edərək və mətnin davamı olaraq nəqli mətn yazmağı tapşırır. Müəyyən vaxt təyin edilir. Qruplar təqdimat edir, müzakirələr aparılır. Şagirdlər öz yazdıqları nəqli mətnlə dərslikdəki mətn arasında əlaqə gözlənilməklə ümumi fikrə gəlir və nəticə çıxarırlar.

Yaradıcı tətbiqetmə kimi səh. 59-dakı 15-ci tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Fikrini əsaslandırmaqda çətinlik çəkir.	Fikrini məntiqi cəhətdən müəllimin köməyi ilə əsaslandırır.	Fikrini əsaslandırır.	Fikrini müstəqil və əhatəli şəkildə, nümunələr göstərməklə əsaslandırır.
Fikrini ümumiləşdirməkdə çətinlik çəkir.	Fikrini müəllimin köməyi ilə əsaslandırır.	Fikirləri ümumiləşdirir.	Digərlərinin fikirlərinə münasibət bildirərək ümumiləşdirir.
Sözlərin mənasını izah etməkdə çətinlik çəkir.	Sözlərin mənasını müəllimin köməyi ilə izah edir.	Sözlərin mənasını lüğətin köməyi ilə izah edir.	Sözlərin mənasını onların qarşılığını göstərməklə izah edir.
Mətni oxuyarkən məna əlaqəsini müəyyən etməkdə çətinlik çəkir.	Mətndəki məna əlaqəsini müəllimin köməyi ilə müəyyən edir və oxuyur.	Mətndəki məna əlaqəsini müəyyən edərək oxuyur.	Mətndəki məna əlaqəsini izah edərək müəyyənləşdirir və oxuyur.
Mətndəki hadisələri rastlaşdığı hadisələrlə müqayisə etməkdə çətinlik çəkir.	Mətndəki hadisələri rastlaşdığı hadisələrlə müqayisə edəndə qeyri-dəqiqliyə yol verir.	Mətndəki hadisələri rastlaşdığı hadisələrlə müqayisə edir.	Mətndəki hadisələri rastlaşdığı hadisələrlə müqayisə edir, rəy bildirir.
Mövzu ilə bağlı nəqli mətn yazmaqda çətinlik çəkir.	Mövzu ilə bağlı nəqli mətn yazır, amma mövzunu tam əhatə etmir.	Mövzu ilə bağlı nəqli mətn yazır.	Mövzu ilə bağlı nəqli mətndə məntiqi əlaqəni gözləyir, mövzunu tam əhatə edir.

Mövzu 5

Duyğular adası

Məzmun standartları:

1.1.2., 3.1.1., 3.1.2., 4.1.2.

Təlim nəticələri:

- Fikrini əsaslandırır.
- Mühakimə xarakterli inşa yazır.
- Sitatlardan istifadə edir.
- Mübtədanı müəyyənləşdirir.

İş formaları:

kollektiv, qruplarla, cütlərlə

İş üsulları:

sual-cavab, müzakirə

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində dərsliyin 58-ci səhifəsindəki 7-ci tapşırıq üzərində iş aparılır. Müəllim cümlənin baş üzvü olan mübtəda ilə bağlı frontal sorğu keçirir. Şagirdlərin aşağı siniflərdə öyrəndikləri biliklər yada salınır, mübtədanın sualları, ifadə vasitələri, xəbərlə şəxsə və kəmiyyətə görə uzlaşması haqqında sorğu aparılır (səh. 56). 8, 9-cu tapşırıqlar şifahi şəkildə yerinə yetirilir.

Tədqiqat sualı formalaşdırılır:

Mübtəda daha nə ilə ifadə oluna bilər?

Müəllim uyğunluğu müəyyənləşdirmək üçün qruplara belə bir tapşırıq da verə bilər.

Mübtəda isimlə ifadə olunmuşdur.	Körpə gülürdü.
Mübtəda sifətlə ifadə olunmuşdur.	Öyrənmək heç zaman gec deyil.
Mübtəda məsdərlə ifadə olunmuşdur.	Əxlaq insani keyfiyyətlərdən biridir.
Mübtəda ..... ifadə olunmuşdur.	Azərbaycan Respublikası inkişaf etmiş ölkələrdən biridir.

Bu tapşırığın yerinə yetirilməsində müəllim uyğunluğun müəyyənləşdirilməsini tapşırır. Nöqtələrin yerinə "mürəkkəb ad" sözü

yazılmalıdır. Müəllim bu qayda ilə tapşırığı davam etdirib mübtədanın ifadə vasitələrini müəyyənləşdirə bilər. Şagirdlər fəal şəkildə tədqiqata cəlb edilir.

Tədqiqat aparılarkən 58 və 59-cu səhifədəki tapşırıqlardan (8–11-ci) istifadə olunur. Həmin tapşırıqların yerinə yetirilməsi vaxtı cütlərlə iş formasından istifadə məqsədəuyğun olar. Müəllim sitat haqqında məlumat verərkən dərslikdəki nümunələrdən əlavə müxtəlif fikirlərdən istifadə edə bilər.

Yaradıcı tətbiqetmə kimi şagirdlərə 12 və 13-cü tapşırıq (səh. 59) verilə bilər.

Dərsin sonunda layihə işləri üçün növbəti addımlar atılır.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılmalıdır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Fikrini əsaslandırmaqda çətinlik çəkir.	Fikrini müəllimin köməyi ilə əsaslandırır.	Fikrini əsaslandırır.	Fikrini müstəqil və əhatəli şəkildə, nümunələr göstərməklə əsaslandırır.
Mühakimə xarakterli inşa yaza bilmir.	Mühakimə xarakterli inşanı çətinliklə yazır.	Mühakimə xarakterli inşanı müəllimin köməyi ilə yazır.	Mühakimə xarakterli inşa yaza bilir.
Mübtədanı müəyyənləşdirməkdə çətinlik çəkir.	Mübtədanı müəyyənləşdirərkən müəllimin köməyindən istifadə edir.	Mübtədanı müəyyənləşdirərkən bəzi səhvlərə yol verir.	Mübtədanı müəyyənləşdirə bilir.

Müəllim dərsdə belə tapşırıqlardan da istifadə edə bilər.

İstiqamətlərdən hansı düzgün göstərilməmişdir? (2-ci və 3-cü istiqamətlər səhv göstərilmişdir.)



Mövzu 6

Səhəng içində nə varsa, onu sızdırar

Məzmun standartları:

1.1.2., 1.2.1., 1.2.4., 3.1.1.

Təlim nəticələri:

- Fikrini məntiqi cəhətdən əsaslandırır.
- Fikrini anlaşıqlı şəkildə ifadə edir.
- Müvafiq fikirləri ümumiləşdirir.
- Mühakimə xarakterli inşa yazır.

İş formaları:

kollektiv, fərdi

İş üsulları:

proqnozlaşdırılmış oxu, müzakirə, sual-cavab.

Resurslar:

dərslik, lüğət, "Rəvayətlər" kitabı

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim "İnsan üçün nə qüsur sayıla bilər?" sualı ilə sinfə müraciət edə bilər. Şagirdlərin cavabı dinlənilir, münasibət bildirilir.

Tədqiqat sualı formalaşdırılır:

Cəmiyyətə yararlı insan necə olmalıdır?

Tədqiqatın aparılması dərslikdəki mətnin oxusu ilə başlaya bilər. Mətn proqnozlaşdırılmış oxu ilə oxunur. Müəyyən hissənin oxusu başa çatdıqda sonrakı əhvalatlarla bağlı sual verilir: "*Bundan sonra nə baş verəcək?*", "*Səhəng xidmətçiyə nə dedi?*", "*Xidmətçi səhəngə necə cavab verəcək?*" və s. kimi suallara verilən şagird cavabları qeyd olunur. Mətnin davamı oxunur və şagirdlərin cavabları ilə müzakirə edilir. Mətn oxunduqdan sonra əsas fikir müəyyənləşdirilir. Məzmun sualları üzərində iş aparılır və fikirlər ümumiləşdirilərək nəticə çıxarılır: *kimliyindən asılı olmayaraq hər bir addımda, hər zaman xeyirxah işlər görmək lazımdır*. "Hər işdə bir xeyir var deyimini bu mətnə aid etmək olarmı?" sualı ilə şagirdlərə müraciət edilir.

Şagirdlərin söz ehtiyatları və məntiqi təfəkkürünü inkişaf etdirmək üçün dərslikdə səh. 61-dəki 8, 9 və 10-cu tapşırıqlar yerinə yetirilir.

Müəllim 11-ci tapşırığı yerinə yetirtməklə həm də növbəti dərs üçün zəmin yaratmış olur. Buna görə də müəllim sinfin səviyyəsini nəzərə alaraq bu istiqamətdə xüsusi tapşırıqlar hazırlayıb şagirdlərə təqdim edə bilər.

Yaradıcı tətbiqetmə kimi 17-ci tapşırıq (səh. 63) verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılmalıdır.

Mövzu 7

Səhəng içində nə varsa, onu sızdırar

Məzmun standartları:

1.1.2., 4.1.2.

Təlim nəticələri:

- Fikrini əsaslandırır.
- Xəbəri müəyyənləşdirir.

İş formaları:

kollektiv, cütlərlə, fərdi

İş üsulları:

sual-cavab, müzakirə

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, testlər

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində dərslikdə səh. 61-dəki 12-ci tapşırıq yerinə yetirilir. Cavablar müzakirə edilir. Şagirdlərin 6-cı sinifdə xəbər haqqında bilik və bacarıqları frontal sorğu və müəllimin mövzuya uyğun əvvəldən hazırladığı nümunələr vasitəsilə yada salınır. Bu zaman müəllim xəbər və onun ifadə vasitələri haqqında şərh də verə bilər.

Dərslikdə səh. 62-dəki müvafiq tapşırıqlar (13-14-cü) yerinə yetirilir.

14-cü tapşırıq tənqidi təfəkkürün inkişafına xidmət edir. Bu eyni zamanda bölmənin məzmunundan irəli gələn əxlaqi dəyərlərin şagirddə formalaşması üçün addımdır.

15-ci tapşırıq xəbərin mübtəda ilə uzlaşması haqqında biliklərin möhkəmləndirilməsinə xidmət edir.

16-cı tapşırığın cavabının D variantı olduğu müzakirə yolu ilə tapılır.

Yaradıcı tətbiqetmə kimi bədii ədəbiyyatdan müvafiq nümunələr seçib yazmaq tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 8

Mətn

Məzmun standartları:

1.1.1., 1.1.2., 2.1.1., 2.1.2., 2.2.2., 2.2.3.

Təlim nəticələri:

- Fikrini dəqiqləşdirmək üçün suallar verir.
- Fikrini əsaslandırır.
- Sözlərin qarşılığını tapır.
- Məcazi mənalı sözləri müəyyənləşdirir.
- Mətndə abzasları müəyyən edir.
- Mətndəki hadisələri müasir həyatla əlaqələndirir.

İş formaları:

kollektiv, qruplarla

İş üsulları:

oxu, sual-cavab, müzakirə

Resurslar:

dərslik, lüğət

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim "Qazanılan uğurlarda qalibə kim və nə yardımçı ola bilər?" sualı ilə sinfə müraciət edə bilər. Müzakirə aparılır. Fikirlər dinlənilib qeyd olunur.

Tədqiqat sualı formalaşdırılır:

Verilən vədlərin hamısı yerinə yetirilməlidirmi və nə üçün?

Çalışmaq lazımdır ki, şagirdlərdən *ağıl, bacarıq, hövsələ, təcrübə, iradə, dözüm, dostlar* sözləri ilə yanaşı, *Allah* sözü də alınsın.

Tədqiqatın aparılması mətnin oxusu ilə başlanır. Yaxşı olar ki, bu proses qruplarda həyata keçirilsin və oxu zamanı birinci tapşırıq yerinə yetirilsin. Məzmun suallarından olan 2-ci tapşırıq da qrup işi kimi verilə bilər. Cavablar hazır olub təqdimatlar dinlənildikdən sonra müzakirə təşkil edilir, ümumi rəyə gəlinir. İnsan verdiyi vədi, xüsusən də Allah qarşısında verdiyi vədi yerinə yetirməlidir.

Mətnlə bağlı 5-6-cı tapşırıqlar yerinə yetirilir, fikirlər ümumiləşdirilir.

Yaradıcı tətbiqetmə kimi səh. 64-də 4-cü məzmun sualı üzərində iş verilə bilər. Azərbaycana vurulan maddi və mənəvi ziyanlar, xüsusilə də tarixi abidələr, əhalinin var-yoxdan çıxması, təbii sərvətlərin dağıdılması ön plana çəkilməlidir. Müəllim şagirdlərlə iş apararkən bu məsələni diqqət mərkəzində saxlamalıdır. Eyni zamanda müəllim Azərbaycanın düşmən üzərindəki mənəvi qələbəsindən və bugünkü uğurları haqqında söhbət apara bilər. Müəllim çalışmalıdır ki, şagirdlərdən "verdiyin vədə mütləq əməl etməlisən" cavabı alınsın. İnsan əməlində, işində düz olarsa, uğur həmişə onunla olar.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 9

Mətn

Məzmun standartları:

1.1.2., 3.1.1., 4.1.2.

Təlim nəticələri:

- Fikrini əsaslandırır.
- Nəqli mətn yazır.
- Tamamlıqları müəyyənləşdirir, ifadə vasitələrini tapır.

İş formaları:

kollektiv, qruplarla

İş üsulları:

müzakirə, BİBÖ

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, BİBÖ cədvəli



4 . . .

qənimət qalibiyyət

İlk müsəlman türk dövlətlərindən olan Qəznəlilərin böyük hökmdarlarından biri Sultan Mahmud Hindistana etdiyi bir yürüşdə çox çətinlik çəkmiş, qələbə qazana bilməyəcəyini düşünməyə başlamışdı. *Bu çətin vəziyyətdə "Ey Rəbbim! Əgər döyüşdə qalib gəlsəm, ələ keçirəcəyim bütün qənimətləri yoxsullara paylayacağam" sözləri ilə nəzir demişdi. Həqiqətən, Allah ona kömək etmiş və Sultan Mahmud böyük qələbə qazanaraq çox dəyərli qənimətlərə sahib olmuşdur. Qəznəyə qayıtdıqda əldə etdiyi bütün qənimətləri yoxsullara, ehtiyacı olanlara paylamağa başlamışdır. Bu vəziyyətə bəzi vəzir və komandanlar etiraz etmişlər. Sultan Mahmud: "Bu mənim dediyim nəzirdir. Şübhəsiz ki, hamısını paylayacağam",* – dedikdə isə "Amandır, sultanım, yoxsullar bu dəyərli qənimətlərdən nə anlayacaqlar? Bir hissəsini paylayın, ən dəyərli olanlarını isə xəzinəyə qoyun! Xəzinənin də bu qənimətlərə böyük ehtiyacı var", – deyərək Sultanı çaşdırmışlar. Bundan sonra Sultan Mahmud Qəznədə yaşayan, sözün doğrusunu deməkdən çəkinməyən alim bir şəxslə məsləhətləşmək qərarına gəlir. Fikrini soruşduğu həmin böyük şəxs Sultan Mahmuda belə cavab verir:

– Sultanım! Bu vəziyyətdə tərəddüd etmək yersizdir. Əgər Allaha bir daha işiniz düşməyəcəksə, vəzirlərinizin, komandanlarınızın dediyini edin! Lakin Allaha yenidən dua edib nə isə istəyəcəksinizsə, nəzirinizi yerinə yetirin, qənimətləri yoxsullara paylayın!

Vəzir və komandanlar nə üçün əldə edilən qənimətin xəzinəyə qoyulmasını istəyirdilər? Onlar nə üçün xəzinənin bu qənimətə ehtiyacı olduğunu düşünürdülər?

"Düşünən insan" jurnalından, 2014-cü il

1. Mətni adlandırın və abzaslara ayırın.
2. Sultanın verdiyi vəd ilə qazanılan qələbə arasında əlaqə varmı?
3. Alimin Sultan Mahmuda verdiyi məsləhətə münasibət bildirin.
4. "Düşmən qoşunları tərəfindən ələ keçirilən qənimət Azərbaycana hansı maddi və mənəvi ziyan vurub" mövzusunda fikir mübadiləsi aparın.

64

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim "Obyekt nədir?" sualı ilə şagirdlərə müraciət edir. Alınan cavablar müzakirə edilir.

9-cu tapşırıq (səh. 66) üzərində iş aparmaq məqsədəuyğundur. Çünki bu tapşırıqda həm şagirdlərin cümlənin qrammatik əsasına aid bilik və bacarıqları, həm də yeni öyrənəcəkləri tamamlıq haqqında anlayışlar var. Tapşırıq yerinə yetirildikdən sonra müzakirə edilir. Cümlənin II dərəcəli üzvləri haqqında ümumi rəyə gəlinir: II dərəcəli üzvlər baş üzvləri izah edir.

Tədqiqat sualı formalaşdırılır:

Hansı sözlər tamamlıq ola bilər?

Tədqiqatın aparılması BİBÖ üsulunun tətbiqi ilə başlaya bilər. İlkin olaraq II dərəcəli

üzvlər haqqında məlumat "Bilirdim" hissəsinə yazılır.

Bilirdim	İstəyirəm bilim	Öyrəndim
Cümlənin II dərəcəli üzvləri və onların adlarını	Cümlədəki funksiyalarını, növlərini	Tamamlığın funksiyalarını və suallarını, ifadə vasitələrini, növlərini və xəbərlə sintaktik əlaqəsini

"İstəyirəm bilim" sütununa şagirdlərin rəyləri yazılır.

Dərslikdəki 10-cu tapşırıq yerinə yetirilir, tamamlıq haqqında bilik və bacarıqlar əldə edilir. Bu zaman müəllim tamamlıq haqqında şərh də verməlidir.

Dərslikdəki müvafiq tapşırıqlar (10, 11, 12-ci tapşırıqlar) qrup tapşırığı kimi də verilə bilər.

Vasitəli və vasitəsiz tamamlıqlar üzərində iş aparmaq üçün 13-cü tapşırıq müvafiq qaydanın öyrədilməsi üçün motivasiya xarakteri daşıyır. Müəllim vasitəli və vasitəsiz tamamlıqları nümunələrlə müzakirə edir. Növbəti 14-cü tapşırıq kollektiv şəkildə yerinə yetirilə bilər. Dərsin sonunda layihəyə doğru növbəti addım da atılması nəzərdə tutulub.

Yaradıcı tətbiqetmə kimi 15-ci tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılmalıdır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Fikrini əsaslandırmağa çətinlik çəkir.	Fikrini müəllimin köməyi ilə əsaslandırır.	Fikrini əsaslandırır.	Fikrini müstəqil və əhatəli şəkildə, nümunələr göstərməklə əsaslandırır.
Nəqli xarakterli mətn yazmaqda çətinlik çəkir.	Nəqli xarakterli mətni müəllimin köməyi ilə yazır.	Nəqli xarakterli mətn yazır.	Nəqli xarakterli mətni fikrini əsaslandırmaqla yazır.
Tamamlıqları digər cümlə üzvlərindən fərqləndirə bilmir.	Tamamlıqları digər cümlə üzvlərindən çətinliklə fərqləndirir.	Tamamlıqları digər cümlə üzvlərindən müəllimin köməyi ilə fərqləndirir.	Tamamlıqları digər cümlə üzvlərindən fərqləndirir.

Mövzu 10

Zəhər

Məzmun standartları:

1.1.1., 1.2.4., 2.1.1., 2.2.1., 2.2.3., 3.1.2.

Təlim nəticələri:

- Suallar verməklə fikrini dəqiqləşdirir.
- Müxtəlif fikirləri ümumiləşdirir.
- Fərqləndirilmiş sözlərin qarşılığını tapır.
- Söz sırasını müəyyən etməklə fikri oxuyur.
- Mətndəki fikirləri müasir həyatla əlaqələndirir.
- Sitatdan istifadə etməklə nəqli xarakterli inşa yazır.

İş formaları:

kollektiv, cütlərlə, fərdi

İş üsulları:

klaster, sual-cavab, müzakirə, oxu

Resurslar:

dərslik, lüğət, aforizmlər

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində klaster üsulundan istifadə etmək olar. Bunun üçün *sevgi* açar sözündən istifadə etmək olar.



Şagirdlərdən dostluq, mehribanlıq, səadət, xoşbəxtlik, xeyir-bərəkət, sülh və s. kimi sözlər alınır.

Müzakirələr aparılır və ümumi rəyə gəlinir: Bütün xoşbəxtliklərin bünövrəsi sevgi ilə, insanların bir-birinə hörmət və məhəbbəti ilə qoyulur.

Tədqiqat sualı formalaşdırılır:

İnsan nə zaman xoşbəxt ola bilər?

Tədqiqatın aparılmasına mətnin oxusu ilə başlanıla bilər. Bu zaman mətndaxili suallara cavab tapılır. Oxu başa çatdıqdan sonra mətndəki əsas fikir müəyyənləşdirilir. Dərslikdəki birinci tapşırıq cütlər vasitəsilə yerinə yetirilir.

Tapşırığın cavabı belədir: *İnsanın bu dünyada ən böyük problemi elə insanın özüdür. Hər kəs öz daxili aləmini təmizləməyə çalışıb insanlarla xoş rəftar, sevgi ilə davranarsa, daha gözəl günlər yaşaya bilər.*

Məzmun sualları (2–6) üzərində iş aparılır, söz ehtiyatı ilə bağlı tapşırıqlar (7–8) yerinə yetirilir. Müzakirələrdən sonra nəticə çıxarılır: İnsan insanın dostu, yoldaşı olmalıdır.

Yaradıcı tətbiqetmə kimi dərslikdə səh. 71-dəki 15-ci tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 11

Zəhər

Məzmun standartları:

1.1.2., 3.1.2., 4.1.2.

Təlim nəticələri:

- Fikrini əsaslandırır.
- Mövzuya uyğun mülahizələrini yazır.
- Təyinləri müəyyənləşdirir və onların ifadə vasitələrini tapır.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

müzakirə, sual-cavab

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim şagirdlərə belə bir sualla müraciət edə bilər: "Hansı sözlər *necə?* sualına cavab verə bilər?" Alınan cavablar müzakirə edilir. Dərslikdəki 9-cu tapşırıq (səh. 70) yerinə yetirilir. Müzakirə aparılır.

Tədqiqat sualı formalaşdırılır:

Hansı sözlər təyin ola bilər? Təyin nə ilə ifadə oluna bilər?

Vəsaitin 75-ci səhifəsindəki sxemdən istifadə etmək olar.

Tədqiqata müəllimin şərhi ilə başlaynıla bilər. Müəllimin özünün əvvəldən yazdığı müxtəlif söz və söz birləşmələri ilə ifadə olunan təyinlərə aid olan cümlələr şagirdlərə təqdim olunur. Təyinlərin cümlədə hansı üzvə aid olduqları və sualları aydınlaşdırılır.

Dərslikdəki müvafiq tapşırıqlar (10, 11 və 12, 13-cü tapşırıqlar) qrup işi kimi yerinə yetirilir. 10-cu tapşırıq yerinə yetirilərkən şagirdlər müəyyən etməlidirlər ki, I cümlədəki *ağıllı* sözü təyin, II cümlədəki mübtədadır. Müzakirə aparılır və ümumi nəticə əldə edilir.

14-cü tapşırıq fərdi qaydada yerinə yetirilsə, məqsədəuyğun olar. Tapşırığın yerinə yetirilməsində əsas məqsəd epitetlərlə təyinin fərqləndirilməsidir. Bu tapşırıq müəllimə Ədəbiyyat fənni ilə inteqrasiya yaratmaq imkanı verir. Çalışma şagirddə məntiqi və tənqidi təfəkkürün inkişaf etdirilməsi məqsədi daşıyır.

Yaradıcı tətbiqetmə kimi şagirdlərə müstəqil olaraq bədii ədəbiyyatdan müvafiq nümunələri seçib yazmaq tapşırıla bilər. Fərdi qaydada "Sevgi ailədən başlanır" mövzusunda mülahizələrini yazmaq tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 12

Qaranquşların ömrü 6 aydır

Məzmun standartları:

1.1.2., 1.2.1., 1.2.2., 1.2.4., 2.1.1., 3.1.2.

Təlim nəticələri:

- Fikrini əsaslandırır.
- Sadə şəkildə fikrini izah edir.
- Nitqini əlavə materiallarla zənginləşdirir.
- Fikirlərini ümumiləşdirir.
- Söz və ifadələrin mənasını aydınlaşdırır, qarşılığını tapır.
- Sitatdan istifadə edərək inşa yazır.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

oxu, sual-cavab, sərbəst yazı

Resurslar:

dərslik, lüğət, Məmməd Arazın "Seçilmiş əsərləri", dinləmə materialı

6 QARANQUŞLARIN ÖMRÜ 6 AYDIR...

Qaranquş ikinci mərtəbədə yaşayan və pəncərəsi küçəyə baxan bir adamla dost olmaq istəyirdi. Bir gün bütün cəsarətini toplayıb onun pəncərəsinin qarşısına qondu. Dərin bir nəfəs aldıqdan sonra pəncərənin şüşəsini döyməyə başladı: tıq... tıq... tıq...

Adam bərk məşğul idi. Səsi eşidib pəncərəyə yaxınlaşdı. Qaranquşu gördü. Qaranquş həyəcanla: "Ey insan, mən sənindən dost olmaq istəyirəm. Nə olar, məni içəri burax", – dedi. Adam isə əsəbiliklə: "Sən haradan çıxdın, bircə sən çatmırdın. Heç quşdan da insana dost olar?" – deyə cavab verdi. Qaranquş məyus oldu. Ancaq ruhdan düşmədi: "Ey insan, pəncərəni aç, məni içəri burax. Sənə sirdaş olaram. Səni darıxmağa qoymaram". Adam isə çox inadkar idi: "Boş yerə özünü yorma. Səni içəri buraxa bilmərəm". Balaca qaranquş fikrindən dönmək istəmirdi: "Bir bax, havalar soyumağa başlayır, burada üşüyürəm. Məni içəri burax, yoxsa soyuqdan dona bilərəm. Çünki mən ancaq isti ölkələrdə yaşayıram. Peşman olmazsan. Görürəm, sən də təksən, mənimlə tənhalığını unudarsan..."

Bəzən insanlar həqiqəti eşitməyi sevmirlər. Odur ki qaranquşun son sözü adamı özündən çıxardı, hirslə: "Mən tənhalığımdan razıyam", – deyərək quşu qovdu. Qaranquş adamın inadkarlığından əl çəkmək istəmədiyini görüb uçub getdi...

Nəhayət, yaz gəldi. Qaranquşlar köhnə yuvalarına qayıtdılar. Ancaq onun axtardığı quş hələ də gözə dəymirdi. Yaz qurtarana qədər pəncərəsini açıq qoydu. Ancaq nə fayda?

Aradan xeyli vaxt keçmişdi. Bir gün qaranquş adamın yadına düşdü. Düşündü... düşündü... Nəhayət, öz-özünə: "Ey ağılsız insan, gör sən nə qədər düşüncəsizsən. Belə gözəl fürsəti əldən buraxdın. Niyə onun təklifini qəbul etmədin? İndi oturub düşünməkdənsə, onunla yaxşı vaxt keçirərdin", – dedi. Adam peşman olmuşdu, ancaq iş-işdən keçmişdi. Sonra öz-özünə təskinlik verməyə başladı: "Havalar qızanda mənim qaranquşum da uçub gələr. Mən də onu içəri buraxaram, bir yerdə xoşbəxt yaşayarıq". Oturub havaların qızmağını gözləməyə başladı.

Qaranquş hələ də yox idi. Axırda dözmədi və dərdini dünyagörmüş bir qocaya açdı. Qoca onu dinlədi, sonra da bir kəlmə ilə: "Qaranquşların ömrü 6 aydır", – dedi...

Sizcə, qoca bununla nə demək istədi?

"Füyuzat" jurnalından, 2011-ci il

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində "Sonrakı peşmançılıq fayda verməz" atalar sözündən istifadə etmək olar. Müəllim "Nə zaman, hansı hərəkətinizə görə peşman olmusunuz?" sualı ilə şagirdlərə müraciət edə bilər. Şagirdlərin rəyləri öyrənilir, müzakirə edilir.

Dinləmə mətni kimi M.Arazın "Qaranquş" şeirindən də istifadə etmək olar.

Əsdi vədə yeli... yaz müjdəsilə
Qondun eyvanıma yenə, qaranquş!
Mən sənin eşqinlə gəlirkən dilə,
Uçmağın dərd oldu mənə, qaranquş!

Bir zaman yuvanı uçurtmuşam mən,
Bəlkə də, bəlkə də, o, yanımdadır.
Dilin yox, dərd açıb söz söyləyəsən,
Dilin də, sözün də qanadındadır.

Yelləmi, selləmi keçdi ötən gün.
O, bəlkə, ötəri şimşək səsiydi.
Sənin öz yuvandan ayrı düşməyin
Mənimçün bir uşaq əyləncəsiydi.

Vaxt olur cansızdan can umur insan.
Adi təsəllidir, bunlar da ancaq.
Uçan körpəliyim, uçulan yuvan
Onsuz da geriyə qayıtmayacaq.

Tədqiqat sualı formalaşır:

"Fürsət bir quşdur, uçub gedər" ifadəsini necə başa düşürsünüz?

Tədqiqatın aparılmasına dərslikdəki mətnin oxusu ilə başlanıla bilər. Əsas mətnlə dinləmə mətni arasındakı uyğunluq müəyyən edilir. Mətndəki əsas ideya müəyyən edilir: Yaşanan hər bir anın öz mənası var: *Elə yaşamaq lazımdır ki, sonra peşman olmayasan.*

Mətn oxunduqdan sonra mətndaxili suallar, məzmun sualları (1, 2, 3, 4) üzərində iş aparılır. Dərslikdə mətnin sonunda çərçivəyə alınmış mətnlə bağlı fərdi iş aparılır.

Dərslikdəki 6-7-ci tapşırıqlar qrup işi kimi verilə bilər. Qeyd edək ki, müəllim 5-ci tapşırığa uyğun olaraq C.Novruzun müvafiq şeirini əvvəldən tapıb qruplara təqdim etməlidir. 4-cü tapşırıq isə kollektiv şəkildə yerinə yetirilir.

Yaradıcı tətbiqetmə kimi 5-ci tapşırıq evə verilə bilər. Bu zaman sərbəst yazı üsulundan istifadə məqsədəuyğundur.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Fikrini əsaslandırmaqda çətinlik çəkir.	Fikrini müəllimin köməyi ilə əsaslandırır.	Fikrini əsaslandırır.	Fikrini müstəqil və əhatəli şəkildə, nümunələr göstərməklə əsaslandırır.
Fikrini sadə şəkildə bildirə bilmir.	Fikrini müəllimin köməyi ilə bildirir.	Fikrini sadə şəkildə ifadə edir.	Fikrini auditoriyanın səviyyəsini nəzərə alaraq ifadə edir.
Əlavə materiallardan istifadə etməklə nitqini zənginləşdirə bilmir.	Əlavə materiallardan çətinliklə istifadə edərək nitqini zənginləşdirir.	Əlavə materiallardan müəllimin köməyi ilə istifadə edərək nitqini zənginləşdirir.	Əlavə materiallardan sərbəst şəkildə istifadə edərək nitqini zənginləşdirir.
Fikrini ümumiləşdirməkdə çətinlik çəkir.	Fikrini müəllimin köməyi ilə əsaslandırır.	Fikirləri ümumiləşdirir.	Digərlərinin fikirlərinə münasibət bildirərək ümumiləşdirir.
Mətndəki hadisələri rastlaşdığı hadisələrlə müqayisə etməkdə çətinlik çəkir.	Mətndəki hadisələri rastlaşdığı hadisələrlə müqayisə edəndə qeyri-dəqiqliyə yol verir.	Mətndəki hadisələri rastlaşdığı hadisələrlə müqayisə edir.	Mətndəki hadisələri rastlaşdığı hadisələrlə müqayisə edir, rəy bildirir.
Sitatlardan istifadə etməklə inşa yaza bilmir.	İnşasında sitatlardan istifadə etməkdə çətinlik çəkir.	İnşa yazısında müəllimin köməyi ilə sitatlardan istifadə edir.	Sitatlardan istifadə etməklə inşa yazır.

Mövzu 13

Qaranquşların ömrü 6 aydır

Məzmun standartları:

1.1.2., 3.1.1., 4.1.2.

Təlim nəticələri:

- Fikrini əsaslandırır.
- Kiçikhəcmli nəqli mətn yazır.
- Cümlənin təyinini müəyyənləşdirir və sintaktik əlaqəni izah edir.

İş formaları:

kollektiv, fərdi

İş üsulları:

sorğu, müzakirə, cəld yazı

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim frontal sorğu vasitəsilə təyin, sintaktik əlaqələr haqqında şagirdlərin bilik və bacarıqlarını yoxlaya bilər.

Tədqiqat sualı formalaşdırılır:

Təyin izah etdiyi üzvlərlə hansı əlaqə ilə bağlanır?

Tədqiqatın aparılması üçün şagirdlərə hər hansı bir cümlə verib onu təhlil etmək, sintaktik əlaqələri müəyyənləşdirmək tapşırılır. Məsələn:

Qəzəbini cilovlaya bilməyən insan həmişə xəcalətli və məyus olur.

Müəllim şagirdlərlə kiçik debat təşkil edə bilər:

1. Təyin aid olduğu cümlə üzvünə tabelilik (yanaşma) əlaqəsi ilə bağlanır.
2. Təyin aid olduğu sözə tabesizlik əlaqəsi ilə bağlanır.

Mövzu ilə bağlı yeni biliklər əldə edildikdən sonra müvafiq bacarıqlar formalaşdırmaq məqsədilə 8-ci tapşırıq (səh. 74) yerinə yetirilir. Dərslikdəki 9-cu tapşırıq üzərində iş aparılır. Cavablar müzakirə edilir, nəticə çıxarılır. 10-cu tapşırıq yerinə yetirilir. Bu tapşırıq yerinə yetirilərkən şagirdləri 2 qrupa bölmək olar. Birinci qrupa bədii, digər qrupa isə elmi mətn hazırlamaq tapşırıla bilər.

Yaradıcı tətbiqetmə kimi dərslikdə səh. 74-də verilən şəkil üzərində iş aparmaq məqsədəuyğun olar. Müəllim bu məqsədlə cəld yazı üsulundan istifadə edə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 14

Həmrəyliyimiz əbədidir

Məzmun standartları:

1.1.1., 1.2.1., 2.1.1., 2.2.3., 3.1.2., 3.1.3.

Təlim nəticələri:

- Mətnlə bağlı suallar verib fikirlərini dəqiqləşdirir.
- Fikrini sadə dildə izah edir.
- Sözlərin mənasını izah edir.
- Mətndəki faktları müasir dövrlə əlaqələndirir.
- Azadlıq haqqında sitatları toplayıb yazır.
- Mətni sadələşdirərək yazır.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

oxu, müzakirə

Resurslar:

dərslik, lüğət, İnternet materialları, Ümummilli liderin fəaliyyətindən bəhs edən videosüjet

HƏMRƏYLİYİMİZ ƏBƏDİDİR 7

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis edilməsi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanda başlayan milli azadlıq mübarizəsinin ən gərgin vaxtında Heydər Əliyev dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin Azərbaycanın gələcəyi üçün tarixi və *strateji* önəm daşıdığını uzaqgörənliklə müəyyən etdi. Həmin dövrdə Ulu öndər tərəfindən irəli sürülmüş azərbaycançılıq ideyası Azərbaycanın dünya birliyinə *inteqrasiyasının* təməl sütunlarından biri oldu. Mahz Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il dekabr ayının 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" tarixi qərarı qəbul etdi. Bu qərara əsasən, dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edildi.

Beləliklə, dünyanın 70-dən yuxarı ölkəsinə səpələnən 50 milyondan çox azərbaycanlının vahid azərbaycançılıq ideyası ətrafında birləşdirilməsinin və milli *diasporamızın* formalaşdırılmasının əsası qoyuldu.

1992-ci ildə Azərbaycan parlamenti 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunmasına dair qərar qəbul etdi. 1993-cü ildə isə Azərbaycan Prezidentinin fərmanı ilə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi rəsmi bayram elan edildi. Bu tarixi gün ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.

Sizcə, həmrəylik yalnız ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılar arasında olmalıdır?

Sizcə, niyə bütün azərbaycanlılar birləşməlidir?

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində "El bir olsa, dağ oynadar yerindən" atalar sözündən istifadə etmək olar. Şagirdlərin rəyləri dinlənilir, müzakirə edilir və ümumiləşdirilir.

Tədqiqat sualı formalaşdırılır:

Həmrəylik xalqımıza nə üçün lazımdır?

Mətn oxunur, faktlar qeyd olunur, əsas fikir müəyyənləşdirilir. Məzmun sualları və mətndaxili suallar üzərində iş aparılır. Mətndəki fərqləndirilmiş sözlərin leksik mənaları izah edilir. 7-ci tapşırıq qruplarla yerinə yetirilir. Müəllim mətni hissələrə bölüb şagirdlərə paylamaqla tapşırığı icra etdirir. Aşağı siniflərdən ədəbiyyat və tarix dərslərindən keçilən və öyrənilən azadlıq hərəkatları ilə bağlı bilik və məlumatlar təkrarlanır, azadlıqla bağlı söylənilən sitatlar, aforizmlər qeyd olunur. Müzakirələr aparılır, ümumiləşdirilərək nəticə çıxarılır. 9-cu tapşırıq yaradıcı təfəkkürü inkişaf etdirmək üçün nəzərdə tutulub.

Yaradıcı tətbiqetmə kimi dərslikdəki 4-cü tapşırıq verilə bilər. 8-ci tapşırıq isə fərdi qaydada xüsusi istedadı olan şagirdlərə verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 15

İnanılmaz tarixi fakt

Məzmun standartları:

1.1.2., 1.2.4., 2.2.1., 2.2.2., 3.1.2.

Təlim nəticələri:

- Fikrinin məntiqli olduğunu əsaslandırır.
- Müxtəlif fikirləri ümumiləşdirir.
- Sözlərin mənasını izah edir.
- Mətni hissələrə bölüb adlandırır.
- Mövzuya uyğun əlavə məlumat toplayıb yazır.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

oxu, sərbəst yazı, müzakirə, anlayışın çıxarılması

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində anlayışın çıxarılması üsulundan istifadə oluna bilər.



Şagirdlərdən "*yaxşılıq*" sözü alınmalıdır. "*Yaxşılıq nədir?*", "*Yaxşılıq etmisinizmi?*", "*Nə üçün həmişə yaxşılıq etmək lazımdır?*" və s. suallarla şagirdlərə müraciət edilir. Müzakirə aparılır, nəticə çıxarılır.

Tədqiqat sualı formalaşdırılır:

Yaxşılıq etmək insana nə üçün lazımdır?

Sonra mətn oxunur. Mətndə nöqtələrin yerinə aşağıdakı cümlə olmalıdır. "*Bu dəfə həmin gənci xilas edən Flemenqin kəşf etdiyi penisillin oldu*". Mətndaxili suallar cavablandırılır. 1–7-ci tapşırıqlar yerinə yetirilir. 1–4-cü tapşırıqlar qrup işi kimi verilə bilər. Müzakirələr aparılır, ümumi nəticəyə gəlinir: həyatda bütün yaxşılıqlar, pisliklər gec-tez geri qayıdır.

Yaradıcı tətbiqetmə kimi dərslikdəki 5-ci tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 16

İnanılmaz tarixi fakt

Məzmun standartları:

1.1.2., 3.1.1., 4.1.2.

Təlim nəticələri:

- Fikrini əsaslandırır.
- Nəqli xarakterli inşa yazır.
- Zərfliyin sintaktik vəzifəsini müəyyən edir.

İş formaları:

kollektiv, qruplarla, cütlərlə

İş üsulları:

sorğu, müzakirə

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim şagirdlərə müqayisə aparmaq üçün iki cümlə təklif edir və altından xətt çəkilmiş sözləri fərqləndirməyi tapşırır.

O, gözəl qızdır.

O, gözəl danışırdı.

Şagirdlərin cavabları müzakirə edilir.

Şagirdlər müəllimin köməyi ilə müəyyənləşdirirlər ki, *necə?* sualına cavab verən söz feili xəbərə aid olduğu üçün təyin ola bilməz.

8-ci tapşırıq (səh. 79) yerinə yetirilir, müzakirə edilir.

Tədqiqat sualı formalaşdırılır:

Zərfliyin cümlədə rolu nədir? Zərfliklər nə ilə ifadə oluna bilər?

Tədqiqat aparmaq üçün 9-cu tapşırıq cütlərlə yerinə yetirilir, sual işarəsinin yerinə *zərflik* sözünün yazılacağı müəyyənləşdirilir. Müəllim zərflik və onun ifadə vasitələrini nümunələrlə izah edir. Sonra iş qruplarda davam etdirilir. 10, 11, 12-ci tapşırıqlar qrup tapşırığı kimi tapşırılır. Şagirdlərin təqdimatları dinlənilib müzakirə edilir, ümumi nəticə çıxarılır. 11-ci tapşırıq şagirdlərin məntiqi təfəkkürünün inkişaf etdirilməsi üçün nəzərdə tutulub. 13-cü tapşırığın cavabı:

1 C 2 D 3 A 4 B 5 E

Yaradıcı tətbiqetmə kimi 14-cü tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun həyata keçirilir.

Mövzu 17

Sədaqət

Məzmun standartları:

1.1.2., 1.2.1., 1.2.3., 1.2.4., 2.1.1., 3.1.3.

Təlim nəticələri:

- Fikrini əsaslandırır.
- Fikrini bir cümlə ilə ifadə edir.
- Nitq etiketlərindən məqamında istifadə edir.
- Müxtəlif fikirləri ümumiləşdirir.
- Sözlər və ifadələrin mənasını izah edir.
- Mətnə yazılı əlavələr edir.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

oxu, cəld yazı, sorğu, müzakirə

Resurslar:

dərslik, lüğət, İslam Səfərlinin "Seçilmiş əsərləri", dinləmə materialı

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə şagirdlərə İ.Səfərlinin aşağıdakı şeirindən bir nümunə təqdim etməklə başlaya bilər.

Müəllim! Böyükdür, yüksəkdir bu ad,
Onu uca tutmaq şərəfdir bizə.
O öz qayğısıyla firavan, azad,
Nəsillər yetirir ellərimizə.

Dünyanın ən böyük dahilərini,
Müəllim yetirmiş parta dalından.
Onun qayğısını, alın tərini,
Dostlar, unutmayaq gəlin heç zaman.

Hər iki bənddə müəllim və parta sözlərinin yerinə nöqtələr qoyub şagirdlərə belə bir sualla müraciət etmək olar: *Sizcə, nöqtələrin yerində hansı söz olmalıdır?*

Tədqiqat sualı formalaşdırılır:

Nə üçün müəllimlik şərəfli sənət sayılır?

Tədqiqat qruplarda aparılır, fikirlər müzakirə olunur.

Mətn oxunur, mətndaxili suallar cavablandırılır. Mətnin ideyası müəyyən edilir (tap. 1), nəticə çıxarılır.

Məzmun sualları üzərində iş aparılır. Yaxşı olar ki, dərslikdəki 2, 4, 5, 6, 7 və 8-ci tapşırıqlar qrup işi kimi verilsin. Təqdimatlar edildikdən sonra fikirlər ümumiləşdirilir.

Yaradıcı tətbiqetmə kimi 3-cü tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 18

Sədaqət

Məzmun standartları:

1.1.2., 3.1.1., 4.1.2.

Təlim nəticələri:

- Fikrini əsaslandırır.
- Mətn yazır.
- Tərzi-hərəkət zərfliyini təyinlərdən fərqləndirir.

İş formaları:

kollektiv, fərdi, qruplarla

İş üsulları:

sorğu, müzakirə, sərbəst yazı

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində 9-cu tapşırıq üzərində iş aparılır, müzakirə edilir.

Tədqiqat sualı formalaşdırılır:

"Tərzi-hərəkət zərfliyi nədir və nə ilə ifadə olunur?" suallarından istifadə edilərək şagirdlər müzakirəyə cəlb olunur.

Tədqiqat müəllimin şərhi ilə aparılmağa başlayır. Bu zaman müəllim müxtəlif söz və söz birləşmələri ilə ifadə edilən tərzi-hərəkət zərfliyinə aid özünün əvvəldən hazırladığı nümunələrdən istifadə etməlidir. Müəllim şərhini bitirdikdən sonra 9, 10, 11, 12-ci tapşırıqlar qruplarda yerinə yetirilir. 12-ci tapşırıq yerinə yetirilərkən *xain* sözünün təyin, *həqarətlə* sözünün zərflik olduğunu şagirdlər müəyyənləşdirməlidirlər.

13-cü tapşırıq yerinə yetirilərkən müəllim bu mətndə daha çox terminlərdən istifadəyə diqqəti yönəltməlidir. İbtidai siniflərdən bədii və elmi mətnləri fərqləndirməyi bacaran şagirdlər artıq özləri də belə mətnlər tərtib etməlidirlər. Bu, növbəti illərdə elmi üslubun öyrədilməsinə zəmin yaradır. 13-cü tapşırığın sərbəst yazı üsulu ilə fərdi qaydada yerinə yetirilməsi məqsədəuyğun olar.

Belə mətnlərin müzakirəsi də əhəmiyyətlidir. Müzakirələr aparılır, ümumi nəticə əldə edilir.

Yaradıcı tətbiqetmə kimi şagirdlərə mövzu ilə bağlı müstəqil iş tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılmalıdır.

Mövzu 19

Hekayət

Məzmun standartları:

1.1.1., 1.1.2., 1.2.2., 2.1.2., 2.2.1., 3.1.1.

Təlim nəticələri:

- Mətndəki əsas fikri tapmaq üçün suallar verir.
- Fikrini məntiqi cəhətdən əsaslandırır.
- Əlavə məlumatlarla nitqini zənginləşdirir.
- Sözlərin mənasını aydınlaşdırır.
- Mətni düzgün oxuyur.
- Mühakimə xarakterli inşa yazır.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

oxu, öyrənirəm-öyrədirəm, müzakirə, sərbəst yazı

Resurslar:

dərslik, lüğət, "Qabusnamə"

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim diqqəti *əmanət, xəyanət, sədaqət* kimi açar sözlərə cəlb edir. Bu sözlər ətrafında fikir mübadiləsi aparılır. Bu sözlərin qarşılığı tapılır, onlardan hansı məqamda istifadə edilməsi müəyyənləşdirilir. Sonra 9-cu tapşırıq (səh. 85) yerinə yetirilir.

Tədqiqat sualı formalaşdırılır:

Əmanət kimə etibar edilər və nə ola bilər?

Tədqiqata mətnin oxusunu təşkil etməklə başlanıla bilər. Oxu başa çatdıqdan sonra məzmun sualları (1–6) üzərində iş aparılır. Yaxşı olar ki, tədqiqat qruplarda aparılsın. Mətndəki əsas fikri müəyyən etmək üçün qruplar öyrənirəm-öyrədirəm üsulundan istifadə edərək suallar tərtib edirlər. Müəyyən vaxt başa çatdıqdan sonra qrup üzvləri hazırladıqları suallarla digər qrupa müraciət edirlər. Alınan cavablar müzakirə edilir və ümumi rəyə gəlinir. Dərslikdəki digər məzmun sualları da qruplarda yerinə yetirilsə, məqsədəuyğun olar.

Dərs ərzində 7 və 8-ci tapşırıqlar (səh. 85) da yerinə yetirilir. Bu tapşırıqları yerinə yetirməklə şagirdlərin söz ehtiyatı zənginləşdirilmiş olar.

Ümumiləşdirmə mərhələsində "Əmanət təkcə puldurmu?" sualı ilə şagirdlərə müraciət edilsə, məqsədəuyğun olar. Müəllim çalışmalıdır ki, şagirdlərdə "Vətənə, torpağa, dosta və s. xəyanət etmək olmaz" fikrini formalaşdırsın. Bu həm də növbəti mərhələdə 20 Yanvar hadisələrinə keçid üçün zəmin yaratmış olur.

Yaradıcı tətbiqetmə kimi 20-ci tapşırıq (səh. 87) yerinə yetirilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 20

Hekayət

Məzmun standartları:

1.1.2., 1.2.3., 4.1.2.

Təlim nəticələri:

- Fikrin məntiqiliyini əsaslandırır.
- Nitq etiketlərini fərqləndirir.
- Zaman və yer zərfliklərini, onların ifadə vasitələrini müəyyənləşdirir.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

sorğu, müzakirə, beyin həmləsi, Venn diaqramı

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, müşahidə vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim özünün mövzuya uyğun hazırladığı cümlələri və ya müvafiq mətni şagirdlərə təqdim edə bilər. Şagirdlər müzakirəyə cəlb edilir, 10-cu tapşırıq (səh. 85) yerinə yetirilir, onların fikirləri öyrənilir.

Müəllim bu dərsi fərqli şəkildə təşkil edə bilər.

Sinif iki qrupa bölünür. Müəllim I qrupa zaman, digər qrupa yer zərfliklər üzərində iş aparmağı təklif edir. Bu, şagirdlər üçün o qədər də çətinlik törətməyəcək. Çünki onlar artıq zərfliklər, tərzi-hərəkət zərfliklər, sualları, ifadə vasitələri haqqında məlumatlıdırlar.

Bu tapşırığın icrası üçün müəllim hər qrupa ayrılıqda tərkibində zaman və yer zərfliklər olan müxtəlif cümlələr təqdim edir, həmin sözlərin, ilk növbədə, sualını, sonra sintaktik vəzifəsini, ifadə vasitələrini müəyyənləşdirir. Zaman və yer zərfliklərinin qaydası şagirdlər tərəfindən formalaşdırılır. Təqdimatlar edilir. Müəllim çalışmalıdır ki, şagirdlərin izahı əsaslandırılmış şəkildə olsun ki, əks qrup yeni məlumatı tam qavraya bilsin.

Sonra müəllim qruplara verilən tapşırıqları dəyişir. Zaman zərfliyini tədqiq edən qruplara dərslikdəki 11–13 və 14-cü tapşırıqlar, yer zərfliklərini tədqiq edən qruplara 15–17-ci tapşırıqlar verilir. 12-ci tapşırıq yerinə yetirilərkən müəllim nitq etiketi kimi alqışlar üzərində iş aparmağı da diqqət mərkəzində saxlamalıdır. 18-ci tapşırıq kollektivlə yerinə yetirilir.

Nəticə və ümumiləşdirmə mərhələsində 19-cu tapşırıq yerinə yetirilə bilər. Mətn hazırlanarkən Venn diaqramından istifadə etmək mümkündür.

Yaradıcı tətbiqetmə kimi 20-ci tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 21

Tariximizin şanlı səhifəsi

Məzmun standartları:

1.2.1., 1.2.2., 3.1.1.

Təlim nəticələri:

- Fikrini müddəa şəklində ifadə edir.
- Bədii nümunələrlə nitqini zənginləşdirir.
- Mühakimə xarakterli inşa yazır.

İş formaları:

kollektiv, fərdi

İş üsulları:

sərbəst yazı, ifadəli oxu

Resurslar:

dərslik, lüğət, iş vərəqləri,
20 Yanvar faciəsindən bəhs edən videosüjet, Şəhidlər xiyabanı ilə bağlı videomaterial

11 TARİXİMİZİN ŞANLI SƏHİFƏSİ

Heç güllərin ağladığını görmüsünüzmü? Qərənfilləri matəm çiçayinə çevirən 20 Yanvar! Güllərin son mənzilini şəhid məzarına çevirən məşum gün şəhid qanından qıpqırmızı qana bələndi, gözlərindən damla yaş axıtdı. Şəhərimizə qərənfil yağışı yağdı.

Şairlərimizdən Məmməd Aslan: "Ağla, qərənfil, ağla!" – yazdısa, digər şairimiz Məmməd Araz isə: "Ata millət, ana millət, ağlama! Ağlamağın yeri deyil, ağlama!" – yazdı.

Əgər Şəhid varsa, demək, vətən var,
Şəhidlər dünyada ən böyük haqdır.
Ölümdən qorxmayın, siz ey oğullar,
Ruhlar bu torpağı qoruyacaqdır.

Nə yaxşı, dünyada müqəddəs vətən,
Nə yaxşı, müqəddəs and yerimiz var.
Yox, yox, acımıram bu ölümə mən
Namuslu oğullar şəhid doğular.

Alı Mustafayev

Şəhid olmaq ölmək, yox olmaq deyil, ölümlə var olub mənən diri qalmaq deməkdir.
Allah yolunda ölənləri heç də ölü zənn etmə! Əslində, onlar diridirlər. Onlara Rəbbi yanında ruzi əta olunur. (Qurani-Kərim, Ali-İmran surəsi, ayə 169.)

88

DƏRSİN GEDİŞİ

Mövzu həm müəllim, həm də şagirdlər üçün tanışdır. Bu mövzuda həm bədii ədəbiyyatda, həm KİV-də, həm də dərsliklərdə istənilən qədər fakt və məlumatlar var. Bu dərs ərzində dərslikdəki (səh. 88-89) məlumat və faktlardan da istifadə etməklə inşa və ya ssenari yazmaq olar. Müəllim hər hansı bir şəhid haqqında məlumat toplayıb inşa yazmağı və ya təqdimat hazırlamağı tapşıra bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 24

Qırxıncı fəndi bu günə saxlamışdım

Məzmun standartları:

1.1.1., 1.1.2., 2.1.1., 2.2.1., 3.1.1.

Təlim nəticələri:

- Suallar hazırlayıb fikrini dəqiqləşdirir.
- Fikrin məntiqiliyini əsaslandırır.
- Sözlərin antonim və sinonimlərini müəyyən edir.
- Mətni düzgün oxuyur.
- Mövzuya uyğun mühakimə xarakterli inşa yazır.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

sual-cavab, müzakirə

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, "Rəvayətli ifadələr" kitabı, dinləmə materialı

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində *"Müəllim-şagird münasibəti necə olmalıdır?"* sualı ətrafında müzakirə aparıla bilər. Rəylər dinlənilir.

Tədqiqat sualı formalaşdırılır:

Əsl şagird necə olmalıdır?

Müəllim dinləmə mətnindən istifadə edə bilər.

Bir cavan bütün yaxınlarının etirazına baxmayaraq, ticarət məqsədilə Misirə getmək istəyir. Mövlana da həmin gəncə getməməyi məsləhət görür. Lakin cavan sözə qulaq asmır, gizlincə səfərə çıxır. Səfər zamanı onun olduğu gəmiyə hücum edir, gənci əsir götürürlər.

Gənc özündən böyüklərin sözünə qulaq asmadığı üçün peşman olur. Başına fəlakətlər gələcəyini anlayıb çox peşman olur və hər gün Allaha dua edir ki, kaş ki Mövlana yanımda olub mənə kömək edə idi.

Ertəsi gün müəllimini yuxuda görür. Müəllimi Mövlana ona məsləhət görür ki, səndən nə soruşsalar, de ki, bilirəm. O, şagirdinə bir xəstəliklə bağlı dərmanın hazırlanmasını da öyrədir.

Səhər zindana gəlib həkimlikdən kimin başı çıxdığını soruşurlar. Gənc həkimlik sənətini bildiyini deyir. Sən demə, o yerin hökmdarı ağır xəstə imiş və dərmanı tapılmırmış. Gənc ustadı Mövlananın dediyi kimi hərəkət edir, dərman hazırlayır və onu hökmdara içirir. Xəstə şəfa tapır. Hökmdar gəncə deyir:

– Bir arzun varsa, yerinə yetirim.

Gənc cavabında deyir.

– Mən müəllimimin izni olmadan pul qazanmaq üçün səfərə çıxdım. Məni yolda əsir götürdülər. Əsirlikdə başıma gələn müsibətlərin səbəbini anlayıb tövbə etdim və müəllimim Mövlanadan üzr istədim. Yuxuma gələn Mövlana xəstəliyin səbəbini və dərmanın ha-

zırlanması qaydasını mənə öyrətdi. Mən də onun dediyi kimi etdim. Gördüyünüz kimi, bu mənim müəllimimin xeyir-duası ilə oldu.

Sonra əsas mətn oxunur, hər iki mətnin məzmunu üzərində iş aparılır. Şagirdlərin davranışlarındakı fərqlər, müəlliminə münasibət məsələləri müzakirə edilir.

Oxu zamanı mətndaxili suallara cavab verilir. Oxu bitdikdən sonra iş qruplarda davam etdirilir. "Öyrənirəm-öyrədirəm" üsulundan istifadə edərək əsas fikri müəyyənləşdirmək üçün suallar tərtib edilir, qruplararası sorğu aparılır. Tədqiqatın növbəti mərhələsində 2-ci məzmun sualı üzərində iş aparılır. Bu zaman 3, 4 (çox, xeyli, artıq, bir çox) və 5-ci tapşırıqlar da yerinə yetirilir. Müzakirələr aparılır və ümumi rəyə gəlinir: Əsl şagird heç vaxt nankor olmamalıdır. Müəllimin diqqətinə çatdırırıq ki, müzakirələr zamanı Aşıq Ələsgərin "Bir şagird ki, ustadına kəm baxa, Onun gözlərinə qan damar, damar", Məhəmməd Peyğəmbərin "Mənə bir hərf öyrədənin 60 il qulu olaram" fikir və ifadələrindən də istifadə edə bilər.

Sonda şagirdlərdə insan nankor olmamalıdır fikri formalaşdırılır. Müəllim şagirdlərə aşılamalıdır ki, insan təkcə müəlliminə yox, vətəninə, elinə, valideyninə, ona dost deyən insanlara qarşı çıxmamalıdır. Bu nəticə sonrakı dərslərin tədrisində ("Bilirdim ki, gələcəksən", "Nar dənəsi") şagird üçün motivasiya rolunu oynaya bilər.

Yaradıcı tətbiqetmə zamanı mövzuya uyğun inşa yazmaq tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparıla bilər.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Deyilən faktları dəqiqləşdirmək üçün sual tərtib etməkdə çətinlik çəkir.	Deyilən faktları dəqiqləşdirmək üçün sualı müəllimin köməyi ilə tərtib edir.	Deyilən faktları dəqiqləşdirmək üçün sual tərtib edir.	Deyilən faktları dəqiqləşdirmək üçün əhatəli suallar tərtib edir.
Fikrin məntiqiliyini əsaslandırmaqda çətinlik çəkir.	Fikrin məntiqiliyini müəllimin köməyi ilə əsaslandırır.	Fikrin məntiqiliyini əsaslandırır.	Fikrin məntiqiliyini müstəqil və əhatəli şəkildə, nümunələr göstərməklə əsaslandırır.
Bəzi sözlərin sinonimlərini və antonimlərini müəyyənləşdirə bilmir.	Sözlərin sinonimlərini və antonimlərini çətinliklə müəyyənləşdirə bilir.	Sözlərin sinonimlərini və antonimlərini müəllimin köməyi ilə müəyyənləşdirə bilir.	Sözlərin sinonimlərini və antonimlərini müəyyənləşdirə bilir.
Mətni düzgün oxumaqda çətinlik çəkir.	Mətni müəllimin köməyi ilə düzgün oxuyur.	Mətni düzgün oxuyur.	Mətni tələffüz qaydalarından, səs tonundan, fasilələrdən yerli yerində istifadə edərək oxuyur.
Mühakimə xarakterli inşa yazmaqda çətinlik çəkir.	Mühakimə xarakterli inşada fikirlərini tam ifadə edə bilmir.	Mühakimə xarakterli inşa yazarkən bəzi səhvlərə yol verir.	Mühakimə xarakterli inşa yazır.

Mövzu 25

Qırxıncı fəndi bu günə saxlamışdım

Məzmun standartları:

1.1.2., 4.1.2.

Təlim nəticələri:

- Fikrini əsaslandırır.
- Sözün sintaktik vəzifəsini müəyyən edir.

İş formaları:

kollektiv, fərdi

İş üsulları:

sorğu, müzakirə, əqli hücum

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə miqdar zərfləri haqqında aşağı sinifdə əldə etdiyi bilikləri təkrarlatmaq məqsədilə frontal sorğu keçirə bilər. Sonra şagirdlərə tərkibində kəmiyyət zərfliklərinin işləndiyi hər hansı bir mətn və ya cümlələr təqdim edə bilər. Məsələn:

1. *Kimsənin getməmiş olduğu yoldan*
   Çox yoldaş olsa da, getmə sən əsla.
   Çox yaxın, ancaq ki qorxulu yoldan
   Qorxusuz uzaq yol yaxşıdır, inan.
   (N.Gəncəvi)

Nümunələrdə işlənmiş "çox" sözünün hansı sintaktik vəzifə daşıdığı müzakirə edilir.

Tədqiqat sualı formalaşdırılır:

Kəmiyyət zərfliyi nədir və nitqdə onun rolunu necə izah edərdiniz?

7-8-ci tapşırıqlar (səh. 91) üzərində iş aparmaq olar. Cavablar yoxlanılır, müzakirə edilir. Qeyd edək ki, dərslikdə kəmiyyət zərfliyi haqqında xüsusi məlumat verilməyib. Şagirdlərin məntiqi və tənqidi təfəkkürünü inkişaf etdirmək məqsədilə şagird dərslikdəki tapşırıqları yerinə yetirməklə özü "Kəmiyyət zərfliyi nədir?" sualına cavab tapmalıdır. 9-cu tapşırıq **ümumiləşdirmə** mərhələsində yerinə yetirilir.

Yaradıcı tətbiqetmə kimi bədii əsərlərdən kəmiyyət zərfliyinə aid nümunələr seçib yazmaq tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticəsinə uyğun aparılır.

Mövzu 26

Qədim türklərdə tərbiyə

Məzmun standartları:

1.1.2., 1.2.3., 2.1.1., 2.2.1., 3.1.1.

Təlim nəticələri:

- Fikrin məntiqiliyini əsaslandırır.
- Nitq etiketlərini müəyyən edir.
- Sözlərin qarşılığını tapır.
- Mətnin abzaslarını müəyyən edir.
- Mövzuya uyğun mətn yazır.

İş formaları:

kollektiv, fərdi, cütlərlə

İş üsulları:

müzakirə, əqli hücum

Resurslar:

dərslik, lüğət, "Dədə Qorqud" dastanları

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində "Atadan oğula qalan ən yaxşı miras tərbiyədir" deyimindən istifadə etmək olar. Müzakirə aparılır, rəylər dinlənilib nəticə əldə edilir.

Tədqiqat sualı formalaşdırılır:

Tərbiyənin insan həyatındakı rolu nədən ibarətdir?

Mətn oxunur, oxu başa çatdıqdan sonra əsas fikir müəyyənləşdirilir. Mətndaxili sual müzakirə edilir. Ailədə atanın və ananın vəzifəsi müəyyən edilir, sualın cavabı bu istiqamətə yönəlir, "Dədə Qorqud" dastanları ilə əlaqə yaradılır. Məzmun sualları üzərində iş aparılır. Mətndəki nitq etiketi müəyyən edilir, fikir bildirilir. Əlavə nümunələr söylənilir. Sonra məzmun sualları üzərində iş aparılır. Mətnin şagirdlərin dərslikdə tanış olduqları bədii və publisistik mətnlərdən fərqi müəyyən edilir. Bu işin kollektiv formada həyata keçirilməsi məqsədəuyğundur. Mətnin xarakterik xüsusiyyətləri (tap. 1) cütlərlə hazırlanır. Müvafiq sözlərin mənası (4-5) lüğətin köməyi ilə aydınlaşdırılır, qarşılığı tapılır. Dərsin sonunda ümumi nəticə əldə edilir. Tərbiyənin insan həyatında rolu onun cəmiyyət arasında nüfuz sahibi olmasında, böyük bir kütləni öz arxasınca irəliyə doğru aparmasında, ətrafdakılara öz əməlləri ilə örnək olmasında əhəmiyyətlidir.

Yaradıcı tətbiqetmə kimi tərbiyəyə aid atalar sözləri seçib yazmaq tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 27-28

Qədim türklərdə tərbiyə

Məzmun standartları:

1.1.2., 4.1.2.

Təlim nəticələri:

- Fikrini əsaslandırır.
- Səbəb zərfliyini müəyyənləşdirir, ifadə vasitəsini tapır.
- Məqsəd zərfliyini müəyyənləşdirir, ifadə vasitəsini tapır.
- Səbəb və məqsəd zərfliklərini fərqləndirir.

İş formaları:

kollektiv, fərdi

İş üsulları:

Venn diaqramı, müzakirə, sual-cavab, beyin həmləsi

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, sxemlər

1. Nə üçün oğlanların tərbiyəsində atanın, qızların tərbiyəsində ananın nümunəsi əsas hesab edilir?
2. Bu mətn bölmədəki digər mətnlərdən xarakterə necə fərqlənir?
3. Mətni abzaslara ayırın.

4. Hansı sözlər mətn üçün açar söz ola bilər?
5. Fərqləndirilmiş sözlərin leksik mənasını müəyyənləşdirin və qarşılığını tapın.

6.
1. Yüksəlmək üçün yalnız öz gücünüzdən istifadə edin.
2. Biz yalnız başqaları üçün yaşayan zaman özümüz üçün yaşayırıq (*L.Tolstoy*).
3. Vətən üçün ölən insan xoşbəxt insandır.
4. Oğlundan xəbər tuta bilmədiyi üçün ana var-gəl edir, bir çıxış yolu axtarırdı (*M.Cəlal*).

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində dərslikdə səh. 93-dəki 6-cı tapşırıqdan istifadə etmək məqsədəuyğundur. Bu tapşırıq şagirdlərdə məntiqi və tənqidi təfəkkürün inkişafı üçün nəzərdə tutulub. Müəllimin verdiyi istiqamətə əsasən şagirdlər tapşırığı müzakirə üsulundan istifadə edərək yerinə yetirirlər. Müəllim bu tapşırığın icrası zamanı diqqəti *üçün* qoşması ilə işlənən sözlərin ifadə etdiyi sintaktik vəzifəyə yönəltməlidir. Həmin sözlərin məqsəd, səbəb, obyekt anlayışı ifadə etməsi və təyinedici söz kimi işlənməsi müəyyən edilməlidir. Qeyd edək ki, birinci cümlədə məqsəd, ikinci cümlədə obyekt, dördüncü cümlədə səbəb anlayışı var. Üçüncü cümlədə isə *Vətən üçün ölən* birləşməsi təyinedici ifadədir.

Tədqiqat sualı formalaşdırılır:

Səbəb və məqsəd zərfliklər nədir və onlar nə ilə ifadə oluna bilər?

Tədqiqatın aparılması 7-ci tapşırığın icrası ilə başlaya bilər. Bu zaman ən çox diqqəti səbəb zərflikli cümlələrdə feili sifət, məqsəd zərflikli cümlələrdə isə məsdərlərin işlənməsinə cəlb etməlidir. Eyni zamanda cümlələrdəki hərəkətlərin hansının əvvəl yerinə yetirildiyi önə çəkilməlidir. Müəllim müvafiq nümunələr əsasında dərsi şagirdlərə başa salır, ifadə vasitələri aydınlaşdırılır. Şagirdlərin dərs prosesində əldə etdikləri biliklər əsasında müvafiq bacarıqlara yiyələnməsi məqsədilə Venn diaqramı vasitəsilə də 7-ci tapşırıq yerinə yetirilə bilər. Səbəb və məqsəd zərfliklər müqayisə edilir, oxşar və fərqli xüsusiyyətləri qeyd olunur. Bu zaman diqqət səbəb və məqsəd zərfliklərinin nə ilə ifadə olunduqlarına yönəldilir.

Şagirdlərin cümlə üzvləri ilə bağlı yiyələndikləri bilik və bacarıqları inkişaf etdirmək məqsədilə 8-ci tapşırıq da fərdi şəkildə yerinə yetirilir.

Növbəti dərsdə müəllim şagirdlərdə əldə edilən bacarıqları inkişaf etdirmək məqsədilə zərfliklərə aid hazırladığı müvafiq tapşırıqlar (bu, sual, tapşırıq və testlərdən ibarət ola bilər) üzərində iş təşkil edə bilər.

Yaradıcı tətbiqetmə kimi müəllim şagirdlərə səbəb və məqsəd zərfliklərindən istifadə etməklə hər hansı bir formada inşa yazmağı tapşıra bilər. Bu tip yazılar şagirdlərdə səbəb və məqsəd zərfliklərindən düzgün istifadə etməklə onları fərqləndirmək bacarığı formalaşdıra bilər.

Qeyd: Müəllim elə mövzu seçə bilər ki, növbəti dərs üçün motivasiya xarakteri daşısın.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Fikrin məntiqiliyini əsaslandırmağa çətinlik çəkir.	Fikrin məntiqiliyini müəllimin köməyi ilə əsaslandırır.	Fikrin məntiqiliyini əsaslandırır.	Fikrin məntiqiliyini müstəqil və əhatəli şəkildə, nümunələr göstərməklə əsaslandırır.
Səbəb zərfliyini digər cümlə üzvlərindən fərqləndirə bilmir.	Səbəb zərfliyini digər cümlə üzvlərindən çətinliklə fərqləndirir.	Səbəb zərfliyini digər cümlə üzvlərindən müəllimin köməyi ilə fərqləndirir.	Səbəb zərfliyini digər cümlə üzvlərindən fərqləndirir.
Məqsəd zərfliyini digər cümlə üzvlərindən fərqləndirə bilmir.	Məqsəd zərfliyini digər cümlə üzvlərindən çətinliklə fərqləndirir.	Məqsəd zərfliyini digər cümlə üzvlərindən müəllimin köməyi ilə fərqləndirir.	Məqsəd zərfliyini digər cümlə üzvlərindən fərqləndirir.

Mövzu 29

Yolun sonu

Məzmun standartları:

1.1.2., 1.2.1., 1.2.4., 2.1.1.

Təlim nəticələri:

- Söylənilən fikirlərin məntiqiliyini əsaslandırır.
- Fikirlərini öz rəyinə əsasən bildirir.
- Müqayisə zamanı deyilən fikirləri ümumiləşdirir.
- Sözlərin leksik mənasını şərh edir.

İş formaları:

kollektiv, fərdi

İş üsulları:

müzakirə, sorğu, beyin həmləsi

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, "Dolu" filmindən fraqment

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim Qarabağda baş verən hadisələri əks etdirən hər hansı bir filmdən ("Dolu") uyğun fraqment nümayiş etdirilir. Beyin həmləsindən istifadə edərək "*Əsl dost necə olmalıdır?*" sualına cavab alınır. Şagirdlərin cavabları qeyd edilir və müzakirə aparılır, ümumi rəyə gəlinir.

Tədqiqat sualı formalaşdırılır:

Çətin anda dosta necə kömək etmək olar?

Tədqiqata başlamazdan əvvəl Prezidentin və S.Axundovun fikirlərinə münasibət öyrənilir. Bu zaman 1.1.2. standartı reallaşdırılmalıdır.

Tədqiqatın aparılması isə mətnin oxusu ilə başlaya bilər. Mətndəki əsas fikir müəyyənləşdirilib müzakirə edilir. 3-cü tapşırıq geniş şəkildə müzakirə edilərək yerinə yetirilir. Lələtəpə döyüşü haqqında əldə edilən məlumatlar dinlənilir, fikirlər ümumiləşdirilir. Bu zaman həm Azərbaycan oğullarının igidliyi, həm də ordumuzun nəyə qadir olduğu diqqət mərkəzində saxlanılmalıdır. Məzmun sualları üzərində iş aparılır.

Ümumi nəticə çıxarılır:

Əsl dost ən çətin anda da dostu haqqında fikirləşməli, ona kömək etməli, onun yanında olmalıdır.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılmalıdır.

Mövzu 30

Yolun sonu

Məzmun standartları:

3.1.1., 4.1.2.

Təlim nəticələri:

- Nəqli xarakterli esse yazır.
- Təyini müəyyən edir, ifadə vasitələrini aydınlaşdırır.

İş formaları:

kollektiv, fərdi

İş üsulları:

müzakirə, sual-cavab

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

silahdaşına yardım edir. Belindəki dəri kəməri açıb Vüqarın qanaxmasını saxlamaq üçün ayağını sıx bağlayır, təhlükəsiz ərazi yə çıxarmaq üçün onu kürəyinə alır. İnsan yaralı olanda lap ağırlaşırmış. Sənan Axundov bu ağırlığı hiss etsə də, yorulmaq bilmirdi. Təki dostunu minalanmış ərazidən uzaqlaşdırıb hərbi hissəyə çatdıra bilə idi.

...Ərazinin xeyli hissəsini keçmişdilər. Yenicə açıqlığa çıxmışdı ki, qarşıdan kömək gəldiyini gördü. Sevindi, dərindən nəfəs aldı. Vüqarı yerə uzadıb bir qədər qabağa keçdi. Birdən ayağının altında məlum bir çıqqıltı səsi eşitdi. Ətrafına baxdı ki, bəlkə, ağır bir daş tapsın, minanı "aldatmaq üçün" onun üzərinə yerləşdirə bilsin.

Lakin... Deyəsən, yolun sonu idi, deyəsən, bu yoldan dönüş yox idi... Bir daha dönüb kənarda inildəyən hərbçi dostuna baxdı...

Dostunun huşu özündə olsa idi, yəqin ki: "Balalarımı, dostlarımı Vətənə əmanət edirəm, Vətən torpaqlarını qoruyun, canından çox sevdiyi üçrəngli bayrağı həmişə uca tutun", – deyəcəkdi.

Aprel döyüşçülərinin azad etdiyi ərazidə ikinci partlayış baş verdi...

...Köməyə gələn əsgərlər ağır yaralı Sənanı hospitala çatdırsalar da, onların döyüş komandiri gözlərini dünyaya əbədi yumdu...

Nəcibə Axundova

1. "Dolu" filminə baxın. Filmlə hekayəni müqayisə edərək fikirlərinizi ümumiləşdirin.
2. Mətndə Azərbaycan xalqına məxsus hansı xüsusiyyətləri müşahidə etdiniz? Mətnin adını atalar sözü ilə əvəz edin. Uyğun atalar sözləri ilə müqayisə aparın.
3. Lələtəpə haqqında məlumat toplayın. Orada gedən müharibənin səbəblərini araşdırın. Onu yoldaşlarınıza necə və hansı formada çatdıracağınızı düşünün.

4. *Mina* sözünü fərqli mənalarda cümlədə işlədin.
5. *Təcavüz, sənqər* sözlərinin leksik mənalarını izah edin.

6. Aşağıdakı cümlələri sintaktik təhlil edərək müqayisə edin. Cümlə üzvlərinin sıralanmasında nəyi müşahidə etdiniz?
   - Sənan partlayış səsi eşitdi.
   - Boy-boy qalxan yaşıllıqların arasından torpaq ətrafa səpildi.

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində dərslikdə səh. 97-dəki 7-ci tapşırığın üzərində iş aparmaq olar. Bu mərhələdə müəllim özünün hazırladığı müvafiq nümunələrdən də istifadə edə bilər. Şagirdlərin cavabları dinlənilir, müzakirə edilir.

Tədqiqat sualı formalaşdırılır:

Ardıcıllıq nədir və özünü cümlədə necə göstərə bilər?

Tədqiqatın aparılması müəllimin şərhi ilə başlaya bilər. Cümlədə cümlə üzvlərinin yeri nümunələr əsasında şagirdlərə izah edilir. Şagirdlərdə bacarıq formalaşdırmaq üçün 8-ci tapşırıq yerinə yetirilir.

Ümumiləşdirmə mərhələsində müəllimin özünün hazırladığı tapşırıq və nümunələr üzərində iş aparıla bilər.

Yaradıcı tətbiqetmə kimi sonuncu tapşırıqdan (səh. 97) istifadə etmək olar.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 31

Nar dənəsi

Məzmun standartları:

1.1.2., 1.2.1., 1.2.2., 3.1.1.

Təlim nəticələri:

- Fikrini əsaslandırır.
- Mövzuya uyğun fikirlərini sadə şəkildə ifadə edir.
- Əlavə materiallardan istifadə edir.
- Mövzuya uyğun yazılı təqdimat hazırlayır.

İş formaları:

kollektiv, fərdi

İş üsulları:

oxu, müzakirə, klaster

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, "Xoca" filmindən fraqment

15 NAR DƏNƏSİ

dəmir əjdaha

Qoca nar ağacı çox narahat idi. Düşmənin zirehli maşını daş hasarı vurub uçurandan sonra ağacı qüssə almışdı. Həmişə onu suvaran, qayğısını çəkən sahibini namərdlər öz evindən didərgin salmışdılar.

Zaman kişi nar ağaclarını çox sevərdi. O, həmişə deyərdi ki, nar birlik, möhkəmlik rəmzidir. Nar vüqarlı meyvədir, çürüyəndə də ağacın başında qalır. Nar ağacı məğrurdur. O ağaca heç kim çıxa bilmir, onu ayaqlaya bilmir.

Zaman kişi həyətdə müxtəlif növ nar ağacları əkmişdi. O, elindən-obasından didərgin düşəndə cavan nar zoğlarını çıxarıb özü ilə apardı, amma qoca ağacı aparmaq mümkün olmadı. Zaman kişi ağacla vidalaşıb ona iki kəlmə söz dedi: "Məni bağışla!"

Nar ağacı o vaxt bu sözlərin mənasını başa düşməmişdi. İndi narların yetişən vaxtı daş hasar sökülənə ağac ətrafda baş verənləri gördü. Meyvə ağaclarının çoxu böyrü üstə düşmüş, meyvələr ətrafa səpələnmişdi. Birdən "dəmir əjdaha"nın zəhmli səsi eşidildi. O, nar ağacına tərəf gəlirdi. Ağacın ürəyi əsdi, o, var gücü ilə qışqırdı: "Hara gəlirsən? Axı hələ yetişən narları dərməyiblər, mənim balalarımı məhv eləmə!"

Onun səsini eşidən olmadı. "Dəmir əjdaha" ağacın üzərindən keçib narları əzdi. Ağac "qanına qəltan" oldu. Zirehli maşının nohəng təkərləri də "nahaq qana" bulandı. Qıpqırmızı, iri bir nar diyirlənib yolun ortasına düşdü. Paralanan narın bir dənəsi kənara sıçradı. Nar dənəsi mərcan kimi parlayırdı. O, parçalanan "ana"sına baxdı və ona tərəf can atdı. Qolu-budağı qırılmış nar ağacı əzilən narlara baxdıqca ürəyi qana dönürdü. O, nar dənəsini görəndə dözə bilmədi. Ağac qırılmış budağını nar dənəsinə tərəf uzatdı.

98

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində klaster üsulundan istifadə edərək açar söz kimi müharibə sözündən istifadə etmək olar.



Şagirdlərin müharibə ilə bağlı söylədikləri fikirlər qeyd edilir.

Tədqiqat sualı formalaşdırılır:

Müharibə təkcə insanlaramı faciə gətirir?

Mətn oxunur, müzakirə edilərək əsas fikir müəyyənləşdirilir. Dərslikdəki suallar üzərində iş aparılır. Müharibənin təkcə insanlara deyil, təbiətə də, tarixi abidələrə də, hətta kiçik bir nar dənəsinə də fəlakət gətirdiyi müəyyənləşdirilir. Qarabağ müharibəsinin xalqımıza, dövlətimizə vurduğu ziyanı, gətirdiyi fəlakəti əks etdirən faktlar və məlumatlar yada salınır. Xocalı faciəsi haqqında danışılır.

Yaradıcı tətbiqetmə kimi Qarabağ müharibəsinin dəhşətlərinə aid təqdimat hazırlamaq tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏYƏ NÜMUNƏ

KSQ №3

2. Hamımız alaçıqdan çıxdıq. Qızılquşlar uçub getmişdi. Kəklik də kiçik gözlərini göyə dikərək baxır, düşməninin getmiş olduğunu bilmək istəyirdi.
4. Qardaşım quşu birdən-birə havaya atdı. Kəklik onun əlindən ox kimi çıxdı, meşənin ağacları arasında yox oldu.
1. Anam qızılquşu tanıdı. Sonra cücələri qorumaq üçün əlinə böyük bir ağac alıb onu qovalamağa çalışdılar.
3. Biz alaçığa girən quşu axtarmağa başladıq. Bizdən əvvəl qardaşım yükün altında bir bucağa sığınmış quşu qaldırdı. Bu, kəklik idi.
5. Sentyabrın isti günlərindən biri idi. Alaçığın içində uzanmışdıq. Həyətdəki toyuq birdən-birə acıqlı səslə qaqqıldadı. Bu zaman bir quş ildırım sürətilə şığıyıb alaçıqdakı yükün altına soxuldu. Hamımız alaçıqdan kənara çıxdıq. Böyük bir quş iri qanadlarını açaraq alaçığın üzərində dövrə vurur, iti baxışlarla bizi süzürdü.

1. Mətndəki hadisələri düzgün ardıcıllıqla düzün.

A) 3. 4. 2. 1. 5 B) 5. 1. 3. 2. 4 C) 4. 2. 3.1. 5
D) 1. 3. 2. 4. 5 E) 3. 5. 1. 2. 4

2. Mətni verilmiş nümunələrdən birini seçməklə adlandırın və seçiminizi bir cümlə ilə əsaslandırın.

A) Kəklik B) Bir hadisə C) Qızılquş D) Meşədə E) Mənim qardaşım

3. Hansı cümlələr mətnin məzmununa uyğun deyil.

1. Qardaşım quşu azad etdi.
2. Kəklik balalarını tez gizlətdi.
3. Kəklik uçub getdi.
4. Quş yükün altında gizləndi.
5. Onu tutmaq istəyən qızılquş idi.
6. Qızılquş həyətdəki cücələrə hücum elədi.

A) 3, 4 B) 1, 5 C) 2, 6 D) 4, 6 E) 1, 3

4. Qarşısında “2” yazılmış hissədəki cümlələrin qrammatik əsasını seçib yazın.

5. İsmi xəbərli cümlələri seçib yazın.

6. Qarşısında “5” yazılmış hissədən yalnız xəbərdən ibarət cümləni seçib yazın.

7. Verilən cümlənin qrammatik əsasını müəyyənləşdirin.

Həyətdəki toyuq birdən-birə acıqlı səslə qaqqıldadı.

_____

8. Aşağıdakı cümlələrdən hansında mübtəda yoxdur?

A) Elməddin dördüncü mərtəbədə yaşayır.
B) O, VII sırada əyləşmişdir.
C) 7-ci sinif şagirdləri çox sevindilər.
D) Qardaşım II sinifdə oxuyurdu.
E) Avqustun 1-i Azərbaycan dili və Əlifbası Günüdür.

9. Mürəkkəb adların yazılışında hansı variantda səhvə yol verilmişdir?

A) “Tərəqqi” medalı
B) “Azərbaycan müəllimi” qəzeti
C) Doqquz May
D) Tələbə Qəbulu üzrə Dövlət Komissiyası
E) Atlantik okeanı

10. Hansı cümlənin xəbəri nəqli keçmiş zamanda işlənən feillə ifadə olunmuşdur?

A) Anam qızılquşu tanıdı.
B) Alaçığın içində uzanmışdıq.
C) Biz onu axtarmağa başladıq.
D) Qardaşım quşu havaya atdı.
E) Hamımız alaçıqdan çıxdıq.

11. “Ağacların arasında yox oldu” cümləsinin xəbərini frazeoloji birləşmə ilə əvəz edin.

_____

12. Hansı cümlədə mübtəda ilə xəbərin kəmiyyətə görə uzlaşması pozulmuşdur?

_____

13. “Yaylaqda” adlı mətn yazın. Verilmiş mətnlə əlaqələndirin.

KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏYƏ NÜMUNƏ

KSQ №4

60-ı haqlamışdı Yusif kişinin yaşı. Alnının dərin qırışlarında illərin izi özünü göstərirdi. Beli bükülmüş, gözlərinin nuru azalmışdı. Yusif kişi, bəlkə də, qocalmazdı belə tez. Amma sinəsində iki dağ gəzdirirdi: biri Vətən dağı, digəri oğul dağı. Sinəsinə çalınçarpaz çəkilmiş bu dağlar idi onu vaxtsız qocaldan.

Saleh universiteti bitirdiyi il yağı düşmənlər – xain erməni quldurları vətənimizə təcavüz etdi. Azərbaycanın dilbər guşəsi Qarabağımıza soxulan mənfur düşmənin bu namərdliyinə dözə bilməyən Saleh də neçə-neçə Vətən oğulları kimi cəbhəyə könüllü yollandı. Yusif kişi fəxr edirdi oğluyla. Vətəni qarşısında borcunu layiqincə yerinə yetirəcək bir oğul böyütmüşdü axı, necə fəxr etməyəydi?!

Xarı bülbülün məkanında – gözəl Şuşamız uğrunda qanlı döyüşlər gedirdilər. Saleh tez-tez məktub yazar, sağ-salamat olduğunu, ondan ötrü narahat olmamalarını bildirərdi. Bir gün poçtalyon yenə qapını döydü. Həmişə gülər olan simasında bir hüzn var idi. Sanki məcburən gəlmişdi bu qapıya. Gətirdiyi xəbərin ağırlığındandı bu hüzn. .....

1. Mətndəki əsas faktları seçin, mətnin məzmununu yığcam yazın.

1-ci fakt
2-ci fakt
3-cü fakt

_____
_____
_____

2. Mətnin ardını davam etdirin.

_____
_____

3. Mətndə hansı suala cavab yoxdur?

A) Yusif kişi niyə qocalmışdı?
B) Xarı bülbül harada bitirdi?
C) Nə üçün Xarı bülbül Şuşada bitirdi?
D) Poçtalyonun siması niyə hüznlü idi?
E) Saleh nə üçün cəbhəyə yollandı?

4. Həyatda hamıdan çox sevdiyi, gözünün ağı-qarası bir oğlu var idi. Adını da özü qoymuşdu: Saleh. Yeganə övladını sevgiylə böyütmüş, vətənə layiqli övlad olsun deyə oxutmuş, həmişə qayğısına qalmışdı. – cümlələrini mətnin hansı hissəsinə əlavə etsəniz, məzmuna xələl gəlməz?

5. Fikirlərdən hansı mətnlə səsləşir?

- Vətən uğrunda ölüm həyatın davamıdır.
- Ayrılan qüvvələr birləşməlidir,
  Vətən bu torpaqda yerləşməlidir. (*S.Vurğun*)
- Vətən çalışqan insanların zəhməti sayəsində yüksəlir. (*T.Fikrət*)

6. Hökmlərdən hansı doğrudur? Mətndən çıxış edərək seçdiyiniz cavabı əsaslandırın.

- Saleh düşmənlə cəsarətlə döyüşərək həlak olur.
- Saleh döyüş bacarığı olmadığı üçün həlak olur.

7. Mətndə təsvir olunan hadisələr hansı dövrə təsadüf edir?

8. Şuşa haqqında kiçik məlumat yazın.

_____

_____

_____

9. I abzasda verilən cümlələrdə söz sırasını bərpa edin.

_____

_____

10. Uyğunluğu müəyyənləşdirin.

1. Yusif kişi fəxr edirdi oğluyla. a. Cümlədə yanaşma əlaqəsində olan iki söz var
2. Saleh tez-tez məktub yazardı. b. Vasitəsiz tamamlıq isimlə ifadə olunmuşdur.
3. Gözəl Şuşamız uğrunda qanlı döyüşlər gedirdi. c. Mübtəda mürəkkəb adla ifadə olunmuşdur.

11. *Dağ* və *döyüş* sözlərinin omonimliyini əsaslandırın.

Dağ ..... döyüş .....

12. *Həmişə gülər olan simasında bir hüzn var idi* cümləsinin sintaktik təhlil sxemini müəyyənləşdirin.

13. Fərqləndirilmiş sözlərin sintaktik vəzifəsini müəyyən edin.

1. Sanki məcburən gəlmişdi bu *qapıya*. 2. *Qapıya* elan yapışdırdılar.

1. ..... 2. .....

14. Altından xətt çəkilmiş sözlərin qrammatik mənasını və sintaktik vəzifəsini müəyyən edin.

Könüllü..... qanlı.....

15. Xəbərlə mübtəda arasında kəmiyyətə görə uzlaşma əlaqəsinin pozulduğu cümlələri müəyyənləşdirib yazın.

_____

Mövzu 1

Dialoq

Məzmun standartları:

1.1.1., 1.1.2., 2.1.1., 2.2.1., 3.1.1.

Təlim nəticələri:

- Sual verməklə mətndəki əsas faktları seçir və münasibət bildirir.
- Dinlədiyi fikri məntiqi cəhətdən əsaslandırır.
- Sözlərin mənasını aydınlaşdırır.
- Abzaslar arasındakı əlaqəni gözləməklə mətni düzgün oxuyur.
- Yazılı təqdimat hazırlayır.

İş formaları:

kollektiv, qruplarla

İş üsulları:

müzakirə, rollu oxu,
Venn diaqramı

Resurslar:

dərslik, lüğət, iş vərəqləri,
Cəfər Cabbarlının "Seçilmiş əsərləri", "Oqtay Eloğlu" tamaşasından fraqment

IV 1 ŞƏXSİYYƏTLƏR

Dostlar bu dəfə Məhəmməd Füzulinin heykəli qarşısında görüşdülər. Onlar dram teatrında yeni tamaşaya baxacaqdılar.

– Bura gələrkən bu yaxınlarda oxuduğum bir yazı haqqında fikirləşirdim.

– Nə yazı?

– Azərbaycan teatrının tarixi haqqında idi. Sən demə, xalq oyunları teatrın ilk nümunələri sayılır.

– Hə, düzdür, teatr tariximizin üç min ildən artıq yaşı var. "Kosa-kosa", "Qaraəvəlli", "Kilimarası", "Maral oyunu", "Tənbəl qardaş" adlı oyun və tamaşalar Azərbaycan xalq teatrının müstəqil tarixə malik olduğunu sübut edir.

– Azərbaycan teatrının bugünkü səviyyəyə çatması yolunda çətinliklər olub. Peşəkar teatrın təşəkkülünə təzyiqlər edilib, qadın rollarının ifaçıları ağır imtahanlardan keçməli olublar.

– *Bilirsənmi, Səkinə xanım Axundzadə – qızlar məktəbinin ilahiyyat müəllimi qızları dram dərnəyinə cəlb edir, tamaşalar hazırlayırmış.* Müsəlman dünyasında qadınlar tərəfindən səhnələşdirilən ilk teatr tamaşasını məhz o hazırlayıb.

– Mənim oxuduğum kitabda yazılmışdı ki, Həsən bəy Zərdabi gimnaziya şagirdlərinin köməyi ilə "Hacı Qara" əsərini tamaşaya hazırlayarkən Nəcəf bəy Vəzirov – Azərbaycan ədəbiyyatında faciə janrının banisi ona yardımçı olmuşdur. Əldə edilən pullar isə gimnaziyada oxuyan yoxsul uşaqların təhsil və məişət problemlərinin həllinə sərf olunmuşdur.

– Azərbaycanda ilk teatr binalarından biri də təxminən elə bu vaxt – XIX əsrdə Şamaxıda tikilib. Bu barədə "Qavkaz" qəzetinin 1858-ci il 6 iyul tarixli sayında məlumat verilmişdir.

Nə üçün teatrın inkişafına təzyiqlər edilmişdir?

Qadınların teatr tamaşalarında iştirakına qoyulan qadağa nə ilə bağlı idi?

ORFOEPİYA

Düzgün tələffüzü deyin.

- təşəkkül – [.....]
- teatr – [.....]

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim C.Cabbarlının "Oqtay Eloğlu" tamaşasından Oqtayın dostu Səməd bəylə teatr haqqında olan monoloqunu səsləndirə bilər, yaxud özü həmin hissəni oxuya bilər. Tamaşadan müəyyən bir hissəni nümayiş etdirmək olar. Sonra yönəldici suallarla şagirdlərə müraciət edə bilər: *Sizcə, niyə Oqtay teatr yaratmaq uğrunda mübarizə aparırdı? Onun teatr yaratmaqda məqsədi nə idi?* və s. Müəllim iki obrazın düşüncələri, həyat tərzi haqqında şagird fikirlərini Venn diaqramından istifadə etməklə ümumiləşdirə bilər.

Tədqiqat sualı formalaşdırılır:

Teatr nə üçün lazımdır?

Tədqiqatın aparılması. İlk növbədə, düzgün tələffüz qaydalarına riayət etməklə mətn oxunur. Mətn müxtəlif üsullarla (fərdi oxu, rollarla oxu və s.) oxuna bilər. Oxudan sonra

mətnin məzmunu və strukturu üzərində iş aparılır. 2 və 3-cü suallar üzərində işlənilir. Bu suallar şifahi şəkildə yerinə yetirilir. Mətnin oxusundan sonra lüğət (çalışma 5–8) üzərində iş aparmaq mütləqdir. Mətndaxili suallar, 1 və 5-ci tapşırıqlar qrup tapşırığı kimi verilə bilər. Müəllim qruplar üçün özü də müxtəlif suallar və tapşırıqlar hazırlaya bilər.

Dialoq üzərində iş apararkən müəllim onun anlaşıqlı dildə olmasına diqqəti cəlb etməlidir. Bu tipli mətnlər üzərində iş yuxarı siniflərdə şagirdin məişət üslubunda olan mətnləri digərlərdən asanlıqla fərqləndirməsinə imkan yaradar.

Qrup işlərinin təqdimatı zamanı şagird fikirləri müzakirə edilir, diqqət daha çox mətndaxili birinci suala yönəldilir. Bu suala düzgün cavab birbaşa tədqiqat sualına cavab verilməsidir. Təqdimatların dinlənilməsi və müzakirələr zamanı 4 sual istifadə olunur.

Yaradıcı tətbiqetmədə "Müasir Azərbaycan teatrı" adlı təqdimat hazırlamaq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Sual verməklə dialoqdakı faktları seçməyə və müasir dövrlə əlaqələndirməyə çətinlik çəkir.	Sual verməklə dialoqdakı faktları müəllimin köməyi ilə müasir dövrlərlə müqayisə edir və əlaqələndirir.	Sual verməklə dialoqdakı faktları müasir dövrlə müqayisə edir və əlaqələndirir.	Sual verməklə dialoqdakı faktları müasir dövrlə müqayisə edir və nümunələr gətirməklə əlaqələndirir.
Fikrini məntiqi cəhətdən əsaslandırmağa çətinlik çəkir.	Fikrini məntiqi cəhətdən müəllimin köməyi ilə əsaslandırır.	Fikrini məntiqi cəhətdən əsaslandırır.	Əlavə faktlar göstərməklə fikrini əsaslandırır.
Sözlərin mənasını izah etməkdə çətinlik çəkir.	Sözlərin mənasını müəllimin köməyi ilə izah edir.	Sözlərin mənasını lüğətin köməyi ilə izah edir.	Sözlərin mənasını onların qarşılığını göstərməklə izah edir.
Mətnin abzasları arasındakı əlaqəni müəyyənləşdirməkdə çətinlik çəkir.	Mətnin abzasları arasındakı əlaqəni müəllimin köməyi ilə əlaqələndirir.	Mətnin abzasları arasındakı əlaqəni müəyyənləşdirir.	Mətnin abzasları arasındakı əlaqəni fikrini əsaslandıraraq müəyyənləşdirir.
Yazılı təqdimat hazırlamaqda çətinlik çəkir.	Sadə şəkildə yazılı təqdimat hazırlayır.	Müəllimin köməyi ilə yazılı təqdimat hazırlayır.	Sərbəst şəkildə yazılı təqdimat hazırlayır.

Mövzu 2

Dialoq

Məzmun standartları:

1.2.1., 1.2.4., 3.1.3., 4.1.3.

Təlim nəticələri:

- Fikirlərini şərh etmək üçün təklif formasını seçir.
- Müzakirələr zamanı fikirlərini ümumiləşdirir.
- Yazıya düzəlişlər edir.
- Əlavələri seçir və onlarda durğu işarələrindən düzgün istifadə edir.

İş formaları:

kollektiv, qruplarla

İş üsulları:

müzakirə, Venn diaqramı, klaster

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, sxemlər

13. Aşağıdakı cümlələrdə əlavələri mübtədadan əvvələ keçirib yazın. Əvvəlki və sonrakı cümlələri müqayisə edin. Cümlə quruluşunda hansı dəyişikliyi müşahidə etdiniz? Təyinlə əlavənin işlənməsində intonasiyanın rolu varmı?

Nümunə:

Nəsibə Zeynalova – səhnəmizin "Qaynana"sı bir çox rolların mahir ifaçısı olmuşdur.

mübtəda — mübtədanın əlavəsi

Səhnəmizin "Qaynana"sı Nəsibə Zeynalova bir çox rolların mahir ifaçısı olmuşdur.

təyin — mübtəda

- Həsən bəy Zərdabi gimnaziya şagirdlərinin köməyi ilə "Hacı Qara" əsərini tamaşaya hazırlayarkən Nəcəf bəy Vəzirov – Azərbaycan ədəbiyyatında faciə janrının banisi ona yardımçı olmuşdu.
- Mirzə Fətəli Axundzadə – ilk dramaturqumuz əlifba islahatı uğrunda mübarizə aparmışdır.

✱ Sizcə, təyinlə əlavənin fərqi nədədir? Dostların şərhinə qoşulub cümlələri tamamlayın.

14. "Teatr xadimlərimiz" adlı təqdimat hazırlayın.

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim klaster üsulundan istifadə etməklə əlavənin nə olduğunu soruşa bilər.



Müəllim sinfə sualla müraciət edir:

Hansı cümlə üzvlərinin əlavəsi ola bilər?

Müəllim şagirdi yönəltmək üçün əlavəli bir cümlə verib onu sintaktik təhlil edə bilər. Dərslikdəki 9 və 10-cu tapşırıq (səh. 101) bu məqsədlə istifadə edilə bilər.

Tədqiqat aparmaq üçün müəllim qruplara cümlə üzvlərinin əlavəsinə dair cümlələr

verib onlarda cümlə üzvlərini və onların əlavəsini tapmağı tapşıra bilər.

Qrup işlərinin təqdimatından sonra fikirlər ümumiləşdirilir və əlavələr haqqında məlumat verilir.

Müəllimin nəzərinə: şagirdlərdə durğu işarələrinin düzgün və yerində işlətmək bacarığı formalaşdırmaq mühüm məsələdir. Buna görə də müəllim bu məsələyə daha çox əhəmiyyət verməlidir. Bunun üçün müəllim şagirdlərə (bu, cütlər vasitəsilə də həyata keçirilə bilər) cümlələr verə bilər və onlarda "*Sizcə, onlarda hansı durğu işarələri işlənməlidir?*" sual ətrafında düşünməyi tövsiyə edir. Yaxşı olar ki, bu zaman müəllim lövhədə tire, vergül, qoşa nöqtə, defis sözlərini yazıb şagirdə istiqamət versin. Cavabların müzakirəsindən sonra dərslikdəki 11-ci tapşırıq (səh. 102) yerinə yetirilir.

Təyin və əlavələrin fərqləndirilməsi üçün 13-cü tapşırıq yerinə yetirilir. Bu tapşırıq yerinə yetirilərkən diqqət əlamət bildirən sözlərlə izah edən sözlərə cəlb edilməlidir. Bu tapşırıq durğu işarələrindən düzgün istifadə üçün əhəmiyyətlidir.

Yaradıcı tətbiqetmə kimi 14-cü tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Fikirlərini təklif kimi ifadə etməkdə çətinlik çəkir.	Fikirlərini təklif kimi müəllimin köməyi ilə ifadə edir.	Fikirlərini təklif kimi ifadə edərkən səhvə yol verir.	Fikirlərini təklif kimi ifadə edir.
Fikrini ümumiləşdirməkdə çətinlik çəkir.	Fikrini müəllimin köməyi ilə əsaslandırır.	Fikirləri ümumiləşdirir.	Digərlərinin fikirlərinə münasibət bildirərək ümumiləşdirir.
Verilən yazıya düzəliş etməkdə çətinlik çəkir.	Verilən yazıya müəllimin köməyi ilə düzəlişlər edir.	Yazıya asanlıqla düzəlişlər edir.	Yazıya sərbəst şəkildə düzəlişlər edir.
Əlavələri çətinliklə seçir.	Əlavələri müəllimin köməyi ilə seçib durğu işarələrindən istifadə edir.	Əlavələri seçib durğu işarələrindən istifadə edir.	Əlavələri təyinlərdən fərqləndirib durğu işarələrindən istifadə edir.

Mövzu 3

Hüseynqulu Sarabskinin xatirələri

Məzmun standartları:

1.1.1., 1.1.2., 1.2.3., 1.2.4., 2.1.1., 2.2.1., 3.1.1.

Təlim nəticələri:

- Dinlədiyi faktlar haqqında mülahizələrini sual verərək dəqiqləşdirir.
- Fikirlərinin məntiqi olduğunu faktlarla əsaslandırır.
- Təbrik etiketlərini nitqində düzgün tətbiq edir.
- Müxtəlif fikirləri ümumiləşdirir.
- Mənasını bilmədiyi sözlərin qarşılığını tapır.
- Mətni düzgün oxuyur.
- Mühakimə xarakterli inşa yazır.

İş formaları:

kollektiv, qruplarla

İş üsulları:

müzakirə, sual-cavab, beyin həmləsi

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, "Uzun ömrün akkordları" filmindən fraqment

2 HÜSEYNQULU SARABSKİNİN XATİRƏLƏRİ

talant aktyor

Əbdürrəhim bəy özünəməxsus bir nəvazişlə Hüseyni ruhlandırmaq (...) istədi:

– Sən aktyorsan, zəhmət çəkib məşq edərsən, Ağa Məhəmmədin rolunu da məharətlə oynarsan və xalq səni – böyük aktyoru alqışlayanda hamısı yadından çıxar. Amma Hüseyn, əziz dost, canın üçün, Ağa Məhəmməd elə sənin rolundur... Səni düşünüb Ağa Məhəmmədi yazmışam.

Bu söz Ərəblinskiyə yaman toxunur:

– Mirzə, mən o qədər mənfi şəxsi...ətəm ki, məni ona oxşadırsınız?

Necə düşünürsünüz, aktyor ancaq müsbət roldamı oynamalıdır?

Ə.Haqverdiyev sözünə davam etdi:

– Hüseyn, mən səni Ağa Məhəmməd şaha oxşatmıram. Mən o rolu sənin talantını – aktyor sənətkarlığını gözümün qabağına gətirib yazmışam. Sən mənim əzizimsən... Yenə təkrar edirəm, o əsəri mən sənin üçün, yəni səhnəmizin əvəzsiz aktyoru üçün yazmışam.

ORFOQRAFİYA

Hansı düzdür?

- şəxsiyyət – şəxsiyət
- vəziyyət – vəziyət
- facia – faciyə

ORFOEPİYA

Düzgün tələffüzü deyin.

- alqışlayanda – [.....]
- yadından – [.....]
- məharətlə – [.....]

Görkəmli aktyor Hüseynqulu Sarabski 1939-cu ildə yazdığı "Hüseyn Ərəblinski haqqında xatirələr"ində Əbdürrəhim bəy Haqverdiyevin Tiflisdən gəlişini belə təsvir edir: "Ə.Haqverdiyev Tiflisdən yeniə (...) gəlmişdi. Ərəblinski ilə bir yerdə onun yanına – "İslamiyyə" mehmanxanasına (...) getdik. Əbdürrəhim bəy ilə görüşəndən sonra o bizi təbrik etdi.

– Uşaqlar, gözünüz aydın olsun. Yazdığım "Ağa Məhəmməd şah Qacar" əsərinin – tarixi faci...əsinin tamaşasının icazəsini almışam.

Sizcə, burada hansı icazədən söhbət gedir və bu icaza nə üçün alınmalı idi?

H.Ərəblinski Əbdürrəhim bəyə şikayətlənərək dedi:

– Mirzə, əsəri oynamaq üçün gərək aktyor olsun, aktrisa olsun, quruluş olsun, məşq üçün yer olsun.

H.Ərəblinski dedi:

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim "Uzun ömrün akkordları" filmindən müəyyən bir fraqmenti ("Leyli və Məcnun" operasından bir hissə) nümayiş etdirə bilər. Sonra müəllim həmin səhnə haqqında suallar verməklə müzakirələr yaradır, şagird fikirləri dinlənilir. Suallar "*Bu səhnə sizdə hansı təəssüratı yaratdı?*", "*Sizcə, Leyli obrazını kim ifa edirdi?*" və s. məzmunda ola bilər. Bu sual cavab şagirdlərdə teatrın inkişaf yolu, onu yaradanların bir çox çətinliklərlə üzləşməsi, səhnədə qadın aktyorların olmaması haqqında təsəvvür yaratmalıdır. Əvvəlki mətndən şagirdlər artıq bu məsələlər haqqında müəyyən məlumatlar əldə etmişlər. Mətn oxudulur. Sonra bu mətn üzərində iş apararkən müəllim diqqəti mətnin sadə, anlaşıqlı dildə olmasına cəlb etməlidir. 2 mətn arasında ("Dialoq" və "Hüseynqulu Sarabskinin xatirələri") müqayisə aparılır. Bu gələcəkdə yuxarı sinif-

lərdə publisistik və məişət üslublarının fərqləndirilməsi üçün bir başlanğıc ola bilər.

Mətnin oxusu zamanı düzgün tələffüz diqqət mərkəzində saxlanılır. Oxudan sonra mətndaxili 1 və 3-cü suallar yerinə yetirilir. Qruplar iş apararkən mətndaxili 2-ci (səh. 105) və məzmun suallarından istifadə edilir. 5-ci tapşırıq (səh. 106) ümumiləşmə mərhələsi üçün əlverişlidir. Mətn üzərində işləyərkən lüğət üzərində iş aparılmalıdır. Müəllim eyni zamanda müraciət etiketləri ilə təbrik etiketləri üzərində iş aparır. 9-cu tapşırıq məhz nitq etiketlərinin müəyyənləşdirilməsinə xidmət edir. Etiketlərin öyrədilməsində əsas məqsəd nitq prosesində onlardan düzgün və yerində istifadə edilməsidir.

Yaradıcı tətbiqetmə kimi 13-cü tapşırıqdan istifadə edilə bilər. Bu tipli tapşırıq şagirdlərdə mühakimə yürütmək və fikirləri ümumiləşdirmək bacarığı formalaşdırır.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Deyilən faktları dəqiqləşdirmək üçün sual tərtib etməkdə çətinlik çəkir.	Deyilən faktları dəqiqləşdirmək üçün sualı müəllimin köməyi ilə tərtib edir.	Deyilən faktları dəqiqləşdirmək üçün sual tərtib edir.	Deyilən faktları dəqiqləşdirmək üçün əhatəli suallar tərtib edir.
Fikrini məntiqi cəhətdən əsaslandırmaqda çətinlik çəkir.	Fikrini məntiqi cəhətdən müəllimin köməyi ilə əsaslandırır.	Fikrini məntiqi cəhətdən əsaslandırır.	Əlavə faktlar göstərməklə fikrini əsaslandırır.
Təbrik etiketlərini fərqləndirməkdə çətinlik çəkir.	Təbrik etiketlərini müəllimin köməyi ilə müəyyənləşdirir.	Təbrik etiketlərini fərqləndirir.	Təbrik etiketlərini fərqləndirir və nitqində istifadə edir.
Deyilən fikirləri tam ümumiləşdirə bilmir.	Deyilən fikirləri əlavə suallar verməklə ümumiləşdirir.	Deyilən fikirləri ümumiləşdirir.	Deyilən fikirlərə öz münasibətini bildirməklə ümumiləşdirir.
Sözlərin qarşılığını tapmaqda çəkinlik çəkir.	Sözlərin qarşılığını müəllimin köməyi ilə tapır.	Sözlərin qarşılığını tapanda bəzi səhvlərə yol verir.	Sözlərin qarşılığını tapır.
Mətni düzgün oxumaqda çətinlik çəkir.	Mətni müəllimin köməyi ilə düzgün oxuyur.	Mətni düzgün tələffüz qaydalarını qismən gözləməklə oxuyur.	Mətni düzgün oxuyur.
Mühakimə xarakterli inşa yazarkən çətinlik çəkir.	Mühakimə xarakterli inşa yazarkən hissələr arasında əlaqəni yaratmır.	Mühakimə xarakterli inşa yazarkən fikrini tam açmır.	Mühakimə xarakterli inşa yazır.

Mövzu 4

Hüseynqulu Sarabskinin xatirələri

Məzmun standartları:

1.2.2., 2.2.3., 4.1.3.

Təlim nəticələri:

- Topladığı materiallardan istifadə etməklə nitqini zənginləşdirir.
- Faktları real həyatla müqayisə edir.
- Durğu işarələrindən istifadə etməklə cümlə üzvlərinin əlavəsini müəyyən edir.

İş formaları:

kollektiv, qruplarla, cütlərlə, fərdi

İş üsulları:

müzakirə, sual-cavab, beyin həmləsi

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə ev tapşırığının yoxlaması ilə başlaya bilər. Seçmə yolla bir neçə şagirdin yazısı dinlənilir. Həmin mətnlərdə əlavəsi olan bir neçə cümlə seçilir. Onlar üzərində iş aparılır. Müəllim sual-cavab yolu ilə cümlə üzvləri haqqında şagirdlərin bildiklərini yada salır. Daha sonra dərslikdəki 10-cu tapşırıq yerinə yetirilir (səh. 106), "Hansı əlavələr cümlə üzvünə aid deyil?" sualı üzərində iş apararkən "Hüseynqulu Sarabskinin xatirələri" mətninin 2-ci abzasına diqqət çəkilir. Bu abzasda xitabın əlavəsi vardır. Müəllif bunun üzərində çox dayanmadan qısa xülasə verir. Yaxşı olardı ki, şagirdlər özləri müraciət bildirən sözün cümlə üzvü olmadığını deyə bilsin. Bu tapşırıq üzərində iş növbəti 5-ci bölmədə xitabların öyrədilməsinə istiqamət ola bilər. 10-cu tapşırığın yerinə yetirilməsindən sonra şagirdlərin fikirləri ümumiləşdirilərək cümlə üzvlərinin əlavəsi haqqında məlumat verilir. 11 və 12-ci tapşırıq tətbiqetmə mərhələsində yerinə yetirilir. 12-ci tapşırıqdakı mətnin məzmunu üzərində iş aparmaq məqsədəuyğundur.

Mətndəki hadisələr real həyatla əlaqələndirilir. Bu mətndən faktoloji məlumatların seçilməsi ("Leyli və Məcnun" operasının nümayiş olunduğu məkan, tarix, aktyorlar, operanın müəllifi və ilk dirijoru haqqında) şagirdlərdə faktları seçmək bacarığını formalaşdırır. Bu tapşırıq eyni zamanda təbrik etiketlərinin tətbiqində əhəmiyyətlidir.

Ev tapşırığı kimi teatrla bağlı hər hansı bir mövzuda təqdimatın hazırlanması tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 5

Vaqif obrazından başlanan səhnə uğuru

Məzmun standartları:

1.1.1., 1.2.1., 2.1.1., 2.2.2., 3.1.1., 3.1.3.

Təlim nəticələri:

- Mətndəki faktlar haqqında fikirlərini suallar vasitəsilə dəqiqləşdirir.
- Fikirlərini çatdırmaq üçün rəy vermək formasını seçir.
- Mənasını bilmədiyi sözlərin qarşılığını tapıb şərh edir.
- Hissələr arasındakı əlaqəni əsaslandırılmış formada şərh edir.
- Mövzu əsasında dialoq yazır.
- Mətndəki cümlələrin ardıcıllığını bərpa edib yazır.

İş formaları:

kollektiv, qruplarla, cütlərlə

İş üsulları:

müzakirə, sual-cavab,
Venn diaqramı

Resurslar:

dərslik, lüğət, "Böyük dayaq" filmindən, yaxud "Vaqif" tamaşasından fraqment

DƏRSİN GEDİŞİ

Motivasiya məqsədilə müəllim Ələsgər Ələkbərovun iştirak etdiyi hər hansı bir filmdən (məs.: "Böyük dayaq") fraqment nümayiş etdirə bilər. Həmin aktyor haqqında suallar verməklə şagirdi tədqiqata cəlb edə bilər. Bu zaman 2-ci (səh. 109) sualdan istifadə oluna bilər. Yaxşı olar ki, müəllim teatrla kinonun oxşar və fərqli cəhətləri haqqında müzakirələr aparsın. Bu zaman müəllim Venn diaqramından istifadə edə bilər.

Tədqiqat sualı mətndaxili 1-ci sual ola bilər: *Sizcə, aktyor tamaşanın taleyini necə həll edə bilər?*

Tədqiqatın aparılması mərhələsində əvvəlcə mətn oxudulur. Mətn müxtəlif üsullarla (fərdi, səssiz) oxudula bilər. Mətn üçün açar sözlər müəyyənləşdirilir. Tədqiqatın aparılması üçün 1, 3, 4-cü tapşırıqlar yerinə yetirilir. 3-cü tapşırıq yerinə yetirilərkən 2-ci abzasdan sonrakı "Otello" tamaşasından Ələsgər Ələkbərovun şəkli Şekspir muzeyində indi də saxlanılır" cümləsi sonuncu abzasda 2-ci cümlədən sonra olmalıdır. Lüğət üzərində iş aparmaq mütləqdir. 6–8-ci tapşırıqlar cütlər vasitəsilə yerinə yetirilir. Təqdimat edilir və fikirlər yekunlaşdırılır. Şagird fikirləri ümumiləşdirilir. *Yaxşı aktyor oyununun tamaşa və ya filmin ideyasının qabarıq nəzərə çatdırılmasındakı rolu əvəzsizdir* nəticəsi əldə edilir. Yaxşı olar ki, müəllim şagirdlərə baxdıqları hər hansı filmdə bəyəndikləri aktyor oyunu barədə fikir söyləmələri üzərində iş aparsın.

Yaradıcı tətbiqetmə kimi 4-cü tapşırıqdan istifadə oluna bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 6

Vaqif obrazından başlanan səhnə uğuru

Məzmun standartları:

1.2.4., 3.1.1., 4.1.3.

Təlim nəticələri:

- Müxtəlif fikirləri ümumiləşdirir.
- Esse yazır.
- Həmcins üzvləri seçir.
- Həmcins üzvlərdə durğu işarələrindən istifadə edir.

İş formaları:

kollektiv, qruplarla, cütlərlə

İş üsulları:

müzakirə, sual-cavab, əqli hücum

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, sxemlər

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim tabesizlik əlaqəsi, onun hansı sözlər arasında olması haqqında şagirdlərin biliklərini frontal sorğu vasitəsilə soruşa bilər.

Tədqiqat sualı formalaşdırılır:

Həmcins üzvlər nədir və onlar arasında hansı durğu işarəsindən istifadə olunur?

Tədqiqat zamanı dərslikdəki 7-ci tapşırıq (səh. 110) üzərində iş aparılır. Bu tapşırığın cütlər vasitəsilə yerinə yetirilməsi məqsədəuyğundur. Bu məqsədlə müəllim özü də tabesizlik əlaqəsi ilə bağlanan cümlələrdən ibarət tapşırıqlar təqdim edə bilər. Tədqiqat prosesində müəllim həmcinslik anlayışını izah etmək üçün adi məişətdən, həyatdan nümunələr gətirə bilər. Məsələn, iki müxtəlif formalı, müxtəlif ölçülü qələm nümayiş etdirə bilər. Şagirdlər bu qənaətə gəlməlidirlər ki, forma fərqli olsa da, funksiya eynidir. Şagirdlərin gəldiyi qənaət əsasında həmcins üzvlər, onları bağlayan vasitələr haqqında məlumat verilir. Həmcins üzvləri bağlayan tabesizlik bağlayıcılarını yada salmaq üçün 8-9-cu tapşırıq yerinə yetirilir. Bağlayıcılarda vergül işarəsinin işlənmə qaydası yada salınır. Bu tapşırıq keçmiş biliklərin yada salınması üçün əlverişlidir. Tədqiqatın aparılması mərhələsi üçün müəllim qruplara əvvəlcədən yazıb hazırladığı və həmcins üzvlərin olduğu kiçik mətnlər tərtib edib şagirdlərə paylaya bilər. Yaxşı olardı ki, hər qrup ayrı-ayrı cümlə üzvlərinin həmcinsliyini əks etdirən tapşırıqlar üzərində iş aparsın. Şagirdlər cümlə üzvləri haqqında kifayət qədər məlumatlı olduqlarından həmcins üzvləri müəyyənləşdirmək onlar üçün çətinlik yaratmayacaq.

Qrupların təqdimatından və müxtəlif fikirlərin müzakirəsindən sonra 10-cu tapşırıq (səh. 111) yerinə yetirilir. Bu tapşırıq ümumiləşdirmə mərhələsi üçün əlverişli tapşırıq nümunəsidir.

Yaradıcı tətbiqetmə kimi 13-cü tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 7

Vaqif obrazından başlanan səhnə uğuru

Məzmun standartları:

1.2.4., 3.1.1., 4.1.3.

Təlim nəticələri:

- Müxtəlif fikirləri ümumiləşdirir.
- Kiçikhəcmli inşa yazır.
- Həmcins təyinləri seçir.
- Həmcins təyinlərdə durğu işarələrindən istifadə edir.

İş formaları:

kollektiv, qruplarla, cütlərlə

İş üsulları:

müzakirə, sual-cavab, Venn diaqramı

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, sxemlər

DƏRSİN GEDİŞİ

Digər cümlə üzvlərinin həmcinsliyinə xüsusi saat ayrılmadığı halda, həmcins və qeyri-həmcins təyinlərə bir saat vaxt ayrılır. Bu mövzunun tədrisində əsas məqsəd həmcins və qeyri-həmcins təyinlərin fərqləndirilməsi, bunun əsasında durğu işarələrindən şagirdin düzgün istifadəetmə bacarığını formalaşdırmaqdır.

Motivasiya mərhələsində müəllim özünün hazırladığı nümunələrdən istifadə edə bilər. Yaxud özü həmcins və qeyri-həmcins təyinlərin iştirak etdiyi iki cümləni lövhəyə yazmaqla müqayisələr apara bilər. Şagird fikirləri ümumiləşdirilir.

Tədqiqat sualı formalaşdırılır:

Həmcins və qeyri-həmcins təyinlər arasında hansı fərq var?

Tədqiqatın aparılması mərhələsində həmcins və qeyri-həmcins təyinlər haqqında məlumat verilir.

Müəllim iş vərəqlərində şagirdlərə aşağıdakı məzmunda tapşırıqlar verə bilər:

I qrup:

Aşağıdakı mətndən həmcins və qeyri-həmcins təyinləri seçin, fikirlərinizi əsaslandırın.

1. O, qara, dolu, şirin tut dənələrini ağzına qoyur, danışmağa macal tapmırdı. Həmcins təyinlərdir.
2. Güllü-çiçəkli, təravətli bir bahar gəlmişdi.
3. Boğazı düymələnməmiş göy ipək köynəyinin üstündən açıq rəngli qalstuk taxmışdı. Qeyri-həmcins təyinlərdir.

II qrup:

Aşağıdakı mətndən həmcins və qeyri-həmcins təyinləri seçin, fikirlərinizi əsaslandırın.

Yer kürəsinin hündür dağ sistemlərindən olan Qaraqorum dağı Asiyada Kunlun və Himalay dağlarının arasında yerləşir. Ər-arvad Fanni və Vilyam Uorkman Qaraqoruma yeddi dəfə ekspedisiya təşkil etmişdilər. Böyük imkana malik olan bu cütlük hüdudsuz, sərhədsiz səyahətlər edə bilir və öz ekspedisiyalarına yaxşı alpinistləri dəvət edirdilər. 1906-cı ildə Fanni 6930 m hündürlüyə qalxdı və bununla qadınlar arasında rekord vurdu.

III qrup:

Aşağıdakı cümlələrin hansında qeyri-həmcins təyinlər işlənmişdir?

1. Çəlimsiz bir qadın olan anadakı mənəvi qüvvət onda heyrət və təəccüb doğururdu.
2. Ayazlı, şaxtalı bir qış axşamı
   Yeddi yoldaş olub yola düzəldik.

(S.Vurğun)

IV qrup:

Həmcins və qeyri-həmcins təyinləri müəyyənləşdirib durğu işarələrindən düzgün istifadə edin.

1. Qalan işçilər göbələk kimi yan-yana düzülmüş ağ brezent çadırlarda yaşayırdılar.
2. Yavaş-yavaş axşam düşür, sarı, çəhrayı buludlar tünd-bənövşəyi rəng alırdı.

Yaradıcı tətbiqetmədə həmcins üzvlər haqqında kiçik elmi mətn yazmaq tapşırıla bilər. Yaxud həmcins üzvlərdən istifadə etməklə Ə.Ələkbərov haqqında kiçikhəcmli inşa yazmaq tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Deyilən fikirləri tam ümumiləşdirə bilmir.	Deyilən fikirləri əlavə suallar verməklə ümumiləşdirir.	Deyilən fikirləri ümumiləşdirir.	Deyilən fikirlər və öz münasibətini bildirməklə ümumiləşdirir.
İnşa yazmaqda çətinlik çəkir.	İnşada hissələr arasında rabitə yaratmır.	İnşa yazarkən bəzi səhvlərə yol verir.	İnşa yazır.
Həmcins və qeyri-həmcins təyinləri seçə bilmir.	Həmcins və qeyri-həmcins təyinləri çətinliklə seçir.	Həmcins və qeyri-həmcins təyinləri müəllimin köməyi ilə seçib durğu işarələrindən istifadə edir.	Həmcins və qeyri-həmcins təyinləri fərqləndirib durğu işarələrindən məqamında istifadə edir.
Həmcins üzvlərdə durğu işarəsindən istifadə etməkdə çətinlik çəkir.	Həmcins üzvlərdə müəllimin köməyi ilə durğu işarələrindən istifadə edir.	Həmcins üzvlərdə durğu işarələrinin işlənməsində bəzi səhvlərə yol verir.	Həmcins üzvlərdə durğu işarələrindən düzgün istifadə edir.

Mövzu 8

İlk aktrisamız kimdir?

Məzmun standartları:

1.1.2., 1.2.1., 1.2.2., 1.2.3., 2.1.1., 2.2.3.

Təlim nəticələri:

- Dinlədiyi fikirlərin məntiqi olduğunu suallar verməklə əsaslandırır.
- Fikirlərini ifadə etmək üçün təklif formasını seçir.
- Əlavə materiallar toplayıb nitqində istifadə edir.
- Tərtib etdiyi mətnlərdə nitq etiketlərindən düzgün istifadə edir.
- Mənasını bilmədiyi sözləri aydınlaşdırır.
- Teatrla bağlı faktları müasir dövrlə əlaqələndirir.

İş formaları:

kollektiv, qruplarla, cütlərlə

İş üsulları:

müzakirə, sual-cavab, klaster

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim klaster üsulundan istifadə edə bilər.



H.Cavidin "Sürüklənən bəşəriyyət qadınla süslənəcək" fikrindən sitat kimi istifadə etməklə şagirdləri müzakirəyə cəlb etmək olar. Bu zaman "Şair niyə bəşəriyyətin qadınla inkişaf edəcəyini hesab edir?"

Tədqiqat sualı formalaşdırılır:

Qadınların cəmiyyətdə nə kimi rolu var?

Tədqiqatın aparılması mərhələsində əvvəlcə mətn oxudulur. Mətnin oxusu fərdi üsulla həyata keçirilir. Oxu zamanı mətndaxili sual (səh. 112) və 4, 5-ci tapşırıqlar (səh. 113) üzərində iş aparılır.

Oxudan sonra 1–3-cü tapşırıqlar qruplarla yerinə yetirilir. 3-cü tapşırıq üzərində iş apararkən müəllim çalışmalıdır ki, şagirdlərin əsas diqqəti *"1937-ci ildə aktrisa bir neçə günlüyə Bakıya gəlir"* və *"Gövhər Qazıyeva itirdiyi və on beş il həsrət qaldığı oğlu İsmayılı tapır"* cümləsinə yönəlsin. Çünki görüşmə və təbrik etiketlərindən məhz bu məqamda istifadə ediləcək.

Qrupların təqdimatı zamanı şagirdlərin hazırladıqları mətnlər müzakirə olunur, əsas mətnlə müqayisə edilir, ümumiləşmə və nəticə aparılır. "Qadınların cəmiyyətin inkişaşafında birbaşa rolu vardır".

Yaradıcı tətbiqetmədə 11-ci tapşırıqdan (səh. 115) istifadə edilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 9

İlk aktrisamız kimdir?

Məzmun standartları:

1.2.4., 4.1.3.

Təlim nəticələri:

- Ümumiləşdirici sözlərlə bağlı fikirləri ümumiləşdirir.
- Həmcins üzvlərdə ümumiləşdirici sözləri müəyyənləşdirir.
- Həmcins üzvlərdə durğu işarələrindən düzgün istifadə edir.

İş formaları:

kollektiv, cütlərlə

İş üsulları:

müzakirə, sual-cavab, klaster

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, sxemlər

DƏRSİN GEDİŞİ

Motivasiya yaratmaq üçün müəllim ilk növbədə "ümumiləşmə" anlayışının nə olduğu haqqında müəyyən təsəvvür yaratmalıdır. Məs.: *balet, kino, teatr, opera* sözlərini təqdim etməklə şagirdə belə bir sual verə bilər: Bunu bir söz və ya ifadə ilə necə adlandırmaq olar? Müəllim çalışmalıdır ki, şagirdlər "*incəsənətin sahələri*" cavabını versinlər.

Tədqiqat sualı formalaşdırılır:

Ümumiləşdirici söz nəyə deyilir?

Tədqiqatın aparılması zamanı müəllim həmin sözlər və söz birləşməsindən cümlə qurub durğu işarələrindən istifadə etmədən lövhədə yazır:

İncəsənətin bütün sahələri balet kino teatr opera insanda əxlaqi-mənəvi dəyərlərin formalaşmasına xidmət edir.

Sonra şagirdlərə həmcins üzvləri və hansı cümlə üzvü olduğunu müəyyənləşdirmək, vergül işarəsindən düzgün istifadə etmək tapşırığı verilir. Əvvəlki biliklər əsasında şagirdlər bunu sərbəst şəkildə yerinə yetirəcəklər. Müəllim diqqəti "incəsənət sahələri" birləşməsindən sonra qoyulacaq durğu işarəsinin müəyyənləşdirilməsinə cəlb edir. Bunun şagirdlər tərəfindən müəyyənləşdirilməsi üçün dərslikdəki 6-cı tapşırıq (cütlər vasitəsilə) üzərində iş aparılır. Sonra həmcins üzvlərlə ümumiləşdirici sözlər arasında işlənən durğu işarələri haqqında məlumat verilir. Dərslikdəki 7-ci tapşırıq üzərində iş aparılır. 8 və 9-cu tapşırıqlar ümumiləşdirmə məqsədilə yerinə yetirilir. Müəllim özü də bu məqsədlə müxtəlif tapşırıqlar hazırlaya bilər. Şagirdlərə bu formada tapşırıq verilə bilər: Bağlayıcı və sadalama intonasiyası ilə bağlanan, eyni zamanda ümumiləşdirici söz işlənən həmcins üzvlərə dair qarışıq cümlələr verə bilər və onları qruplaşdırmağı tapşıra bilər. Bu məqsədlə dərslikdəki 115-ci səhifədə verilən 10-cu tapşırığın cədvəlindən istifadə etmək olar.

Bu tip tapşırıqlar ümumiləşmə və nəticə mərhələsində yerinə yetirilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 10

"Evrika"

Məzmun standartları:

1.2.2., 2.1.1., 2.1.2.

Təlim nəticələri:

- Əldə etdiyi məlumatlarla nitqini zənginləşdirir.
- Mətndə mənasını bilmədiyi sözlərin mənasını şərh edir.
- Frazeoloji birləşmələrin mənasını şərh edir.

İş formaları:

kollektiv, qruplarla

İş üsulları:

müzakirə, sual-cavab

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, Seyfəddin Dağlının "Bahar oğlu" romanı

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsi şagirdlərə ünvanlanan "*Siz nə zaman sevinə bilərsiniz?*" sualı ilə başlaya bilər. Yönəldici suallar və alınan cavablar tədqiqat sualının formalaşmasına zəmin yaradır.

Tədqiqat sualı formalaşdırılır:

İnsan gördüyü işin nəticəsini necə əldə edər?

Tədqiqat aparmaq üçün sinif qruplara bölünür. Mətn oxunur və tədqiqata başlanılır. Bu məqsədlə müəllim şagirdlərə kiçik mətnlər paylaya bilər. Həmin mətnlər təxminən aşağıdakı məzmunda olmalıdır: İnsan məqsədinə çatmaq üçün zəhmət çəkərsə, işinin bəhrəsini görə bilər. Həmin məzmunlu atalar sözləri və aforizmlərdən istifadə etmək olar. Müəllim qruplara həmin məzmunda kiçik hekayələr yazmağı tapşıra bilər. Əlbəttə ki, bu tapşırıq verilərkən sinfin səviyyəsi nəzərə alınmalıdır. 5–7-ci tapşırıqlar (səh. 117) qrup işlərində iş vərəqlərinin ikinci sualı kimi təqdim edilə bilər. Təqdimatların müzakirəsindən sonra əldə edilən nəticənin təsdiqi kimi düzgün tələffüz qaydalarına riayət etməklə mətn oxunur. Mətndaxili suallar, 1–3-cü tapşırıqlar (səh. 117) üzərində iş aparılır.

Tədqiqatdan alınan nəticələrlə mətndəki əsas fikir əlaqələndirilir, ümumiləşmə aparılır. Bu zaman 4-cü tapşırıqdan istifadə olunur. Nəticə mərhələsində şagirdlərə "*Hansı atalar sözünü mətnə ad kimi seçmək olar?*" sualı ilə müraciət edə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 11

"Evrika"

Məzmun standartları:

1.2.4., 4.1.4.

Təlim nəticələri:

- Müzakirələrdə həmcins üzvlərdə ixtisarlarla bağlı müxtəlif fikirləri ümumiləşdirir.
- Həmcins üzvlərdə şəkilçilərin yazılış qaydasına əməl edir.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

müzakirə, sual-cavab

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, sxemlər

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim şagirdlərə ixtisarın nə olduğu barədə sual verə bilər. Riyaziyyat dərsində şagirdlər ixtisarlar haqqında müəyyən məlumata malikdirlər. Müəllim şagirdlərə "*Daha nə ixtisar oluna bilər?*" sualı ilə müraciət edə bilər.

Tədqiqat sualı formalaşdırılır:

Həmcins üzvlərdə nə ixtisar edilə bilər?

Tədqiqat aparmaq üçün müəllim şagirdlərə iş vərəqlərində müxtəlif şəkilçi və hissəciklərin ixtisar edildiyi cümlə nümunələri verə bilər.

I qrupa mənsubiyyət və hal şəkilçilərinin, II qrupa cəm və şəxs şəkilçilərinin, III qrupa *idi, imiş* hissəciklərinin, IV qrupa *üçün, görə* qoşmalarının ixtisarı ilə bağlı tapşırıqlar verilə bilər. Dərslikdəki 8-ci tapşırığın (səh. 117) fərdi qaydada yerinə yetirilməsi tapşırıla bilər.

Müzakirələr zamanı müəllim "Şəkilçi və hissəciklərin ixtisarı nə üçün lazımdır?" sualı ilə şagirdlərə müraciət edə bilər. Bunun üçün 9-cu tapşırıq (səh. 118) yerinə yetirilir. Hər iki mətn müqayisə edilir. Şagirdlərə hər iki mətndə təkrarlanan *-mı*[4] sual ədatının ixtisar olunması tapşırılır. Şagirdlər bu qənaətə gəlməlidirlər ki, adi danışıq dilində təkrar şəkilçi və hissəciklər dilə ağırlıq gətirir. Bu tipli tapşırıqlar şagirdlərdə düzgün, aydın və səlis nitqin formalaşması baxımından əhəmiyyətlidir. Daha sonra 10-cu tapşırıq (səh. 118) yerinə yetirilir.

Səh. 117-dəki mətnin yanındakı yardımçı sualın (Siz necə düşünürsünüz, hansı daha şərəflidir?) cavablandırılması zamanı H.Cavidin "Ölüm var ki, həyat qədər dəyərli, Həyat var ki, ölümdən də zəhərli" misralarını problem sual kimi şagirdlərə verə bilər və şagirdləri tədqiqata cəlb edə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 12

Oqtay Eloğlu

Məzmun standartları:

1.1.2., 1.2.4., 2.2.1., 2.2.3.

Təlim nəticələri:

- Dinlədiyi fikrin məntiqi olduğunu rəy bildirməklə əsaslandırır.
- Müzakirələrdə deyilən fikirləri faktlar əsasında ümumiləşdirir.
- Mənasını bilmədiyi sözləri şərh edir.
- Mətndəki faktları real həyatla əlaqələndirir.

İş forması:

kollektiv, cütlərlə

İş üsulları:

müzakirə, rollu oxu,
beyin həmləsi

Resurslar:

dərslik, lüğət, iş vərəqləri,
sxemlər

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə xalqın azadlığı, rifahı və inkişafı yolunda canını fəda edən mərd, mübariz insanlar, onların fəaliyyəti haqqında söhbətlə başlaya bilər. Şagirdləri həmin şəxslər, onların cəmiyyətin inkişafındakı rolu barədə müzakirəyə cəlb etmək məqsədəuyğundur. Bu zaman 2-ci tapşırığın bir hissəsi ("Xalqın rifahı yolunda mübarizə aparan fədakarları xatırlayın") yerinə yetirilmiş olur.

Tədqiqat sualı formalaşdırılır:

Kim xalqı, milləti uğrunda fədakar ola bilər?

Tədqiqatın aparılması C.Cabbarlının "Oqtay Eloğlu" əsərindən ixtisarla verilmiş bir hissə oxunur. Mətnin rollar üzrə oxusu məqsədəuyğundur. Bu zaman müəllim nəzarət etməlidir ki, şagirdlər əsəri düzgün tələffüz qaydalarına, obrazların danışığına uyğun tərzdə oxusunlar.

Müəllim mətn oxunduqca şagirdlərə əsas ideyanın tapılmasına xidmət edən kiçik fikirlərin seçilib yazılmasını tapşıra bilər. Mətndaxili suallar və 1–3-cü məzmun sualları üzərində iş aparılır. Şagirdlər bu üsulla ideyanı müəyyən etməyə artıq 5-ci sinifdən ədəbiyyat dərslərində yiyələnmişlər. 3-cü tapşırığın icrası zamanı müəllim çalışmalıdır ki, şagird bu əsərləri ədəbi növlərinə görə fərqləndirə bilsin.

5–8-ci tapşırıqlar cütlər vasitəsilə yerinə yetirilir. Lüğət üzərində aparılan iş mətnin məzmununun daha rahat anlaşılmasına xidmət edir.

4-cü tapşırığın daha çox fikirlərin ümumiləşdirilməsi mərhələsində yerinə yetirilməsi məqsədəuyğundur.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 13

Oqtay Eloğlu

Məzmun standartları:

4.1.4.

Təlim nəticələri:

- Həmcins mübtədalarla uzlaşan xəbərdə şəkilçinin yazılma qaydasına əməl edir.

İş forması:

kollektiv, cütlərlə

İş üsulları:

sorğu, sual-cavab

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, sxemlər

9. Siz aşağı siniflərdə mübtəda ilə xəbərin uzlaşmasını keçmişsiniz. Həmin qaydanı yadınıza salın. Mətndə altından xətt çəkilmiş cümlələrdə həmcins mübtədaların xəbərlə uzlaşmasına diqqət yetirin. Özünüz də belə nümunələr deyin.

10. Məntiqinizə əsaslanıb cümlələrdə şəxs sonluqlarını bərpa edin.

Mən və bacım gəzməyə getdi..? (...m, ...k) Mən və sən məqsədimizə çatmalı..? (...yam, ...yıq) Biz və Nərgiz X sinif şagirdləri..? (...dir, ...yik)

Sən və o dərsə gedir...? (...sən, ...siniz?) Siz və Cavid olimpiadada iştirak etməli...? (...dir, ...siniz) Vəfa, Aygün və Elmira mehriban qız..? (...dır, ...lardır)

Kirpilər və ayılar uzun müddət qış yuxusuna gedir? (...lər) Güllər və çiçəklər ətrafa xoş ətir saçır? (...lar)

✓ *Gəldiyiniz qənaəti əsaslandırmaq üçün uyğunluğu müəyyənləşdirib xəbərin həmcins mübtədalarla uzlaşması qaydasını tərtib edin.*

1) Həmcins mübtədalardan biri I şəxsin təki və cəmində olarsa,	xəbər II şəxsin cəmində olur.
2) Həmcins mübtədalardan biri II şəxsin təki və cəmində olarsa,	xəbər təkdə və ya cəmdə olur.
3) Həmcins mübtədalardan biri III şəxsin cəmində olarsa,	xəbər I şəxsin cəmində olur.

11. Aşağıdakı mətndə həmcins mübtədaları müəyyənləşdirin, III şəxsdə xəbərin onlarla uzlaşmasına diqqət yetirin. Fikirlərinizi ümumiləşdirin.

Xalq dramlarının yaranmasında aşıq sənəti və mərasimlər böyük rol oynamış... (*dır? lar*). Ailə-məişət mövzusunda da xalq dramları vardır: "İki qardaş", "Keçəl", "Xəsis" oyun-tamaşaları xalq nağılları əsasında yaranmış... (*dır? lar*). İştirakçılar bu oyun-tamaşaları müxtəlif mərasimlərdə: toy, yas, bayram, elçilik, nişan mərasimlərində icra edirdi... (*lar?*).

Xalq dramları, adətən, nəsrlə və nəzmin növbələşməsi ilə yaranır. Məsələn, "Qodu-qodu" oyununda kənd cavanları üzərinə qırmızı şilə çəkilmiş bir dairəni, yaxud bəzədilmiş çömçəni Günəş rəmzi kimi götürüb qapı-qapı gəzər və müəyyən nəğmələr oxuyardı... (*lar?*).

12. Aşağıdakı cümlələri öz düşüncələriniz əsasında tamamlayıb davam etdirin.

Mən bu bölmədən öyrəndim ki, aktyorluq sənəti..... . Eyni zamanda başa düşdüm ki, həmcins üzvlər və əlavələrdən istifadə.....

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsinə müəllim dərsə frontal sorğu vasitəsilə mübtəda və xəbərin şəxsə və kəmiyyətə görə uzlaşması qaydasını yada salmaqla başlaya bilər.

Tədqiqat sualı formalaşdırılır:

Həmcins mübtədalarla xəbər necə uzlaşır?

Tədqiqatın aparılması zamanı dərslikdəki 9-cu tapşırıq yerinə yetirilir. 10-cu tapşırıq cütlər vasitəsilə yerinə yetirilə bilər. Bərpa edilən şəxs sonluqlarına əsasən xəbərin həmcins mübtədalarla uzlaşması qaydası tərtib edilir. Bu məqsədlə 10-cu tapşırığın son mərhələsi (uyğunluğun müəyyənləşdirilməsi) yerinə yetirilir. 11-ci tapşırıq tətbiqetmə mərhələsində yerinə yetirilir. Bu tapşırıq həm də növbəti dərsdə "Novruz bayramı" mətni üçün motivasiya ola bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 14

Novruz bayramı

Məzmun standartları:

1.1.1., 1.1.2., 1.2.2., 3.1.1.

Təlim nəticələri:

- Mətnə aid suallar tərtib etməklə mülahizələrini dəqiqləşdirir.
- Fikirlərini ifadə etmək üçün ümumiləşdirmə formasını seçir.
- Əlavə materialları sistemləşdirib nitqini zənginləşdirir.
- Yazılı təqdimat hazırlayır.

İş formaları:

kollektiv, qruplarla

İş üsulları:

beyin həmləsi, müzakirə, BİBÖ

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, "Novruz bayramı ensiklopediyası", "Dəli Kür" filmindən fraqment

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə Novruz bayramı ilə bağlı mahnı səsləndirməklə başlaya bilər. Bu, mövzu ilə bağlı hər hansı bir videomaterialın nümayişi də ola bilər. Şagirdlərin fikirləri soruşulub müzakirə aparılır.

Tədqiqat sualı formalaşdırılır:

Hansı bayramlar xalq bayramı adlanır?

Tədqiqat BİBÖ cədvəlinin doldurulması ilə başlaya bilər. Cədvəl lövhəyə çəkilir.

Bilirəm	İstəyirəm biləm	Öyrəndim
Xalq bayramlarının qədim tarixə malik olduğunu, xalqın kütləvi şəkildə, təmtəraqla bu bayramları qeyd etdiyini, Novruz bayramının xalq bayramı olduğunu	Daha hansı xalq bayramları var? Onlar necə qeyd olunur?	

Aşağıdakı mətndən istifadə etməklə tədqiqat aparıla bilər.

Hər bir xalqın həyatı və məişətində özünün zənginliyi ilə seçilən, sevilən, məşhur

olan mərasim, ayin, oyun, əyləncə, tamaşa və bayramlar var. Sözsüz ki, Azərbaycan xalqının da elliklə keçirdiyi ən əzəmətli bayramı Novruz bayramıdır.

Bilavasitə baharın, yazın, həm də yeni təsərrüfat ilinin başlanması şərəfinə böyük təntənə ilə hər il keçirilən Novruz bayramı, sözsüz ki, birdən-birə başlanmır. Belə ki qədim ulu əcdadlarımız çevrəsindəki digər hadisə və proseslər kimi, ilin fəsil, ay və günlərinin məzmunundakı mahiyyəti ayrıca dəyərləndirmiş, əlamətlərinə, kəsb etdikləri xüsusiyyətlərə görə onlara adlar da vermişdir. Misal üçün, fevralın son və martın ilk iki ongünlüyü Boz ay, aprel – leysan, may – ağlar-gülər, iyun – vaynənə, iyul – qorabişirən, avqust – quyruqdoğan, quyruqdonan, sentyabr – solyan, oktyabr – elköçdü, noyabr – qırovdüşən və s. adlanır. Qədimdə qoyunçunun ixtiyarında indiki təqvim olmadığı üçün kəsilmiş qoyunun quyruğundan bir parça alıb sininin içində axşamdan ayaza qoyurmuş. Səhər durub baxırmış. Əgər sinidəki quyruqda donma əlaməti varsa, deməli, yerə quzuların ağzına yara salan şeh gəlib. Quzuları yaylaqdan arana endirmək vaxtıdır. Bu səbəbdən də avqusta "quyruqdonan ay" deyilir. Ayın "quyruqdoğan" adlanması isə ulduzlarla bağlıdır. Belə ki avqust ayında göy, səma gecələr çox aydın, açıq olduğundan quyruqlu ulduzlar da görünür. Buna görə avqust ayı həm də "quyruqdoğan ay" adlanır.

Çox əski çağların məhsulu olan xeyir-şər dünyagörüşü adamlara qışa şər qüvvələrin əməli kimi baxmaq hissləri aşılayıbmış. Odur ki bu "yağı"nı – qışı saymamaq, ona qarşı mübarizə aparmaq cəhdi hələ qış fəslinin başlanmasına bir ay qalmış icra olunan xüsusi bir mərasimdə də açıq-aydın görünməkdədir. "Kövsəc" adı ilə tanınan bu mərasim çox-çox qədimlərdə "Azər" adlanan bayramın mərasimlərindən biri olmuşdur. İndi "Azər" bayramı və onun digər mərasimləri, ayinləri unudulsa da, "Kövsəc" mənbələrdə qoruna-qoruna yaşamışdır.

Y.V.Çəmənzəminli yazırdı ki, "Kövsəc" mərasimi, adətən, noyabrda – qırovdüşən ayda icra edilərmiş. Mərasim iştirakçıları, əsasən, bədənə istilik verən yeməklər, misal üçün: yağlı ət, istiot qatılmış xörəklər yeyərmişlər. Özünü gülməli vəziyyətə salmış, paltarının cıncındırı tökülən bir nəfər qatıra minib meydana çıxar və əlində də tükü tökülmüş qarğa müqəvvası tutarmış. Yanyörədəkilərin onun üstünə soyuq su səpmələrinə baxmayaraq, o, çox saymazyana "İstidir! İstidir!" – deyə bağırarmış.

Çox qədim zamanlarda keçirilmiş "Səddə" bayramı da insanların qışa qarşı münasibətlərini, qışdan qorxmadıqlarını nümayiş etdirən bir bayramdır. Novruza nə az, nə çox, düz əlli gün qaldığını bildirmək üçün icra olunan "Səddə" bayramında insanlar axın-axın gəlib təyin olunmuş meydana toplaşırlar. Meydanda böyük bir tonqal yandırılır. Toplaşanlar əl-ələ tutub tonqalın çevrəsinə dolanır, şənlik keçirir, rəqs edib əyləncəli tamaşalar göstərirlər. Dahi Azərbaycan şairi Nizami Gəncəvi "İsgəndərnamə" poemasında Novruz bayramı ilə bərabər, "Səddə" bayramını da təsvir etmişdir.

Novruzqabağı qeyd olunan dörd il-axır çərşənbə mərasimlərinin, ayinlərinin zənginliyi ilə daha məşhurdur. Eldə-obada, kənddə-kəsəkdə hamının, hər evin təntənə ilə qeyd etdiyi bu çərşənbələrin hər birinin ayrı-ayrılıqda müxtəlif adları da vardır.

"Novruz bayramı ensiklopediyası"ndan

Mətnin oxusu başa çatdıqdan sonra müzakirələr edilir, şagirdlər üçün yeni olan xalq bayramlarının adları və vaxtları, necə keçirilməsi cədvəlin "Öyrəndim" hissəsinə yazılır: *Kövsəc, Azər, Səddə xalq bayramları və onların noyabr ayından etibarən başlayaraq keçirilməsi.*

Mətn ətrafında müzakirələr aparılır. Fikirlər ümumiləşdirilib nəticə çıxarılır: Əsrlər boyu xalq tərəfindən icra edilən, müxtəlif adətləri, məqsədləri özündə birləşdirən və bu günə kimi qorunub saxlanılan, kütləvi şəkildə qeyd olunan bayramlar xalq bayramı adlanır.

Dərsdə müəllim Novruz bayramına xas olan adət-ənənələrin söylənilməsi, keçirilən oyunlar, oxunan mahnıların söylənilməsi ilə dərsi davam etdirə bilər.

Yaradıcı tətbiqetmə kimi "Novruz yeniliyin rəmzidir" mövzusunda təqdimat hazırlayın. Novruz şənliyinin keçirilməsi üçün ssenari yazın.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Deyilən faktları dəqiqləşdirmək üçün sual tərtib etməkdə çətinlik çəkir.	Deyilən faktları dəqiqləşdirmək üçün sualı müəllimin köməyi ilə tərtib edir.	Deyilən faktları dəqiqləşdirmək üçün sual tərtib edir.	Deyilən faktları dəqiqləşdirmək üçün əhatəli suallar tərtib edir.
Fikrini ümumiləşdirə bilmir.	Fikrini ümumiləşdirərkən faktlara müraciət etmir.	Fikrini ümumiləşdirərkən auditoriyadan kömək alır.	Fikrini faktlarla ümumiləşdirir.
Fikrini bildirmək üçün əlavə materiallardan istifadə edə bilmir.	Fikrini bildirmək üçün əlavə materiallardan çətinliklə istifadə edir.	Fikrini bildirmək üçün əlavə materiallardan müəllimin köməyi ilə istifadə edir.	Fikrini bildirmək üçün əlavə materiallardan sərbəst şəkildə istifadə edir.
Yazılı təqdimat hazırlamağı bacarmır.	Təqdimatın xarakterini müəyyənləşdirə bilmir.	Təqdimatın xarakterini müəyyənləşdirməyə çətinlik çəkir.	Yazılı təqdimat hazırlayır.

KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏYƏ NÜMUNƏ

KSQ №5

Məşhur bir rəssam dünyada padşahın yanında qulluq[1] edirdi. Padşah onu sevmədiyi üçün qovmaq istəyir və bununla əlaqədar olaraq bəhanə[2] axtarırdı.

Padşahın bir gözü kor idi. O, rəssama belə bir əmr[3] verdi:

– Mənim şəklimi olduğum kimi çək.

Rəssamı dərd[4] götürdü. O, padşahı olduğu kimi, bir gözü kor çəksə idi, hökmdar qəzəblənəcəkdi. Gözünü kor çəkməyəndə yenə hirslənəcəkdi ki, məni olduğum kimi çəkməmisən.

Rəssam çox fikirləşdi. Vəziyyətdən çıxmaq üçün çarə[5] tapdı. Padşahı maral ovlayan vəziyyətdə çəkdi. Guya o, gözünün birini qıymışdı.

Şəkil padşahın, vəzirlərin, əyanların bir sözlə hamının xoşuna gəlmişdi.

Rəssam öz ağlı ilə padşahın hiyləsinə qalib gəldi.

1. Hansı başlıq mətnin ideya-məzmununa daha çox uyğundur?

A) Rəssamın arzusu B) Mənasız bəhanə
C) Ağıllı rəssam D) Ağıllı padşah E) Kor padşah

2. Hadisələrin düzgün ardıcıllığını müəyyən edin.

1) vəziyyətdən çıxış yolunun tapılması
2) ov səhnəsinin təsvir edilməsi
3) rəssamın problemlə qarşılaşması
4) padşahın fiziki qüsurlu olması

A) 3, 4, 1, 2 B) 4, 3, 1, 2 C) 3, 4, 2, 1
D) 1, 4, 2, 3 E) 4, 1, 3, 2

3. Mətnin ideyasına uyğun olan fikirdir:

A) Ovu bərəsində vurmaq lazımdır.
B) Kor kora necə baxırsa, Allah da kora elə baxır.
C) Boş, mənasız bəhanələrin mənası yoxdur.
D) Ağıllı sənətkar hökm sahibindən güclüdür.
E) Padşah olmaqdansa, rəssam olmaq yaxşıdır.

4. Mətnə görə doğru fikirdir:

A) Saraydan getmək üçün rəssam bəhanə axtarırdı.
B) Rəssam ağıllı olduğu üçün çarə tapmağa az vaxt sərf etdi.
C) Rəssamı qovmaq üçün padşah səbəb axtarırdı.
D) Rəsmə baxandan sonra hökmdar qəzəbləndi.
E) Şəkildə padşah gözünü qıymamışdı.

5. Birinci cümlədə hansı söz yerində işlənməmişdir?

A) məşhur
B) rəssam
C) dünyada
D) padşahın
E) qulluq

6. Altından xətt çəkilmiş ifadələrdən biri frazeoloji birləşmə kimi işlənməyib:
A) 1 B) 3 C) 5 D) 2 E) 4

7. İkinci cümlədə hansı cümlə üzvləri həmcinsdir?
A) xəbər B) tamamlıq C) mübtəda D) təyin E) zərflik

8. Mətndə çərçivəyə alınmış cümləni köçürün və durğu işarəsini bərpa edin.

9. "O, padşahı olduğu kimi, bir gözü kor çəksə idi, hökmdar qəzəblənəcəkdi" cümləsinin təhlili ilə bağlı səhvi tapın.

A) Cümlədə əlavə işlənmişdir.
B) Əlavə zərfliyə aiddir.
C) Tərzi-hərəkət zərfliyini izah edən əlavə "bir gözü kor" ifadəsidir.
D) .... işarəsinin yerinə (–) tire işarəsi qoyulmalıdır.
E) Əlavə tamamlığa aiddir.

10. Həmcins üzvlü cümlələri seçib yazın.

11. Çərçivəyə alınmış cümlədəki həmcins üzvlərə bağlayıcı əlavə edib yazın.

12. Birinci cümlədəki ismi birləşmələrin növünü müəyyənləşdirin.

A) I, III növ təyini söz birləşmələri
B) II, III növ təyini söz birləşmələri
C) yalnız III növ təyini söz birləşmələri
D) yalnız I növ təyini söz birləşmələri
E) yalnız II növ təyini söz birləşmələri

13. Feili bağlama tərkibi olan cümləni tapın, onu təsriflənən feilə çevirib həmcins üzvlü cümlə kimi işlədin.

14. Mətni həmcins üzvlər və əlavələr artıraraq genişləndirin.

Mövzu 1

Dialoq

Məzmun standartları:

1.1.1., 1.1.2., 1.2.4., 2.1.1.

Təlim nəticələri:

- Mətndəki əsas faktları seçməklə mülahizələrini dəqiqləşdirir.
- Əlavə materiallarla nitqini zənginləşdirir.
- Müxtəlif fikirləri ümumiləşdirir.
- Sözlərin mənasını aydınlaşdırır.

İş formaları:

kollektiv, qruplarla, cütlərlə

İş üsulları:

müzakirə, əqli hücum

Resurslar:

dərslik, lüğət, "O olmasın, bu olsun" filmindən fraqment (Cəlil Məmmədquluzadə ilə bağlı)

V 1 MƏTBUAT: DÜNƏN VƏ BU GÜN

Şəhəri gəzməyə çıxan dostların yolu nəşriyyatın yanından düşdü.

– Əziz dost, ilk qəzetin yaranma tarixi haqqında, yəqin ki, eşitmisən?

– Bildiyimə görə, dünyada birinci *qəzet* e.ə. 59-cu ildə qədim Romada nəşr olunub. Bu, əl ilə yazılmış "Günün hadisələri" adlı "vərəqə" (*gil lövhə*) olmuşdur. Hətta Yuli Sezarın dövründə "Senatın əl işləri" adlı qəzeti xatırladan gil lövhələr də hazırlanırdı.

– Düzdür. Ondan sonra əl ilə yazılan 2-ci gündəlik qəzet təxminən 1300 il əvvəl hazırlanıb. Həmin qəzetin adı "Paytaxt yenilikləri" idi. Dünyada müntəzəm nəşr edilən ilk qəzet isə 1609-cu ildə Almaniyada buraxılan "Zaytung" adlı çap məhsulu olub.

– "Qəzet" sözü italyan pul vahidi "qaset" ilə bağlıdır. XVI əsrdə kağız vərəqələrdə çap edilən xəbərləri oxumaq üçün xırda pul vahidi olan qaset ödənilirdi.

– Maraqlıdır.

– Azərbaycanda isə ilk informasiya nümunələri XIX əsrin 30-40-cı illərinə təsadüf edir. Bunlar xüsusi *bülletenlər* olub.

– Həsən bəy Zərdabinin rəhbərliyi ilə ilk azərbaycandilli nəşrin – "Əkinçi" qəzetinin işıq üzü görməsi, sözsüz ki, Azərbaycan mətbuatı üçün əlamətdar bir hadisə idi.

– Onu da deyim ki, H.Zərdabi ana dilində qəzet çıxarmaq fikrinə hələ Qubada mahal məhkəməsinin hakimi işlədiyi dövrdə gəlmişdi. Ensiklopedik biliyə malik alim A.Bakıxanovun qardaşı Cəfərqulu xan Bakıxanov da tələb olunan maliyyə xərclərinin bir hissəsini öz üzərinə götürəcəyini bildirmişdi.

Bu hissəyə mətbuatımızla bağlı hansı maraqlı faktı yazmaq istərdiniz?

ORFOEPİYA

Düzgün tələffüzü yazın.

- xatırladan – [.....]
- hazırlanıb – [.....]
- xəbərlər – [.....]
- əməkdaşlıq – [.....]

"Əkinçi"nin nəşri nə üçün əlamətdar hadisə hesab edilirdi?

H.Zərdabinin qəzet nəşr etməkdə məqsədi nə idi?

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə mətbuatın yaranması, cəmiyyətin inkişafında onun rolu haqqında şagird fərziyyələrini dinləməklə başlaya bilər.

Tədqiqat sualı formalaşdırılır:

Mətbuatın yaranması nəyə səbəb oldu?

Tədqiqatın aparılması zamanı dialoq oxunur, oxudan sonra qrup işləri müəyyənləşdirilir. Tədqiqat üçün müəyyən vaxt ayrılır. Dərslikdəki mətndaxili suallar və 1–4-cü tapşırıqlar qrup işi kimi verilə bilər. Təqdimatlar dinlənilir, tədqiqat sualına cavab tapılır.

Müzakirə mərhələsində 2 və 3-cü suallardan istifadə olunur, 5–9-cu tapşırıqlar cütlər vasitəsilə yerinə yetirilə bilər.

Ümumiləşdirmə və nəticə mərhələsində şagirdlərin müstəqil fikirlərinə yer vermək məqsədəuyğun olardı. Müasir mətbuatın cəmiyyətin inkişafında rolu, onun vəzifələri haqqında irəli sürülən fikirlər əsasında nəticə çıxarılır.

Yaradıcı tətbiqetmə kimi 14-cü tapşırıqdan istifadə oluna bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 2

Dialoq

Məzmun standartları:

1.2.4., 3.1.2., 4.1.2.

Təlim nəticələri:

- Müzakirələrdə söylənilən fikirləri ümumiləşdirir.
- Fikir və mülahizələri əsasında təqdimat hazırlayır.
- Sözlərin sintaktik vəzifəsini müəyyənləşdirir.

İş formaları:

kollektiv, qruplarla

İş üsulları:

müzakirə, debat

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə sintaktik əlaqələr mövzusunu təkrarlamaqla başlaya bilər. Şagirdlərə hər hansı bir cümlə təqdim edilib sintaktik təhlilin aparılması və əlaqələrin müəyyənləşdirilməsi tapşırıla bilər.

Tədqiqat sualı formalaşdırlır:

Hansı sözlər sintaktik vəzifə daşıya bilər?

Tədqiqatın aparılması zamanı lövhəyə aşağıdakı cümlə yazılır:

Ləman, bir azdan bu köhnə tikililərin heç biri qalmayacaq, hamısı söküləcəkdir.

Müəllim diqqəti "Ləman" sözünə yönəldərək debat təşkil edə bilər:

1. Ləman sözü mübtədadır.
2. Ləman sözü mübtəda deyil.

Şagirdlər müəyyən edirlər ki, "Ləman" sözü "qalmayacaq" sözü ilə şəxsə görə uzlaşmadığı üçün mübtəda deyil.

Daha sonra dərslikdəki 11-12-ci tapşırıqlar yerinə yetirilir. Modal sözlər haqqında biliklər təkrarlanır. Şagirdlərə qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədə olmayan sözlər haqqında məlumat verilir.

Sonra qruplara tərkibində ara sözlərin və xitabların olduğu kiçik mətnlər verib onların müəyyənləşdirilməsi tapşırıla bilər. Belə mətnlər kimi M.Arazın, S.Vurğunun şeirlərindən, Molla Nəsrəddinin lətifələrindən və s. istifadə etmək olar.

Qruplardan birinə xitablar və ara sözlərin iştirak etdiyi cümlələr qurmaq tapşırıla bilər. Sonra şagirdlərin təqdimatları dinlənilir, ümumiləşmə aparılır və nəticə çıxarılır.

Yaradıcı tətbiqetmə kimi lüğət layihəsi üzərində iş aparılır.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 3

Əhvalpürsanlıq

Məzmun standartları:

1.1.1., 1.2.1., 1.2.4., 2.1.1., 4.1.3.

Təlim nəticələri:

- Mətndəki əsas faktları seçməklə mülahizələrini dəqiqləşdirir.
- Əlavə materiallarla nitqini zənginləşdirir.
- Mövzu ilə bağlı fikirləri ümumiləşdirir.
- Sözlərin mənasını aydınlaşdırır.
- Xitablarda durğu işarələrini müəyyən edir.

İş formaları:

kollektiv, cütlərlə

İş üsulları:

müzakirə, rollu oxu, klaster

Resurslar:

dərslik, lüğət, Mirzə Ələkbər Sabirin "Hophopnamə"si

DƏRSİN GEDİŞİ

Motivasiyada müəllim dərsə "Sizcə, hansı hadisələr təəccübə səbəb ola bilər?" sualı ilə başlaya bilər. Bu, klaster üsulu ilə həyata keçirilə bilər. Şagirdlərin fikirləri dinlənilir, lövhəyə yazılır.

Tədqiqat sualı formalaşdırılır:

Təəccüb tənqidə səbəb ola bilərmi?

Tədqiqatın aparılması zamanı dərslikdəki 1-ci tapşırıq (səh. 126) yerinə yetirilir. Şeir rollar üzrə oxunsa, daha yaxşı olar. Çalışmaq lazımdır ki, şeir oxunarkən şagirdlər obrazların hisslərini ifadə edə bilsinlər. Şeirin əsas ideyası (tapşırıq 3) müəyyənləşdirilir. Mətndaxili sual üzərində iş aparılır. Sonra 2 və 4-cü tapşırıqlar üzərində iş aparılır. Bu tapşırıqlar kollektiv, 6–8-ci tapşırıqlar cütlər vasitəsilə yerinə yetirilir.

Müəllim dərsi davam etdirərək şeirdəki müraciət olunan sözlər üzərində iş aparır. 9-cu tapşırıq yerinə yetirilir. Xitablar, onların ifadə vasitələri, cümlədə yeri haqqında məlumat verilir. 10 və 11-ci tapşırıqlar yerinə yetirilir.

Yaradıcı tətbiqetmə kimi 5-ci tapşırıq (səh. 126) verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 4

Nitq mədəniyyəti (praktik iş)

Məzmun standartları:

1.2.1., 1.2.2., 3.1.2.

Təlim nəticələri:

- Fikirlərini ifadə etmək üçün yazılı nitqdən istifadə edir.
- Topladığı materiallardan istifadə edərək nitqini zənginləşdirir.
- Sitatlardan istifadə edərək inşa yazır.

İş formaları:

müzakirə, əqli hücum

İş üsulları:

kollektiv, qruplarla

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

12. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən verilmiş bir hissəni oxuyun, orada səslənən fikirlərlə B.Vahabzadənin "Ana dili" şeirindəki fikirləri əlaqələndirin. Hansı qənaətə gəldiniz?

Muğam bizim milli sənətimizdir, milli sərvətimizdir. Bizim mənəvi dəyərlərimizin, Azərbaycan dəyərlərinin inkişafı, qorunması üçün ədəbiyyatımızın, musiqimizin çox böyük əhəmiyyəti var. Muğam həm ədəbiyyatdır, həm musiqidir, həm də Azərbaycan dilinin saflığını qoruyan sənətdir. Mən bu yaxınlarda Azərbaycan dilinin saflığının qorunması ilə bağlı Fərman imzalamışam. Bizim çox zəngin dilimiz var və Azərbaycan ədəbiyyatı bunu təsdiqləyir. Ancaq indi dünyada gedən qloballaşma prosesləri, digər proseslər istər-istəməz dilimizə də təsir edir. Biz dilimizi xarici təsirdən qorumalıyıq. Bizim dilimizə lüzumsuz xarici kəlmələr lazım deyil. Bizim dilimiz o qədər zəngindir ki, istənilən fikri, istənilən məsələni ifadə etmək mümkündür. Bəzi hallarda həm kütləvi informasiya vasitələrində, həm digər sahələrdə dilimizə yad kəlmələr daxil edilir. Bunlar dilimizi zənginləşdirmir, əksinə, bəzən mövcud sözlər yeni sözlərlə əvəzlənir və mən bunun qəti əleyhinəyəm. Biz hamımız öz dilimizi qorumalıyıq.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti,
Ağdam Muğam Mərkəzinin açılışındakı nitqindən,
5 noyabr 2018-ci il

13. Aşağıdakı mətni oxuyub nəticə çıxarın.

Nyu-Yorkda Azadlıq abidəsinin açılış mərasimində bir nitq söylənməsi planlaşdırılır. Bunun üçün Amerikanın ən məşhur natiqi Corc Körtisə müraciət olunur. Lakin o, təklifi rədd edir. Belə əhəmiyyətli təklif necə rədd edilə bilərdi? Körtis bunu üç səbəbə görə rədd etmişdi:

– Nitq üçün mərasimdən ancaq bir ay əvvəl mənə xəbər verdilər. Əgər mənə üç ay möhlət verilmirsə, ən vacib nitqləri belə rədd edirəm. Bəli, üç ay. Bir ay araşdırmaq və diqqətli bir hazırlıq üçün; bir ay hazırladıqlarımı bir kənara qoyub, beynimin mövzunu qavraması üçün və son bir ay da mükəmməl bir nitqin tələb etdiyi əlavələr və son hazırlıq üçün.

DƏRSİN GEDİŞİ

Müəllim dərsə *"Sizcə, necə danışmaq lazımdır ki, dinləyənlər sizi başa düşsünlər, zövq alsınlar?"* sualı ilə başlaya bilər. *"Bəs biz buna həmişə əməl edirikmi?"* sualı ilə müzakirəni davam etdirə bilər.

Daha sonra dərslikdəki 12-ci tapşırıq (səh. 128) üzərində iş aparılır. Bu tarşırığın yerinə yetirilməsində əsas məqsəd bu gün dilimizin saflığının dövlət səviyyəsində qorunmasına, dilimizə daxil olan yad ünsürlərdən uzaq durmağa, bəzi hallarda ədəbi dilin normalarının kobud şəkildə pozulmasına diqqət yetirməkdir.

Müəllim 13-cü tapşırıq (səh. 128) üzərində iş aparır, şagirdləri müzakirəyə cəlb edir. Amerikalı natiq C.Körtisin cavabına münasibət bildirilir. 129-cu səhifədəki I çərçivə-

dəki yazı oxunur. Bu, gözəl nitqin formalaşması üçün bir yaddaş xarakteri daşıya bilər.

Sonra müəllim şagirdləri qrupa bölür. Hər qrupa qabaqcadan müəyyən edilmiş mövzularda nitq hazırlamaq (Nitqin şifahi və ya yazılı hazırlanması müəllim tərəfindən seçilir.) tapşırılır. Çalışmaq lazımdır ki, seçilən mövzular şagirdin yaş səviyyəsinə uyğun olsun. Şagirdə belə mövzular tapşırıla bilər:

"Ədəbiyyatımızda qadın obrazları", "Dilimizdə yad sözlər və ifadələr" və s.

Müəyyən edilmiş vaxt ərzində şagirdlər tapşırığı yerinə yetirir, hazırlanmış çıxışlar dinlənilir, müzakirələr aparılır. Şagirdlər fikirlərini əsaslandırmaq üçün uyğun sitatlardan istifadə edə bilər.

Ümumiləşmələr aparılır və nəticə çıxarılır.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Fikirlərini yazılı şəkildə çatdırmaqda çətinlik çəkir.	Fikirlərini müəllimin köməyi ilə çatdırır.	Fikirlərini yazılı şəkildə çatdıranda bəzi səhvlərə yol verir.	Fikirlərini yazılı şəkildə çatdıra bilir.
Nitqini zənginləşdirməkdə çətinlik çəkir.	Nitqini zənginləşdirməkdə müəllimin köməyindən istifadə edir.	Nitqini bəzi səhvlər edərək zənginləşdirir.	Əlavə materiallardan düzgün istifadə etməklə nitqini zənginləşdirir.
İnşasında sitatlardan istifadə edə bilmir.	İnşasında sitatlardan istifadə etməkdə çətinlik çəkir.	İnşa yazısında müəllimin köməyi ilə sitatlardan istifadə edir.	Sitatlardan istifadə etməklə inşa yazır.

Mövzu 5

Nitq mədəniyyəti (praktik iş)

Məzmun standartları:

1.2.1., 1.2.2., 3.1.2.

Təlim nəticələri:

- Fikirlərini ifadə etmək üçün uyğun analiz forması seçir.
- Topladığı materiallardan istifadə edərək nitqini zənginləşdirir.
- Sitatlardan istifadə edərək fikirlərini qüvvətləndirir.

İş formaları:

müzakirə, əqli hücum

İş üsulları:

kollektiv, qruplarla

Resurslar:

dərslik, lüğət, Cəlil Məmmədquluzadənin əsərləri

Ümummilli lider Heydər Əliyev 18 iyul 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman, 30 sentyabr 2002-ci ildə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun imzalamışdır. İkinci sənəddə göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Bu qanun ölkə Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır.

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.
Ümummilli lider Heydər Əliyev

Dil insanı ölçmək üçün vasitədir. İnsan öz dilinin altında gizlənmişdir.
Həzrət Əli

Dili qiymətdən salar
Ucuz söz, hiylə, böhtan.
Elə saxla dilini,
Nə dil səndən utansın,
nə sən dilindən utan!
Rəsul Rza

Ana dili məhv olarkən xalq artıq məhv olur. Xalqın dili yaşadıqca xalq da yaşayır.
Konstantin Uşinski

Dil çirklilik sevməz, zor və güc də qəbul etməz. Dil öz kökü üstə bitər, qalxar, qol-qanad açar və bu asudəlik, təbiilik sahəsində də elə gözəl, zərif və geniş bir hala gələr ki, hamını heyran qoyar.
Yusif Vəzir Çəmənzəminli

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncam imzalamışdır. Bu sərəncamın əsasında klassik və müasir Azərbaycan ədəbiyyatı nümayəndələrinin əsərləri nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə edilmişdir.

DƏRSİN GEDİŞİ

Bu dərsdə 14-cü tapşırıq (səh. 129) şərti icra edilir.

Bunun üçün müəllim, ilk növbədə, dərs prosesində təqdimat hazırlayacağını və ya inşa yazı yazdıracağını müəyyən etməlidir. Hər iki halda səh. 129-da verilmiş plandan istifadə edilməsi məqsədəuyğundur.

Müəllim qruplar arasında bölgü aparmaqla "Bizim "obrazovannı"lar" və "Sual-cavab" mətnləri üzərində iş aparır. Bu məqsədlə şagirdlərə mətnləri diqqətlə oxumağı və onlardakı əsas fikri tapmağı və faktları əsaslandırılmış şəkildə toplamağı tapşırır. Müəllim çalışmalıdır ki, şagirdlər mətnlərin məzmunundan çıxış edərək XX əsrin əvvəllərində və XXI əsrdə ana dilinə olan münasibəti fərqləndirə bilsinlər. Daha sonra 131-ci səhifədəki mətnlər: şeir nümunələri, hikmətli sözlər, dövlət başçıları tərəfindən verilən fərman və qanunlar üzərində iş aparılır. Toplanılan materiallar sistemləşdirilir, tapşırıq yerinə yetirilir. Təqdimatlar dinlənilir, müzakirələr aparılır.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 6

“Molla Nəsrəddin”ə gedən yol

Məzmun standartları:

1.1.1., 2.1.1., 2.2.2., 3.1.1.

Təlim nəticələri:

- Dinlədiyi hadisə haqqında sual verməklə mülahizələrini dəqiqləşdirir.
- Mənasını bilmədiyi sözlərin qarşılığını tapır.
- Mətndəki abzaslar arasındakı əlaqəni məntiqi olaraq şərh edir.
- Nəqli xarakterli təqdimat (inşa) hazırlayır.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

müzakirə, beyin həmləsi

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim dərsə mətnin oxusu ilə başlaya bilər. Mətnin birinci hissəsi (nömrələnmiş abzaslara qədər) fərdi oxu üsulu ilə həyata keçirilə bilər. Oxu zamanı mətndaxili birinci sual, 6-cı tapşırıq (səh. 133) yerinə yetirilir. Abzasların ardıcıllığını (2-ci tapşırıq) müəyyənləşdirmək qruplarda yerinə yetirilə bilər. Bu zaman müəllim çalışmalıdır ki, şagirdlər məzmuna fikir versinlər. Bu, ardıcıllığı müəyyənləşdirməkdə şagirdlərə kömək edə bilər. Abzasların ardıcıllığı belədir: 2, 4, 1, 3, 5.

Tədqiqat sualı kimi mətndaxili ikinci sualdan istifadə edilə bilər:

Niyə C.Məmmədquluzadə “Molla Nəsrəddin”i zəmanəsinin yaratdığı jurnal hesab edir?

Tədqiqat aparılarkən 3, 4, 5, 7, 8-ci tapşırıqlar qruplarda yerinə yetirilir. Müzakirələrdən sonra tədqiqatın davamı olaraq müəllim XX əsrin əvvəllərində Azərbaycan reallığında baş verən hadisələrin qısa xülasəsi ilə şagirdləri tanış edə bilər.

Ümumiləşdirmə aparılır, nəticə əldə edilir.

Yaradıcı tətbiqetmə kimi “Molla Nəsrəddin” jurnalına aid təqdimat hazırlamaq tapşırıla bilər. Müəllimin seçimi əsasında inşa yazmaq da tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 7

“Molla Nəsrəddin”ə gedən yol

Məzmun standartları:

4.1.2., 4.1.3.

Təlim nəticələri:

- Sözlərin sintaktik vəzifəsini müəyyənləşdirir.
- Xitablarda durğu işarələrindən istifadə edir.

İş formaları:

kollektiv

İş üsulları:

müzakirə, Venn diaqramı

Resurslar:

dərslik, lüğət, iş vərəqləri, bədii mətnlər

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim şagirdlərə dərsliyin 134-cü səhifəsindəki 9 və 10-cu çalışmalar üzərində iş aparmağı tapşıra bilər. Cavablar yoxlanılır, müzakirə aparılır.

Tədqiqat sualı formalaşdırılır:

Xitablarda durğu işarəsi necə işlənilir?

Tədqiqat müəllimin mövzu ilə bağlı hazırladığı nümunələr üzərində şərh verməklə aparıla bilər. Cümlənin əvvəlində, ortasında və sonunda işlədilən durğu işarələri haqqında məlumat verilir. Müəllimin şərhindən sonra tədqiqat dərslikdəki müvafiq tapşırıqları yerinə yetirməklə davam etdirilir. Cavablar yoxlanılır, müzakirə edilir. 11-ci tapşırıq yerinə yetirilir.

12 və 13-cü tapşırıq şagirdlərin məntiqi və tənqidi təfəkkürünün inkişaf etdirilməsi məqsədi daşıyır. Yaxşı olar ki, bu tapşırıqlar yerinə yetirilərkən Venn diaqramından istifadə edilsin.

Yaradıcı tətbiqetmə kimi şagirdlərə bədii əsərlərdən müvafiq nümunələr seçib yazmaq tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılmalıdır.

Mövzu 8

Yalançı "Xortdan"

Məzmun standartları:

1.1.2., 1.2.1., 2.1.1., 2.2.3., 3.1.1., 4.1.3.

Təlim nəticələri:

- Fikrin məntiqiliyini sadə şəkildə əsaslandırır.
- Sadə formada dialoq qurur.
- Sözlərin sinonimini tapır.
- Mətndəki hadisələri real həyatla əlaqələndirir.
- Mövzuya uyğun esse yazır.
- Müəyyənləşdirdiyi ara sözlərdə durğu işarələrindən istifadə edir.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

müzakirə, proqnozlaşdırılmış oxu, klaster

Resurslar:

dərslik, lüğət, Əbdürrəhim bəy Haqverdiyev haqqında xatirələr

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim "Yalanın ömrü az olar" atalar sözündəki ifadə olunan fikri müəyyənləşdirməklə dərsə başlaya bilər. Şagirdlərin fikirləri dinlənilir və nəticə çıxarılır. Nəticə əldə etmək üçün "yalan" açar söz götürülərək klaster üsulundan istifadə edilir.

Tədqiqat sualı formalaşdırılır:

Yalanın insana hansı ziyanı ola bilər?

Tədqiqata dərslikdəki mətnin oxusu ilə başlanıla bilər. Mətn müəyyən hissəyə qədər ("*Yox, Mirzə, bu onlardan deyil, bunu oxumaram*" cümləsinə qədər) oxunur. Müəllim "Sizcə, bundan sonra nə olacaq?" sualı ilə şagirdlərə müraciət edir. Şagirdlər müxtəlif fərziyyələr söyləyirlər. Mətnin oxusu davam etdirilir. Sonluq şagirdlərin fərziyyələri ilə tutuşdurulur. Mətnin oxusu başa çatdırıldıqdan sonra tədqiqat sualı cavablandırılır. Yalanın insan həyatına mənfi təsiri barədə müxtəlif fikirlər söylənilir. Yaxşı olar ki, şagirdlərin fikirləri real həyatdakı hadisələrlə əlaqələndirilsin. Mətn üzərində iş apararkən mətndaxili sual və 2, 3, 4-cü, 6, 8-ci tapşırıqlar yerinə yetirilir. 1, 5, 7-ci tapşırıqlar qrup işi kimi verilə bilər. Təqdimatlar dinlənilir, fikirlər müzakirə edilir, münasibət bildirilir, **ümumiləşmə** (tap. 9–11) aparılır. Ara sözlər haqqında məlumat verilir.

Yaradıcı tətbiqetmə kimi 12-ci tapşırıq verilir.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 9

İlk redaktor. O kim imiş?

Məzmun standartları:

1.1.1., 1.1.2., 1.2.4., 2.1.2., 4.1.3.

Təlim nəticələri:

- Sual verməklə faktları dəqiqləşdirir.
- Fikrinin məntiqiliyini sadə şəkildə əsaslandırır.
- Müxtəlif fikirləri ümumiləşdirir.
- Sözlərin mənasını şərh edir.
- Ara sözləri müəyyənləşdirib durğu işarəsindən istifadə edir.

İş formaları:

kollektiv, qruplarla, cütlərlə

İş üsulları:

müzakirə, oxu, sual-cavab

Resurslar:

dərslik, lüğət

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində "Respublikamızda nəşr olunan hansı qəzetləri tanıyırsınız?" sualından istifadə edilə bilər. Şagirdlərin cavabları dinlənilir, müzakirə olunur. Nəşr olunan qəzetlərin adı lövhədə qeyd olunur.

Tədqiqat sualı formalaşdırılır:

Qəzet çapı nə üçün lazımdır?

Tədqiqat aparmaq üçün dərslikdəki mətn oxunur. Ceyhun Hacıbəyli haqqında məlumatla tanış olunur. Bu məlumatı şagirdlər müstəqil olaraq İnternet vasitəsilə əldə edə bilərlər. Müəllim özü də bu məlumatı hazırlayıb şagirdlərə təqdim edə bilər. Çarizmin Azərbaycanda qəzet və jurnal çapına icazə verməməsinin səbəbi belədir: "*Azərbaycan" adı altında qəzet nəşri böyük bir ölkənin, böyük bir millətin varlığını təsdiq edəcəkdi.* "Sapı özümüzdən olan baltalar" ifadəsinin mənası müzakirə edilərək aydınlaşdırılır. Dərslikdə səh. 140-dakı 3, 4, 5-ci tapşırıqlar yerinə yetirilir. Sonra iş qruplarda davam etdirilir. Mətn üzərində iş aparmaq məqsədilə müvafiq sualların hazırlanması (tap. 1) qrup tapşırığı kimi verilə bilər. Müəyyən vaxtdan sonra təqdimatlar edilir. Suallar qruplararası sorğu kimi istifadə edilir. Cavablar dinlənilir, müzakirə edilir. Ümumi nəticəyə gəlinir: qəzet çapı millətin inkişafı üçün, ölkə daxilində və beynəlxalq aləmdə baş verən hadisələrdən xəbər tutmaq üçün, beynəlxalq aləmə inteqrasiya etmək üçün lazımdır. Dərslikdəki 6, 7 və 8-ci tapşırıqlar da cütlər vasitəsilə yerinə yetirilir.

Yaradıcı tətbiqetmədə 9-cu tapşırıq yerinə yetirilir.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏYƏ NÜMUNƏ

KSQ №6

Bir şair kəskin şeirləri ilə fırıldaqçıları ifşa[1] edir, onların kəsirlərini tənqid edirdi. Dövlətlilər şairi ələ[2] salmaqla ondan intiqam[3] almağı qərara alırlar. Onlar xanın sarayında məclis düzəldirlər. Xan şairin saraya göndərilməsini kətxudaya əmr edir.

Şair saraya gəlir. Xan onu pərt etmək məqsədilə deyir:

– Şair, mən kətxudaya əmr etmişdim ki, bizim məclisi əyləndirmək üçün bir adam göndərsin, o isə təəssüf ki, səni göndərmişdir.

Şairin özünü[4] itirərək bir söz deyə bilməyəcəyini zənn edən əyanlar qəhqəhə ilə gülməyə başladılar. Lakin şair xanın özünün adamlıqdan uzaq olduğunu bildirmək üçün ona belə cavab[5] verir:

– Niyə ki ay xan adam var idi, adam yanına göndərdilər, məni də sözsüz ki sənin yanına.

Söz xana güllə kimi dəydi.

1. Hansı başlıq mətnə daha uyğundur?

A) Yerində deyilən söz
B) İntiqam
C) Xanın əmri
D) Əyləncə
E) Sərrast atılan güllə

2. Hadisələrin düzgün ardıcıllığını müəyyən edin.

I. dövlətlilərin şairdən intiqam almaq fikrinə düşmələri
II. sarayda məclis düzəldilməsi
III. şairin öz əsərləri ilə fırıldaqçıları tənqid etməsi
IV. şairin saraya gəlməsi

A) III, II, I, IV B) I, II, III, IV
C) II, I, III, IV D) IV, III, I, II

3. Altından xətt çəkilmiş ifadələrdən biri frazeoloji birləşmə kimi işlənməyib:

A) 1 B) 5 C) 2 D) 4 E) 3

4. Mətnin ideyasına uyğun fikirdir:

A) Söz var dəyər keçər, söz var dələr keçər.
B) Hökmdarın sözü qılınc kimi kəsərli olur.

C) Şairləri pərt etmək mümkün deyil.
D) Xan əyanları ilə birlikdə pərt oldu.
E) Ən kəsərli sözü ancaq şairlər deyir.

5. Hansı suala cavab yoxdur?

A) Şair niyə çıxılmaz vəziyyətə düşdü?
B) Şairin saraya çağırılmasında məqsəd nə idi?
C) Xan şairə nə dedi?
D) Şairi saraya kim göndərdi?
E) Əyanlar nədə yanılmışdılar?

6. Sonuncu cümlədə sintaktik əlaqələri müəyyənləşdirin.

7. Cümlələrdə işlənən ara sözləri tapıb yazın.

8. Xitab işlənən cümlələri seçib yazın.

9. Çərçivəyə alınan cümləni yazıb durğu işarələrini bərpa edin.

10. Şairin xana son cavabından işlənən xitabla bağlı səhvi göstərin.

A) İsimlə ifadə olunub.
B) Çağırış nidası ilə işlənib.
C) Cümlənin ortasında işlənib.
D) Müraciət məqsədilə işlənmişdir.
E) Xəbərlə uzlaşır.

11. Çərçivəyə alınmış cümlədə ara söz nə məqsədlə işlənib?

A) təsdiq etmək üçün
B) fikrin mənbəyini ifadə etmək üçün
C) təəssüf etmək üçün
D) güman və şübhə üçün
E) nəticə üçün

12. Həmcins üzvlərin işləndiyi cümləni seçib yazın.

13. Sonuncu cümlənin qrammatik əsasını müəyyənləşdirin.

14. Birinci cümləni sintaktik təhlil edin.

15. Mətni genişləndirib yazın, xitab və ara sözlərdən istifadə edin.

Mövzu 1

Dialoq

Məzmun standartları:

1.1.2., 1.2.1., 1.2.3., 1.2.4., 2.1.2., 3.1.1.

Təlim nəticələri:

- Fikrin məntiqiliyini suallar verməklə əsaslandırır.
- Dialoqu birinci şəxsin dilindən danışır.
- Nitq etiketlərinin işlənmə yerini müəyyən edir.
- Müxtəlif fikirləri ümumiləşdirir.
- Sözlərin mənalarını aydınlaşdırır.
- Mühakimə xarakterli inşa yazır.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

müzakirə, sual-cavab, oxu

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

VI 1 SƏNƏT DÜNYASINA SƏYAHƏT

Artıq dərs ili sona çatmaq üzrə idi. Dostlar yay tətilini necə keçirəcəkləri, hansı işləri görəcəkləri barədə düşünürdülər.

– Mən Azərbaycanın müəyyən bölgələrini, Bakıətrafı kəndləri səyahətə çıxmaq, yer adlarının mənşəyini öyrənmək istərdim.

– *Birdən-birə necə oldu ki, bu fikrə düşdün?*

– Keçən həftə "Füyuzat" jurnalında səyyah Zeynalabdin Şirvani haqqında maraqlı bir yazı oxudum. Sən demə, əslən şamaxılı olan Zeynalabdin Şirvani ömrünün 40 ilini səyahətdə keçirmiş, Avropa, Asiya və Afrikanın bir çox ölkələrini gəzmiş, Hind və Atlantik okeanından keçərək 3000 adadan ibarət olan İndoneziyaya gedib çıxmışdır. Təsadüfi deyil ki, İndoneziyadə onun adı əbədiləşdirilmişdir. Adına kitabxana-muzey vardır.

– Səhv etmirəmsə, o, "Təmkin" təxəllüsü ilə şeirlər də yazmışdır.

– Hə. O bu təxəllüsü səfər zamanı tanış olduğu bir dərvişin onu "təmkinlisən" adlandırmasından sonra götürüb.

– Məncə, onun ən böyük əsəri "Kəşfül-məarif" adlanır. Şirvani bu əsəri 28 il səyahətdə olduqdan sonra yazmışdır.

– Abbasqulu ağa Bakıxanov onun "Riyazüs-səyahə" əsərini "faydalar xəzinəsi" adlandırmışdır. Kitabın ən maraqlı cəhətlərindən biri onun Yer kürəsindən bəhs etməsi, dünya ölkələrinin 7 iqlim üzrə bölünməsi sxeminin verilməsidir... Bəs sən yay tətilində nə edəcəksən?

– Mən vaxtımı daha çox ədəbiyyat və incəsənətimizlə, söz ustalarımızla bağlı maraqlı faktlar toplamağa sərf edəcəyəm. Axı mən gələcəkdə ədəbiyyatşünas olmaq istəyirəm.

ORFOEPİYA

Mətndə göy hərflə verilmiş sözlərin düzgün tələffüzünü yazın.

Təxəllüs nə deməkdir?

Qafur Rəşad Mirzəzadənin 1910-cu ildə çapdan çıxmış "Qafqazın coğrafiyası" kitabı Azərbaycan dilində yazılan ilk dərslik idi.

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində "*İnsanı dünyada əbədiyaşar edən nədir?*" sualı ətrafında müzakirə təşkil etmək olar. Şagirdlərin rəyləri soruşulur, qeyd edilir və ümumiləşdirmə aparılır.

Tədqiqat sualı formalaşdırılır:

Adını tarixə yazdırmış şəxslərin öz milləti üçün nə kimi faydası var?

Tədqiqatın aparılması dialoqun oxusu ilə başlaya bilər. Mətndaxili suallara cavab tapılır, müvafiq sözlərin mənası (tap. 6-7) aydınlaşdırılır. Dialoqun oxusundan sonra mətndaxili sonuncu sual və 10-cu tapşırıq üzərində iş aparılır. Mətndəki faktlar və əsas fikir müəyyənləşdirilir. Məzmun sualları (1, 3 və 4-cü suallar) qrup tapşırığı kimi verilə bilər. Təqdimatlar edildikdən sonra ümumi nəticə əldə edilir: Adını tarixə yazdıran şəxslər öz millətinin, əxlaqının tarixinin, mədəniyyətinin, elminin, incəsənətinin inkişafı üçün əsas faktdır. **Müzakirə** zamanı 2, 5, 8, 9-cu suallardan istifadə olunur.

Yaradıcı tətbiqetmə kimi dərslikdə səh. 146-dakı 17-ci tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 2

Dialoq

Məzmun standartları:

1.1.2. , 3.1.4., 4.1.1., 4.1.3.

Təlim nəticələri:

- Fikrin məntiqiliyini faktlar göstərməklə əsaslandırır.
- Arayış yazır.
- Sadə cümləni növlərinə görə fərqləndirir.
- Durğu işarələrindən düzgün istifadə edir.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

müzakirə, sorğu

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

Bunları yazıya alan ƏRTOĞRUL CAVİD idi! O, böyük şair və dramaturq HÜSEYN CAVİDİN oğlu idi!

İşləyə-işləyə oxuyurdu. Həm də AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ İNSTİTUTUNUN (hal-hazırda universitet) tələbəsi idi. Ərtoğruldan harada işlədiyini təsdiq edən sənəd tələb etmişdilər.

(*Rafael Hüseynov*)

✓**Sizcə, Ərtoğrula hansı sənəd verilməli idi?**

❑ Hər hansı bir şəxsin harada yaşaması, işləməsi, oxuması, sağlamlığı, müəyyən obyektin, hadisənin yoxlanması haqqında tərtib edilən xüsusi sənəd *arayış* hesab edilir.

❑ Arayış yazmaq üçün aşağıdakıları bilmək lazımdır:
1. Arayış sözü ortada yazılır.
2. Sol tərəf müəssisənin ştampı üçündür. Ştampın üstündə arayışın qeydiyyat nömrəsi və verildiyi tarix göstərilir.
3. Arayışın məzmunu – kimə və nə məqsədlə verildiyi göstərilir.
4. Daha sonra arayışın təqdim olunduğu yer göstərilir.
5. Sonda arayış idarə rəhbəri tərəfindən imzalanır və möhür vurulur.

ŞTAMP

A r a y ı ş

Həqiqətən, Vəliyeva Vəfa Əli qızı Bakı Dövlət Universitetində aparıcı müəllim vəzifəsində çalışır.

Arayış tələb olunan yerə təqdim olunmaq üçün verilir.

Kafedra müdiri: /Məmmədova N./

Arayış əməli yazı növlərindən biridir.

Arayış türk mənşəli söz olub mənası "arama", "axtarma" deməkdir.

16. Aşağıdakı cümlələrin məqsəd və intonasiyaya görə növünü müəyyən edin. Durğu işarələrinin işlənməsinə fikir verin.

1. Yaşasın gələcək! Böyük gələcək! 2. Nə xəbər var, Məşədi? (*M.Ə.Sabir*)
3. Mütaliə insanı bəd əməllərdən saxlayır və onu yaxın-uzaq keçmişlərə aparır. (*Dekart*) 4. Qoy bütün dünyanın uşaqları xoşbəxt olsun.

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində səh. 143-dəki 11-ci tapşırıq yerinə yetirilə bilər. Şagirdlərin cümlə haqqında bilik və bacarıqları təkrarlanır.

Tədqiqat sualı formalaşdırılır:

Sadə cümlələr necə və hansı xüsusiyyətlərinə görə qruplaşır?

Tədqiqatın aparılması müəllimin şərhi ilə başlaya bilər. Bu zaman sadə cümlənin məqsəd və intonasiyaya görə növləri, sözcümlə haqqında məlumatlar müəllim şərhinin əsasını təşkil etməlidir və əvvəldən hazırlanmış nümunələrdən istifadə edilməlidir.

Dərslikdəki 12 və 13-cü tapşırıqları yerinə yetirməklə şagirdlərin mövzu ilə əlaqədar formalaşan bacarıqları inkişaf etdirilir. 14, 15 və 16-cı tapşırıqlar qruplarda yerinə yetirilə bilər.

Dərs prosesində müəllim şagirdlərə arayış haqqında məlumat verir və müxtəlif məzmunda arayış yazdırır.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 3

Hacı Zeynalabdin Şirvani

Məzmun standartları:

1.1.2., 2.1.2., 2.2.2., 3.1.1., 3.1.3.

Təlim nəticələri:

- Fikrin məntiqiliyini suallar vasitəsilə əsaslandırır.
- Sözlərin mənasını aydınlaşdırır.
- Mətnin hissələri arasındakı əlaqəni rabitə yaratmaqla müəyyənləşdirir.
- Yazılı təqdimat hazırlayır.
- Mətnə düzəlişlər edərək dialoq yazır.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

söz assosiasiyası, müzakirə, sual-cavab, oxu

Resurslar:

dərslik, lüğət

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim *səyahət* sözünü açar söz kimi istifadə edə bilər. Bu zaman söz assosiasiyası və ya klaster üsulundan istifadə etmək məqsədəuyğundur.



Şagirdlərin cavabları dinlənilir, müzakirə edilir.

Tədqiqat sualı formalaşdırılır:

Səyahət hansı məqsədlərə xidmət edir?

Tədqiqat dərslikdəki mətnin oxusu ilə başlanılır. Mətn oxunduqdan sonra yerləri dəyişdirilmiş abzaslar müəyyən edilir, ardıcıllıqla bərpa etdirilir. 3-cü abzas (səh. 148) mətnin sonuna keçirilir. Müvafiq sözlərin mənaları aydınlaşdırılır, sinonim qarşılıqları ilə əvəz edilir. Bununla da dərslikdəki 5-9-cu çalışmalar da yerinə yetirilmiş olur. 2, 3 və 4-cü məzmun suallarından qrup tapşırığı kimi istifadə etmək məqsədəmüvafiqdir. 3-cü tapşırığın cavabı *nəqletmə* (*təhkiyə*) sözüdür. Təqdimatlar dinlənildikdən sonra müzakirə aparılır. Bu zaman müəllim X.Şirvani, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Bakıxanov kimi ədiblərimizin də səyahət etmələri haqqında məlumat verərək Hacı Zeynalabdin Şirvaninin etdiyi səyahətlə onların səyahətini müqayisə edə bilər.

Yaradıcı tətbiqetmə kimi səh. 149-dakı 15-ci tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 4

Hacı Zeynalabdin Şirvani

Məzmun standartları:

4.1.1., 4.1.2.

Təlim nəticələri:

- Sadə cümlənin növünü müəyyən edir.
- Cümlənin qrammatik əsasını tapır.

İş formaları:

kollektiv, cütlərlə, fərdi

İş üsulları:

sual-cavab, müzakirə

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində səh. 149-dakı 11-ci çalışmanı yerinə yetirmək olar. Cavablar dinlənilir, müzakirə edilir. Müəyyən edilir ki, IV abzasdakı cümlənin mübtədası ixtisar edilsə, məna dəyişməz.

Tədqiqat sualı formalaşdırılır:

Hansı cümlələr müəyyən şəxsli cümlələrdir?

Tədqiqat müəllimin şərhi ilə başlayır. Müəllimin əvvəldən hazırladığı cümlələr lövhədə qeyd edilir. Şagirdlər müəllimin rəhbərliyi ilə cümlələrə mübtəda əlavə edir, yaxud da cümlələrdən mübtədanı ixtisar edirlər və ümumi rəyə gəlirlər: müəyyən şəxsli cümlələrdə bəzən mübtəda olmur, ancaq asanlıqla bərpa olunur.

Sonra tədqiqat cütlərlə iş formasında davam etdirilir, 10-cu və 12-ci çalışmalar yerinə yetirilir.

Ümumiləşdirmə zamanı 14-cü tapşırıq verilə bilər. Bu tapşırığın yerinə yetirilməsi şagirdlərdə məntiqi və yaradıcı təfəkkürü inkişaf etdirər.

Yaradıcı tətbiqetmə kimi müstəqil olaraq müvafiq nümunələr yazmaq və ya 13-cü tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 5

Mahmud Kaşğari

Məzmun standartları:

1.1.2., 1.2.1., 1.2.4., 2.1.1., 2.2.1.

Təlim nəticələri:

- Fikrin məntiqiliyini ümumiləşmə apararaq əsaslandırır.
- Mətndəki fikri sadə dildə çatdırır.
- Deyilən fikirləri ümumiləşdirir.
- Tanış olmayan sözləri müəyyən edərək mənasını aydınlaşdırır.
- Mətndə ifadə və abzasların ardıcıllığını bərpa edir.

İş formaları:

kollektiv, cütlərlə, fərdi

İş üsulları:

müzakirə, Venn diaqramı, sorğu, oxu

Resurslar:

dərslik, lüğət, iş vərəqləri



3 MAHMUD KAŞĞARİ

Mənim övladım, sənə mən öyüd-nəsihət irsi qoyub gedirəm, çalış ki, həmişə və hamıya yaxşılıq edəsən.

Mahmud Kaşğari

ORFOEPİYA

Düzgün tələffüzü deyin.

- xalqların – [.....]
- litoqrafik – [.....]

Mahmud Kaşğari 1029-cu ildə Kaşğar elinin Azıx kəndində anadan olmuşdur. İlk təhsilini Kaşğarda Saciyə və Hamidiyyə *mədrəsələri* kimi elm mərkəzlərində almış, dövrünün elmləri ilə bərabər, ərəb və fars dillərini mükəmməl şəkildə öyrənmişdir. Təxminən 1058-ci ildə Bağdada getmiş, bir müddət burada yaşamışdır. Bağdad o zaman Selcuq imperiyasına tabe idi. Ərəblərin türkləri tanıması, onların adət və ənənələrini öyrənmək üçün çətinlik çəkməsi, xüsusən dil problemləri Mahmud Kaşğarıdı bir əsər yazmaq ideyasını yaradır: on il müddətində türklərin yaşadığı bir çox ərazilərə səyahət etdikdən sonra adını tarixə *hakk edən* "Divani-lüğət-it-Türk" (1072–1074) *ensiklopedik* əsərini yazır. Bu əsər quruluş etibarilə lüğət olsa da, hikmətli sözlər, atalar sözləri, şeir, nəsr kimi nümunələrlə zəngindir.

M.Kaşğarinin "Divani-lüğət-it-Türk" əsəri nə üçün ensiklopedik xarakter daşıyır?

"Mən hələ uşaqlıqdan türk qəbilələrinin dillərinə, folklorunə və etnoqrafiyasına maraq göstərmişəm. Böyüyəndən sonra uzun müddət türklərin məskunlaşdığı ərazilərə gəzmiş, sözləri, əfsanələri, adətləri, lapmacaları və atalar sözlərini qələmə almışam. Türklərin, türkmanların, oğuzların, qırğızların və digər qəbilələrin dillərini yazıya almış, müxtəlif şəhərlərdə yaşayanların tələffüzlərini öyrənmişəm. Bunu hamın dilləri bilmədiyinə görə etmişəm, maramım müxtəlif qəbilələrin işlətdiyi sözlərin mənasına və formasına aid ince çalarları müəyyənləşdirmək olub".

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim 5-ci sinifdə şagirdlərin əldə etdikləri biliklərə istinad edə bilər. Lüğətlər haqqında məlumatlar sorğu vasitəsilə yada salınır.

Tədqiqat sualı formalaşdırılır:

Nə üçün "Divani-lüğət-it-Türk" ensiklopedik xarakterli əsər hesab edilir?

Tədqiqatın aparılmasına mətnin oxusu ilə başlanılır. Mətn oxunur, faktlar seçilir, əsas fikir müəyyənləşdirilir. 1-2-ci məzmun sualları cütlər vasitəsilə yerinə yetirilir, ümumi rəyə gəlinir.

Venn diaqramı vasitəsilə 3-cü məzmun sualı yerinə yetirilir, şagirdlərin fikirləri dinlənilib müzakirə edilir, 4-cü tapşırıq yerinə yetirilir (səh. 151).

Yaradıcı tətbiqetmə kimi səh. 152-dəki 8-ci tapşırıq verilə bilər. Bu tapşırığın icrası şagirdin müstəqil olaraq söz ehtiyatının artırılmasına xidmət edir.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 6

Mahmud Kaşğari

Məzmun standartları:

1.1.2., 4.1.1., 4.1.2.

Təlim nəticələri:

- Fikrin məntiqiliyini öz biliyini tətbiq etməklə əsaslandırır.
- Şəxssiz cümləni müəyyən edir.
- Cümlənin qrammatik əsasını tapır.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

sorğu, müzakirə

Resurslar:

dərslik, lüğət

6. Mətndən bir neçə müəyyən şəxsli cümlə seçin. Həmin cümlələri mübtədasız işlədin. Hansı cümləni qeyri-müəyyən şəxsli cümlə kimi işlətmək olar? Fikirlərinizi əsaslandırın.

7. Aşağıdakı cümlələri müqayisə edib uyğunluğu müəyyənləşdirin.

1) Bəzi insanlar böyük kainatı tanıya bilirlər, lakin özlərini tanıya bilmirlər. (*Lafonten*)

2) Görüb tanış olmadığım,
Qayğısına qalmadığım
Şeir dostu bir insandan
Bir xatirə söylədilər. (*S.Vurğun*)

3) Marko Polo Azərbaycanı başdan-başa "şəhərlər və qalalar" ölkəsi adlandırmışdır.

4) Mənə Mirzə Cəlilin "Ölülər" pyesini yazarkən İskəndər obrazının əsasında naxçıvanlı bir vəkili nəzərdə tutduğunu dedilər. (*İ.Həbibov*)

5) Sanki dəhrə ilə dağı çapıb parça-parça qoparmış, qövsi-qüzehi oraya həkk etmişdilər. (*S.Dağlı*)

Qeyri-müəyyən şəxsli cümlədir.

Müəyyən şəxsli cümlədir.

8. Aşağıdakı söz, söz birləşmələri və adlardan istifadə edərək kiçik mətn tərtib edin (fərqli şəxsiyyət də seçə bilərsiniz). Mətn tərtib edərkən müəyyən şəxsli və qeyri-müəyyən şəxsli cümlələrdən istifadə edin.

• XIX əsr, Abbasqulu ağa Bakıxanov, xüsusi mövqeyə malik, şair, dövlət xadimi, "Kəşfül-Qərayib", Azərbaycan tarixi və coğrafiyası, ən mükəmməl tədqiqatçısı yazıb yaratmış, alim, Azərbaycan ictimai fikir tarixi, səyahət etmiş, bir sıra əsərlər, böyük coğrafi əhəmiyyət, Azərbaycanda yazılan ilk ümumi coğrafiya əsəri.

✓ *Mətn üçün aşağıdakı sözləri epiqraf götürün:*

Deyirlər ki, dəhilər Yer üzünə səmadan göndərilir, hər birinin böyük Tanrı tərəfindən müəyyənləşdirilmiş fövqəladə vəzifələri olur. Onlar bəşəriyyətin mədəni-tarixi inkişafına istiqamətləndirilmiş ali əməllərin carçılarına çevrilirlər, cismən yox olsalar da, mənən əbədiyyətə qovuşurlar.

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində dərslikdə səh. 151-dəki 5-ci tapşırıq yerinə yetirilir, cavablar yoxlanılır, müzakirə edilir, ümumi rəy əldə edilir.

Tədqiqat sualı formalaşdırılır:

Qeyri-müəyyən şəxsli cümlələr nədir?

Tədqiqata müəllimin şərhi ilə başlamaq olar. Mövzu izah edildikdən sonra dərslikdəki çalışmalar yerinə yetirilir. 6 və 7-ci tapşırıqlar qruplarda yerinə yetirilir. **Müzakirə** aparılır, nitqdə qeyri-müəyyən şəxsli cümlələrin əhəmiyyəti müəyyənləşdirilir.

Yaradıcı tətbiqetmə kimi qeyri-müəyyən şəxsli cümlələrə aid nümunələr yazmaq tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 7

Qurban Səidin gizli qalmış ömrü

Məzmun standartları:

1.1.2., 1.2.1., 2.1.2., 2.2.1., 2.2.2., 3.1.1.

Təlim nəticələri:

- Fikrin məntiqiliyini sual verməklə əsaslandırır.
- Fikrini sadə şəkildə ifadə edir.
- Söz və ifadələrin mənasını aydınlaşdırır.
- Sözlər arasındakı əlaqəni müəyyən edərək mətni oxuyur.
- Abzasları müəyyən edir.
- Mövzu ilə bağlı məlumatverici inşa yazır.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

oxu, müzakirə

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

QURBAN SƏİDİN GİZLİ QALMIŞ ÖMRÜ
(ixtisarla) 4

"Əli və Nino" romanının müəllifi Qurban Səidin kim olması ilə bağlı fikirlər uzun illər bir çoxları üçün sirr olaraq qalmışdır. Dünyanın kütləvi informasiya vasitələrində uzun müddət "Qurban Səid" imzasının sahibinin Lev Nussimbaum adlı yəhudi olması ilə bağlı fikirlər mövcud olmuşdur. Amma romanda yəhudi mədəniyyətindən deyil, Qafqaz-müsəlman mədəniyyətindən bəhs edilməsi səslənən bu fikirləri böyük şübhə altına aldı.

Rəsmi sənədlərdə Qurban Səid təxəllüsünün avstriyalı baronessa Elfrida Erenfelsə aid olduğunu təsdiq edən faktlara da rast gəlirsən. Buna görə də uzun illər "Əli və Nino" romanının müəllifi Elfrida Erenfels hesab olunub. Lakin az sonra bir sıra faktlara əsaslanan amerikalı şərqşünas Tom Rays "Əli və Nino"nun əslən Azərbaycandan olan yəhudi mənşəli yazıçı Lev Nussimbauma məxsus olduğu fikrini irəli sürüb. Bəzi mənbələr isə "Əli və Nino"nun yazıçı Yusif Vəzir Çəmənzəminliyə məxsus olmasını iddia edirlər.

Semih Yazıçıoğlu 1971-ci ildə "Əli və Nino"nu türk dilinə çevirərək həmin kitabın əvvəlində yazır ki, "Amerikada yaşayan Yusif Qəhrəman və Türkəqul adlı şəxslər bu romanı 1971-ci ildə oxuyandan sonra əsərdə bəhs edilən bir sıra yerlərin adlarını tanımış və belə bir əsəri yalnız yazıçı Y.V.Çəmənzəminlinin yaza biləcəyini güman etmişlər.

Azərbaycandakı arxiv sənədlərində Qurban Səid imzası ilə çap edilmiş iki romanın: "Əli və Nino" və "Altunsaç"ın Y.V.Çəmənzəminliyə məxsus olması barədə heç bir məlumata rast gəlinmir. Bir məqamı da qeyd etmək yerinə düşər ki, "Altunsaç" romanında hadisələr Almaniyada, Avstriyada, ABŞ-da və Yaxın Şərqdə cərəyan edir. Bu yerlər əsərdə coğrafi dəqiqliklə təsvir edilib. Amma Y.V.Çəmənzəminlinin adıçəkilən yerlərdə olması heç bir sənəddə öz əksini tapmır.

Almaniyada yaşayan azərbaycanlı şairə Nuridə Atəşi araşdırma işində daha da irəli getmiş, Qurban Səidin arxiv sənədlərindəki faktlara əsasən əsərin müəllifinin azərbaycanlı yazıçı Məhəmməd Əsəd bəy olduğu fikrini irəli sürmüşdür. 1937-ci ildə Qurban Səid imzası ilə Vyananın "Tal" nəşriyyatında çap edilən "Əli və Nino" romanının müəllifi, həqiqətən də, əslən azərbaycanlı olan Məhəmməd Əsəd bəy olmuşdur. M.Əsəd bəyin "Əli və Nino" romanını öz imzası ilə çap etdirməməsinə əsas səbəb isə onun adının əvvəllər qalmaqallarda

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində Gürcüstanın Batumi şəhərində ucaldılmış "Əli və Nino" abidəsi nümayiş etdirilə bilər. "Əli və Nino" haqqında qısa məlumat verilə bilər.

Tədqiqat sualı formalaşdırılır:

Qurban Səid kimdir?

Tədqiqatın aparılması dərslikdəki mətnin oxusu ilə başlaya bilər. Mətn oxunur, əsas faktlar müəyyənləşdirilir, lövhədə yazılır. 1-ci məzmun sualı üzərində iş aparılır. Şagirdlərin fikirləri əsasında ümumi rəy formalaşdırılır: *Hər şey təsadüfdən yaranır.*

Məzmun suallarından 2, 3, 4-cü tapşırıqlar qruplarda yerinə yetirilə bilər. 5-ci sual isə fərdi qaydada cavablandırılmalıdır. Səh. 154-dəki 6, 7 və 8-ci tapşırıqlar şagirdlərin söz ehtiyatının artırılmasına xidmət edir.

Lüğət üzərində iş apararkən müəllim müvafiq layihə işinin yekunlaşdırılmasını nəzərdə saxlamalıdır.

Yaradıcı tətbiqetmə kimi səh. 155-dəki 14-cü tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 8

Qurban Səidin gizli qalmış ömrü

Məzmun standartları:

4.1.1., 4.1.2.

Təlim nəticələri:

- Ümumi şəxsli cümləni müəyyən edir.
- Cümlənin qrammatik əsasını müəyyən edir.

İş formaları:

kollektiv, cütlərlə, fərdi

İş üsulları:

müzakirə, sual-cavab

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

10. Altından xətt çəkilmiş cümlələrin qrammatik əsasını müəyyənləşdirin. Hansı cümlənin mübtədası yoxdur? Onu müəyyən şəxsli və ya qeyri-müəyyən şəxsli cümlə hesab etmək olarmı? Bu cümlədəki hökm kimə aiddir?

Mübtədası olmayan, hərəkət və hökmün hamıya aid olduğunu bildirən sadə cümlələrə *ümumi şəxsli cümlə* deyilir. Bu cümlələrin xəbəri II şəxsin təkində və III şəxsin cəmində olur. Məsələn:

Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar.

Sözün doğrusunu zarafatla deyərlər.

Atalar sözləri, məsəllər, aforizmlərin əksəriyyəti, əsasən, ümumi şəxsli cümlələrlə ifadə olunur.

11. Verilmiş atalar sözləri içərisində ümumi şəxsli cümlələrlə müəyyən şəxsli cümlələri fərqləndirin. Onları fərqləndirmək üçün, sizcə, nəyə çox diqqət yetirmək lazımdır?

1. Örtülü bazar dostluğu pozar. 2. Keçmə namərd körpüsündən, qoy aparsın sel səni. 3. Yatma tülkü kölgəsində, qoy yesin aslan səni. 4. Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır. 5. Yurddan çıxsan da, eldən çıxma. 6. Cücəni payızda sayarlar.

✓ *Özünüz də belə nümunələrin sayını artırıb fikirlərinizi izah edin.*

12. Cümlələri müqayisə edərək şəxsə görə cümlənin növləri haqqında fikirlərinizi şərh edin.

1. Keçənə güzəşt deyərlər. (*Azərbaycan atalar sözü*) 2. Uşaqlar həyətdə oynayırlar. 3. İgid özü üçün doğular, başqaları üçün ölər. (*Azərbaycan atalar sözü*) 4. Azərbaycanın hər guşəsində əsrarəngiz gözəlliyə rast gəlirsən. 5. Gecə düşün, gündüz danış. (*İtaliya atalar sözü*) 6. Sanki qurbağa gölünə daş atdılar. 7. Sabahkı iclasa yaxşı hazırlaşarsan.

13. Məktəbinizdə 8-9-cu sinif şagirdləri arasında sorğu keçirin.

Mövzu: "Əli və Nino"

Suallar:

1. "Əli və Nino" əsərini oxumusunuzmu?
2. Əsərdə nədən danışılır?
3. Əsərdən Azərbaycanla bağlı hansı məqamları sadalaya bilərsiniz?
4. Əsərə münasibətiniz.

✓ *Nəticələri ümumiləşdirib kiçik təqdimat hazırlayın.*

14. "Azərbaycan ədəbiyyatında gizli imzalar" mövzusunda məlumat xarakterli mətn hazırlayın və qəzetinizin uyğun səhifəsinə yerləşdirin.

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində müəllim özünün əvvəldən hazırladığı cümlələri şagirdlərə təqdim edir. Bu cümlələr atalar sözlərindən və məsəllərdən ibarət olmalıdır. Şagirdlər bu cümlələrin mübtədasını müəyyən etməyə çalışırlar və cümlədəki fikrin hamıya aid olduğu rəyinə gəlirlər.

Tədqiqat sualı formalaşdırılır:

Ümumi şəxsli cümlələr nəyə deyilir?

Tədqiqatın aparılması müəllimin şərhi ilə başlaya bilər. Müəllim şagirdlərin əldə etdikləri rəyi daha da inkişaf etdirərək mövzu ilə bağlı elmi məlumatları şagirdlərə çatdırır. Tədqiqat cütlərdə davam etdirilir, dərslikdəki 9, 10, 11 və 12-ci çalışmalar yerinə yetirilir. Cavablar dinlənilir və müzakirə edilir.

Yaradıcı tətbiqetmə kimi şagirdlərə müstəqil olaraq müvafiq nümunələr seçib yazmaq və 13-cü tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 9

Fərhəng Hüseynov

Məzmun standartları:

1.1.2., 1.2.1., 2.1.2., 2.2.2., 3.1.1., 3.1.3.

Təlim nəticələri:

- Fikrin məntiqiliyini rəy söyləməklə əsaslandırır.
- Mətni dialoq şəklində danışır.
- Söz və ifadələrin mənasını aydınlaşdırır.
- Mətni abzaslara ayırır.
- Mövzuya uyğun təqdimat hazırlayır.
- Mətndəki fikri qısa şəkildə yazır.

İş formaları:

kollektiv, qruplarla, fərdi

İş üsulları:

oxu, müzakirə, cəld yazı

Resurslar:

dərslik, lüğət, iş vərəqləri

5 FƏRHƏNG HÜSEYNOV
(*ixtisarla*)

ORFOQRAFİYA

Hansı düzdür?

- oratoriya – aratoriya
- sonata – sanata
- ensiklopediya – ensiklapediya

ORFOEPİYA

Hansı düzdür?

- [bəstəkar] – [bəsdəkar]
- [sənətkar] – [sənətgar]
- [ixtisas] – [ixdisas]
- [təşkilatçı] – [təşgilatçı]

Azərbaycan xalqı bir çox dövlətlərin musiqi mədəniyyətinin inkişafında xidmətləri olmuş istedadlı sənətkarlar yetişdirmişdir. Azərbaycan bəstəkarlıq məktəbinin istedadlı nümayəndələrindən biri, respublikamızın Əməkdar artisti, adı İngiltərənin "Qrova", Hollandiyanın "Avropa musiqisinin 400 illiyi" ensikl...pediyalarına daxil olmuş bəstəkar, skripkaçı, pedaqoq Fərhəng Hüseynov məhz belə sənətkarlardandır. Bakıda ziyalı ailəsində dünyaya gəlmiş F.Hüseynov dahi bəstəkarımız Qara Qarayevin diqqətini hələ Bülbül adına orta ixtisas musiqi məktəbinin yuxarı siniflərində təhsil alarkən cəlb etmişdir. *1968-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına skripka ifaçısı kimi daxil olan F.Hüseynov musiqi məktəbinin son sinfində bəstələdiyi fortepiano üçün sonatasını qəbul komissiyasına təqdim edir. Qara Qarayevin onun s...natasından çox xoşu gəlir. Ona bəstəkarlıq dərsi verməyə başlayır. Azərbaycan bəstəkarına dünya səviyyəsində yüksək qiymət verilmişdir.* 1991-ci ildə Yaponiyada UNESKO-nun təşəbbüsü ilə "İpək yolu" Beynəlxalq simfonik musiqi müsabiqəsi keçirilir. Tədbir bir çox ölkələrin musiqiçiləri tərəfindən maraqla qarşılanır və müsabiqəyə 278 əsər göndərilir. Fərhəng Hüseynov bəstəkar kimi Yaponiyada keçirilən bu yarışmaya qatılır. Müsabiqəyə təqdim etdiyi 5 hissədən ibarət olan "Zaman üzrə səyahət" simfonik əsərinə görə üçüncü yeri qazanır. Müsabiqə təşkilatçıları Fərhəng Hüseynova diplomu təqdim edərkən "Yaponiya ilk dəfə Azərbaycanı Sizin simanızda tanıdı!" – deyirlər. F.Hüseynov Tokioya dəvət olunur. Bəstəkarı təbrik edən yapon şahzadəsi ona deyir: "Cavan oğlan, "Azərbaycan" sözü bu gün Sizin şəxsinizdə, ilk dəfədir ki, məmləkətimizdə dildəndilə düşür. 1995-ci ildə 9 hissəli "Yer üzərində sülh olsun!" ...ratoriyasına görə yalnız F.Hüseynov Birləşmiş Millətlər Təşkilatının "Xüsusi mükafat"ına layiq görülmüşdür. Qərargahı Nyu-Yorkda yerləşən və rəhbəri yaponlardan ibarət "Dünyada Sülh Naminə Barış Cəmiyyəti"nin menecer direktoru onun adına göndərdiyi məktubda (11 dekabr, 1995) yazır. "...Təqdim olunan bütün əsərləri gözəlliyinə görə və müsabiqə yeri baxımından diqqətlə təhlil etdik-

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində "Azərbaycanı dünyaya tanıdan nədir?" sualı ətrafında fikirlər dinlənilir, müzakirə edilir.

Tədqiqat sualı formalaşdırılır:

Öz dövlətini, millətini dünyaya necə tanıtmaq olar?

Tədqiqatın aparılmasına mətnin oxunması ilə başlamaq olar. Mətn oxunduqdan sonra 5 və 6-cı çalışmalar üzərində iş aparılır, sözlərin, ifadələrin mənası aydınlaşdırılır.

Məzmun sualları (tap. 3-4) qruplara tapşırıq kimi verilə bilər. Təqdimatlar edilir, müzakirə aparılır (1-2), ümumi nəticə çıxarılır: Öz millətini, dövlətini ancaq gördüyün işlərlə dünyaya tanıtmaq mümkündür.

Yaradıcı tətbiqetmə kimi səh. 158-dəki 10-cu tapşırıq verilə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Mövzu 10

Fərhəng Hüseynov

Məzmun standartları:

4.1.1., 4.1.2.

Təlim nəticələri:

- Şəxssiz cümlələri müəyyənləşdirir.
- Cümlənin qrammatik əsasını tapır.

İş formaları:

kollektiv, fərdi

İş üsulları:

sual-cavab, müzakirə

Resurslar:

dərslik, lüğət

dən sonra nəticədə bu bəstələrin içərisində yeganə Xüsusi mükafatın Sizə verilməsi qərarına gəldik və Siz eyni zamanda Sülh Zirvəsi tituluna layiq görüldünüz..."

Şeyla Heydərova

1. Mətndəki hansı cümlədən F.Hüseynovun gənc yaşlarından şöhrət qazanması faktını müşahidə etdiniz?
2. Mətndə hansı fikir yoxdur?
- F.Hüseynov hələ uşaq ikən skripka çalmağı öyrənmişdir.
- Q.Qarayev onu bəstəkar olmağa həvəsləndirir.
- F.Hüseynova Yaponiyada yaşamaq təklif olunur.

3. Mətni abzaslara ayırın, giriş, əsas hissə və nəticəsini 1-2 cümlə ilə yazın.
4. Mətndən əsas faktları toplamaqla dialoq qurun.
5. Sizcə, "Dünyada Sülh Naminə Barış Cəmiyyəti"nin məqsəd və məramları nədir? Siz belə bir cəmiyyət yaratsa idiniz, ilk məqsədiniz nə olardı və onu necə həyata keçirərdiniz? Azərbaycanda sülhün qorunması istiqamətində hansı tədbirlər həyata keçirilir?

6. *Konservatoriya, fortepiano, oratoriya* sözlərinin leksik mənasını izah edin.
7. Mətndən frazeoloji birləşmələri seçin, onları bir sözlə ifadə etməyə çalışın.

8. Fərqləndirilmiş hissədəki cümlələrin qrammatik əsasını müəyyənləşdirin. Hansı cümlənin mübtədası yoxdur və onu bərpa etmək də mümkün deyil?

Mübtədası olmayan, təsəvvür olunması da qeyri-mümkün olan sadə cümlələr *şəxssiz cümlələr* adlanır. Şəxssiz cümlənin xəbəri III şəxsin təkində olur. Şəxssiz cümlələrin xəbəri ismi və feili xəbərlərlə, frazeoloji birləşmələrlə ifadə olunur.

Məsələn, ...

✓ *Nümunələr tapmaqla yazılanları əsaslandırın.*

9. Aşağıdakı mətndən şəxssiz cümləlri tapın və fikrinizi əsaslandırın.

27 oktyabr 1978-ci il. Payız günlərindən biridir. Bu gün məşhur skripkaçı, bəstəkar, aranjimançı Vanessa Meyin doğum günüdür. V.Mey məşhur skripkaçı

DƏRSİN GEDİŞİ

Motivasiya mərhələsində səh. 157-dəki 7-ci çalışma yerinə yetirilə bilər, cavablar dinlənilib, müzakirə aparılır.

Tədqiqat sualı formalaşdırılır:

Şəxssiz cümlələr nəyə deyilir?

Tədqiqatın aparılması müəllimin mövzu ilə bağlı şərhi ilə başlanılır. Müvafiq nümunələr əsasında dərs izah edilir. Bu zaman müəllim aşağı sinifdə keçirilən feilin şəxssiz növü haqqında sinfə müraciət edə bilər və həmin feillərin şəxssiz cümlələrdə feili xəbər vəzifəsində işləndiyini diqqətə çatdırmalıdır.

Tədqiqat dərslikdəki müvafiq çalışmaların yerinə yetirilməsi ilə davam etdirilir (tap. 8). Dərsin sonunda müzakirələr aparılaraq nəticə əldə edilir. *Aranjeman* riyazi, *aranjiman* isə musiqi terminidir.

Yaradıcı tətbiqetmə kimi müvafiq cümlələrə aid bədii əsərlərdən nümunələr seçib yazmaq tapşırıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏYƏ NÜMUNƏ

KSQ №7

Fateh Məhmətin Ərzincan yaxınlığında Bolqar dağının ətəyində yerləşən Yassıçəmən yaylağında düşərgə salır. Yeni döyüşə hazırlıq vaxtı idi. Ağqoyunluların vəziyyətini xeyli çətinləşdirmişdilər. Çünki osmanlılarla müharibə onları əldən sala, ölkə daxilindəki hərbi-siyasi güc nisbətini Qaraqoyunluların xeyrinə dəyişə bilərdi. Onda Uzun Həsənin illərdən bəri hazırladığı plan alt-üst olardı. Yeganə çıxış yolu vaxt qazanmaq, heç olmazsa, osmanlılarla müvəqqəti də olsa, sülh əldə etmək idi. Azərbaycanın və Şərqin zəngin dövlət ənənələrinə və yaşadığı zamanın incəliklərinə bələd olan Sara xatın bu dəfə də oğlunun köməyinə çatdı. Ana ilə oğul arasında gedən söhbət o dövrün tarix salnamələrində özünə yer alaraq əbədiləşmişdir. Uzun Həsənin təklifini dinlədikdən sonra Sara xatının başı dumanlandı.

– Yaxşı fikirləşmisən, oğlum, indi yeganə yol Fatehlə sülh müqaviləsi bağlamaqdır.

– Bunu ancaq sən edə bilərsən, ana.

– Doğru deyirsən. Sənin gözəlliyin qarşısında tab gətirə bilməyəcəklər. Bu işi sən mənə həvalə elə. Sultan Məhmət ağıllı adamdır, xalqımızın adət-ənənəsinə dərindən bələddir. Yəqin ki, mənim sözümü yerə salmazlar.

– Ana, sən ikinci bir məsələni də həll etməlisən. Trabzonun varlığını qoruyub saxlamağa çalışmalısan. Əgər bu məsələdə sultanın təminatını ala bilməsən, çox da təkid etmə. Əsas məsələ onunla sülhə nail olmaqdır.

1. Mətnə hansı adı vermək olar?

a) Ana-oğul sövdələşməsi
b) Yassıçəmən yaylağında
c) Ağqoyunluların çətin vəziyyəti
d) Uzun Həsənin planı
e) Dövlətçilik ənənəsi

2. Mətnə hansı sualı vermək olmaz?

a) Sara xatın oğlunun təklifini qəbul edirmi?
b) Sara xatın kiminlə danışıq aparmalı idi?
c) II Məhmət harada düşərgə salmışdı?
d) Müharibə nə ilə nəticələnə bilərdi?
e) II Məhmət nə üçün müharibəni başlamaq istəyirdi?

3. Mətni abzaslara ayırın.

4. Hansı fikir mətnin ideyasına uyğundur?

a) Söz var, kəsdirər başı
Söz var, kəsər savaşı
b) Söz də fırtına qopara bilər.
c) Söz əsər etməyənə çubuq da kömək edə bilməz.
d) Örtülü bazar, dostluğu pozar.
e) Dostu dar gündə tanıyarlar.

5. Qeyri-müəyyən şəxsli cümlələrə aid nümunə yazın.

6. Şəxssiz cümlələri seçib yazın.

7. Mətndə hansı cümlə növü yoxdur?

1. Qeyri-müəyyən şəxsli cümlə
2. Müəyyən şəxsli cümlə
3. Şəxssiz cümlə
4. Ümumi şəxsli cümlə

a) 1, 2
b) 2, 3
c) 2
d) 3
e) 4

8. 1-ci cümlənin xəbəri nə ilə ifadə olunmuşdur?

a) III növ təyini söz birləşməsi ilə
b) II növ təyini söz birləşməsi ilə
c) I növ təyini söz birləşməsi ilə
d) Feili sifət tərkibi ilə
e) Məsdər tərkibi ilə

9. Dialoqa söz-cümlə əlavə edin.

10. Axırıncı cümləyə əlavə artırıb durğu işarəsini bərpa edin.

11. Axırıncı abzasdakı xitabların altından xətt çəkin.

12. Mətnin son hissəsinə bir neçə cümlə əlavə edib fikri genişləndirin.

ÜMUMİLƏŞDİRİCİ TƏKRARLARA NÜMUNƏLƏR

Müəllim hər bölməni yekunlaşdırarkən aşağıdakı sual və tapşırıqlardan istifadə edə bilər. Bu sual və tapşırıqlar ümumiləşdirici təkrarlara xidmət edir.

Ümumiləşdirici təkrarlar dərslikdə 28-ci səhifədə verilmiş 11-ci tapşırıq şəklində də ola bilər.

Ümumiləşdirici təkrar №1

1. Bölmədə hansı görkəmli şəxslər haqqında məlumat aldınız?
2. İSRAFİL AĞA KƏRBƏLAYEV, DAŞ KƏSƏMƏN KƏNDİ, QORİ SEMİNARİYASI mürəkkəb adlarının düzgün yazılış qaydasını müəyyənləşdirin.
3. *Diplomu ... ən qiymətli sərvəti hesab edən Ana obrazı ... əsərindəndir.*

   Nöqtələrin yerinə uyğun sözlər seçin.

   A) dünyanın, yazıçının B) dünyanın, “Mücrü”

   C) Mücrüsünün, G.Hüseynoğlu D) evinin, G.Hüseynoğlu

   E) həyatı üçün, M.İbrahimov
4. Kim Azərbaycanda savad kursunun müəllimi təyin edilmiş və Üzeyir Hacıbəylinin müəllimi olmuşdur?
5. “İnsan öz vaxtını var-dövlət toplamağa deyil, bilik mənimsəməyə sərf etməlidir” fikri hansı şəxsə məxsusdur?
6. “İnsan yalnız öz zəhməti və bacarığı sayəsində irəli gedə bilər” fikri bölmədəki hansı mətnlərə uyğun ola bilər?
7. Görüşmə etiketlərindən istifadə etməklə kiçik mətn yazın.
8. Aşağıda verilən birləşmələri sxemlərə uyğun qruplaşdırın.

   həmin dövr, heyrətəbənzər təəccüb, mülk sahibi, xeyli adam, Qoridən gələn qatar, əxlaqi-etik problemlər, maarifçi qadın, savad kursları, ağıllı qadın, gözəl natiq, memorial muzey, dərsdənkənar sual, yalan danışmaq

say	+	isim	feili sifət	+	isim
sifət	+	isim	əvəzlik	+	isim
zərf	+	isim	isim	+	isim

9. Uyğunluğu müəyyənləşdirin.

1. I tərəfi bütün şəxs əvəzlikləri ilə ifadə oluna bilir.
2. Hər iki tərəfi, əsasən, isimlə ifadə olunur.
3. Tərəfləri arasına söz daxil ola bilmir.
4. İşdən qayıdan, bizə tərəf gələn.
5. Tərəfləri feilin təsriflənməyən formaları ilə ifadə olunur.

a) feili sifət tərkibləridir
b) feili birləşmədir
c) I növ təyini söz birləşmələri
d) III növ təyini söz birləşmələri
e) II növ təyini söz birləşmələri

10. Uyğunluğu müəyyənləşdirin.

1. Qrammatik əsası olur.	a. Söz
2. Fikri daha konkret ifadə edir.	b. Cümlə
3. Quruluşuna görə üç cür olur.	c. Söz birləşməsi

Ümumiləşdirici təkrar №2

1. "Bu xalqın nəyə qadir olduğunu bilmək üçün baş sındırmayın, təkcə memarlıq abidələrinə baxsanız, bəs edər" fikirləri kimə məxsusdur?

A) Şərafəddin əl Yəzidiyə
B) Əbdürrəşid Bakuviyə
C) Nazim Hikmətə
D) Niyaziyə

2. Cümləni tamamlamaq üçün hansı bənddə verilən fikir doğrudur?

Əgər əsər yüksək sənətkarlıqla yaradılmışsa, demək, o həmişə, ….

A) bütün dövrlərdə müasirdir.
B) təmirə ehtiyac duyacaq.
C) olduğu kimi qalacaq.
D) dövlət tərəfindən qorunmalıdır.

3. Təzəpir məscidinin memarı kimdir?

A) Nabat Aşurbəyova
B) İsmayıl bəy Qaspıralı
C) Zivər bəy Əhmədbəyov
D) Həsən bəy Zərdabi

4. "Gülüstan" əsərindən verilmiş hissədəki əsas fikir nədən ibarətdir?

A) Azərbaycanda Gülüstan adlı kənd var.
B) Gülüstan güllərin çox bitdiyi ərazidir.
C) Gülüstan adlı paytaxtımız olub.
D) Tarixi faciəyə etiraz edilir.

5. Həsən bəy Zərdabi hansı memara fəaliyyətini Bakıda davam etdirməyi məsləhət görür?

A) Oskar Nimeyerə
B) Salvador Daliyə
C) Gəray bəy Əhmədbəyova
D) Zivər bəy Əhmədbəyova

6. Yanaşma əlaqəli birləşmələrin altından xətt çəkin.

Azərbaycanın paytaxtı, kəndin ərazisində, Gülüstan kəndi, dünən gəlmək, büllur piramida, cəld tərpənmək, dərin zəkalı, Bakıya qayıtmaq, diplomlu azərbaycanlı

7. Uyğunluğu müəyyən edin.

1. Tərəflər arasında yanaşma əlaqəsi var.

2. Tərəflər arasında ancaq uzlaşma əlaqəsi var.

3. Tərəflər arasında həm idarə, həm də uzlaşma əlaqəsi var.

a. III növ təyini söz birləşməsi

b. II növ təyini söz birləşməsi

c. I növ təyini söz birləşməsi

d. cümlənin baş üzvləri

8. Fikri tamamlayın.

III növ təyini söz birləşmələrinin I tərəfi bütün şəxs əvəzlikləri ilə ifadə olunduğu üçün…

9. Verilmiş sözlərdən istifadə edərək elə birləşmələr yaradın ki, tabelilik əlaqələrinin hər 3-ü özünü göstərsin: binalar, tarixi, abidələrimiz, müasir, şairlər, həmişəyaşar, əsərlər, şəxsiyyətlər, Vətən, övladlar, müqavilə, Gülüstan.

10. Davam etdirin: Bu bölmədə mən öyrəndim ki, ...

Ümumiləşdirici təkrar №3

1. Verilənlərdən biri Konfutsinin əxlaqi təliminə uyğun deyil:

A) borc hissi B) səmimilik C) insanpərvərlik D) düşmənçilik

2. “Səni Allah saxlasın”, “Ömrün uzun olsun” ifadələri nitq etiketinin hansı növünə aiddir? Bunların əksi bölmədəki hansı mətndə işlənmişdir? Fikirlərinizi nümunələrlə əsaslandırın.

3. “Kimliyindən asılı olmayaraq yalnız xeyirxah işlər görmək lazımdır. Cəmiyyət üçün yararlı işlər görmək borcumdur” fikri hansı əsər üçün əsasdır?

A) Duyğular adası

B) Səhəng içində nə varsa...

C) Buz

D) Allaha bir daha işin düşməyəcəksə...

4. “Zəhər” və “Sədaqət” mətnlərinin oxşar və fərqli xüsusiyyətlərini müəyyən edin.

5. “Sonrakı peşmançılıq fayda verməz” atalar sözləri bölmədəki hansı əsərin ideyası ilə üst-üstə düşür? Fikrini əsaslandır.

6. Cümlə üzvü olmaq üçün deyilən fikirlərdən biri səhvdir.

A) Tələffüzü fərqli olmalıdır.

B) Leksik mənaya malik olmalıdır.

C) Müəyyən suala cavab verməlidir.

D) Digər sözlərlə sintaktik əlaqəyə girməlidir.

7. Düzgün olmayanı müəyyən edin.

A) Mübtəda cümlənin müstəqil üzvüdür.

B) Xəbərlə uzlaşma əlaqəsinə girir.

C) Adlar və birləşmələrlə ifadə olunur.

D) Bəzən qoşmalı sözlərlə də ifadə olunur.

8. Sxemə əsasən sintaktik əlaqələri müəyyənləşdirin.

9. "Sevinc içində evə dönən Lili qocanın dediklərini etməyə başlayır" cümləsini cümlə üzvlərinə görə təhlil edin.

10. Nöqtələrin yerinə müvafiq sözlər qoymaqla cümləni tamamlayın ... cümlədə bütün cümlə üzvlərinə aid olur və onların hər birinə ... ilə bağlanır.

Ümumiləşdirici təkrar №4

1. Azərbaycan milli teatrının yaranma tarixi nə vaxtdır?

2. Hökmlərdən hansı düzgündür?

A) Faciə janrının əsasını N.Vəzirov qoymuşdur.

B) Oyun və tamaşalar milli dramaturgiyamızın yaranmasına təkan vermişdir.

C) "Ağa Məhəmməd şah Qacar" əsərinin müəllifi H.Sarabskidir.

D) "Leyli və Məcnun" operasında Leyli obrazının ilk ifaçısı Ə.Haqverdiyev olmuşdur.

3. Bu obrazlardan birinin əsas məqsədi teatr yaratmaqdır. Obrazın və əsərin adını müəyyənləşdirin.

A) H.Sarabski, "Hüseynqulu Sarabskinin xatirələri"

B) H.Ərəblinski, "Hüseynqulu Sarabskinin xatirələri"

C) Gövhər Qazıyeva, "İlk aktrisamız kimdir?"

D) Oqtay, "Oqtay Eloğlu"

E) Səməd, "Oqtay Eloğlu"

4. "Qohumları, qonşuları bir yerdə görəndə gözlərinə inanmadı" cümləsində sadalanan sözləri həmcins üzv hesab etmək olarmı? Cavabınızı əsaslandırın.

5. "Deyəsən, Cəfər Şeksprin şah əsərini adicə tərcümə etmir, öz ana dilində yazmaq istəyirdi" cümləsində həmcins üzvləri və sintaktik əlaqələri müəyyənləşdirin.

6. “Ə.Haqverdiyev – “Leyli və Məcnun” operasının ilk dirijoru “Molla Nəsrəddin” jurnalının fəal müəlliflərindən biri idi” cümləsində altından xətt çəkilmiş ifadə nə hesab edilməlidir?

7. Aşağıdakı cümlədə durğu işarələrini bərpa edin.

   M.F.Axundzadə, S.Ə.Şirvani, Q.Zakir, bir sözlə, Azərbaycan maarifçiləri xalqın savadlanması uğrunda mübarizə aparmışlar.

8. Şəxs sonluqlarını bərpa edin.

Atam və mən filmə	baxdı ... (m, q)
Sən və bacın yaxşı	oxuyur ... (san, sunuz)
Güllər	açır ... (lar)

9. “İlk opera” söz birləşməsini cümlələrdə elə işlədin ki, o həm əlavə, həm də təyin kimi işlənsin.

10. Həmcins üzvlərdə hansı şəkilçilər ixtisar olunur?

Ümumiləşdirici təkrar №5

1. “Nə olursa, yaxşılığa olur” deyimini bölmədəki hansı mətnə aid etmək olar?

2. Hansı hökm düzdür?

   A) “Əkinçi” qəzeti 1876-cı il may ayının 10-da çap olunmuşdur.

   B) “Əhvalpürsanlıq” şeirində maarifdən qorxan məşədilər tənqid olunur.

   C) C.Məmmədquluzadənin “Poçt qutusu” hekayəsi “Novruz” qəzetində çap olunub.

   D) H.Zərdabini mətbuat aləminə M.Şahtaxtlı dəvət edir.

   E) Ceyhun Hacıbəyli “Əkinçi” qəzetinin fəal müəlliflərindən olmuşdur.

3. Məntiqi ardıcıllığı davam etdirin.

   A) həqiqətən ….

   B) bəlkə …..

   C) nəhayət ….

4. “Xoşuma gəlir” frazeoloji birləşməsinin antonimini tapın və cümlədə işlədin.

5. “Xitab və ara sözlərdə durğu işarələri” mövzusunda kiçik elmi mətn tərtib edin və fikrinizi nümunələrlə əsaslandırın.

Ümumiləşdirici təkrar №6

1. … adı İndoneziyada kitabxanaya, Hindistanda muzeyə verilmişdir.

   Nöqtələrin yerinə hansı ad yazılmalıdır?

2. Bunlardan biri BMT-nin xüsusi mükafatına layiq görülmüşdür.

   A) H.Z.Şirvani
   C) C.Hacıbəyli
   B) Qurban Səid
   D) F.Hüseynov
   E) M.Kaşğari

3. Məntiqi ardıcıllığı davam etdir.

   A) Axşam bizə gələrsən.
   B) Gülmə qonşuna, gələr başına.
   C) Bizə məktub göndərdilər.
   D) …

4. Xəbəri mürəkkəb adla ifadə olunan şəxssiz cümləni göstərin.

   A) Ramizin ad günüdür.
   B) Hava isti idi.
   C) Akademik Milli Dram Teatrının yaranma günüdür.
   D) 1990-cı ilin yanvarıdır.
   E) Küçədə sakitlikdir.

5. Cümlənin şəxsə görə növləri haqqında kiçik mətn tərtib edin.

İSTİFADƏ OLUNMUŞ VƏ MÜƏLLİMİN İSTİFADƏ EDƏ BİLƏCƏYİ MƏNBƏLƏR

1. Alı Mustafayev. “Dəli bir ağlamaq keçir könlümdən”. Bakı, “Nicat”, 1992.
2. Bağır Bağırov. Rəsul Rza. Bakı, “İşıq”, 1987.
3. B.A.Hüseynov. “Rəvayətli ifadələr” (Niyə belə deyirik?). Bakı, 1961.
4. Coğrafi kəşflər. Bakı, “Çıraq”, 2013.
5. Əfsanələr. Bakı, “Gənclik”, 1986.
6. Əziz Şərif. “Molla Nəsrəddin necə yarandı”. Bakı, “Azərnəşr”, 1986.
7. Gülçöhrə Məmmədova, Səbinə Hacıyeva. Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı. 5 cilddə. I c., Bakı, “Şərq-Qərb”, 2013.
8. Gülhüseyn Hüseynoğlu. “Çətin yol”. Bakı, “Gənclik”, 1987.
9. İsa Həbibbəyli. “Cəlil Məmmədquluzadə”. Bakı, “İşıq”, 1987.
10. “Füyuzat” jurnalı, 2010–2011-ci ilin nəşrləri.
11. “Kitabi-Dədə Qorqud”. Bakı, “Yazıçı”, 1988.
12. “Qabusnamə”. Bakı, “Altun kitab”, 2005.
13. Məmməd Araz. Seçilmiş əsərləri. Bakı, 2010.
14. Misir Mərdanov. “Azərbaycan təhsil tarixi”. I c., Bakı, “Təhsil”, 2011.
15. Molla Nəsrəddin. (“Ədəbi abidələr” seriyasından). 12 cilddə. I c., Bakı, “Elm”, 1986.
16. Muxtar Cəfərov. “Eşq pərvanəsi” (Mövlana Cəlaləddin Rumi). Bakı, “Nurlar”, 2009.
17. Muxtar Cəfərov, Samir Ramizoğlu. “Ağıla və qəlbə işıq saçan sözlər”. Bakı, “Nurlar”, 2009.
18. Nizami Nağıyev, Fikrət Hüseynov. Azərbaycan Respublikasının müasir dövr memarlıq tarixi. 5 cilddə, V c., Bakı, “Şərq-Qərb”, 2013.
19. Nizaminin hikmət və nəsihətləri. Bakı, “Yazıçı”, 1981.
20. Novruz bayramı ensiklopediyası. Bakı, “Şərq-Qərb”, 2008.
21. Ömər Qoçulu. “Daşa dönmüş musiqi” (Memarlıq haqqında söhbətlər). Bakı, “Şərq-Qərb”, 2012.
22. Rafael Hüseynov. “Vaxtdan uca”. Bakı, “İşıq”, 1987.
23. Şəmistan Abbasov. “Böyük sənətkar”. Bakı, “Gənclik”, 1976.
24. Şəmistan Nəzirli. “Qoridən gələn qatar”. Bakı, “Şərq-Qərb”, 2011.

Buraxılış məlumatı

AZƏRBAYCAN DİLİ 8

Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün
Azərbaycan dili (tədris dili) fənni üzrə dərsliyin

METODİK VƏSAİTİ

Tərtibçi heyət:

Müəlliflər:	**Hüseynova Yeganə İbiş qızı**
	Bektaşi Samirə Qabil qızı
Buraxılışa məsul	**Rafiq Kazımov**
Dizayner	**Nurlan Nəhmətov**
Səhifələyici	**Ələkbər Kərimov**
Redaktor	**Gültəkin Cəfərova**
Korrektor	**Nübar Qarayeva**
Texniki redaktor	**Sevinc Yusifova**
Baş redaktor	**Ülkər Məmmədova**
Texniki direktor	**Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru	**Sevil İsmayılova**

© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2019-053)

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 9,1. Fiziki çap vərəqi 10. Formatı 70x100 $^{1}/_{16}$.
Səhifə sayı 160. Tiraj 7836. Pulsuz. Bakı – 2019

“Şərq-Qərb” ASC
AZ1123, Bakı, Aşıq Ələsgər küç., 17

Pulsuz